Ziyad Quluzadə

VAN QOQUN KAMASUTRA MƏŞQLƏRİ (VƏ YA) KA

Ziyad Quluzadə **VAN QOQUN "KAMASUTRA" MƏŞQLƏRİ (VƏ YA) KA**
Bakı, Qanun Nəşriyyatı, 2013, 256 səh., 1000 tiraj

Redaktor:
Korrektorlar:

ISBN 978-9952-26-

© Qanun Nəşriyyatı, 2013

Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mob.: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

DİDİYƏ!

Nar kimi gilələnmiş ürəyinin turşməzə, di gəl ki, dadından doyumsuz ruhunu xoşbəxtlik ağacımızın daimi yaşıl budaqlarına qurban verdiyi üçün...

Ömür yumağımızın o uzun, rəngli iplərini qoca nənələrsayağı ilmə-ilmə xoşbəxtlik xanasının möhkəm ərişlərinə pərçimlədiyi üçün...

Günəşin və Ayın ətrafında pərvanə kimi dolanmaqdan başını itirmiş bu xəstəhal dünyada məni yetim bir uşaq təki qaranlıq uçurumların dibigörünməz dərinliyinə buraxmadığı üçün...

Əlqərəz, həmin qəzavü-qədərdən sonra hər şeyi danışmağa boyun oldum. Ehmalca, sizə pıçıldamalıyam ki, məlum nar dənəsi qaşlı üzüyün əhvalatı elə mənim özümün də maraqdanımı qaşıdı. İndi isə keçək mətləbə! O, 1.76 boyunda, qarayanız, sısqa, 46 ölçü ayaqqabılı, çatmaqaş (qaşlarının ortasındakı tüklərin biri var idi, biri yox) oğlandır. Bizim bu "xoşbəxt"

dünyanın kirimiş, köndələn, qalın panel tökmələri çat verən, ahıl binasının dördüncü mərtəbəsindəki kirayənişindir. Qonum-qonşu öz aralarında onun bu evdə yalquzaq kimi yaşadığına dair dedi-qodu edib. Di gəl ki, özcə çeşməyim azca hündürboy, sarmaşıq kimi qıvrım, şəvə saçlarını küləyin önünə sərən, uzun kirpikləri qapqara gözlərinə sipər olan qızın, onun evinə girib-çıxdığını görüb. Allaha and olsun ki, qızın DNT testini vermək niyyətim yoxdur. Amma bircə kəlməylə deyim ki, belə qızları hökmdarlar çox uzaq bir kənddə yaşasalar belə, mütləq öz hərəmxanalarının hamamına salırdılar. Həmin hərəmxana gözəliylə eyni yorğana bürünməkdən ötrü elə özümün də ürəyim gedir! Allah məni xədim ağalardan hifz etsin!

Bizim dördüncü mərtəbədəki kirayənişinin adı Z., dir. Tələbədir!

Beyin qırışlarımın arasında gizlənmiş hadisənin baş verdiyi gün göy üzündə xeyli topa qara bulud əl-qol uzatmışdı. Arada öskürdükcə sinəsindən küt bir səs çıxan qocasayağı səmada hardasa gurultu eşidildi. Şimşək çaxdı. Elə təzəcə evimə qayıdıb, anamın məni əzizləyə-əzizləyə gətirdiyi kələm dolmasını yeyib, pürrəngi bir çay içmişdim. "Facebook"un xurd-xəşil məlumat axınını belədən-beləyə, elədən-eləyə çək-çevir etdikcə, gözümün qabağına min cür mənzərə təpilirdi; bəziləri kapitalizmə "like"

edir, digərləri xədimlərə azadlıq verilməsi üçün dəridən-qabıqdan çıxır, bir başqaları axşam arvadıyla yorğanaltı tərpənişlərini başqasının adından car çəkirdi. Xəbər sayrışmalarından təngə gəlib, özümü "Youtube" dənizinin ənginliklərinə buraxdım. Qəfildən rastıma qısa bir film çıxdı. Nə işimə qalıb?! Uzun-uzadı danışası deyiləm ki... Bircə onu bilin ki, film işğaldakı kəndlərin birində evindən çıxıb qaçmayan gənc qız haqqındadır. Zirzəmidə üç-dörd gün gizlənən qız çölə çıxanda həyətdəki ağacın altında öldürülüb atılmış anasını görür. Beləcə! Hə, qaçqınlıq haqqında çəkilmiş bütün filmlər kimidir!

İşdən çıxıb, üzü dənizə oturub dostlarla bir fincan çay qurtumlamışdıq. Siqaretdən qullablayıb havaya fısqırtmışdıq. Sidik kisəm doluydu, özümü ayaqyoluna yetirib rahatlandım. Sonra kompüterimin qənşərində əyləşib gözlərimi monitora zillədim. Çeşməyimin şüşəsində "facebook"un dılğır statusları əks olundu. Qəfildən gözüm "köhnə yarın" statusuna dəydi. Onunla keçən yay Nabranda, dənizkənarında tanış olmuşdum. Qızın atası varlı-hallıydı. Elə Nabranda da bağ evləri var idi. Bir yerdə həmin on üç sot torpağın üstündəki – başdan-ayağa mərmər döşəməli divarla əhatələnmiş, ağacların gözdən-könüldən gizlətdiyi üç mərtəbəli, eyvanlı bağ evinə getmişdik. İçmişdik, yatmışdıq... İçinə boşalmadığım üçün (şükür Allaha!)

o, hamilə qalmamışdı. Nəsə, elə onun təzə tanış olduğu sevgilisiylə çəkdirdiyi şəkillərə baxırdım ki, aşağıda qəribə səs eşitdim. Əvvəl elə bildim ki, "Youtube" açıq olduğu üçün səs hansısa videodan gəlir. Sonra səsin tanış olduğunu və kompüterdən gəlmədiyini araşdırdım. Səs eyvandan gəlirdi. Cəld yerimdən qalxıb həmişəki ürəkbulandırıcı iyin at oynatdığı bloka çıxdım. Bu an həmin Z. adlı oğlanın mənzilinin qapısı möhkəmcə çırpıldı. Sonra kimsə ağlaya-ağlaya, tələm-tələsik pillələrlə enib getdi. Dedim yəqin həmin hərəmxana gözəlidir. Səs yenidən eşidildi. Qapı bu dəfə də möhkəmcə çırpıldı. Z.-nin səsini eşitdim. Hönkürtüylə ağlayırdı. Hövlnak pillələri enib blokdan çıxdı. Blokdakı üfunətli qoxunu ciyərlərimə çəkə-çəkə hadisədən hali olmağa çalışdım. Qapını örtdüm. Həyəcanla, əlüstü aşağı enib nə baş verdiyini öyrənmək istəyirdim. Qonşu oğlan içinə qapalı və hamıdan uzaq gəzən adam idi. Heç kimə qaynayıb-qarışmırdı. Əsl yalquzaq kimi yaşayırdı. Axır çərşənbədə, həyətdə tonqal qalananda binadakı bütün güngörməyənlər belə aşağı ensə də, o ya gözə dəymirdi, ya da (deyəsən, keçən il idi) alov dillərinin işığında ehmalca sivişib aradan çıxırdı. Hamıdan qaçırdı. Onun haqqında şayiələrin birini eşidəndə özüm də təəccüblənmişdim. "Pıçıltı qəzeti" deyir ki, gəlini Nino xalanı itələyib yıxanda, qoca arvadın başının yerdəki mərmər

piltələrə necə dəydiyini oğlan görmüşdü. Sonra Nino Kipiani heç vaxt əllərindən çıxarmadığı ağ əlcəkləriylə hansısa məzarıstanda dəfn olunmuşdu. Qatil? Şahid?

İçimdə qəribə bir ürpərti var idi. Qorxurdum?! Pillələri yavaş-yavaş, bir-bir enirdim. Ayağımı növbəti pilləyə atdıqca elə bilirdim bu dəqiqə arxamdan kimsə çıxacaq. Sanki qəfildən beşinci mərtəbənin damından qara paltarlı, qara papaqlı, gözlərindən ətrafa tünd-yaşıl işıqlar yayılan, alnındakı beş guşəli ulduzun ortasında keçi təsviri olan adam üstümə şığıyacaq. Əlimi üfunətli blokun boyası tökülmüş divarına toxundurdum. Birdən divardan uzun, tüklü ayaqları olan qara hörümçəklər çıxdı. Hörümçəklərin ayaqlarıyla didib açdıqları deşiklərdən qan su yerinə axırdı. Pillələri endikcə gözümün qabağında cürbəcür qanlı, qorxulu mənzərələr canlanırdı. Sonra mənə elə gəldi ki, gəlini tərəfindən öldürülən Nino xala adəti üzrə soyulmuş çiy kartofu ağzındakı bir-iki dişiylə gəmirərək mənə baxır. Ağzından, qırışmış dodaqlarının qıraqlarından laxtalanmış qan axırdı. Nino Kipiani mənə baxıb qəh-qəhə çəkir və "Bilirəm, internetdə gizlicə pornovideolara baxırsan. Ana deyəcəyəm", – deyirdi.

Z.-nin mənzilinin qapısı boz rəngdəydi. Bir dəfə "facebook"da "Fikirbaz Təlxək" adlı isti-

fadəçi bu rəngin mənasıyla bağlı məlumat yazmışdı ki, adətən, boz rəngi sevən adamlar xudbin olurlar, daxilən qaynar və əgər həyatlarında sevdikləri bir iş varsa, onun axırınacan gedirlər. Bir sözlə, yorğunluq və dəlisovluq rəmzidir. Z. həmişə yorğun görünürdü, ancaq dəlisov olduğunu bilmirdim. Sonra əlimə keçən məlumatlarda da onun dəlisovluğuyla bağlı düzəməlli fakta rast gəlmədim. Nəsə... Bloka tam sakitlik çökmüşdü. Z. və həmin hərəmxana gözəlcəsinə nə olduğundan xəbərsizəm. Amma beynimə dolan qaragüruh fikirlərlə aşağı enəndə qapının astanasına tökülmüş beş-altı damla qan əhvalımı təlx etdi. Ehtimal ki, kimsə yaralanmışdı. Kim?

Hava hələ də tələtümlüydü. Bayaqkı qoca kişi öskürəyini andıran göy gurultusu indi şimşəklə əvəzlənmişdi. Yağış yağırdı. Qapını ehmalca, çəkinə-çəkinə döydüm. Ancaq qapı aralı olduğuna görə otağın içi aşkarca görünürdü. Z. İlə elə də münasibətim yoxdu, uzaqdan-uzağa tanıyıram. Bir-iki dəfə salam vermişəm, burnunun ucunda alıb. O vaxtdan zəndeyi-zəhləm getdi, bir də salamlaşmadım. Qan olmasaydı, yenə içəri girən deyildim. Qapını itələdim, taybatay açıldı. Girişə mətbəx bıçağı atılmışdı, bıçağın da bir addımlığında baş tərəfdən pərçimlənmiş ucu əyri dişli, metal alət var idi. Mətbəx bıçağı təmiz

idi, ancaq həmin dişli dəmir parçası qanlıydı. Bu, xalça toxuyanda istifadə olunan kirkidə oxşayırdı. Hə, ehtimal ki, elə kirkid idi. Kirkidin burda nə işi?!

Özündən ürkən adamsayağı addımımı içəri atdım. Birotaqlı mənzil idi. Yan-yörəmə baxa-baxa, indicə qarşılaşacağım adama burda nə axtardığımı izah etmək üçün bəhanələri götür-qoy edərək səssiz addımlarla içəriyə boylandım. Bir küncə, sağ tərəfdən pəncərənin altına taxta başlığı olan çarpayı qoyulmuşdu. Çarpayının üstü dağınıq idi. Çarpayıdan yuxarıda əldətoxunma, balaca bir xalçanı divara mıxlamışdılar. Sonralar Kanın qeydlərindən aydın oldu ki, bu xalçanın adı "Qasımuşağı"ymış. Mənbilən, bizim evdə də belə bir xalça olub. Nənəmə öz nənəsindən qalmışdı. Anam da bu nənə söhbətini acı bağırsaq kimi uzatmamaqdan ötrü götürüb xalçanı satmışdı. Çarpayıyla üzbəüz divardan – düz xalçanın qarşısında yazıçı və rəssamların şəkilləri yapışdırılmışdı.

Divarlardan sükunət və qorxu sarmaşıqları, az qala boynuma, boğazıma, beynimə dolanırdı. Qorxurdum. Z. qəfildən qayıtsaydı, onun evinə oğurluğa girdiyimi fikirləşərdi. "Ay, qonşu! Ay qonşu! Heç kim yoxdur?", – deyə-deyə arxama düşən qorxu və şübhə siçanlarını kiritməyə çalışırdım. Di gəl ki, nə siçanlar kiriyirdi, nə də səsimə səs verən var idi. Yağış pəncərəni ağıllı-başlı

döyəcləyirdi. Buludlar qara libasını geyindikcə otağın içində göz gözü görmürdü. Allah Allahın köməyi olsun, hərdən şimşək qılıncları birbirinə toqquşanda evin içində işıq seli aşıb-daşırdı. Qorxu?! Elə əvvəlki kimiydi. Otağın yuxarı başında, köhnə, sınıq-salxaq mizdən irəlidə bir xana qurulmuşdu. Görünür, çox balaca xalça toxunurdu, çünki xananın hündürlüyü heç yarım metr olmazdı. Şimşək çaxdıqca içəri dolan işıq seli başa çatmaq üzrə olan xalçanın naxışlarını nura qərq edirdi. Z. xalça toxuyur?! Yəqin. Bəs qan?

Qorxudan özümü itirmişdim. Qorxu siçanları dəstə-dəstə məni dövrəyə almışdılar. Tüklü qulaqlarını şəkləyib, xırda dişləriylə beynimi gəmirir və civildəşirdilər. Şimşək qılıncları toqquşmurdu, ancaq yağış əvvəlkindən də bərk yağırdı. Xananın yanındakı yazı masasının üstündə xeyli zir-zibil var idi. Aydındır. Mizdən "min bir xırdavat" piştaxtası kimi istifadə olunurdu; beş-altı kitab, duz qabı, qənddan qapağı (içində "Kent" siqaretinin kötükləri), istifadə olunmuş qandon, içində yarıya qədər içilmiş çay olan fincan, nəlbəki, çay qaşığı, bir yumaq sarı ip, qayçı, iki karandaş (ucları yonulmuş, yonulmuş, yonulmuşdu); sağ küncdə qırmızı üzlü, qalın dəftər qoyulmuşdu. Bu dəftərin üstünə arxası yapışqanlı sarı qeyd vərəqəsiylə "Məxfidir, TOXUNMA!" yazılmışdı. Dəftərin böyründə qara

rəngli lifçik atılmışdı. Lifçiyin altında qəzet var idi. Lifçiyi də götürüm? Yox! Götürmədim. Dəftəri götürdüm.

Civildəşə-civildəşə beynimi gəmirən qorxu siçanları məni mətbəxə baxmağa həvəsləndirdi. Hamısı sinələrini qabağa verib, "Arxandayıq!" deyə məni qabağa itələdilər. Mətbəxdə it yiyəsini tanımırdı. Qaz sobasının üstünə çaydan qoyulmuşdu, su çanağının içində köhnə, çirkli nimçələr, fincanlar, nəlbəkilər qalaqlanmışdı. Birdən çaxan şimşəyin işığında yerə tökülmüş qan damlalarını aşkarca gördüm. Bir əlimdə qəribə, balaca qıfılı olan dəftər, digər tərəfdən beynimə daraşan qorxu siçanları, şıdırğı yağan yağış məni əməlli-başlı qorxudurdu. Ancaq nə olmuşdu? Mətbəxdən çıxıb vanna otağının qapısına yaxınlaşdım. Vanna otağıyla tualet bir yerdəydi. Qapını açanda dik atıldım. Beynimə daraşan qorxu siçanları dişlərini itiləyib yenidən üstümə şığıdılar. Dabandaşı kafel döşəmədə bir neçə dəfə fırlandı və dayandı. Sol əlimdə tutduğum dəftəri özümə sıxıb, beynimi gəmirən iti dişli, tüklü qulaqları olan qorxu siçanlarını sağ əlimlə çəkib yerə tökdüm və hövlnak bloka atıldım. Pillələri beş-bir, altı-bir qalxdım. Hələ də arxamca bir sürü civildəşən siçanların gəldiyini hiss edirdim.

O qorxulu, şimşəkli, siçanlı-siçovullu gündən bir ay keçmişdi. Di gəl ki, macal tapıb çırpışdırdı-

ğım dəftərə baxa bilməmişdim. Əvvəla, dəftərə pərçimlənmiş sarı, üzərində "TRİ-RHOMB" yazılmış qıfılı qırmaq həvəsini tapmırdım. Sonrası da başım qarışıq, fikrim dağınıq idi. Özüm "X... Universitet"in radiosunda işləyirəm. Bizim radio internet vasitəsiylə verilişlər hazırlayır. Düzü, universitetin beş-altı minlik tələbəsindən, cəmi-cümlətanı, 10-15 dinləyicim olar, ya yox... Onlar da ki öz maraqları xatirinə dinləyirlər. O da hərdən! Məsələ bundadır ki, hər dəfə veriliş hazırlayanda onlara ayrıca salam göndərirəm, oğlanlar üçün istədikləri qızlara onların adından mahnı hədiyyə edirəm. Belə "bambılı radio"nun aparıcısıyam! Hə, onu da qeyd edim ki, hərdən rektor özünün pencəyi salxaq professor dostlarını başından etmək üçün mənim üstümə göndərir. "Sən Allah, bunun haqqında bir veriliş hazırla!", – deyir. Mən də başımı azca yana əyib, əllərimi düz şeyimin qabağında birbirinə pərçimləyib, "pasyak", "çumo", "piser" əsgərlərsayağı "Oldu!", – deyirəm. Sonra həmin professoru studiyaya çağırıram, mikrofonu da verirəm əlinə... Döşə gəlsin. Nə bilirsən?! İndiyə kimi belə hallar çox olub. Ən maraqlısı isə seksopotologiya üzrə tibb universitetinin professorunun çıxışıydı. Qalın, tünd-qəhvəyi çərçivəli çeşməyini burnunun ucuna dayamış professor, kişilərin qandonu (mən buna "müdafiə rezini" deyirəm) istifadə qaydası, hamilə qalmamaq

üçün görülməli olan əlahiddə tədbirlər, sağlam seks pozaları, seksin tarixi haqqında geniş mühazirə oxudu. Onu da dəfələrlə vurğuladı ki, dünyada ilk dəfə təmasla seksin iştirakçıları okeanların hökmdarı olan köpək balıqlarıdır.

Bu günü özümə ayırmışam. Əvvəlcə çimdim, üzümü qırxdım, yaxşıca təmizləndim, seksopotoloqun dediyi kimi "intim nahiyələrin təmizlik və sanitariya, gigiyena qaydaları"na riayət etdim. Kompüterin qarşısında oturub, klaviaturanın düyməciklərini döyəclədim. Sabahkı proqramlar üçün xeyli musiqi seçdim. Allaha and olsun ki, mütləq dinləyici sayını artıracağam! Hələ üstəlik, radio üçün reklam da tapmışam. "Qoşa qarıyın" M.M.C. evlənmək istəyənləri bir-birinə calayır. Düzü, harama bəs deyil ki, həftədə 50 manat?! Onsuz da radiodan aldığım 200 manat yol puluna, bir də ayda bir dəfə, atalar demiş, "suyumu dəyişməyə" ancaq bəs edir. Neçə gündür bəzi filmləri almağı planlaşdırırdım, yetirdi pərvərdigar!

Bu qan məsələsi, beynimi zəli kimi sorub qarnına doldurmaqla məşğul idi. Digər tərəfdən isə, "Məxfidir, TOXUNMA!" dəftərini açmaq istəyirdim. Z.-nin həyatı mənə heç vaxt maraqlı olmayıb. Hansısa rayondan Bakıya oxumağa gəlmiş bir oğlan, kirayədə qalır və ancaq kitab oxuyur. Lakin sonra onun barəsində fikrimi dəyişməli oldum.

Bu gün təzə bir qızla tanış olmuşam. O da elə bizim universitetdə oxuyur. Atasının malımülkü yerindədir. Dedim ki, universitetin radiosunda işləyirəm, tanıdı. Dedi sənin haqqında eşitmişəm. Sabah onunla da görüşüm var. Görüşüb onu qonaq kimi "**Life of the student**" verilişinə dəvət edəcəyəm. Verilişlərin adını özüm qəsdən ingiliscə qoyuram. Onda elə bilirlər ki, burda əməlli-başlı həngamə qopacaq.

Nəhayət, qız verilişə gəldi. Telefonu çox bahalıydı. Xoşum gəldi. Düz yanında oturdum. Qəsdən masalarımızı bir-birinə yapışdırdım. Ayaqlarımı onun ayaqlarına sürtdükcə ləzzət edirdi. Sonra əlimi kürəyinə qoydum. Gözlərinin içinə baxdım. Dedim ki, səndən çox xoşum gəlir. Nə isə, belə... Bu gün çox yorğunam. Dünən veriliş üçün seçdiyim musiqilər qızın da xoşuna gəldi. Qız tarix fakültəsində oxuyur, ancaq "Çaldıran" döyüşündə kimin qələbə çaldığını bilmir. Deyir, elə döyüş olub ki? Nə vecimə! Artıq dərslərimi qaydaya salmalıydım. Buna görə də "Azərbaycan jurnalistikasının tarixi" dərsini deyən müəlliməni radioya çağırıb ona qılıqlandım. Doğrusu, onunla imtahan məsələsini bir radioverilişə həll etmək istəyirdim. Çifayda! Döşləriylə arxası eyni uzaqgörənliklə irəliyə uzanmış müəllimə qapıdan çıxanda "Ümid edirəm imtahana hazırsan. Çünki mənim üçün dərs dəsrdir!" – dedi. Əlqərəz, birtəhər özümü

oda-közə vurub 30 manat tapdım. Qrup yoldaşım telefonda qız dostlar tapmaq üçün özünə sayt açıb. Onu radioda reklam etsəm, mənə 30 manat verəcək. Belə! Mən də söz verdim ki, saytın adı gün boyu hər mahnıdan əvvəl və sonra səslənəcək.

Bu gün evə qayıdanda Z. ilə qarşılaşdım. Adəti üzrə, başını aşağı salıb düz qabağımdan keçdi. Əlində də iki dənə qalın kitab var idi. Salam verdim, deyəsən, eşitmədi, dinmədi. Görəsən, o qan nə idi axı? Əslində, bu dəftəri oxumağa da, məhz o qana görə məcbur oldum. Düzü, indi bütün əhvalatı yerli-yataqlı nəql etmək həvəsində deyiləm. Xoş gəldiniz! Özüm haqqında bircə onu deyə bilərəm ki, həmin qızla uzun müddətdir bir yerdəyik. Bir də gördün Allah evlənmək nəsib etdi. Arzum budur o qızdan iki oğlum olsun. Yox, üç oğlum...

Bəs Ka? O, kimdir?

MƏXFİDİR, TOXUNMA!

20..- Cİ İL. SENTYABR AYININ ÜÇÜNCÜ HƏFTƏSİ

Ka qaradinməz, sakit, utancaq bir oğlandır. Həyatdan istədikləriylə, həyatın ona verdikləri arasında böyük bir uçurum var. Di gəl, o heç olmasa, bircə dəfə gözünü açaraq həmin uçurumun dibinə baxa bilməyib. Ağciyər! O, Naxçıvan MR, Babək rayon, Cəhri kəndində doğulub. Bu kənd dağlarla əhatə olunmuş ərazinin ortasında, çiy kərpicdən tikilmiş (?!) hündür evlərdən ibarətdir. Arxiv məlumatlarına arxalansaq, kəndin 2-3 min illik tarixə söykəndiyini demək olar. Adidir, bütün kəndlər kimidir. Kənarından yerlilərin "çaylaq" dedikləri, Cəhri çayı qəribə, irili-xırdalı daşların arası ilə özünə yer edə-edə axıb gedir. Yaşıllığı boldur, adamlar isə ürəyiaçıq, qəlbigenişdir. Bu kəndin digər fövtəverilməz, ələdüşməz məziyyəti var ki, o da hər küçədə özünə dolanışıq yeri düzəltmiş öncəgörənlərin, baxıcıların, falçıların ad çıxarmasıdır. Bu "övliyaların", "müqəddəslərin" məlum mərtəbəyə yüksəlməsi bənzər qəzavü-qədərlə əlaqəlidir. Haqqında danışdığım adamlar qırx gün, qırx gecə yatıb, mürgü döyüb oyandıqdan sonra qanadlı adamlarla, qaranlıq yollarla, müqəddəs yerlərlə bağlı rəvayətlər danışıb

özlərini öncəgörən elan edirlər. Bir də görürsən, Qaş dağının döşündə, çaylaqdan yuxarıda, sökülmüş üzüm bağlarının yerində qoyun-quzu otaran çobanlar şər qarışanda evə hövlnak özünü yetirib, ağpaltarlı bir nəfərin ona boz bir dovşan gətirib verdiyini nəql edir, özünü "vəhy" verilmiş, "seçilmiş" elan edir, çobanlığın daşını atır, otağın birinə çəkilib ona inananları qəbul etməyə başlayır. Kanın anasının bu öncəgörənlərin ilk, əziz, daimi müştərisi olduğunu qeyd etməmək bu qadına qarşı haqsızlıq olardı. Belə ki, o, hər qırxıncı gün oyanmışın, hər şər qarışanda evinə "müjdə"ylə özünü yetirmişin qapısında dayanıb hamının həvəslə, ümidlə gözlədiyi hadisə haqqında məlumat almağa çalışırdı. Qadın həmin hadisədən savayı evinə başqa xoş xəbərlər də daşıyırdı. "Böyük oğlun çox məşhur olacaq!", "Tezliklə yeni ev görsənir!", "Əlinizə külli miqdarda pul keçəcək!", "Sizə uzaq qohumdan yaxşı xəbər gələcək!"

– Bəs, xəzinə? Onu tapacaq? – soruşan Kanın anasının bütün öncəgörənlərə yerli-yataqlı nəql etdiyi məlum hadisənin, həm də niyyətinin cavabı həmişə eyni olurdu.

– Darıxmayın. Bu dəfə mütləq tapacaq! Mənə ərinin saçından bir tük, xəzinəni axtardığı yerdən bir damcı torpaq gətir.

Elə həmincə gün S. ərini ələstü "Möminə Xatun məqbərəsi"nin yan-yörəsinə, Əlincə qa-

lasının həndəvərinə göndərib bir ovuc torpaq gətizdirir, kişinin bir çəngə saçını kəsib "xilaskar"ların qapısına şığıyırdı.

Lənətə gəlmiş, avara, dılğır, boşboğaz, yalançı, havayı TARİX! Kanın atasının Əlincə qalasının həndəvərində və "Möminə Xatun" məqbərəsinin böyür-başında xısın-xısın axtardığı xəzinələr barədə uzun-uzadı danışmağa indi nə həvəsim var, nə də ki vaxtım. Bircə o həqiqəti, hamıya məlum faktı deyə bilərəm ki, Q.-nin əlində çox ciddi və doğruluğu şübhədən uzaq xəritələr var idi. Bunu tarixçilər, arxeoloqlar özləri ona vermişdilər. Elə həmin xəzinə xəritələrinin evə ayaq basdığı gündən Kanın uşaq dünyasına Atabəy Eldəniz və onun xanımı Möminə Xatun təpilmişdi. Ka bir vaxtlar kölə olmuş Atabəy haqqındakı məlum əhvalatı da elə atasının dilindən eşitmişdi. Köləliyi çox böyük və şərəfli bir iş kimi güman edən uşaq ağlı bu hadisəyə görə "Gələcəkdə hökmdar olmaq üçün gərək uşaqlıqdan kölə olasan" düşünürdü. Həyətdə uşaqlarla oynayanda həmişə özünü kölə kimi qələmə verirdi. Cılız, arıq, araba kələkötür yollarla irəlilədikcə yerə düşən, minnətlə, qırx kölənin üstündə pulsuz hədiyyə edilən Eldənizlərin hökmdarı kimi...

Bu həftə nə etməli?

Ka Bakıda yaşayan uzaq qohumunun köməyiylə tapdığı evə köçdü. Bu ev dördüncü mərtəbədə, bir otaqlı, əşyalı mənzildir. Kirayəsi ayda cəmi, 100 manatdır. Suraxanı qəsəbəsində Səttar Bəhlulzadə küçəsindəki 5 mərtəbəli binalardan birinin 4-cü mərtəbəsində yerləşir. Evdə elə də çox əşya yoxdur. Balaca bir çarpayı, bir masa və iki stul... Ka qab-qacağını, qaşıq-çəngəlini Cəhridən gələndə özüylə gətirmişdi. Çünki Bakıda yenidən əşya almaq, yorğan-döşəyə, qab-qacağa pul vermək elə də asan deyildi.

Artıq bir-iki həftədən çoxdur ki, bu mənzildə yaşayır. Suraxanı havasının təmiz olduğunu demək olmaz, Cəhridə Qaş dağından əsən sərin küləyi, çaylağın şırhaşır axan buz kimi suyunu burada neft buruqları əvəzləmişdi. Və bu neft iyi hər pəncərəni açdıqca Hövsan tərəfdən əsən xəzriylə birgə evə təpilirdi. Ka tədricən nefti sevməyə, bu qoxunu müşk-ənbər kimi ciyərlərinə çəkməyə vərdişkar olmuşdu. Hərdən bu neftli küləklər üçün darıxırdı, balkona cumub bacardığı qədər havanı udurdu.

Ka bu günlər ərzində nə etməli olduğunu fikirləşdi. Həftənin dördcə günü dərsi var idi. Əlindəki üç yekəpər günü eninə-uzununa oxumağa sərf edə bilərdi. İşləmək? Hələ ki istəmirdi. Ka Cəhridən gələndə anasına söz vermişdi ki, bütün gününü elmə sərf edəcək, oxuyacaq və bütün öncəgörənlərin, "vəhy"ə tuş gələnlərin

dediyi kimi "...məşhur olacaq"dı. Bir də, anası Kanı yola salanda hava limanının qələbəliyində, hay-küyündə hey təkrarlamışdı. "Qurban olum, atana mütləq baş çək! Nə lazım olsa, al apar! Yazıqdır!"

"*Çətini başlamaqdır. Sonra buqələmun olursan! Oranın rəngi sənin rəngin, qoxusu sənin öz qoxun, dadı doğma dadın, səsi də ki, əziz duana çevrilir*".

Ka gələn həftə üçün etməli olduğu işlərin siyahısını tutdu. Siyahını balaca bir kağıza yazıb, dörd qatladı və cibinə basdı. Eyni siyahının bir nüsxəsini isə çarpayısının üstündən yapışqanla möhkəmcə yapışdırdı.

• Dərslərə vaxtlı-vaxtında getmək və müəllimlərin dediklərini diqqətlə qeyd etmək. (Ehtiyac olsa, hər bir dərs üçün əlavə dəftər al!)

• Axundov kitabxanasına üzv yazılmaq.

• Çimmək!

• Atam üçün alt paltarı və bir neçə qutu siqaret almaq.

• Həftənin axırı üzünü qırxmaq. (Ülgücə qənaət üçün hər həftənin bazar günü bunu etsən, kifayətdir.)

• Başımı qırxdırmaq. (İndi bir az uzun saç dəbdir. Ayda bir dəfə qırxdırsa bəsdir. Bəlkə bir azdan uzadıb lap iki aydan bir edə bildim.)

• Evə bir paket makaron və kartof-soğan almaq.

20..- Cİ İL. SENTYABR AYININ DÖRDÜNCÜ HƏFTƏSİ

Ka keçən həftə atası üçün alt paltarı və siqaret ala bilmədi, ancaq dərslərinin hamısına vaxtlı-vaxtında gedib-gəldi, bütün qeydlərini götürdü. Əl qaldırdı, cavab verdi, sual yağdırdı. Deyəsən, oxumasa qiymət almaq üçün pul verməlidir. Ancaq Ka çox yaxşı başa düşürdü ki, oxumaq onun yeganə yoludur. Evdən hər dəfə pul istəmək çətin olacaq, çünki anası xəstəxanada tibb bacısıydı və aldığı maaşla evdəki balaca bacısıyla birtəhər dolanırdı. Bir də həmin puldan qənaət edib müəllimlərə yedirtmək müşkül məsələydi. Bələdiyyənin qapısından yapışdırılmış "süpürgəçi axtarılır" elanının yanından bu dəfə laqeyd ötüb keçə bilmədi. İşə götürərsə, bələdiyyə sədrinə bir aylıq maaşını verəcəkdi. İndi hər gün səhər tezdən, saat 6-7 radələrində durub Suraxanının İ.Məmmədov küçəsinə getməli, küçəni başdan ayağa kimi süpürməli, səkilərdəki zibil qablarının yan-yörəsini təmizləməliydi.

Onun Bakıda yaxşı vəzifələrdə işləyən qohumları var idi. Amma nə olsun?!

Beləcə bir aydan sonra aylığı 80 manat olmaqla, İ.Məmmədov küçəsinin süpürgəçisi Ka öz maaş kartını bələdiyyə sədrindən ala biləcəkdi. Ancaq bir ay, sadəcə, şirinlik xatirinə sü-

pürməliydi. Bu da pis deyildi! Şirinlik – elmi ədəbiyyatda bu terminə təsadüfən rast gəlinir. Ancaq onun təyinatı, terminin kökü, etimologiyası antropoloqlar tərəfindən müxtəlif cür yozulur. Dünyanın ən məşhur ensiklopediyası olan "Britanika"da bu terminə belə şərh verilib. "Qanunlarda qeyd edilməsi qeyri-vacib sözdür. Kökü Qobustan qayalığında ovçuluqla məşğul olan Od qəbiləsinin başçısına gedib çıxır. Qədim tayfalar ovladıqları ceyranların yaxşı yerindən, Qobustandakı qayaların üzərinə rəqs edən adam təsviri çəkməklə gününü keçirən Od qəbiləsinin başçısına hədiyyə etməliydilər. Sonralar bu termin dəyişərək müxtəlif formada öz təzahürünü tapıb. "Şirri", "Şirini", "Şirrinnik" olan söz, nəhayət, bu gün həqiqi, dəqiq mənasını alıb". Terminin mənasıyla əlaqədar olaraq, bir sıra antropoloqlar və səyyahlar müxtəlif məlumatlar yazıblar. Övliya Çələbinin qeydlərində belə deyilir: "Şirinlik Xəzər dənizinin sahilində, Abşeron yarımadası ətrafındakı neftli torpaqlarda əsas mübadilə, ticarət və əlaqə termini kimi istifadə olunur".

20.. -Cİ İL. OKTYABR AYININ İKİNCİ HƏFTƏSİ

Ka atasıyla görüşdü. Ona aldığı dörd qutu siqaretin birini safyanalıqla çırpışdırdı və alt paltarlarıyla bir yerdə qalan üçünü atasına verdi. Həbsxanada məhkumlarla görüş vaxtı bu dəfə həmişəkindən qısaydı. Ya da Kaya elə gəlirdi... Çünki birinci dəfə idi atasını dəmir barmaqlıqlar arxasında ziyarətə gəlirdi. İlk dəfəydi həbsxana, məhkum görürdü. Ka, əslində, atasını çox istəyirdi.

Divarlarının tünd-yaşıl boyası adda-budda tökülmüş, tavana yaxın xırdaca bir nəfəsliyi döyəcləyən yağış damcılarının haray-həşirinə bivec halda qulaq asan Ka atasını həvəssiz gözləmişdi. O, ümidlə gözlərini beli silahlı nəzarətçilərə zilləyən digər məhkum yaxınlarından fərqliydi. Ka baxışlarını salxaq, sağ tərəfinin qabığı qopmuş, üzərində cürbəcür mürəkkəblə yazılmış işarələr, telefon nömrələri, "son 125 gün" sözləri olan masanın üzərində gəzdirirdi. Qəfildən yaddaşı simurq quşunun qanadlarında çox uzaqlara pərvazlanıb getdi. "Gecə saat 3 radələridir. Ka anasıyla balaca otağı işıqlandıran neft lampasının işartısında oturub indicə atasının əlidolu girəcəyini gözləyirdi. Atası mütləq

gəlirdi, Kanı intizarda saxlamırdı. Gecənin xəlvəti zülmətində hansısa tarixi abidənin yan-yörəsini dəlib-deşən, əlindəki xəritəylə kompasın şimal, şimal-şərq istiqamətini müəyyən edən ata evə yorğun-arğın, əliboş qayıtsa da, Kaya qəribə və maraqlı əhvalatlar gətirirdi.

– Ata, nə oldu? Tapdın xəzinəni? – deyə Ka yuxulu gözlərini atasının ümidverici çöhrəsinə zilləyib həvəslə soruşurdu.

– Hə! Darıxma, gözlə. Hamısını bircə-bircə danışacağam! – deyirdi atası. Sonra arvadının onun üçün saxladığı yeməyi iştahla yeyə-yeyə danışmağa başlayırdı: – Mamed dayın uzaqda dayanmışdı. Özüm "Möminə Xatun" məqbərəsinin yaxınlığındakı qoça yaxınlaşdım. Qoç birdən başını qaldırdı, gözləri işıq saçırdı. Getdikcə işıq böyüyürdü. "Sən burda nə axtarırsan?" – soruşdu. Mən də dedim ki, Atabəy Eldəniz Kaya xəzinə saxlayıb. Bilirəm, o sənin ağzındadır. Onu aparmağa gəlmişəm. Sonra qoç mənə dedi ki, sabah gəl, xəzinələrin yerini deyəcəyəm. Dedi ki, Ka tez yatsa, ona daha çox xəzinə verəcəyəm.

Beləcə o, Kanı gecə yarısına kimi yuxusuz qoymamaq üçün yarı gerçək, yarı uydurma bir nağıl danışırdı. Di gəl ki, Ka bu nağıllarla qane olmurdu. Çünki atasının yemək yedikdən sonra axtardığı xəzinə barədə anasıyla ciddi-ciddi danışacağını bilirdi. Yorğanı başına çəkən Ka

özünü yuxuluğa vurur, qulaqlarını şəkləyərək Q.-nin "Möminə Xatun" məqbərəsinin yan-yörəsindəki xəzinə axtarışlarını arvadına necə ümidlə pıçıldadığını eşitməkdən ləzzət alırdı.

– Nə oldu? Baxıcı Hüseyn deyir ki, əlindəki xəritə xəzinənin yerini göstərir. Bir də ki, bu uşaq oyuncağı deyil ki, gedib götürəsən... – deyə S. ərinin loğmaları ağzına necə apardığına baxa-baxa danışır, onu həvəsləndirir, vədlər verirdi.

– Yox, mən də bilirəm. Əlimdəki xəritə dəqiqdir. Bilirsən, tarixi faktlar da sübut edir. Bir arxeoloq var, deyir ki, Eldəniz Möminə Xatundan bir ay sonra ölüb. Eldəniz də Atabəylər dövlətinin hökmdarıydı. Naxçıvandaydılar. Bütün xəzinə də Eldənizin əlindəydi. Deyir 1175-ci ilin noyabr ayında Eldəniz ölüb. Onda hansısa səyyahın kitabı var imiş. O kitabda Eldəniz haqqında çox gizli məlumatlar yer alıb. Eldənizlərin xəzinədarı Elikum idi. Bu adam gürcü çarı II Georqa xəyanət edib, onun hərbi düşərgələrini Eldənizə satan Liparitin oğludur. Deyirlər ki, Elikumu müsəlmanlığı qəbul etməyə məcbur edirmişlər. Möminə Xatun öləndə Eldəniz onu çağırıb xəzinənin ən qiymətli daş-qaşlarını, qızıl-zinət əşyalarını və cürbəcür bahalı paltarları yığıb Möminə Xatunun qəbrinin yaxınlığında dərin bir yerdə basdırıb. Mənim əlimdəki xəritə də elə oranı göstərir.

– Hə, baxıcı Hüseyn də elə deyir. Deyir xəzinə hardasa gündoğan tərəfdədir. Nə etdin, sənə verdiyim duanı məqbərənin iki addım günbatanına basdırdın?

– Hə, – deyə Q. cavab vermiş və sonuncu loğmasını ağzına qoymuşdu.

Bu yaddaşın çox dərinliyində, xeyli uzaqdakı bir xatirəydi. Ka qarşısındakı mizin üzərinə yazılmış yazılara baxa-baxa xatırladığı xoş xatirənin təsirindən xoşbəxt oldu. Əslində, qəfildən həmin loğmaları həvəslə yeyən, tarixi faktları arvadına, uydurma əfsanələri oğluna danışan ata üçün necə darıxdığını, burnunun ucunun göynədiyini hiss etdi. Bəs hanı o ata? Simurq quşunun qanadlarına minib işıqlı dünyadan, qaranlıq dünyaya köçdü?

Məhkum yaxınlarının intizarlı baxışları kədərli, beli əyilmiş, gözlərinin altı tuluqlanmış adamların yorğun və özünəinamsız gəlişiylə sovuşdu. Hamı indi yalandan gülümsəyir, yalandan qarşısındakı məhkuma inandığını, ona haqq verdiyini, əslində, əsl cinayətkarın başqaları olduğunu qəbul etdiyini göstərməyə çalışırdı. Hamının təqsirkar bildiyi yeganə günahkar, cinayətkar, qatil zəmanəydi?!

Kanın qarşısında oturub qara sellofan paketdəki alt paltarını, siqareti qurcalayan adam kim idi? Q. çox arıqlamışdı. Beli əyilmiş, gur saçları, iti və ümidli baxışları qəfildən yoxa çıxmışdı. Bu

adamın yerinə balacaboy, donqar belli, dişləri saralmış, qorxaq baxışlı bir ata gəlmişdi. Ka onun göz qapaqlarının kənarındakı dərin qırışlarını, boş dişlərin yerində çökən damağını, qan çanağına dönmüş bəbəklərinin qapıdakı belisilahlı nəzarətçiyə zillənmiş çəkingən baxışlarını yəqin heç vaxt yaddan çıxara bilməyəcək. "Hə, düz eləmisən. Siqaretimi vaxtlı-vaxtında gətir. Alt paltarlarımı ağ alma, yumaq olmur. Çalış, qara olsun. Ülgüc də gətir. Bir də qalın köynəklərimi də de, anan evdən göndərsin. Dərslərin necə gedir? İşlə, oxumaq adıyla boş yerə avaralanma!"

Ka bu donqar belli, gözü tuluqlu atanı qucaqladı, "Darıxma. İnşallah, hər şey yaxşı olar", – dedi və çıxdı. Həbsxananın həyətindəki taxta skamyanın üstündə oturdu. Az qala, səmaya kimi ucalan divarlara, onlara dəyən tikanlı məftillərə baxdı. Özündən asılı olmadan ağladı. Sonra neft lampasının işığında ona ağzından od püskürən qoçun nağılını danışan atanı fikirləşə-fikirləşə evə üz tutdu.

Evə qayıdanda kartof aldı, ancaq makaron bir az bahaydı. Marketdə ucuz makaron qalmamışdı. Özünə bir ədəd ülgüc də aldı. Ülgüc birdəfəlik istifadə üçün idi, ancaq bununla müvəqqəti ötüşmək olardı. Bu ülgücü bir neçə ay istifadə edə bilər. Hələ yağ ala bilmədiyi üçün kartofu eləcə suda qaynatdı və yedi. Dünən Naxçıvana anasına zəng vurmuşdu. Şad xəbər eşitmişdi.

Anasını xəstəxananın baş tibb bacısı qoyublar. Deyir, maaşı xeyli artıb, əlavə "çak-çuk" da edə bilir. Tədqiqatçılar "çak-çuk" sözünün etimologiyasıyla bağlı müxtəlif fikirdədirlər. İstinad nöqtəmiz isə, bu dəfə "Azərbaycan dilinin izahlı lüğəti" olacaq. "Çak-çuk" sözünün mənasını nağıllarımızda daha aydın görmək olar. Belə ki, Məlikməmməd işıqlı dünyaya gələndən sonra dəmirçinin yanında işə düzəlib çak-çuk etdi. Yəni, ona verilən maaşdan, aylıq məvacibdən savayı əlaltı, xəlvəti "şirrinlik" götürmək!"

Növbəti həftə edəcəkləri.

• Evə yağ almaq.

• Küçəni süpürmək üçün vaxtından daha tez gedib, tez qayıtmaq.

• Özünə balaca bir radio almaq.

• Dərsləri vaxtında oxumaq

• İmtahana hazırlaşmaq üçün Axundov kitabxanasına getmək.

• Anama zəng vurmaq.

• Mütaliə üçün Suraxanıdakı kənd kitabxanasına üzv yazılıb, kitab götürmək.

• Qaz az yazsın deyə pulyığanla sövdələşmək.

• Kirayə haqqını ödəmək.

• İşıq pulunu ödəmək.

Ka cədvəlini yazdı və atası üçün alıb, özünə götürdüyü siqaretdən birini yandırdı. Ömründə ilk dəfəydi siqaret çəkirdi. Ancaq daxilən özündə rahatlıq hiss etdi. Sonra çarpayısına uzandı, göz-

lərini tavana zilləyib, tavanda gəzişən böcəyə baxdı. Əlini paçasının arasına apardı. Gözlərini yumdu və cinsiyyət orqanını əlləşdirməyə başladı. Rahatlıq hiss edəndən sonra hamama gedib əllərini yudu. Qələmi götürüb siyahısına iki bənd də əlavə etdi.

- Cinsiyyət orqanını təmizləmək.
- Evdə sil-süpür etmək.

20..-Cİ İL. OKTYABR AYININ DÖRDÜNCÜ HƏFTƏSİ

Aradan keçən bir həftə ərzində nə qeydiyyat aparmağa, nə də ki xırdaca vərəqəyə görüləsi işləri yazmağa macalı olmadı. Boş vaxt tapa bilmədi desə, yalan olardı. Uzun burun kimin nəyinə lazımdır? Allah heç kimi Pinokyo etməsin! Bircə onu deyə bilərəm ki, oktyabr ayının üçüncü həftəsi üçün nəzərdə tutduğu bütün işləri yerinə yetirmişdi. Siyahıdakı bəndlərin hamısının qabağından yekə bir "üstəgəl" işarəsi qoydu.

Bu həftənin bazar ertəsi qəsəbə kitabxanasından götürdüyü Cek Londonun "Martin İden" romanıyla qol-boyun oldu. Demək olar ki, bütün həftə ərzində bu kitabı oxudu, oxudu, oxudu! Romanın saralmış, qopub yenidən yapışdı-

rılmış, bəyənilən, təsirli sözlərinin altından düz və dalğalı xətlər çəkilmiş vərəqlərinə bir doğmalıq duydu. Bir az da özünün gələcək yazıçılıq taleyiylə bağlı götür-qoy etdi. Xəyallara daldı. Uğurlu və gözəl bir yazıçılıq həyatı arzuladı. Xoşbəxt oldu.

Yenə həmin soyuq baxışlar indicə donqabelli, gözütuluqlu adamların ayaqlarını sürüyə-sürüyə gəlməsiylə yalandan alovlanacaq. Yenə aramsız, bivec yağış az qala tavana yapışan balaca nəfəsliyin tozlu şüşəsini döyəcləyirdi və beli silahlı nəzarətçilər ürəyində iş saatının, qarovul növbəsinin tezcə qurtarması üçün yüzə, minə qədər sayırdılar. Bu dəfə məhkumlarla görüşə bir saat tez icazə verdilər. Ka anasının "Qurban olum, yazıqdır. Mütləq get, baş çək atana" ilə başlayan və göz yaşıyla bitən yalvarışlarından, çiyninə yüklənmiş vicdan əzabından bircə dəqiqə rahatlıq tapmaq naminə imkan olduqca bu tikanlı naqillərə bələnmiş həbsxanaya gəlirdi.

– Dərslərini oxu. Ancaq özünü çox kitaba-zada verib, bütün günü vaxt öldürmə. Bir iş tapsan, get işlə! – deyə Q. əlindəki kibrit qutusunu oynada-oynada demişdi.

– Yaxşı! – Ka sakitcə cavab vermişdi, – başqa nəsə lazımdırsa, alım gətirim, – demişdi.

– Heç nə, sağ ol!

Dəmir qapılar möhkəm çırpıldı. Qıfıl taqqıltısı, açarların şaqqıltısı ardıcıl və bəzən də xaotik

əks-səda verdi. Deyəsən, yağış kəsmişdi. Ka çölə çıxanda görüş otağının qapısı ağzındakı talvarın altında dayanıb yan-yörəsinə baxdı. Qoca, yorğun baxışlı anaların, saçları ağarmış, dişi tökülmüş, əlindəki əsaya birtəhər söykənərək qıyılmış gözləriylə kimisə və ya "kömək əli", "hay-haray", "ədalət", "Tanrı" axtaran qoca ataların yağışın həbsxana həyətində yaratdığı gölməçələrin içiylə, kənarıyla necə arxalarına baxmadan uzaqlaşdıqlarına tamaşa etdi. Ka əlini süni dəri pencəyinin cibinə salıb geriyə baxmadan vecsizliklə dabanına tüpürdü. Tikanlı naqillərin çölündə cibindən çıxardığı siqareti yandırdı və evə üz tutdu. "Atam bu dəfə bir az yaxşılaşıb. Kökəlib. Rəngi özünə gəlib", – atasını ilk gördüyü an demək istədiyi sözləri ondan çox uzaqda, siqaretinin sonuncu qullabının tüstüsünü havaya piləyərkən dedi. Sözlərinin əyninə siqaret tüstüsü geyindirmişdi. Külək ayrı yönə əsirdi, naxələf idi, etibarsızlığı xislətindəydi, belə xoş sözləri aparıb həmin donqar belli adama çatdırmazdı.

Ka yenə həmin Simurq quşunun qanadlarına minib çox uzaqlara pərvazlandı. Bir dəfə atasından onu Əlincə qalasına aparmağı istəmişdi. Q. əlacsız qalıb aparmışdı. Yolboyu ağ "07"-nin qabaq pəncərəsinin önündən ötüb keçən keçəl, quru hündür dağları gördükcə Ka Əlincəylə bağlı bildiyi, atasının ona danışdığı bütün nağılları yadına salırdı.

"Əlincə qalasının ətəyində Teymurləngin yüz minlərlə ordusu qalaya hücum etmək üçün hazırlıq görür. Atlılar böyük bir ordu şəkilində düzülüb. Ağ, hündür atların üstündə silah-sursatlı, başında dəbilqə, əlində qalxan döyüşçülər dayanıb. Şimal istiqamətində atıcılar oxlarının ucunu itiləyir. Nəhayət, əynində döyüşçü paltarı, başındakı dəbilqəsini möhkəmcə bağlamış, belindəki qılıncı qınından çıxarmış Ka Əlincənin ən yüksək zirvəsində, ən hündür qayasının üstündə dayanıb bir ayağını çəkə-çəkə orduya göstəriş verən Teymurləngə baxır. Bir neçə dəqiqədən sonra döyüş başlayır. Hündür qala divarlarının bürclərindən topçular Teymurləngin ordusuna sarsıdıcı zərbələr endirirlər. Teymurləng bir dəstə atlıyla Əlincədən qaçıb uzaqlaşır".

Bu şirin yuxudan onu atasının "Çatdıq, bura da Əlincə qalası", – deməsi oyatmışdı. Ka maşının qapısını açıb çölə çıxmış, dörd bir yanındakı uçuq-sökük divarlara, adda-budda çıxan kəklikotu, çobanyastığı, yovşan kollarına baxıb köks ötürmüşdü. Göz oxşadıqca uzanan sıldırım zirvəli, sırayla düzülən intəhasız dağ silsiləsinin ortasındakı Əlincə qalıqlarını sevməmişdi. Niyəsə elə həmin gün xəzinələrə də inanmamışdı. Əlində olsaydı, qışqırardı ki, bəs hanı mənim sarayım, ordularım hardadır?

Axır ki, keçən həftənin bazar günü evə ucuzvarı bir radio ala bildi. Hansısa qəzetdən dövlət

radiosunun proqram siyahısını tapmışdı. Ən lazım olan verilişlərin vaxtını müəyyən edib, həmin saatları öz cədvəlində radio dinləmək vaxtı kimi əlavə etmişdi. Məsələn, ən çox axşam saatlarında, saat 10-11 radələrində, həftəlik dəftərini yazanda klassik musiqi gedirdi. Ötən bazar, axşamı Vivaldinin "*Season*" əsərini dinləyirdi. Sonra, ardınca da Motzartın "40-cı simfoniyasını" verdilər. Di gəl ki, bu qeydlərini axıracan apara bilmədi.

Bütün həftə boyu küçənin süpürməyə vaxtlı-vaxtında getdi. Bir neçə dəfə anası zəng vurmuşdu. Deyirdi ki, narahat olma, sən oxu, nə qədər lazımdır pul göndərəcəyəm. Anası yenə həftənin çərşənbə günü 200 manat göndərdi. "Atana nə lazımdır al! Qalanı da sənin olsun. Gələn həftə yenə göndərərəm". Ka atasına diş pastası, qara rəngdə alt paltarı, siqaret və ülgüc aldı. Hər dəfə atasının gözlərində qəribə parıltı görürdü. Bu həyat eşqindən, yaşamaq sevincindən çox, Teymurləngin qılıncının qızıl tiyəsinin parıltısı, Möminə Xatunun zümrüd boyunbağısının alovlanmış işartısıydı. Və yəqin ki, bu parıltı onun gözlərindən heç vaxt silinməyəcəkdi.

20.. -Cİ İL. NOYABR AYININ BİRİNCİ HƏFTƏSİ

Havalar getdikcə soyuyurdu. Ka evi qızdırmaq üçün keçən həftənin bazar günü "Sədərək" ticarət mərkəzinə gedib balaca elektrik sobası almalı oldu. Sobanı taxta başlıqlı çarpayısının yanına qoyub, bütün günü yandırdı. Ancaq hələ qış qabaqdaydı. Sonra yağış yağdı, güclü külək əsdi, axşama yaxın buludların arasından günəş boylanıb qüruba endi və bir adamlıq evə qaranlıq çökdü.

Bütün həftə boyu dərslərinin hamısına getdi, müəllimələrə diqqətlə qulaq asdı, kitabxanadan götürdüyü kitabın xeyli hissəsini oxudu... "Martin İden"in əzabını, zillətini görüb yazıçı olmaqdan əl çəkdi, boyun qaçırdı.

Cümə günü dərsdən evə gələndə metronun çıxışındakı kitab dükanına girib içəridə azca girələndi. Piştaxtanın üstünə, rəflərə ardıcıl, səliqəylə qoyulmuş kitablara baxdı. Bəzilərini əlinə alıb üz qabığına gözucu nəzər yetirdi, bəzilərinin birinci səhifəsini açıb ilk cümləsini oxudu, digərlərinin isə eləcə şəkillərinə baxdı. Dükanın baş tərəfindəki tünd-qəhvəyi rəngli şkafın üçüncü gözündən bir kitab götürdü. Üzərində əllərinə xınayla naxışlar çəkilmiş, qaşlarının ortasına iri bir xal qoyulmuş, həzdən göz

qapaqları xumarlanmış hind gözəlcəsi və onun arxasında cinsiyyət orqanını çıxarıb gözlərini qadının sinəsinə zilləmiş qarayanız bir kişi təsviri var idi. Ka kitabı vərəqlədi, iki səhifədənbir yerləşdirilmiş çılpaq qız və oğlan şəkillərinə baxdı. Sonra tezcə kitabın səhifəsini örtdü, piştaxtaya yaxınlaşıb pulunu ödədi. Bu kitab "**Kamasutra**"ydı. Kanın tənhalığının, biradamlıq dünyasının, darıxdırıcı, ürək tıncıxdıran təkliyinin yeganə təsəllisi olacaqdı. Nə olsun ki, Allah göydən baxır?!

Elə həmin axşam göydən şıdırğı yağış ələnməyə başladı. Otağın divarlarından, az qala, sırsıralar sallanacaqdı. Ka elektrik sobasını yandırıb evi yaxşıca qızdırdı. Qaz sobasının üzərinə qoyduğu çaydan pıqqıldayırdı. Özünə pürrəngi çay dəmləyib, içdi. "**Kamasutra**"nı götürüb vərəqlədi. Seks pozaları, cinsi əlaqədə olmaq haqqında göstərişlər, zövq almağın, seksin ilahi mahiyyəti barədə sadə, bəsit məsləhətlər Kanı əyləndirirdi, ona zövq verirdi. Ka səhifələri çevirdikcə dodaqaltı gülür, bəzən də qaşlarını dərkin ləzzətini dadan adamlar kimi çatırdı. Ən əsası Ka darıxmırdı. O, "**Kamasutra**"yla xoşbəxt olmağın yollarını öyrənirdi.

Radioda həlim səsli diktor Patrisiya Kaasın "*Une Derniere Fois*" əsərini dinləyicilərinə təqdim edirdi.

Dünən bişirdiyi makaron supunu qızdırdı. Bir boşqab çəkib yedi. İşığı söndürüb yatmaq istəyirdi ki, qonşunun səsi eşidildi. Qapıya yaxınlaşıb qapı gözlüyündən bloka baxdı. Heç kim görünmürdü, ancaq üzbəüzdəki iki otaqlı, 66 nömrəli mənzildən səs gəlirdi. Qoca qadın ağlayır, "Qurban olum, döymə", – deyə yalvarırdı. Bir müddət sonra qadın, gecə paltarında çölə çıxıb qapının ağzındakı pillədə oturdu. Beli bükülmüş, gözündəki eynəyin bir çərçivəsi çatlamış Nino xalaydı. Ka əvvəlcə qapını açıb qadına kömək etmək istədi, sonra qorxdu. Qəfildən, içində qəribə bir qətiyyətsizlik, özünəinamsızlıq yarandı. Yox, daha doğrusu, biveclәşdi. Otağına qayıtdı və çarpayısına uzanıb anasını düşündü.

Yenə həmin "həyat ağacı"nın kölgəliyində dimdiyiylə qızılı qanadlarını təmizləyən Simurq quşu uçub gəldi. Kanın otağının bir küncündəki salxaq mizin üstünə qondu. Ka Simurqun belinə mindi və birgə qədim bir mağaraya doğru pərvazlandılar. Onlar əvvəlcə Arzu təpəsinin üstündə bir hovur nəfəs dərdilər, Məhəbbət dağı sıldırımlıydı, Ka Simurqun uçduğu yüksəklikdən dağın ətəklərinə baxa bilmədi, Təəccüb təpəsini keçmək çox asan idi, İtkinlik zirvəsi Kaf dağının buludları deşib keçən sıldırımları sayağı keçilməz idi. Nəhayət, İlanlı dağın üstündən qanad çırpıb Əshabi-kəhfdəki parçalanmış dağa qondular. Budur, Ka atasıyla kralın zülmündən

qaçıb tən bölünmüş dağlarda üç yüz il gizlənmiş "yeddi kimsə"nin sığındığı mağaraya qalxır. Q. iri açılmış gözlərini bir az kələ-kötür dayanmış, diqqəti cəlb edən daşa zilləyərək, xəzinə basdırılma ehtimalı olan hər dəlmə-deşiyə baxırdı. Sonra onlar bir yerdə "Cənnət bağı"na qalxırlar. Burada dağdağan ağaclarından savayı heç nə yoxdur. Ka və atasından başqa bir zəvvar gözə dəymir. Atası dağdağan ağacının dibini ayaqqabısının burnuyla təpikləyir, bir az irəlidəki iri qaya parçasını var-gücüylə itələyib çevirirdi. Ka özü də atasının xəzinə axtarışından həvəslənmişdi – gücü çatan balaca qayaları xırdaca uşaq əllәriylə çevirməyə çalışırdı. Hər qaya parçası çevrildikcə, hər iri daş yerindən tərpəndikcə Ka indicə böyük bir qızıl küpünün çıxacağını gözləyirdi. Ya da elə oradan dərin, qaranlıq bir yol açılmalıydı. Həmin yolla ikisi də xeyli getməliydi. Tavanından sərin buz kimi su damcıları tökülməliydi. Sonra bu qayalığın içindəki qaranlıq cığır böyük bir xəzinənin üstündə gəzişən ilanlarla, ağzından od püskürən əjdahalarla dalana dirənməliydi. Di gəl ki, bu "Cənnət bağı"nda əllərinə xırdaca, yumru və dadlı dağdağandan savayı heç nə keçmirdi. Bir də S.-nin adamı nəzərdən, bəd gözdən qoruduğuna inandığı dağdağan budağını qeyd etmək lazımdır.

Qəfildən əvvəlki zarıltı blokda əks-səda verdi. Yenə adəti üzrə ağ, ipək iplərdən toxunmuş əlcəklərini çıxarmayan, iki bükülmüş Nino Kipiani qəribə bir iniltiylə dodağının altında deyinirdi. Sonra "Əlibala, qurban olum... üşüyürəm... Yalvarıram, qapını açın" deyərək qışqırır, qonum-qonşunu bloka çıxartmaq, Əlibalaya xəcalət təri tökdürmək və evə təpilib, balaca otağının bir küncündəki dəmir çarpayısında qıvrılıb yatmaq istəyirdi. Di gəl ki, Əlibalanın xəcalət təri çoxdan qurumuşdu, qonşular da ki qulaqlarını iki əlli tıxayıb bu "sarsaq" qadının səsini eşitmək istəmirdilər. Ka bir az laqeydləşdi, sonra dözə bilmədi, çarpayıda dikəlib otağın içindəki qaranlığa ilğım kimi yayılan səsə qulaq şəklədi. Sonra özünü qapının ağzına yetirib gözlükdən bloka baxdı. Nino xalanın əynindəki ağ, üzərində yonca ləçəkləri olan gecə köynəyi əllərinə keçirdiyi ipək əlcəklərə yad idi, ögey idi. Əlibalanın arvadıyla mazaqlaşmağı, Nargilənin danışdıqca xırıldayan naz-qəmzəli səsi blokda əks-səda verirdi. Qapı gözlüyündən əlcəkli əllərini qapıya yorğun-yorğun çırpan Nino xalanı rahatca görmək olurdu. Bloka yayılan ah-ufdan, yalvarışdan sonra Nargilə qapını açdı. Nino xala soyuqdan tir-tir titrəyən ac pişiksayağı qapının böyründən içəri təpildi. İçəridən yenə bloka Əlibalanın qışqırtısı, Nino xalanın yalvarışı və Nargilənin dodaqaltı donqultusu yayıldı. Ka gö-

zünü qapının gözlüyündən çəkib otağa qayıtdı. Mizin üzərindəki çirkli boşqabı götürüb mətbəxə keçdi. Su çanağının altında krandan açılan gur, soyuq suda boşqabı yudu. Tualetə keçdi, işədi. Çarpayısına uzanıb yatdı.

Bazar günü havanın küləkli, başıalovlu, hövsələsiz və qanıqara olmağına məhəl qoymadan Binə qəsəbəsindəki təcridxanaya ayaqlarını sürüyə-sürüyə, birtəhər, könülsüz-könülsüz gəlib çıxdı. Əlindəki qara sellofan paketin içində xaki rəngli yun köynək, siqaret, bir neçə ülgüc, qalın corab və əl-üz dəsmalı var idi. Bu dəfə həmin donqabelli, gözü tuluqlu məhkumlara tikanlı məftilli divarların arxasında hamının "cinayətkar", "axmaq", "şəratan" olduğunu təsdiq etmək, uydurmaq üçün az adam gəlmişdi. Pəncərənin qabağındakı üstü tünd göy boyayla boyanmış mizin arxasında saqqalı, tünd sarı-qəhvəyi çərçivəli eynək taxmış bir qoca kişi əyləşmişdi. Kanın sağ tərəfindəki böyrü qırılmış masanın arxasında isə üzərində ağ, xırda həlqələr olan qara örpək bağlamış bir qadın əyləşmişdi. O, masanın üstünə qoyduğu kərpicvari naxışlı, böyük paketin içini qurcalayıb nəyi isə yerbəyer edirdi. Ka yenə gözlərini dəmir çərçivəli qapıların qənşərində dayanıb ürəyində yüzə kimi sayıb qarovul vaxtının qurtarmağını gözləyən belisilahlı adamlara zillədi. Sonra birinci dəmir qapı açıldı, sükut pozuldu. Hamıdan axırda Q.

əvvəlkinə nisbətən gümrah addımlarla, qaşlarını adəti üzrə çatmış vəziyyətdə gəldi. Gözləmə salonuna daxil olanda külək tavana dirənmiş nəfəsliyi çırpıb şüşələri az qala yerindən çıxarırdı. Qəfildən, bütün məhkumların gözləri həmin "azadlıq deşiyi"nə zilləndi. Ancaq Ka bu "azadlıq deşiyi"nin göydəki qara dəliklər kimi böyümədiyinə sevindi. Dərindən nəfəs dərdi. Ehmalca gülümsədi və "Maşallah, indi daha gümrahsan" deyə atasına "salam" əvəzinə bu cümləni dedi.

Ka yenə darıxırdı. O, yenə bu adamın kim olduğunu düşünürdü. Ka yenə öz əvvəlki, həmin nağıllar aləminin hökmdarını, nağılbazını, sehrli çırağının sahibini axtarırdı. Di gəl ki, göz qapaqları tuluqlanmış, bu donqabelli adamın baxışında onun axtarışlarına cavab verə biləcək bir ifadə tapmaq çətin məsələydi. Ta ki Q. yenidən həmin mövzuda danışmağa başladı. Ka qulaqlarına inana bilmirdi. "Görəsən, doğurdanmı, yenə əvvəlkitək yeraltı mağaralarda xəzinə axtarışına çıxa biləcəyəm?", "Axı, mütləq olmalıydı. Bir gün mütləq Möminə Xatunun xəzinələri bizim olmalıdır".

Ka ümidlə, atasının bu yeni axtarışlarına dair beynində qurduğu xəyallarla evə sarı gedirdi. Nəticəni bilmirdi, ancaq həvəslə gözləyirdi. Ümid edirdi, inanırdı. Həmin xəzinənin qapıları mütləq nə vaxtsa açılacaq.

Evə gəlib çıxanda axşamçağıydı. Ancaq atasının dediklərini beynindən çıxara bilmirdi. Elə hey düşünürdü. Daha həbsxanadakı adam onun üçün donqabelli, gözütuluqlu yad deyildi. İndi həmin qəhrəman Eldənizin özündən "ATABƏY" titulu almış ataydı.

Ka gələn həftə üçün görməli olduğu işlərin siyahısını yazdı.

• Atasını MÜTLƏQ ziyarət etmək və həmin məsələni dəqiqləşdirmək.

• "**Kamasutra**" kitabının birinci bölümünü oxumaq. (Bu həzzə hazırlıq idi. Bu Ka üçün darıxmamaq məşğələsi, ürəksıxıntısı həbi, beyinə erotik həzz məqamıydı.)

• Evə bir az ərzaq almaq.

• Çimmək!

• Süpürgəçilik işinə vaxtlı-vaxtında getmək.

• Dərsləri qaydasına salmaq, vaxtında hamısını oxumaq.

• Tualet üçün xlor almaq.

• Paltarlarını yumaq, sərmək.

Ka siyahını yazıb qurtardıqdan sonra Nino Kipianini düşündü. Və qəfildən ağlına qəribə bir ideya gəldi. Nino xala haqqında bir hekayə yazmalıydı. Gələcək həftənin siyahısına bir bənd də əlavə etdi.

• Nino Kipianinin mənzilindəki haray-həşiri hekayələşdirmək.

20...-Cİ İL. NOYABR AYININ İKİNCİ HƏFTƏSİ

Qədim hindlilərin sanskrit dilində yazdıqları seksual həyat barədə kitab Kanı xeyli düşündürdü. O, intim münasibət zamanı əvvəlcə xəfif bir toxunuşdan böyük həzzəcən insanın xüsusi diqqət verib, incəliklərinə qədər əməl etməli olduğu əsl hazırlıq mərhələsiylə tanış oldu. Kitabın ilk bölümü "Həzzə hazırlıq" adlanırdı. Ka bu kitabı çərşənbə günü axşam oxumuşdu. Eyniylə hindlilər kimi etdi. Kitabı oxuduqca yavaşca öz dodaqlarına toxundu, əlini sinəsinə, boynuna aparıb gəzdirdi və barmağının ucuyla qabağını əlləşdirib gözlərini yumdu...

"**Kamasutra**"nı təzə əşyaların üstündəki "istifadə qaydaları" vərəqəsi kimi oxuyurdu. Bu da seksin və ehtirasın istifadə qaydasıydı. Halbuki, milyon illərdir insanlar bu xəfif toxunuşun, seksə xüsusi hazırlığın heç bir vacibliyinə baxmadan sevişiblər, zövq alıblar, artıb, çoxalıblar. Bu, eynilə necə istifadə etməli olduğumuzu bilmədiyimiz, "menyu"suna bələd olmadığımız bir telefon kimiydi. Qurcaladıqca yeni metodlar öyrənir, sevişməyin, öpüşməyin, toxunmağın və həzz almağın hər üzünə bələd olursan.

Ka kitabı oxuduqca beynində müxtəlif suallar yaranırdı. “Seks olmasaydı nə olardı?”, “Niyə, ən güclü seksual birləşmə üçün əvvəlcə adi, xəfif bir toxunuş lazım idi?”, “Niyə, qadınlar seksin kölələridir?”

O, keçən həftə üçün nəzərdə tutduqlarının hamısını etdi. Bütün həftə boyu atasının danışdıqlarını beynində çəkdi, çevirdi. Əslində, qəribə şəkildə xəyallar qurdu, arzu quşlarının qanadlarına qonub pərvazlandı, gizli xəzinələri axtardı, uzaq ellərə səyahət etdi.

Yenə həmin tikanlı məftillərin arxasındakı balaca görüş otağında donqabelli atayla, sısqa, qaraşın oğul üzbəüz oturub, belisilahlıları duyuq salmamaq üçün xısın-xısın gələcək talelərini həll edirlər. Əvvəlkitək, göydən yağış ələnir, arabir otağın tavana dirənən pəncərəsindəki kirli şüşə küləkdən laxlayırdı. Bu görüşdən onu deyə bilərəm ki, Kanın ümidi daha da artırdı. Məhz indi “Möminə Xatun” məqbərəsi haqqında hər şeyi öyrənməyi daha çox istəyirdi. Deyəsən, əvvəlki igid, qəhrəman ata geri qayıdırdı. Atasının ona vermək istədiyi böyük sirr, əsl nişanə çox əhəmiyyətliydi. Ka bütün qəlbiylə xəzinəni tapa biləcəyinə inanırdı.

– Heç ona fikir vermisən?, – deyə Q. həvəslə dillənmişdi. Tuluqlanmış gözlərini Kaya zilləyərək əlindəki kibrit qutusunu fırlatmışdı. Sonra da Kanın cavabını gözləmədən əlavə etmişdi,

– Memar Əcəmi Naxçıvaninin ən gözəl işidir. Abidə on üzlüdür. Hər üzündə bir-birindən fərqli naxışlarla, kufi əlifbasıyla "*Yasin surəsi*" qeyd olunub. Get, diqqətlə bu abidə haqqında material topla, mütləq onun haqqında məlumat yığ. Camal deyir ki, fasadın on üzlü olması və hər üzün interyerindəki, üzərindəki naxışın çeşidliliyi bizi xəzinəyə aparan bir yoldur.

Belisilahlı adam sağ əlini Q.-nın əyilmiş, arıq çiyninə toxundurdu. "Görüş vaxtı bitdi", – dedi.

Evə gəlib çatanda qaranlıq çökmüşdü. Ka "Snooze" markalı radionun üzərindəki alüminium lövhənin üstünə pərçimlənmiş qara, yumru "play" düyməsini sağa çevirdi. Bir müddət pianinonun dillərinə əsl yapon sükutuyla toxunan ifanı dinlədi. Sonra həmin həlim səsli qadın növbəti əsəri elan etdi. *"Abel Korzeniowski- Stillness of the Night"*!

– Qorxursan... Axmaq, alkaş! İçəri buraxmıram, canın çıxsın qal burada. Gedib dilənirsən, onu da arağa verib qarnına doldurursan. Bu soyuqda bir az don, ağlın başına gəlsin, – deyə Nargilə qapının arasından başını çıxarıb astanada iki bükülmüş, ağ əlcəkli, boz, külrəngi palto geyinmiş Nino xalanı danlayırdı. Ka cəld özünü qapı gözlüyünə yetirdi.

– Ay bala, qonşulardan ayıbdır. Yalvarıram, Nargilə, burax məni... Ölürəm, xəstəyəm... Vallah, içməmişəm, – deyə Nino xala yalvarırdı.

Ka getdikcə gözlərini bu sarı rəngli dəmirin içindəki xırdaca şüşəyə dirəyir, blokda Nino xalanın yalvarışlarını, hər bir hərəkətini diqqətlə beynində həkk edir və yazacağı hekayəni düşünürdü.

– Əlibala, qurban olum, bala, heç olmasa sən de... Qoy, içəri keçim, xəstəyəm, ayaq üstə dayana bilmirəm, – deyə oğluna dil tökürdü.

– Düz, deyir. Alkaşsan. Məni biabır edirsən. Canın çıxsın, soyuqda qal. Narahat olma, araq bədəni qızdırır, sənə soyuq olmaz, – deyən Əlibala ağ, qolsuz köynəyinin qaldırıb qarnını qaşıya-qaşıya dilləndi, sonra da Nargiləni içəri dartıb qapını möhkəm çırpdı.

Ka əsəbindən nə edəcəyini bilmirdi, gah Əlibalanı dördüncü mərtəbədən aşağı tullamaq, gah da Nino xalanı evə dəvət edib ömrünün sonuna kimi ona baxmaq istəyirdi, di gəl ki, sonra fikrindən daşındı. Nino xala bir az qapını döyəclədi, ardınca da sürahidən yapışıb yavaş-yavaş, zarıya-zarıya aşağı endi.

Blokun qabağındakı söykənəcəyi qırıq skamyada əyləşən Nino xala sakitcə, xısın-xısın ağlayırdı. Hava soyuq idi. Ka eyvana çıxıb siqaretini sömürə-sömürə ilk hekayəsinin qəhrəmanı haqqında fikirləşirdi.

Bu skamya Ələsgər dayıya aid idi. Birinci mərtəbədə yaşayan, enlikürək, hündürboy, 50-55 yaşında olan Ələsgər dayı adəti üzrə həftədə bir

dəfə rənglədiyi bu skamyada əyləşib günlərini küləyə sovururdu. Skamyanın başı üstündə bir söyüd ağacı var idi. Salxım söyüd idi. Ələsgər dayının işi-gücü dövlətdən aldığı təqaüdlə dolanıb, həmin söyüdün dibinə su tökmək və ağacın həndəvərində oynayan, hərdən topu söyüdün budaqlarına dəyən uşaqları qovmaqdan ibarət idi. O, Qarabağ müharibəsində vuruşmuşdu, hamı kimi uduzmuş, geri qayıdan kimi də fürsəti fövtə verməyib özünə bir əlillik vəsiqəsi düzəltdirmişdi. Beləcə, həmin vəsiqəylə ayda 250-300 manat pul alırdı. Hələ deyəsən, "Milli Qəhrəman" idi də!

Ka başını qaldırıb üfüqəcən uzanan neft buruqlarına baxdı. Saat kəfgirisayağı qalxıb-enən "vişka"lar ona nizamlı bir ordunu xatırlatdı. Bu qara atlı, qara geyimli orduların taqqıltısı getdikcə onun qulağında düşmənləşirdi. Ka siqaretdən bir qullab vurub tüstünü həmin "vişka" ordusuna sarı buraxdı. Ardınca ciyərlərinə dolan neft qoxusu ona həmişəkindən daha doğma gəldi. Neft buruqlarının taqqıltısı artdıqca küləyin evə gətirdiyi bu tünd, mazut qoxusu çoxalırdı.

Ka gələcək qəhrəmanını öz taleyinin şıltaq oyunuyla baş-başa qoyub otağa keçdi. Siqaretinin külünü qəndqabı qapağına tökdü. Mətbəxə keçib çaydanı qaz sobasının üzərinə qaynamağa qoydu. Otağa qayıtdı, küncdəki elektrik sobası evi qızdırırdı. Çarpayısına uzanıb gözlərini ta-

vanda közərən elektrik lampasında gəzdirdi. Və qəfildən evə buruq-buruq buynuzları olan, "Ağ qoç" gəldi. Ka bu qoçun kürəyinə hoppandı və bir yerdə səmanın dərinliyinə çapdılar.

"Əshabi-kəf"dəki həmin "Cənnət bağı"nın içində tapdıqları, atasıyla Kaya aid olan məlum xəzinənin gizləndiyi mağaraya getdilər. Bu dəfə Q. yox idi. Ka "Ağ qoç"unu daşın altındakı gizli mağara qapısı ağzında qoyub içəri girdi. Yenə həmin qaranlıq, tavanından buz kimi su damcılayan yeraltı tunellə xeyli addımladı. Nəhayət, gəlib qızıl xəzinələri olan dalana dirəndi. Sağ tərəfdəki sandığın üzərində iri, qara bir ilan qıvrılmışdı. Kanın əlində atasının həmişə xəzinə axtarışlarında istifadə etdiyi fənər var idi. Sol tərəfdə isə ağzından alov püskürən böyük bir əjdaha dayanmışdı. Ka atasından gizli xəzinələrin qoruyucularıyla dostlaşmağı öyrənmişdi. Əvvəlcə qara ilanla dost oldu. Sonra əjdaha sakitcə bir kənarda kiridi. Bu tunelin axırındakı xəzinə o qədər də çox deyildi. İki böyük sandığın içində mirvari, zümrüd daş-qaşlar, müxtəlif qızıl dolçalar, silah-sursat var idi. *"Yeddi kimsənə elə-belə adamlar deyildi. Onlardan biri xəzinədar, ikisi vəzir, digərləriysə ölkənin məşhur alimləriydi. Onlar kralın əzabından qaçırdılar. Buna görə onların qaçmasında çox gizli bir hikmət var".* Atası belə demişdi. Ka bu qızıl sandıqlarını bir yerə yığıb daşımaq qərarına gəldi. Əvvəlcə sağ

tərəfdəki, dəri üzlü, dəmir qapaqlı, üzərinə dəniz mavisi rəngində sapfir, şaftalı çiçəyi rəngli rubin və tünd-yaşıl zümrüd daşlar düzüləni. Ka sandıqların qapağını örtdü və qəfildən qəribə bir səs eşitdi. Əlindəki fənəri əvvəlcə əjdahanın, sonra qara ilanın üzərində gəzdirdi. Onların hər ikisi sakitcə bir kənarda dayanıb Kaya baxırdılar. Bu dəfə fənəri mağaranın divarlarına sarı tutdu. Divarlarda çox fərqli və qəribə təsvirlər var idi. Ka "Qurani-Kərim"də təsvir olunmuş həmin "Kəhf surəsi"nin sirrini açmışdı ki, yuxarıdan "Ağ qoç"un mələrtisi eşidildi. Qəfildən sanki qara ilan təhlükə hiss edirmiş kimi başını qaldırdı. Əjdaha yerindən dik atıldı, ağzını açıb xırdaca bir alov dilimini Kaya tərəf üfürdü. Ka əlüstü sandıqlardan uzaqlaşdı və çölə doğru qaçmağa başladı. İlan fısıltısını artırdıqca əjdaha bir az da özündən çıxır və yan-yörəsinə alov dilimləri yayırdı. Qaranlıq tunel işıqlandıqca Ka rahatca qaçıb aradan çıxdı.

Çaydanın pıqqıltısına çarpayıdan dik atıldı. Hövlnak özünü qaz sobasının yanına yetirdi. Çay dəmlədi.

Ev üçün nəzərdə tutduğu əşyaları, ərzağı da almışdı. Dərsləri yaxşıydı, süpürgəçilik işi də həmişə kimi qaydasındaydı. Bələdiyyədən maaş kartını götürmüşdü. Bir neçə günə gedib ilk maaşını ala bilərdi.

Ka tualet üçün xlor tapa bilmədi. Ancaq həftəsonu yaxşıca çimmiş, təmizlənmişdi. Paltarlarının hamısını yumuş, səliqəylə zivədən asmışdı. Dərsləri qaydasındaydı. Özünü xoşbəxt hiss edirdi.

Növbəti həftə üçün nəzərdə tutduğu proqramı yazdı.

1. Kitabxanaya gedib mütaliə üçün əlavə kitab götürmək.
2. Kamasutranın "Öpüşməyin metodları" hissəsini oxumaq. Cəmi 3 səhifədir.
3. Süpürgəçilik işini vaxtlı-vaxtında görmək.
4. Anama zəng vurmaq və bacımın dərsləriylə maraqlanmaq.
5. "İçərişəhəri" gəzməyə getmək.
6. Həftəsonu çimmək.
7. Nino xala haqqında hekayə yazmaq üçün onların evindən səs gələn kimi qapıya qulaq asmaq.
8. Dərsləri vaxtlı-vaxtında oxumaq.

Ka özünə yeni diş fırçası və pasta almaq qərarına gəlmişdi. Bakıya köçdüyü gündən dişlərində qəribə ağrı hiss edirdi, deyəsən, ağıl dişləri ağrıyırdı. Azı dişinə isə xal düşmüşdü. Ona görə də proqramına bir şey də əlavə etdi.

9. Diş pastasını və fırçanı dəyişmək.

20..-Cİ İL. NOYABR AYININ ÜÇÜNCÜ HƏFTƏSİ

Keçən həftə səmadan yerə şıdırğı, gur, aramsız yağışlar ələndi. Hər gün yağış yağdığı üçün Ka səhərlər küçəni süpürməyə o qədər də vaxt itirmədi. Elə köhnə iş paltarını bələdiyyənin binasında dəyişir, ona təhkim olunmuş küçədə yerə atılmış kar-kağızı, küləyin gətirdiyi ağ sellofan torbaları, ağacların palçığa yapışmış yarpaqlarını, küçənin başındakı "Elvin" marketin səkisinin qıraqlarında topalanan siqaret kağızlarını, həmin marketin yanındakı çayxananın qapısı ağzındakı zibil qabının yanyörəsinə çəkilib atılmış siqaret kötüklərini yığdı. Bələdiyyənin zibil daşıyan maşınlarına öz küçəsinin zibil yeşiklərini boşaltdı.

Maaşını keçən həftə ATM-dən çəkmişdi. Özünə pal-paltar aldı, qış qabağı bir isti, dəri ayaqqabı götürdü, evin kommunal xərclərini ödədi.

Birinci gün dərsdən çıxan kimi evə qayıtmamışdı. Qrupda təzə-təzə yaxınlıq etdiyi bir dostuyla Xaqani küçəsindən keçib "İçərişəhər" metrostansiyası tərəfə qalxmışdılar. Qrup yoldaşının işi olduğu üçün evə tez getməliydi. O, dənizkənarı park istiqamətinə enib, Bayıla gedən avtobuslara minəcəkdi. Ka isə proqramında nəzərdə tutduğu kimi bu gününü İçərişəhərə

ayırmalıydı. Dar küçələr, köhnə qapı darvazaları, Şirvanşahlar sarayı, Qoşa qala qapıları, Mirmöhsün ağanın ev ziyarətgahı. Şirvanşahlar sarayına girəndə ağlından keçirdi ki, görəsən, atası olsaydı, mütləq buralarda xəlvəti qazıntı aparıb Şirvanşah Fərruxun xəzinəsini axtarardı? Yəqin ki, hə!

Çərşənbə axşamı anası onun üçün uzaq qohumlarıyla sovqat göndərmişdi. Balaca qutunun içində pendir, balaca bankada bal, iki-üç kitab var idi. Kitablar Kanın atasınınkıydı, ehtimal ki, kişi evlə danışanda kitablarını da istəmişdi. Hamısı Naxçıvandakı xəzinələrlə bağlıydı. Əsasən, Möminə Xatun haqqındaydı. Ka üçün qalın, yun corablar, atası üçün isə yun jilet. Balaca bir bağlamada parçaya bükülmüş əriştə, qazayağı, yarpız qurusu qoyulmuşdu. Bir də şirəli qazanda iki-üç kiloya yaxın qovurulmuş ət.

Ka həmin günün axşamı özünə əriştə şorbası bişirdi. Düzü, çox ləzzətli alınmışdı. Qərara aldı ki, qovurmadan hər dəfə bişirdiyi yeməyə xırdaca tikələr ataraq bir neçə ay bununla keçinsin. Elə ona görə də bişirdiyi ərişdə şorbasını balaca, sümüklü ət tikəsi əlavə etdi. Yeməyi boşqaba çəkdi, əvvəlcə əriştələri, sonra suyunu, ən axırda isə həmin sümüklü əti yedi. Bu dəfə çayı qəndsiz içməli oldu, çünki qəndi qurtarmışdı.

Kitabxanadan Qurban Səidin "*Əli və Nino*" romanını götürmüşdü. Romanın xeyli hissəsini

oxuyandan sonra Əli xan Şirvanşirin yerində olmaq istədi. Buna heç bir izah verə bilmirdi, ancaq bəlkə də Şirvanşir kimi olsaydı nə isə başqa cür edə bilərdi... Xeyli sonra qonşu Ninonun Əli xanın Ninosu ola biləcəyini ağlından keçirdi. Öz-özünə güldü.

Çərşənbə günü dərs yox idi. Hava xeyli tutqun idi. Səhər tez yuxudan durub, küçəni təmizlədi. Qəribə külək əsirdi. Bloka girəndə Nino xalanı gördü, qadın adəti üzrə ağ əlcək taxırdı, bunun fəsilə və ya yerinə baxmadan edirdi. Həmin ağ əlcəkli əllərini pilləkənin sürahisinə sürtə-sürtə aşağı enirdi. Ka qadınla üzləşdi, əvvəlcə gözgözə gəldilər. Nino xala sanki ondan kömək istəyirdi. Az qala, yalvarış dolu nəzərlərini onun gözünə zilləmişdi. Ka nə isə demək istədi, ancaq Nino xala gözünü çəkib pillələri iti addımlarla endi. Addımları elə iri idi ki, beli bükülmüş, yorğun qarının belə yeriyə biləcəyinə inanmadı. Ka heç nə demədi, evinə qalxdı. Halbuki, ona kömək etmək istəyərdi.

Bütün gününü evdə keçirdi, ancaq kitabxanadan aldığı "Əli və Nino"nu oxudu, Əli xan Şirvanşiri düşündü... düşündü... düşündü.

Qaranlıq qəfil çökdü. Axşama yeməyi var idi. Keçən dəfədən bişirdiyi ərişdə şorbasından qalırdı. Ona bir tikə qovurma əlavə edib qızdırdı və bir boşqab çəkib yedi. Sonra çay dəmlədi, içdi. Radionu qoşdu və Vaqif Mustafazadənin

"Düşüncə"sini dinlədi. Ardınca diktor elan etdi: "İndi isə Frederix Şopenin "*Nocturnes*" əsərini pianinoda Moirizio Pollini ifa edir".

O, atasından oğurladığı siqareti yandırıb çəkdi. Alaqaranlıq otaqda Moirizio Pollini pianonun dillərinə toxunduqca Ka siqaretinin tüstüsünü ağzından ehmalca, xırda-xırda havaya buraxır və düşünürdü. Ka 3-cü sinifdə oxuyanda atasının çəkib külqabıya basdığı siqaret kötüklərini necə xəlvətcə çırpışdırdığını və tualetdə hamıdan gizlicə çəkdiyini xatırladı. Öz gələcəyi barədə, yazıçılıq istəyi, ümidləri, atası və qonşu Nino xala haqqında xeyli dərin düşüncələr burulğanına baş vurdu. Bir də həmin "Əshabi-Kəf"dəki "Cənnət bağı"nda tapdığı xəzinə, mağaranın divarlarındakı qəribə təsvirlər var idi. Ka ümid edirdi ki, Nino xala haqqında yazacağı ilk hekayə onun həyatını tamamilə dəyişəcək, eyniylə Martin İden kimi onun da başına şöhrət quşu qonacaq və qəfildən çox məşhur, varlı bir yazıçı olacaq.

O, cəsarətsiz deyildi, zəif deyildi, həyatla mübarizə aparmağı bacarırdı. Həyatda çətinliklərlə dost olmağın insana necə uğur gətirə biləcəyini, zəhmətin bəhrəsini yeyəcəyini və xoşbəxtliyin əslində nisbi bir şey olduğunu bilirdi.

Ka radionu söndürdü, siqaretin zəif işartısı bir müddət qaranlıq otaqda közərdi və qənddanın qapağında, əzilmiş kötüyün altında itdi. Hər

tərəfə sakitlik çökmüşdü. Bircə əbədi bir səs dayanmırdı, neft buruqlarından gələn səslər, quyulardan borulara axan qara neft və xəzrinin uğultusu... Qara atlar yəhərlənmiş, qara paltarlılar ordusu üfüqə çapırdı. Xuliqan, oğraşlar!

Dördüncü gün Kanın universitetdə dərsi çox idi, ona görə küçəni süpürəndən sonra geri qayıtmadı, elə bələdiyyədə əynini dəyişib, paltarını iş yoldaşı Çimnaz xalanın otağında qoyub getdi. Çimnaz xala bələdiyyə binasını təmizləyirdi, tənha bir qadın idi. Qarabağdan qaçqın düşmüşdü, bir oğlu var idi, o da şəhid olmuşdu. Qadının köməyi olmadığı üçün icra hakimiyyətinin tapşırığıyla bələdiyyədə işə girmişdi. Demək olar ki, bütün gününü burada keçirirdi. Əslinə qalsa, Kanın iş məsələsini də elə Çimnaz xala həll etmişdi, bələdiyyə sədriylə razılaşmışdı. Sövdələşmişdi, ona "şirinlik" boyun olmuşdu.

Ka dərslərini yaxşı oxuyurdu, həmişə vaxtlı-vaxtında dərsə gedirdi, (çünki qayıblar üçün əlavə pul vermək lazım idi) imtahanlara həvəslə hazırlaşırdı (çünki "pıçıltı qəzeti" vasitəsiylə bütün imtahanların və məqbulların qiymətlərini öyrənmişdi) və həyatın tilovuna düşməmək üçün hər dəqiqəsini planlaşdırırdı. Ka ona verilmiş ömrünün bu dünyada yaşadığı hər saniyəsini ehtiyatla, dəqiqliklə və qənaətlə işlədirdi. Niyəsini bilmirdi, maraqlanmırdı, heç vecinə də deyildi. ("Qayıb" – tədqiqatlar bu ter-

minin ilk mənasından xeyli uzaqlaşdığını göstərir. Əvvəllər "qalmaq", "dərsə girməmək", "dərsdə iştirak etməmək" mənasını verən bu söz, zamanla "tilova keçmək", "bənd olmaq", "ilişmək", "filan qədər tərləmək" birləşmələriylə əvəzləndi.).

Dərsdən çıxanda artıq axşamçağıydı. 145 nömrəli avtobus "Buta Palace"ın yanından keçəndə tünd boz buludların arasından xəfif gün şüaları yerə tələsik bir-iki işıq salırdı. O, gediş haqqını ödəyib avtobusdan düşəndə artıq günəş tamamilə yoxa çıxmışdı. Külək əsirdi, küçədəki kar-kağızı, çəkilib atılmış siqaret kötüklərini, boş tum paketlərini göyə sovururdu. Ka sağ əlində "*Dilçiliyiə giriş*" və "*Fəlsəfə*" kitablarını tutmuşdu, sol əlini də şalvarının cibinə qoyub səkiylə evə tələsirdi. Bloka çatanda yadına düşdü ki, evdə çörək yoxdur. Yaşadığı binayla üzbəüz "Xaqani" marketi var idi. İçəriyə girib bir zavod çörəyi aldı. Marketdən çıxanda hər tərəf, tamamilə, qaranlığa qərq olmuşdu. Külək daha da şiddətlənmişdi, neft quyularının səsi də sanki güclənmişdi. Elə bil neft buruqları quyulardakı bütün nefti çəkib bu əzabdan xilas olmaq istəyirdi.

Pillələri yavaş-yavaş qalxdı. Dördüncü mərtəbəyə çatanda çevrilib Nino xalanın qapısına baxdı. Ehtimal ki, bu göy rəngli taxta qapı uzun müddətdir boyanmır. Çünki tala-tala qa-

pının üzərindəki qopub tökülmüş boyaq yerləri diqqəti cəlb edirdi. Ka bu qapıya hələ indiyədək belə diqqətlə baxmamışdı. Bloku üfunət bürümüşdü. Əvvəlcə heç nəyə məhəl qoymadan evinə təpilmək üçün əlini cibinə saldı, açarı çıxartdı və qapısını açdı. Di gəl ki, bu yazıçılıq peşəsi biganəlik haqqı tanımırdı. Ka əvvəlcə qapının astanasında dayanıb blokdakı səslərə qulaq asdı. Nə yuxarı mərtəbədən səs gəlirdi, nə də aşağıdan... Bircə zirzəmidən binanın damındakı çənlərə su dartan, həvəslə işləyən "nasos"ların səsi eşidilirdi. Bir də əbədi uğultu; qara atlılar üfüqə çapırdılar. Ka barmağının ucunda köhnə, göy boyalı, taxta qapıya yaxınlaşdı. Qapının üzərindəki dəmir lövhədə, kiril əlifbasıyla, qara boyayla bu sözlər yazılmışdı: "НИНО КИПИАНИ". Ehtimal ki, bu evi Nino xalaya sovet vaxtı işlədiyi idarədən vermişdilər. Görəsən, Nino xala harada işləmişdi? Ka sağ qulağını taxta qapıya dayadı və içəridən Nargilənin xəptən, hardansa gözlənilməz bir yerdən qopub gələn qaqqıltısından, şaqqıltı ilə gülüşündən savayı heç nə eşidilmirdi. Qəfildən, birinci mərtəbədə yaşlı bir kişi öskürəyi üfunət iyli, alaqaranlıq blokda əks-səda verdi. Ka cəld qulağını açar deşiyindən ayırdı və öz mənzilinin gilənar rəngli qapısına cumdu. Ələsgər dayı idi. Vərəmli xəstələr kimi dayanmadan öskürən Ələsgər dayı açarlarını şaqqıldada-şaqqıldada evinin qapısını açırdı. Ka

özünü eynilə həmin qaranlıq tuneldə ağzından od püskürən əjdahadan və fısıldayan qara ilandan qaçırmış kimi içəri təpdi.

Bu gün yorğun olduğu üçün heç nə etmək fikri yox idi. Radionu işə saldı və bir neçə müxtəlif dalğanı tutdu. Əvvəlcə sürücülərə yol hərəkəti qaydalarını başa salan bir veriliş, sonra orqan mafiyasının necə ifşa olunmasından bəhs edən başqa bir veriliş, falçılarla bağlı bir müsabiqə və nəhayət, öz əziz radiosunu tapdı. Bu dövlət radiosuydu! Hansısa bir romanı səsləndirirdilər. Bir neçə dəqiqə keçməmiş həlim səsli diktor yenidən gəldi. "Hörmətli dinləyicilər, indi isə Əminə Yusifqızının ifasında şeir parçalarını dinləyin!" Əminə şeirləri oxuya-oxuya Ka tualetə getdi, işədi. Sonra əllərini yuyub otağa qayıtdı. Əvvəlcə universitetə geyindiyi paltarını çıxarıb, gündəlik evdə geyindiyi köhnə idman şalvarını və üzərində "Fuck You" yazılmış qısaqol köynəyini geyindi. Eyvandan bir neçə kartof götürüb masanın üstünə qoydu. Kartofları soymağa başladı. Kartofu qızardıb, qovurma qazanından ən xırda ət parçasını birtəhər yağın içindən çıxarıb, az qala, zərrəciklərə ayırıb kartofuna qatdı. Yeməyini yeyib qurtarmışdı ki, Əminə Yusifqızı sonuncu "bu da qəlb" sözlərini dedi. Radio uzun müddət susdu. Qəribə bir sükut idi. Aradabir xışıltı eşidilirdi. Ka düşündü ki, görəsən, studiyada rejissor həlim səsli diktorun

harasını əlləşdirir. Ağlından müxtəlif seks pozaları keçirdi. Ayaq üstə, uzanmış vəziyyətdə, bir ayağı yuxarıda digəri düz, arxadan, qabaqdan... Ka siqaret yandırdı, mətbəxə keçdi və özü üçün bir çay qaynatdı. Geri qayıdanda həlim səsli diktor danışmağa başladı: "Hörmətli dinləyicilər, indi isə Ludviq Van Bedhovenin "Beşinci simfoniyası"nı dinləyirsiniz". Və birdən xəfiyyə kinolarındakı həyəcan siqnallarını xatırladan səslər gəlməyə başladı. Ka pəncərəyə yaxınlaşdı və neft buruqları arasında küləyin sovurduğu ağ sellofanlara, saralmış yarpaqlara tamaşa etdi. Bir az da Nino xala haqqında yazmalı olduğu hekayəni düşündü. Axı Nino xalanı niyə döyürdülər?

Ka cümə günü də adəti üzrə küçəsini yaxşıca təmizləyib evə qayıtmış, təzə paltarlarını geyinərək, "*Azərbaycan tarixi*" dərsliyini və "Dilin fonetik tərkibi"ylə bağlı yazdığı iki səhifəlik yazını götürüb dərsə yollandı. Diş fırçası və pasta almışdı. Ona görə də dişlərini yumuşdu, artıq neçə gündür hiss etdiyi diş ağrıları birdən birə yoxa çıxmışdı. Blokun ağzındakı skamyada oturub əlindəki 80-ci illərdən qalma radioda İkinci dünya müharibəsində rusların qələbə qazanmağında Azərbaycan neftinin rolundan danışan müxbirə qulaq asan Ələsgər dayının yanından ötüb keçəndə yadına düşdü ki, "**Kamasutra**"nın bu həftə oxumaq üçün ayırdığı

hissəsini də özüylə götürməliydi. Yenidən geri döndü, pillələri iki-bir, üç-bir qalxıb dördüncü mərtəbədə, mənzilinin gilənar rəngli qapısının ağzında dayandı. Açarı deşiyə salıb tələm-tələsik çevirdi və masanın üstünə qoyduğu həftəlik dəftərini açıb baxdı. 2-ci bənd, Kamasutranın "Öpüşməyin metodları" hissəsini oxumaq. Cəmi 3 səhifədir. Kitabı götürüb getdi.

"*Azərbaycan tarixi*" dərsində müəllim Səfəvilərin uşaq yaşlı hökmdarı Şah İsmayıl haqqında danışırdı. İmtahanda pul verib qiymət almaq məqsədi olanlar telefonlarında oyun oynayır, "facebook"da kiminləsə yazışırdılar, imtahanı öz beyninin, oxumağının, əziyyətinin hesabına vermək istəyənlər isə bütün güclərilə Şah İsmayılın, onun ana babasının, Ağqoyunlu hökmdarı Uzun Həsəninin adını dəftərlərinə qırmızı karandaşla qeyd edir, unutmamaq üçün altından bir dalğalı, bir düz xətt çəkirdilər. Ka dişlərini qızılla əvəzləmiş, qoca professora xeyli qulaq asdı, onun ağzından çıxanı dəftərinə yazdı. Dərs qurtarana yaxın oxumaq üçün götürdüyü "**Kamasutra**"nı açıb "Öpüşməyin metodları"nı oxudu.

"*Alın, göz qapaqları, yanaqlar, boyun, döşlər, məmə ucları, dodaqlar və ağızın içi öpüş üçün əsas yerlərdir. Lat xalqı əlavə olaraq, qolları, qasığı və göbəyi də öpürlər. Vatsayana bu cür öpüşün Latlara məxsus olduğunu, onların cilovlanmaz ehtiraslarından qaynaqlandığını, hər kəsə məsləhət görülmədiyini bildirir.*

Gənc bir qız üçün öpüşün üç növü var.

1.Tük öpüşü və ya xəfif öpüş. (Burada qız dodaqlarını sevgilisinin dodaqlarına toxundurur, özgə heç nə etmir.)

2. Ehtiraslı öpüş. (Qız utancaqlığını bir qırağa qoyur və ağzına girən dodaqlara qarşılıq olaraq alt dodağını istifadə edir.)

3. Toxunuş öpüşü. (Öz sevgilisinin dodağına diliylə toxunan qız gözlərini yumur və əllərini kişisinin əllərinə verir...")

Ka öpüşlə əlaqədar üç səhifəlik yazını oxuyub bitirəndə artıq tarix dərsi qurtarmışdı. Evə qayıdanda beynində ancaq öpüşün növlərini canlandırırdı. Məsələn, ən çox "tük öpüşü" xoşuna gəlmişdi. Eyniylə belə bir "xəfif öpüş" istəyirdi. Avtobusda ən arxadakı oturacaqda əyləşmişdi. Əvvəlcə yan-yörəsinə göz gəzdirdi, heç kim heç kimə fikir vermirdi. Ka dirsəyini guya pəncərəyə dayamaq bəhanəsiylə əlini ağzına apardı, dirsəyini pəncərəyə dayadı və əlinin içinə tez bir "xəfif öpüş" qoydu. Sonra pəncərədən yol boyu düzülmüş, yaşıl ağaclara, yerə döşənmiş qazonlara baxdı və özündən utandı. Tənhaydı və öyrəndiyi öpüş metodlarını sınaqdan keçirmək üçün özündən savayı heç kimi yox idi. Ancaq bu da məsələn, "Ehtiraslı öpüş"ü sınaqdan keçirməyə imkan vermirdi. Ona təcili bir dodaq lazım idi. Təcili!

Evə girəndə xeyli yorğun idi. Ancaq hələ qaranlıq çökməmişdi. Özü üçün iki yumurtanın

qayğanağın bişirib yedi. Bu dəfə qovurmadan istifadə etmədi. Üstündən də da çay içdi. Kitablarının hamısını masanın üstündə səliqəyə saldı və bəzi dərslərini oxumağa başladı. Sonra bir siqaret yandırıb çəkdi. Dərslərini qurtarandan sonra çarpayısına uzanıb radioya qulaq asmağa başladı. Həmişəki dalğadaydı, yenə klassik musiqi gedirdi. Düzü, bu dəfə diktorun səsi eşidilmirdi. Eləcə bir-birinin ardınca musiqilər düzülürdü.

Ka "K**amasutra**"nı götürüb oradakı təlim məqsədiylə verilmiş açıq-saçıq şəkillərə baxdı. Seks zamanı necə durmaq, penisi vaginanın içinə hansı qaydada salmaqla bağlı metodik vəsait idi. "**Kamasutra**" Kanın getdikcə ürəyini sıxırdı, buradakı adi xəfif toxunuşdan tutmuş, çətinliklə həyata keçirilən seks pozalarına kimi hamısı iki nəfərlik idi. Kitabın bəzi səhifələrinə, şəkillərinə baxıb boşaldı. Sonra kitabı daha oxumayacağına, ikinci adam həyatına gələndə yenidən vərəqləyəcəyinə söz verdi. Günlər ötdükcə Ka həmin tərəf müqabilinin yoxluğunu daha açıq-aşkar hiss edirdi. Eynilə çıxarılmış diş kimiydi. Həmin dişin damaqdakı boş yeri bütün varlığında bir çatışmazlıq, natamamlıq, yarımçıqlıq hissi yaradırdı. Ka üçün də beləydi. Ona mütləq öpüş üsullarını sınaqdan keçirmək üçün bir cüt dodaq, həzzin ilahi məqamına çatmaq üçünsə digər vasitələr lazım idi!

Çarpayıdan qalxıb masanın üstündəki siqaret qutusunu götürüb bir siqaret çıxartdı, yandırdı və mətbəxə keçib özünə yenə çay qaynatdı.

– Bəsdir. Qurban olum, vurma. Qolum ağrıyır axı, – deyə Nino xalanın yalvarışları, zarıltısı üfunətli blokda əks-səda verdi. Nargilə yenə qışqırırdı, bu dəfə Əlibalanın səsi eşidilmirdi. Deyəsən, evdə yoxdu.

Ka cəld qapıya yaxınlaşıb gözlükdən bloka baxdı. Nino xala yenə həmişəki ağ əlcəklərivlə qapının kandarında dayanıb yorğun yumruqlarıyla döyəcləyirdi. Sonra qonşular eşitməsin deyə, az qala, pıçıltıyla Nargiləyə yalvarırdı.

– Gözlə, alkaş, oğlun gəlsin, ona deyərsən gecənin bu vaxtı hardaydın, sonra səni evə buraxacam. Sürtük, gedib özünə cavan oğlan tapmısan. Kef edirsən!

Nino xala sakitcə üfunətli blokun qoxusunu ciyərlərinə çəkə-çəkə qapıda kiridi. Adəti üzrə Nargilənin gözünün qaraldığı, üzünü döndüyü məqamlarda oturub hirsinin soyumağını gözlədiyi pillələrə əyləşdi. O, adətən, on bir pilləli pilləkənin dördüncüsündə otururdu. Adətinə xilaf çıxmadı. Pillədə oturdu, başını divara söykəyib zarımağa başladı. Ka gözlərini qapı gözlükdən çəkmir, beynində isə yeni yazacağı hekayənin formasını, Nino xalanı necə təsvir edəcəyini düşünürdü. Alaqaranlıq blokda Nino xala ağladıqca, zarıdıqca Ka sanki daha maraqlı bir möv-

zu seçdiyinə sevinir, hekayəsindən qazanacağı pulları xərcləyəcəyi yeri müəyyən etməyə çalışırdı. Ka xoşbəxt idi, çünki hekayəsi üçün gün keçdikcə material toplaya bilirdi. Xoşbəxt idi?

Nəhayət, qadının ah-vayını eşidən Ələsgər dayı yuxarı çıxdı və Nargiləni danladı. Nargilə da qapını açıb, qonşularla üz-göz olmaq istəmədiyi üçün qadını içəri buraxdı. Daha doğrusu, indiyə qədər görünməmiş bir nəzakətlə, Nino xalanın bəlkə də ömründə birinci dəfə eşitdiyi xoş sözlərlə onun qolundan tutub evə apardı.

– Ana, sən niyə burda qalmısan? Gəlib qapının ağzında niyə oturmusan? – dedi. Onun qolundan tutub qaldırdı. Nino xala eynilə ac, soyuqdan donan, sısqa, canüstə olan pişiklərsayağı divara qısıla-qısıla içəriyə girdi. Ələsgər dayı vərəmli xəstələr kimi xeyli öskürdü. Dünyanın və taleyin nimdaş sifətinə tüpürdü, sonra da sürahidən yapışıb ehmal-ehmal evinə yollandı.

Ka qapıdan uzaqlaşdı. Əlindəki siqaret kötüyünü qəndqabı qapağında söndürdü. Radiodan qəribə xırıltı gəlirdi, musiqini yaxşı dinləmək mümkün deyildi, dalğanı dəyişdi, ancaq heç nə düzəlmədi. Radionu söndürdü. Çay içmək həvəsi qalmamışdı. Qaz sobasının altını da bağladı, çarpayısına uzanıb yatdı.

Şənbə günü hava günəşliydi, Ka bir az gec qalxdı, yatıb qalmışdı. Cəld köhnə paltarlarını geyinib küçəsini süpürməyə getdi. Küçəni sü-

pürüb bələdiyyəyə qayıdanda Çimnaz xala dedi ki, sədr tapşırıb ki, gələndə hər gün səhər tabelə qol çəksin. Ka tabelə qol çəkib evinə qayıtdı. Marketdən bir çörək və şəkər tozu almışdı. Çaydanı qaynatdı, çayı dəmlədi, süfrəni hazırladı və səhər şirin çayla, anasının Cəhridən göndərdiyi pendirlə yeməyini yedi.

Bu gün yuyunmalıydı, ona görə hamamı qızdırdı və çimdi, üzünü qırxdı, qasığının arasına baxdı, gələn həftəyə saxlamaq olardı. Alt-paltarlarını yuyub zivədən asdı.

Ka yenə çay dəmlədi və içdi. O, çayı çox sevirdi. Adətiydi, gününün müəyyən vaxtlarında, səhər yeməyində, səhərlər günorta arası, günorta yeməyindən sonra, günortayla axşam arası, axşam yeməyindən sonra, axşam yatmazdan bir saat qabaq mütləq bir fincan çay içməliydi. Onların ailəsində də beləydi. Cəhridə olanda həyətdə Hürnisə nənəsindən qalma samovarı həvəslə qalayır və qəşəng bir çay dəmləyirdi. Hamı da məhz Kanın hazırladığı çayı istəyirdi. Onu xoşlayırdılar. Çünki Ka çaya uşaqlarla bir yerdə "Qaş dağı"nın ətəklərindən yığıb gətirdiyi çobanyastığı, kəklik otu tökürdü. Dəmin alovun üstündə qalma vaxtını, rənglə isti suyun fincana tökülmə miqdarını o, hamıdan daha yaxşı bilirdi. Çayın rəng tonları, fincana nə qədər dəm, nə qədər qaynadılmış su tökməli olduğunu da yaxşıca müəyyən edə bilirdi.

Radio Bakıya gəldiyi gündən Kanın yaxın dostu, sirdaşı olmuşdu. Klassik musiqilər, arabir bir-iki cümləylə eşidilib yoxa çıxan diktorun həlim səsi, (Kaya elə gəlirdi ki, bu həlim səsli diktor radionun içində oturub sakitcə öz bir-iki cümləlik vaxtının gəlməsini gözləyir. Hərdən nəfəs alıb vermək səsi eşidilir, radio dalğaları xırıldayanda isə, qadın rejissorla sevişir,) kitabxanadan aldığı kitablar onun dostlarıydı. Ka sakit insan idi, insanları tezliklə öz qəlbinə buraxa bilmirdi, adamlar onunla dost olmaq həvəsinə düşmürdülər, o, heç kim üçün maraqlı deyildi.

Ka radionu açdı və bir-iki dəqiqədən sonra həlim səsli diktorun səsi eşidildi. "Hörmətli dinləyicilər, Azərbaycan Dövlət Radiosunu dinləyirsiniz. İndi isə sizin üçün İohan Sebastian Baxın "*Fugue*" əsəri səslənəcək".

Baxı bir müddət dinlədi, sonra isə dəftərini açıb bu həftə üçün etməyi nəzərdə tutduğu işlərin siyahısına baxdı. Demək olar ki, həftə ərzində nəzərdə tutduqlarının hamısını yerinə yetirmişdi.

Həftənin bazar günü də hava günəşliydi. Ka küçəni vaxtında süpürüb qayıtmışdı. Bu gün dəftərinə nəsə yazmağa həvəsi yox idi, ancaq elə bir hadisə baş verdi ki, onu mütləq yazmalıdır. Nino xalanı təcili tibbi yardım maşını gəlib xəstəxanaya apardı.

Ka gələn həftə üçün etməli olduğu işlərin siyahısını tutdu.

• Atama baş çəkmək.

• Nino xala barəsində Ələsgər dayıdan məlumat toplamaq.

• Küçəni vaxtında süpürmək və tabelə hər gün qol çəkmək.

• Dərsləri qaydasına salmaq və müəllimin dediyi hər şeyi qeyd etmək.

• Qəsəbənin kitabxanasından aldığım kitabları geri qaytarmaq və maraqlı bir roman götürmək.

• Zivədən paltarları yığmaq.

• Evi təmizləmək.

• "**Kamasutra**"ya yenidən baxmaq.

• Evə aşağıda yazılanları almaq.

– 3kq. kartof

– 0,5 kq. soğan

– 250 q. paraşok (ucuzundan). Balaca sabun. (Ucuz şampun tapsan al.)

– iki cüt corab

– təzə ülgüc

– bir kilo qənd

– iti bıçaq

Ka bazar günü ancaq dərslərini oxudu, radioya qulaq asdı...

20..-Cİ İL. NOYABR AYININ DÖRDÜNCÜ HƏFTƏSİ

Küləklər qara atlıların arasından özünü pəncərəyə təpdikcə binanın qabağındakı salxım söyüdün yarpaqlarını bütünlüklə əynindən soyundururdu. Sarı, qızılı, tünd-sarı, açıq sarı, qəhvəyi, tünd-qəhvəyi yarpaqlar adda-budda ya ağacların lap təpəsində, ya da ki, səkinin hansısa küncündə gözə dəyirdi. Payızın sonuncu həftəsində şaxtalı və qəzəbli qışın ilk müjdələri gəlirdi. Çox uzaqlardan əsən qara külək özü kimi qara xəbəri harasa aparırdı. Fəzanın zülmətində qoca, əldən düşmüş, sarsaq yer kürəsi başı axanacan fırlanıb qəsdən zamanın əqrəblərini boş-boş fırladacaq və hamını bacardığı qədər tezcə doğuzdurub, qocaldacaq. Ta ki öz yaxasını bu ikiayaqlı, ətyeyən sürüdən xilas edənədək... Yəqin çürüyüb torpağına qarışdırdığımız əzalarımızı elə həmin fəzanın boşluğundaca özündən uzağa tolazlayacaq. Odur ki, gərək ikiayaqlı ətyeyənlər "əbədi həyat"dan və "o biri dünya"dan möhkəm yapışsın. İnamlarımız xeyirli olsun!

Binə qəsəbəsinin məlum təcridxanasına yenə ayaq döymək vaxtı gəlib çatmışdı. Ka bu dəfə həmişəkindən həvəsliydi. Çünki atasına böyük bir silah aparırdı. Möminə Xatun və xəzinələr

barədə kitablar... Ka Simurq quşunun, Ağ qoçun xəyalən apardığı həmin gizli xəzinənin varlığına inanırdı. Ka əmin idi ki, belə qızıl külçələri, sandıqların içindəki qiymətli, parlaq daşlar onun yolunu gözləyir. Pişvazına çıxmaq üçün qoruyucuları olan qara ilanlara, ağzıalovlu əjdahalara çoxdan qılıqlanıblar. Əgər atası Möminə Xatun türbəsində xəzinə olduğuna inanırsa, deməli, buna şübhə etmək özünü gülünc vəziyyətə qoymaq kimi bir şeydir.

Yenə həmin sınıq-salxaq stolların arxasında oturub donqabelli, dişi tökük, gözlərində yazıq adam baxışı olan məhkumların intizarını çəkmək məqamıydı. Bu dəfə Kanın həmişə arxasındakı mizin qabağında oturub əlindəki pay-püşü qurcalayan qadın yox idi. Pəncərənin yanında qalın dəri gödəkcə geyinmiş, cins şalvarlı cavan oğlan əyləşmişdi. Kanın arxasındakı mizin qabağında ağsaqqal bir kişi oturmuşdu. Qapının yanındakı masanın arxasında 18-19 yaşlarında, arıq, başına qırmızı güllü örpək bağlamış, gözlərini masanın altına, dizlərinin üstünə qoyduğu ağ dəsmala zilləmiş, olduğu yerdən utanan bir qız əyləşmişdi. Böyründə qara rəngli sellofan paket var idi. Qızın qarşısında 60 yaşlarında bir kişi dayanmışdı. Kişinin qalın, qara şalvarının balaqları palçıqlıydı. Əynində köhnə pencək var idi. Ağ saqqalı və ortası seyrəlmiş başı diqqəti cəlb edirdi. Danışdıqca naxələf, işbilməz diş həkiminin

bacarıqsızlığı adamda ikrah hissi oyadırdı. Hər kəlmənin sonunda kişinin ağzındakı qoyulma dişlər, az qalırdı, çıxıb yerə düşsün. O, yanındakı polislə xəlvətcə pıçıldaşırdı. Görəsən, nədən danışırdılar?

Tavana dirənən balaca pəncərə açılmışdı. Günəşin ilıq şüaları içəri dolurdu. Ancaq hava soyuq idi. Dəmir qapıların kilidbəndləri dartıldı, açarlar qapıdakı yerlərində bir-iki dəfə sağa-sola fırlandı və intizarla gözlənilən donqabelli adamlar, ürkək və çarəsizlik maskalarını sifətlərinə taxıb, yorğun və əzab çəkən Həzrəti İsa müqəddəsliyini nimdaş əyinlərinə geyinib gəldilər. Bu dəfə cəmi beş məhbusun ziyarətinə gəlmişdilər. Q. Özünü hamıdan birinci yetirdi. Çöhrəsində qəribə bir təbəssüm var idi. Kanı həmişəkindən mehriban qarşıladı. Qucaqlayıb üzündən öpdü. Niyə də öpməsin ki... Cibində gətirdiyi onun bütün nəslinin başını uca, cibini dolu, hörmətini də artıq edəcəkdi.

Kanın arxasındakı masada oturan qara gödəkcəli adamın gözlədiyi məhkum qarayanız, arıq və əllərində bütünlüklə döymələr olan bir kişiydi. Başı örpəkli gəlinin pişvazına gəldiyi bu fikirli adam enlikürək, ağbəniz və təzə-təzə həbsxana ab-havasını udaraq fərqli bir cinayətkar cildinə düşən 25-26 yaşlarında gənc oğlan idi. Oğlan hər dəqiqə bu qızın əlindən tutur, ona gəldiyi üçün təşəkkür edirdi. Qız isə lal-dinməz

əlindəki dəsmalı əzişdirir, aradabir başını qaldırıb gülümsəyirdi.

– Bu kitabları yaxşı oldu gətirdin. Bax, bu kitabdan hələ heç kimdə yoxdur. Lap az nüsxəylə çap olunub. Naxçıvandakı bütün tarixi abidələrin altında, həndəvərində gizlədilmiş xəzinələri nişan verir. Bu da ki dəfinə xəritələrini oxumaq üçün lazım olan işarələrin izahıdır. Bunu götür, sənə lazım olacaq, – deyə Q. qırmızı üzlü, yaxşıca cildlənmiş kitabı ona qaytardı.

– Nəyimə lazım olacaq? – Ka heyrətlə soruşdu.

– Sakit ol, kitabları masanın üstündə saxlama, götür qoy sellofana. Al, – atası corablarını çıxarıb qara sellofanı ona uzatdı. Ka kitabı tezcə paketə qoyub qollarının altında gizlətdi.

– Evlə danışırsan?

– Hə.

– Mən dünən danışdım, ananın işini artırıblar. Çox çətin olur ona...

Ka dinmədi.

– Təkcə mənim yüküm deyil, sənin oxumağın da var. İkimizə də pul çatdırmalıdır.

Ka sakitcə atasının tuluqlu gözlərinə, yorğun çöhrəsinə baxırdı. Sonra başını çevirib pəncərənin yanındakı cavan qıza nəzər saldı. Qız dodaqaltı nəsə danışırdı. Oğlan qızın əlindən tutmuşdu. Şalvarının balaqları palçıqlı ağsaqqal kişi qapının yanındakı bir polislə söhbət edirdi.

– Məndə elə bir xəritə var ki, onunla ömrümüzün axırına qədər xoşbəxt yaşayacağıq. Heç burda yaşamarıq, başqa ölkəyə gedərik. Avropada tarixi əşyalar burdan xeyli bahadır, – deyə Q. az qala, ağzını Kanın qulağına dayayıb pıçıldayırdı. O, danışdıqca bu qaraşın oğlanın, arıq tələbə, İ.Məmmədov küçəsinin süpürgəçisinin gözləri iri-iri açılırdı. Nağıllar danışan keçmişdəki ata yenidən qayıdırdı.

Ka heç nə demirdi. Eləcə başını tərpədir, atasının sözlərini təsdiqləyirdi.

Q. dörd qatlanmış balaca dərini Kanın ovucuna basdı: "Götür, bunu cibinə qoy", – dedi.

Ka atasının verdiyini alıb cəld cins şalvarının cibinə qoydu.

– Möminə Xatun Atabəylərin bütün xəzinələrinə nəzarət edirdi. Camal deyir ki, tarixçilərin yazdığına görə onun özünün şəhər sənətkarlarına xüsusi sifariş verib hazırlatdığı zinət əşyaları kolleksiyası var imiş. Həmin kolleksiya bax, sənə verdiyim xəritədə göstərilir, – deyə Q. pıçıldadı. – Yay tətilinədək bu kitabı oxu, bax gör başqa nə tapırsan. Mən də Camaldan əlavə məlumat toplayacağam.

– Onun özü niyə gedib axtarmır?

– Ona ömürlük həbs veriblər. Çöldə də heç kimi yoxdur.

Ka dillənmədi. Sanki bu sualı da elə-belə söhbət xatirinə vermişdi. Bayaqdan yanında baş

verənlərə gözünün ucuyla nəzər yetirirdi. Xeyli söhbətdən sonra qız oğlanın yanına düşüb, belisilahlıların kandarında dövlət bayrağını qoruyurmuş kimi dayandığı qapıdan içəriyə keçdi. Bu gənc qadını niyə məhkumların yanına apardılar?

Ka sevinirdi. Sevinirdi ki, Möminə Xatun məqbərəsinin həndəvərində Atabəy Eldənizin gizlətdiyi xəzinin xəritəsi onun cibindədir. Ka kədərliydi. Kədərliydi ona görə ki, Q. yenə də xəzinə xulayalarıyla, varlanmaq və tarixi əsərləri Avropaya qaçırıb yaxşıca satmaq nağıllarıyla onu aldadırdı. Aldadırdımı? Ka tərəddüd içindəydi. Atasına bütün qəlbiylə inanmaq istəyirdi. Ancaq onun donqar belini, tuluqlu gözlərini və bütün məhkumlara məxsus o qəribə baxışlarını beynindən çıxara bilmirdi. Həqiqət lüt-üryan soyunub onun burnunun ucunda dayanmışdı. Q. həbsxanadaydı, əlindəki xəzinə xəritələrinə rəğmən, böyük tarixi sirləri, maraqlı nağılları bilməyinə baxmayaraq, o həbsxanadaydı. Ümidləri puça çıxmış, tarixi abidələri dağıdaraq onların altında xəzinə axtarmaq üstündə həbs edilmiş adam içərinin qaydalarına riayət etməliydi. Dövlətin ona gündə üç dəfə verdiyi yeməyi bacardığı qədər şükürlə, minnətdarlıqla mədəsinə endirməliydi. Bir də həftənin bir günü növbəsi çatdıqda həbsxananın ümumi tualetini təmizləməli, su çanaqlarından çölə uzanan

borulardan qaçıb xilas olmaq fikrini ağlından keçirməliydi. Bəlkə də həbsxananın ən gözəl tərəfi elə qaçmaq haqqında xəyal qurmaq azadlığıdır. Buna görə səni heç kim cəzalandırmaz. Bircə xəyallarını, arzularını, istəklərini gerçəyə çevirməyəsən...

Elektrik qatarının Binə stansiyasında dayanıb gözlədi. Köhnə qatar relslərin üzərində ləngər vura-vura gələcək və onu pulsuz-parasız mənzil başına çatdıracaqdı. Stansiyada ondan savayı heç kim yox idi. Bircə qatar relslərinin arasında quyruğunu bulaya-bulaya gəzinən, arıq, tükünü tökmüş, sümükləri görünən bir it eşələnirdi. Bir də Kanın görüş otağında nəzərini üstündən yayındırmadığı həmin balağı palçıqlı, yaşlı adam idi. Skamyada oturub, əllərini qoynunda pərçimləyib, yekə qarnını qabağa vermişdi. Görünür, üşüyürdü. Xeyli müddət Kaya diqqətlə baxdı. Sonra cibindən siqaret çıxarıb yandırdı.

– Sən də həbsxanaya gəlmişdin?

– Hə.

– Kimin var içəridə?

– Atam.

– Nə üstə tutulub, bala?

– Qızıl axtarırdı, gecəylə tarixi abidəni uçurub. Bəs, sizin kiminiz var orda? Qohumunuzdur?

– Yox, qızımın yoldaşıdır.

– Nə üstə?

– Adam öldürüb. Dostlarıyla sözləri çəp gəlib, dalaşıblar. Bu da əlinə bıçaq keçib, götürüb onu bıçaqlayıb... Bala, çox çətindir... İyirmi il veriblər. Yoldaşıyla üç ildir görüşmürlər. Elə toy axşamı tutub apardılar. Birtəhər bir günlük icazə almışam. Bu gün... (siqaretindən dərin bir qullab çəkir, bütün tüstünü var-gücüylə ciyərlərinə doldurur) axşam qalacaq... Mən də burda səhərə kimi gözləməliyəm. Tezdən gedib, götürəcəyəm...

Ka daha heç nə demədi, heç nə də soruşmadı. Uzaqdan elektrik qatarının relslər üzərində aramsız taqqıltısı eşidildi. Stansiyanın qabağındakı dəmir relslərin arasında eşələnən tükü tökülmüş it səsdən ürküb kənara çəkildi, quyruğunu buladı və qəribə şəkildə zingildədi. Sonra hürdü.

– Sağ ol, dayı. Allah köməyin olsun, – deyə Ka kişiylə vidalaşıb qatara mindi.

Nino xala haqqında Ələsgər dayıdan məlumat toplamalıydı. Amma bütün həftə boyu çox güclü küləklər əsdiyinə və bütün günü yağış yağdığına görə Ələsgər dayını həyətdə görə bilmədi. Həftənin dördüncü günü, cümə axşamı Nino xala gəldi. Arvadın qolunu gipsə salıb, ağ tənziflə boynundan asmışdılar. Həmin hadisədən sonra qapılarına bir-iki dəfə polis gəldi. Nino xala, deyəsən, yıxıldığını demişdi. Ancaq buna nə onun özü, nə də ki polislər

inanmadı. Bir tərəfdən də Nino xalanın qolunu qırmağı onun xeyrinə işləmişdi. Daha səs gəlmirdi. Ka Nino xala qayıdan günün axşamı hər dəqiqədənbir qapını açır, dəhlizə baxır, səs gəlməyəndə qapıya yaxınlaşıb qulağını dayayırdı. Evə dərin sükut çökmüşdü. Hərdənbir Nino xalanın öskürək səsi, Nargilənin televizorun kanallarını dəyişərkən "ah!", "uf!" etməsi, Əlibalanın verilişlərin aparıcılarının ünvanına dediyi bir kəlmədən ibarət atmacaları...

Ka Nino xala haqqında yazmaq istədiyi hekayəni necə başlayacağını bilmirdi. Bəzən yazıçı olmaq arzusunda da tərəddüd edirdi. Ancaq yox, fikri qətiydi və o mütləq çox məşhur bir yazıçı olmalıydı.

Qəsəbə kitabxanasına çərşənbə günü getmişdi. İkinci mərtəbədəki taxta pillələri qalxıb kitabxananın qapısını açanda üzünə qızardılmış sosis-kartof ətri vurdu. Bu adəti üzrə kitab rəflərinin arasında özünə balaca bir mətbəx düzəltmiş kitabxanaçı Elza xanımın yeməyinin qoxusuydu. Elza xanım Ka ilə lap ilk gündən dost olmuşdu. Arıq, bir az belini əyərək yeriyən, saçlarının yarısını sarı, yarı qara boyadan, şairləri və şeri sevən, romanlara və yazıçılara nifrət edən ("qalın kitab oxuya bilmirəm, hövsələm daralır"), ərindən boşanmış, sonra başqasıyla evlənmiş, gözünün ağı-qarası bircə oğlunu oxutmağa çalışan bir qadın idi. Elza Kaya həmişə öz qonşularından, iş

yoldaşından, kitabxananın müdirəsindən giley edirdi. Ka isə eynilə atası ilə söhbətdə olduğu kimi, Elza xanımın danışdıqlarını da zorən-təbəssümlə yola verirdi. Kanın yeganə dərdi Elzadan icazə alıb kitab rəflərinin arasına girmək və oradan istədiyi kitabı seçmək idi. O, Elza ilə yaxşı münasibətin hesabına, iki kitab götürmək hüququ olduğu halda, üç-dörd kitab aparır və onları on beş günə deyil, daha uzun müddətdən sonra qaytarırdı. Qısası, istədiyini götürür, istədiyi vaxt oxuyur, istədiyi vaxt da qaytarırdı. Ka bədii ədəbiyyatları gündəlik yolda, metroda, tənəffüslərdə oxuduğu kitabları proqramına yazmırdı.

Bu dəfə "*Tom dayının koması*" romanını götürdü. Evə qayıdanda kitabı masanın üzərinə qoydu. Sonra zivədəki paltarları yığdı, səliqəylə qatlayıb onun üçün şkaf rolunu oynayan balaca stulun üzərinə qoydu. Evi əvvəlcə süpürdü, ardınca sildi. Artıq axşam düşmək üzrəydi. Anasının göndərdiyi qovurmadan bir tikə çıxarıb tavaya atdı, yanına iki yumurta vurub axşam yeməyini yola verdi. Yedikcə radioda həlim səsli diktor danışırdı: "Hörmətli dinləyicilər. İndi isə Azərbaycan Dövlət Radiosunda Motsarta qulaq asırsınız. Fortepianoda Mutsiko Uçida ifa edir". Onun adını bilmədiyi xeyli bəstəsi radiodan səslənirdi.

Kanın dərsləri qaydasındaydı. Bircə psixologiya müəllimi oxuyub-oxumayana baxmırmış. Hamı onun imtahanında mütləq pul verməlidir. Ka nə edəcəyini bilmirdi. "3" almaq üçün, qadın 300 manat istəyirdi. O, bütün varlığıyla psixologiya kitabını əzbərləməyə və heç olmasa üç almağa qərar vermişdi. Özünü çarəsiz hiss edirdi. Ömründə birinci dəfə ağlamaq, göz yaşı tökmək, həyata qarşı necə gücsüz olduğunu etiraf etmək istəyirdi. Ancaq yox (!) onun məqsədi var idi. Həyatda mübarizədən, çətinlikdən geri çəkilməmək, qorxmamaq və mübarizə aparmaq! Ka inanırdı ki, qələbə yalnız əzablara dözənlərin, çətinlik çəkməyi bacaranlarındır. O, yeni bir müharibəyə başlayırdı və mütləq qalib gəlməliydi.

Ev üçün bazarlıq etmişdi. Bircə şampun ala bilmədi. Ancaq eybi yoxdur, onsuz da ötüşmək olar. Alıb gətirdiklərini eyvana yığdı. Yorğun idi, çarpayısına uzanıb gözlərini tavana zillədi və radioda "*Erya-Orinoko FLOW*" səslənirdi. Bu, onu bir qədər kədərləndirdi, özündən asılı olmadan gözləri doldu və bir damla yaş yanağından axıb çarpayıya düşdü. Ka yanağını silmədi, sadəcə olaraq, gözlərindən çıxmış iki damla duzlu suyun necə yavaş-yavaş hərəkət etdiyini, süzüldükcə üzünə yayıldığını və quruyub yox olduğunu hiss etdi. Pəncərəni külək döyəcləyirdi. Ka heç nəyə məhəl qoymurdu,

sanki qəfildən qəribə bir girdaba düşmüşdü və bu qaranlıq quyunun içərisində onu özünə maqnit kimi çəkən kədər burulğanı, qasırğası var idi. Birdən çöhrəsində həzin bir təbəssüm yarandı. Bu, kədərli gülüş idi.

Çarpayısından qalxdı, bazarlıq edərkən özü aldığı iki ədəd siqaretdən birini yandırıb damağına qoydu. Tüstüsünü həlqələr şəklində üfürməyə çalışdı. Ancaq alınmadı, çünki həyatında cəmi bir qutu siqaret çəkmişdi, yəni iyirmi ədəd, bu isə onun iyirmi birinci siqareti idi. Siqaret yarıya çatanda radiodakı mahnı bitdi, diktorun həlim səsi daha eşidilmədi.

Musiqi səsləndikcə Ka siqaretini çəkdi, düşündü, mahnının sözlərini təkrarladı, qəribə bir təbəssümlə öz-özünə gülümsədi. Qəhərləndi. Gözlərini evin divarlarında gəzdirdi, özünə bəşəri, dərin, cavabını heç kimin tapa bilmədiyi suallar verdi, hamı kimi cavabsız qaldı. Öz-özünə sonu sual işarəsiylə bitən cümlələr qurdu. Pəncərəni açdı, payız kədərini evə buraxdı, qəlbini açdı və divarlara həyatının bütün tənhalığını, yolunun əyriliyini, kədərinin səssizliyini danışdı. Kanı heç kim dinləmirdi, divarlar susurdu, küləklər gəldiyi kimi də çıxıb gedirdilər, hətta halqavarı düzəltməyə çalışdığı siqaret tüstüləri də Kaya arxa çevirdilər, evə dolan neftli küləklərə qoşulub kiridilər. Qara atları üfüqə çapanlara qoşuldular.

Ka yenə zorla da olsa, öz-özünə pıçıldadı: “Mən xoşbəxtəm”. Sonra bir qədər də ucadan dilləndi: “Mən çox xoşbəxtəm”. Və növbəti xoşbəxtliyi təqlid cəhdi: “Mən dünyanın ən xoşbəxt insanıyam”. İnandımı?

Siqaret bitmək üzrəydi, kötüyünü qəndqabı qapağında söndürdü. Mətbəxə keçdi, çaydanı qaz sobasını üzərinə qoydu. Pəncərədən qalxıb-enən neft quyularının dəmirinə baxdı, sonra binanın qabağında oturub radiosuna qulağını dirəyən Ələsgər dayının boş qalmış skamyasına, salxım söyüd ağacının yarpaqlarına, saralmış budaqlara qonan sərçələrə baxdı. Buludlu səmaya, uçub isti ölkələrə gedən qaranquşlara, zibilxananın yanında oynayan pişiklərə nəzər saldı. Pəncərənin çərçivəsi ağ boyasını tökmüşdü, məhəccərin qabağında qəribə yazılar yazılmışdı. Ev yiyəsinin uşaqları əllərinə qələm keçən kimi evdəki divarlara, boş və xoşa gələn yerlərə öz adlarını, müəllimələrinin adlarını və öyrəndikləri “2+2=4”, “Gülbahar müəllimə pırpızbaşdır” sözlərini yazmağa başlayıblar. Ka öz uşaqlığını xatırladı. O da ilk dəfə evlərinin divarlarına, məhəccər ağızlarına, dibçəklərin üstünə çəkilmiş ağ kağızlara qarma-qarışıq şəkillər cızmış, üstəgəl, çıxma, vurma öyrənmişdi. Ya da atasının qızıllarla, çoxlu pullarla şəklini çəkmişdi. Çünki Ka atasını məhz sadəcə Q. kimi deyil, Möminə Xatun, Teymurləng, Atabəy Eldəniz,

“Əshabi-kəf”də üç-yüz illik yuxuya gedən “yeddi kimsənə” kimi tanıyırdı. Əslində, atası həmişə belə qəribə, güclü və möhkəm adam olmuşdu. Bəs indi həbsxanadakı qocalmış, kürəyi əyilmiş, aramsız siqaret istəyən, dörd divarın arasında gizli xəzinə tapacağına inan adam kim idi? Ka indi anladı ki, əslində, o, hər həftə həbsxanaya getməyə özünü məcbur edir. Bəlkə də bilmirdi, bəlkə də həmin o göz qapaqları qırışmış, xəzinə axtaran adam da köhnə at belində, əlində iki metr uzunluğunda qılıncı olan Teymurləngin sorağında idi. Tapardımı?

Qəfildən radioda dalğa itdi. Evə qəribə xırıltı yayıldı. Ka cəld radionu söndürdü, mətbəxə qayıdıb çaydana baxdı. Su hazır idi, çayı dəmlədi. Fincanı masanın üzərinə qoydu, növbəti, axırıncı gilə siqaretini yandırdı və çəkməyə başladı. Yenə ağzındakı dumanı halqavarı otağın içərisinə buraxmaq istədi, bu dəfə alındı. Eyniylə müqəddəs təsvirlərin başı üzərində daim gəzişən ağ halələr kimi otağın alaqaranlığında yavaş-yavaş tavana doğru qalxdı və çilçırağın altına yapışdırılmış gipsə, köhnə iki qanadlı eşq mələklərinin üzərinə toxunub parçalandı.

Ka cibindəki dəri üzərində təsvir olunmuş xəritəni düşündü. İmkanı olsaydı, elə bu saat özünü Naxçıvana yetirər, “Mömінə Xatun” məqbərəsinin altını-üstünə çevirib xəzinələri tapar, ya da məyusluqla geri qayıdıb həbsxanadakı

atasının beynini gəmirən şübhə toxumlarına birdəfəlik son qoyardı.

Ka siqaretindən qullab vurduqca, tüstünü ciyərlərinə çəkdikcə xoşbəxtlik məşqləri edirdi. Külək pəncərəni döyəclədi. Qızılı qanadlı, gözlərində qəribə təmiz bir ifadə olan Simurq quşu qəfildən özünü yetirdi. Düzü, onun üfüqə doğru çapan qara atlılar ordusunun üzərindən necə keçib gəldiyi müəmmalıdır. Ka cəld Simurqun qanadı üstünə atladı və birgə səmanın dərinliyinə baş vurdular. Xeyli sıldırım qayalıqları, zirvəsi qarlı dağları keçib özlərini "Əshabi-kəf"ə yetirdilər. Bu da həmin quzu! "Qırmızı baş!" Ka qəfildən o açıq-sarı tüklü, körpə quzunu xatırladı. Ona samanı, doğranmış göy yoncanı öz əlləriylə yedizdirirdi. "Başına dönüm, atan xəzinəni tapan günü aparıb bu quzunu "Əshabi-kəf"də kəsərik", – demişdi anası. Elə həmin gündən – bu sözü eşitdiyi gündən, Ka elə bilirdi ki, quzuya nə qədər nəzakətlə, ehtiramla yanaşsa, qurbanı bir o qədər tez qəbul olacaq. Bəzən gecələr quzunu gətirib yanında yatızdırmaq istəyirdi. Evdən gizlicə çörək oğurlayır, təzə bişmiş yeməklərdən bir boşqaba çəkib quzunun yanına cumurdu. "Şirin quzu, bunları ye! Allah babaya dua et! Tezliklə səni aparıb kəsək!", – deyirdi. Elə bilirdi ki, quzu ondan razı qalsa, qarnı tox olsa atası mütləq xəzinəni tapıb gətirəcək. Bəlkə də quzu heç xəzinənin tapılmağını istəmirdi?!

Simurq qətiyyən tələsməzdi. Kanı axıracan gözləyərdi. Bircə bu "Ağ Qoç" əhdinə xilaf çıxırdı. Dözümsüz, səbirsiz idi.

Ka biradamlıq dünyasında, küncləri kif iyi verən kirayə otağının bir qırağına atılmış nimdaş çarpayısında uzanıb gözlərini yummuşdu. Fikri otaqdan çox-çox uzaqda idi. Sağ əlində, işarə barmağıyla baş barmağının arasında siqaret tüsdüləyirdi. Külək pəncərəni döyəcləyirdi. Ka keçmiş günlərini Simurqun qanadları üzərində pərvazlanaraq xatırlayırdı. Simurq quşu onu bu dəfə Cəhridəki evin məhəccərinə dirənən acıdənə ərik ağacının altına gətirdi. Gecənin zülmət qaranlığı həyətə çöküb. Evin aynabəndindən çölə neft lampasının öləziyən işığı axırdı. Balaca otaqlarının birində Ka lampa işığının altında oturub həvəslə geri qayıdacaq, əlində çoxlu xəzinə gətirəcək atasını gözləyirdi.

– Qırmızıbaş "Əshabi-kəf"ə gedəndə sevinəcək? Hə, ana?

– Əlbəttə. Qoy, atan xəzinəni tapıb gətirsin. Sənin qırmızıbaşını aparıb "Əshabi-kəf"də kəsərik.

– Bəlkə elə orda da qızıl var? Ata niyə gedib qızılı orda axtarmır?

– Hamısını bir-bir tapacaq, gətirəcək. Kart açdırmışam. Deyirlər bundan əlavə iki dənə də xəzinə görsənir.

– "Əshabi-Kəf"də kimin xəzinələri var?

– Atan gələndə soruşarsan.

Simurq həyətdəki acıdənə ərik ağacının üstündə qanadlarını bir-iki dəfə çırpıb getmək xəbərdarlığını verir. Yenidən Cəhrinin səmalarında üzü "Əshabi-Kəf" dağlarına doğru uçurlar. Ka bu balaca pəncərələrində zəif, neft lampasının öləziyən işığı közərən evlərə baxdı. Sonra qəfildən 2-3 min illik tarixi olan bu balaca kəndin olduğu kimi qalmasına, qətiyyən böyümək, dəyişmək meylinin olmamasına heyrətləndi. Bu kənddə bütpərəstlər, atəşpərəstlər, xaçpərəstlər, müsəlmanlar olub. Bu kənd buqələmunsayağı hər dəfə əsən küləklərdən xoşhallanıb, ləzzət alıb.

Günəş zenitdədir. Naxçıvanın üzərinə ələnən şüaların hamısı sanki həmin gün qəsdən "Əshabi-kəf" dağına zillənmişdi. Mağaranın önündəki "Çoban itinin qəbiri"nə xeyli zəvvar toplaşmışdı. Onlar bu bədbəxt, naməlum çobanın və onun itinin məzarını ziyarət edir, dualarla səmalara müraciətlər göndərir və bir ritualı dəqiqliklə icra etməyə çalışırdılar. Məsələn, qəbirin üstünə qalanmış daşların böyründə zəvvarlar yeddi müxtəlif ölçülü daşı üst-üstə qalayır və gələn iləcən bu formada qaldığı təqdirdə, niyyətlərinin yerinə yetəcəyinə, arzularının həqiqətə çevriləcəyinə inanırdılar. Simurq Kanın fikrini oxuya bilirdi. Ona görə də birbaşa istiqamətini çoban itinin qəbiri tərəfə yönəltdi.

Kanın təqribən 11-12 yaşı olardı. Qəbirin baş tərəfində çömbəlib yerdən tapdığı yastı, səliqəli və düz daşları bir-birinin üzərinə qalayaraq ürəyində bir arzu tutmaq istəyirdi. Əvvəlcə yumru, böyük bir daşı quru torpağın üstünə qoydu və "Allah baba, ata tezliklə xəzinə tapsın. Qırmızı başı gətirib kəsək. Quzu çox darıxır, bura gəlmək istəyir", – dedi. Sonra başqa daşı qoydu, yenə eyni sözləri təkrarladı. Kanın düz yanında, sağ tərəfində qırmızı geyinmiş, başına qırmızı lent bağlamış, sarısaç qız ordan-burdan yığdığı daşları üst-üstə qalayırdı. Ancaq qız hər daşı qoyduqca Kanın üzünə baxır, gülürdü. Altıncı daş bir az nahamar idi. Qız daşı əvvəlkilərin üzərinə qoydu. Qızın yeddinci daşı yox idi. Xeyli yan-yörəyə baxdı, ancaq daş görmədi. Hamısı yeddi-yeddi qalanmışdı. Ka öz yeddinci, balaca yumru daşını götürüb qıza verdi. Sonra isə... sonra isə həmin hadisədən keçən yeddi il ərzində Ka hər il bura gələndə düşünürdü ki, görəsən, daşı verdiyimə görəmi, hələ də atam xəzinələri tapa bilmir. Ka məhz o yumru, boz, tozlu, sağ tərəfdən bir az çıxıntılı, üstdən azca donqar daşı qıza verdiyinə görə şübhələr, tərəddüdlər içərisində qaldı. O, daş uzun illər onun yaddaşından silinmədi.

Simurq tərəddüd etməzdi. Simurq səbir etməyi, nəticəni gözləməyi, itaətə boyun əyməyi, yaxşılıq etməyi bacarırdı. Məqamı gəldiyi anda

Kanı qızılı qanadlarının üstünə atıb gəldiyi yerə də aparardı.

Ka qrup yoldaşlarıyla əvvəlkinə nisbətən daha yaxın münasibət qurmağa başlamışdı. Cümə günü "*Dilçiliyə giriş*" dərsindən sonra universitetin çayxanasında Raminlə çay içdi. Çayın pulunu Ramin ödədi. Raminin gözlərində həmişə qalın optik, qara çərçivəli eynək olurdu. Ramin çox vaxt tamaşalar üçün müəllimələrə və ya tələbə yoldaşlarına pulsuz bilet gətirirdi.

– Axşam işin var?

– Yox, evdəyəm. Həmişəki kimi...

– İstəsən, axşama "**Hamlet**" tamaşasına əlimdə bir bilet var. Çox yaxşı yerlərdədir. Düz qabaq cərgədə əyləşəcəksən, – deyən Ramin cibindən bir bilet çıxarıb masanın üstünə qoydu.

– Olar. Çox sağ ol!

Tamaşadan çıxanda qaranlıq düşmüşdü. "Nizami" metrosuyla birbaşa evinin yolunu tutdu. Yol boyu pafosla qışqıran aktyorların səsi qulağından getmirdi. Bir də beynində həmin məşhur monoloq var idi. Ka əvvəllər oxuyub əzbərlədiyi bu cümlələri yolboyu qəribə şəkildə dodaqaltı pıçıldayırdı. "*Olum, ya ölüm, budur məsələ. Hansı şərəflidir? Azğın taleyin müdhiş oxlarına susub dözməkmi, yoxsa fəlakətlər nəhrinə qarşı silaha sarılıb üsyanmı etmək? Ya qələbə çalmaq, ya həlak olmaq? Ölmək – yuxulamaq, yalnız budur, bu! Bununla ürəyin ağrılarını, əzəldən insanın nəsibi olan minlərlə*

dərdləri, iztirabları bir anın içində unuduruq biz. Bumu gecə-gündüz dua oxuyub arzu etdiyimiz gözəl aqibət? Ölmək – yuxulamaq, əbədi yatmaq, Sonra yuxu görmək! Bax, budur əngəl. Biz canı qurtarıb işgəncələrdən ölüm yuxusunda nə görəcəyik? Budur yolu kəsən. Bu səbəb bizi məcbur edir çəkək ömrümüz boyu bütün zillətləri, müsibətləri. Yoxsa kim dözərdi, kim dözərdi, kim zamanın cövrünə, həqarətinə, zalımın zülmünə, haqsızlığına, Lovğa əyanların təkəbbürünə, tapdanmış sevginin əzablarına, Acgöz hakimlərin əclaflığına, qansız nazirlərin sırtıqlığına, Hər cür şərəfsizin şərəfliləri iyrənc təhqirinə, istehzasına? Bunlardan əbədi qurtarmaq üçün bir xəncər zərbəsi kifayət ikən həyatın rəzalət yükü altında neçin sürünürük inildəyərək? Bizi vadar edən buna nədir, nə? Yalnız bircə qorxu, bircə vahimə: biz dərddən qurtarıb öləndən sonra o məchul aləmdə nə olacaqdır? Ordan qayıtmayıb hələ heç bir kəs. Bu fikir sarsıdır iradəmizi, bizi məcbur edir daim, həmişə çəkək bu tükənməz məşəqqətləri, məlum əzablardan yaxa qurtarıb naməlum dərdlərə can atmayaq biz. Bu dəhşət qorxağa çevirir bizi, Puç olur ağlımız, qətiyyətimiz, solur cürətimiz bir çiçək kimi. O böyük təşəbbüs, o ali məqsəd itirir adını, öz mənasını. Sus... sus! Ofeliya? Ey qəşəng pəri, hər zaman özünün dualarında xatırla mənim də günahlarımı". [1]

Bazar günü axşamın evə xəlvətcə təpildiyi, pəncərədən qara adamların qara atlara minib

[1] *(Tərcümə: Sabir Mustafa)*

üfüqə necə çapdığını fikirləşir, gələcək taleyini beynində çək-çevir edirdi. Qalın, qara üzlü dəftərini götürüb gələcək həftə üçün etməli olduğu işlərin siyahısını yazdı.

• ATM-dən maaşımı çəkmək.
• Evin kirayə haqqını ödəmək.
• Çimmək və başımı qırxdırmaq.
• Nino xalanı güdmək və hekayə üçün material toplamaq.
• ~~Kamasutranın OPARİŞTAKA bölümü, yəni (Oral seks)~~

(Yox, iradəmi məcbur edərək "**Kamasutra**"nı oxumamağa çalışmaq. İstədiyim qız olsa, onda öyrənərəm.)

• "**Kamasutra**"dakı çılpaq şəkillərə baxıb boşalmamaq.
• Psixologiya imtahanına hazırlıq üçün Axundova getmək.
• Küçəni vaxtlı-vaxtında süpürmək.
• Çirkli paltarları yumaq.
• Özünə bir qutu siqaret almaq. (Çalış alma, pulun gedir.)

Ka həftəlik proqramını yazdığı dəftərini bir kənara qoydu. Hava çox sərin idi. Adətkar səs eşidilirdi. Xəfif meh, neft buruqları insan nəbzi kimi aramla, eyni nizamla qalxır, enirdi. Əslində, hərənin bir parçasına sahib olduğu, hərənin bir hissəsini qoparıb özüylə aparmaq istədiyi

ürəkdi bu... Bircə hamı qorxur ki, parçalasalar ölər. Nə qədər ki canı üstündədir, nə qədər ki bu buruqların qəlb döyüntüləri gəlir, nə qədər ki, dünyanın min bir yerinə uzanan borulardan qan axıb gedir, qoy axsın... Axsın... Axsın...

Yəqin nə vaxtsa bu qara atlı adamlar üfüqə gedib çatacaq. Yəqin qulaqlarımızda əcəl zəngi kimi zingildəyən bu qəribə, qorxulu at nallarının taqqıltısı kəsiləcək. Bir hovur nəfəs dərib, Allahın yerə göndərdiyi təmiz havanı udacağıq, zəndeyi-zəhləmisi tökən bu axmaq taqqıltılar, nal səsləri, at kişnərtiləri çəkilib gedəcək. Mazut qoxusu olmayacaq. Hər qara atlının yerində bir alma ağacı əkəcəyik. Hərəmiz Adəmə dönüb, Həvvamızın alma yığmağını gözləyəcəyik.

Sonra, lap sonra qara atlılar kiriyəndən sonra, hərə günəşin qabağından öz səbətinə günəş toplayacaq.

20..-Cİ İL. DEKABR AYININ BİRİNCİ HƏFTƏSİ

– Cəhənnəm ol! Alkaş! Bir də bu evə gəlmə, eşidirsən? Get! Bütün həyatımı məhv etdin, – deyə Nino xalanın gəlini qışqırır, qapını çırpırdı.

– Qurban olum, vurma. Axı neynədim? Ay Allah! Öldür məni...

– Leş iyi verirsən...

Ka yuxudan dik atıldı. Səs-küy onun yuxusuna haram qatmışdı. İti addımlarla qapıya yaxınlaşdı, qapının gözlüyündən dəhlizə baxdı. Əynində həmişəki kimi yatmazdan əvvəl geyindiyi kərpici xətli, tünd-boz şort və ağ mayka var idi. Gözünü gözlüyə dirədi. Dəhlizdə heç kim görünmürdü, ancaq içəridən Nino xalanın həmişəki yorğun səsi eşidilirdi. Yalvarırdı. Ka, bu dəfə də qapını açmaq, gedib Nino xalaya kömək etmək istədi. Əlini açar yerinə uzatdı, açarı iki dəfə sağa fırlatdı, dəstəyi aşağı basdı, qapı açıldı, ancaq Ka yenidən qapını örtdü, açarı geriyə, sola iki dəfə fırlatdı, otağına keçdi, ordan da eyvana çıxdı.

Bütün günü evdə oldu. Dərsləri var idi, ancaq getmədi. Bu gün gedib ATM-dən maaşını çəkməliydi. Kirayənin pulunu ödəməliydi. Bu işi də axşamçağı etdi. Adətən, ev yiyəsinin mənzilinə gedib qapını döyür, pulu qapıdaca arvada

verib qayıdırdı. Qadın Kadan pulu alanda bircə kəlmə də demədən, dillənmədən, sakitcə əlini qapının arasından çölə uzadır, pulu götürür və burunun ucunda, çox astadan, güclə eşidiləcək dərəcədə "sağ ol" deyirdi. Bu, kök, iri əlləri olan, adəti üzrə, ev xələtinin cibləri sallanan, boynundan qalın, qızıl boyunbağı asan 40-45 yaşlarında bəstəboy bir qadın idi. O, bütün ev sahibələrindən fərqliydi. Kirayənişiniylə qətiyyən maraqlanmazdı, onun bu birotaqlı mənzilin başına gətirilənlərə tamamilə biganəydi. Ka bəzən bu evdə kirayə qaldığını da unudurdu.

Axşama kimi, bir-iki dəfə qapıya yaxınlaşdı. Nino xalanın səsi gəlmirdi. Sakitlik idi. Qapı gözlüyünün qabağında dayananda Mehdini gördü. Mehdi yuxarıdakı mənzildə yaşayırdı. Universitetdə oxuyur, deyəsən, həm də hansısa radioda işləyirdi.

Sonra bütün günü oturub evdə kitab oxudu. Axşamçağı pulunu çəkməyə gedəndə evə zəng vurmuşdu. Anası Kaya şad xəbər verdi. Kanın anası şəhər xəstəxanasında işə düzəlib və demək olar ki, aylıq gəliri əvvəlkinə nisbətən iki qat artıb. Arvad bundan sonra mütəmadi olaraq, Kaya pul göndərə biləcəyinə sevinirdi.

– İstəsən bu gün gələ bilərsən.

– Saat neçədə olacaq?

– Hardasa saat ikinin yarısında başlayacaq.

– Bilet lazımdır?

– Yox, belə sərgilər üçün biletə ehtiyac yoxdur. Gedib içərini gəzirsən, baxırsan. Tələbələr öz əl işlərini nümayiş etdirirlər, maraqlı olsa onlarla da tanış olarsan.

– Sən gələcəksən?

– Hə, istəsən bir yerdə gedərik.

– Yaxşı olar.

– Hardadır?

– İncəsənət universitetində olacaq. Həmin universitetin, bir də Rəssamlıq akademiyasının tələbələrinin sərgisidir.

– Yaxşı, onda dərsdən sonra bir yerdə gedərik.

Qrup yoldaşıyla yeni sərgiyə getdilər. Oğlanın sevgilisiylə görüşü var idi.

– Mənim görüşüm var, saat iki tamamda. Ona görə də gedib bir dostumun əsərinə baxıb tez də çıxacağam. İstəsən, sən qalıb baxarsan.

– Olar, – dedi Ka sakitcə.

Həmin gün Ka qara rəngli qalın gödəkcə geyinmişdi, ayağında isə dəridən makasin tipli bir ayaqqabı var idi. Cins şalvarının ciblərinin kənarlarından qırmızı xətt gedirdi, dizləri bir az ağardılmışdı. İncəsənət universitetinin birinci mərtəbəsinin divarlarından müxtəlif əsərlər asılmışdı. Universitetin müəllimləri, professorlar, bir neçə məşhur gənc yazar (Ka onları Axundov kitabxanasına gedəndə alıb oxuduğu "525-ci qəzet", "Kaspi" qəzetləri, "Alatoran", "Ulduz", "Azərbaycan" jurnallarından tanıyırdı) və yaşlı

tənqidçilər var idi. Ka divardan asılmış tablolara yaxınlaşır, çərçivəyə salınmış kiçik ölçülü xalçaları diqqətlə nəzərdən keçirirdi. İlmə-ilmə toxunmuş mənzərələr, məşhur qədim xalçaların kiçik ölçülü toxunuşu, tanınmış simaların rəngbərəng iplərlə həkk olunmuş çöhrələrinə baxdı. Eyni zamanda məşhur rəssamların əsərlərinin bir az uğursuz surətlərini də gördü. Bəziləriysə tamamilə fərqli üslubda çəkilmişdi. Ka Salvador Dali və Van Qoq həvəskarıydı. Bir də Səttar Bəhlulzadənin işlərini çox xoşlayırdı.

Sərgi salonuna çevrilmiş universitet dəhlizinin qurtaracağında divardan iki xalça asılmışdı. Xalçaların ikisi də qotik qabarmaları olan çərçivəyə salınmış və incə ipək iplikdən toxunmuşdu. O, bütün sərgini maraqla, diqqətlə gəzib, nəhayət, bu xalçaların qarşısında dayandı. Birinci xalçanın adı beləydi: "Qasımuşağı xalçası. Aytən Nəsibova". İkinci xalçanın altında isə: "Daşbulaq xalçası, Aytən Nəsibova" yazılmışdı. Ka bir xeyli xalçalardan gözünü çəkə bilmədi. Bu iki işin sərgi boyu baxdığı əsərlərdən daha fərqli olduğunu düşündü. Onun üçün bu ilmələr, birbirinə möhkəmcə pərçimlənmiş qırıq ip parçaları deyildi, qəribə və keçmiş dünyasına səyahət edə bildiyi bir yol idi. Ka gözlərini "Qasımuşağı" xalçasının üzərindəki naxışlarda, haşiyələrdə gəzdirdikcə xəyallar aləminə dalırdı. Xəyal qurmaq xoşbəxtliyini dadırdı. Di gəl ki, bircə qara-

güruh, bədniyyət düşüncədən bixəbər idi. Ka bilmirdi ki, insanlar, əslində, xəyallarıyla ilk addımlarını atırlar. Elə ki yaşamağa başladılar, xəyallarını da, arzularını da unudurlar...

– Ən çox hansını bəyəndiniz?

Ka az qala, qulağının dibində eşidilən səsə çevrildi. Uzun, buruq-buruq saçları çiyinlərinə tökülmüş, azca balaca, arıq, 18-19 yaşlarında, ağ dəri gödəkcə geyinmiş, əynindəki cinsin sağ cibinin üzərində "Blue" yazılmış, qırmızı qaytanlı, xaki rəngli, dəri ayaqqabılı ayaqlarını birbirinə paralel qoyub dayanmış, xoş təbəssümlü, dodağının üzərində sağ tərəfdə balaca qara xalı olan, qarabuğdayı çöhrəli qız ona baxırdı. Qızın yanındakı Ramin isə gözlərini qıza zilləmişdi.

Ka:

– Hə, maraqlıdır, – dedi.

Ramin cəld, – bax, bu iki xalçanın müəllifi Aytəndir. Sənə dediyim dostum budur. Aytən, tanış ol, bu da mənim qrup yoldaşımdır.

Aytən əlini uzadıb Kayla görüşdü.

– Şad oldum, – dedi. Güldü. Dişləri ağappaq idi. Ka ilk dəfəydi bir qızda belə təmiz və ağ dişlər görürdü. Aytən öz xalçalarından danışmağa başladı. Ümumi sərgidən, xalçaçılığa olan marağından və xalçayla bağlı bildiyi qəribə əhvalatlardan söz açdı. Söhbətin ortasında Kanın dostu gecikdiyini və təcili getməli olduğunu bildirdi. Onlarla görüşüb getdi. Ka demək olar ki,

sərgi bitənəcən divara asılmış əsərlərin qarşısında dayandı, baxdı... baxdı... baxdı...

Gözlərində qəribə bir məna var idi. Sanki xalçadakı ilmələr kimi onun gözləri də ilmə-ilmə toxunmuşdu.

– Bu xalçalar qədim Qarabağ xalçaçılıq məktəbinə aiddir, – Kayla xeyli söhbətdən sonra qız yenidən xalça mövzusuna qayıdanda belə demişdi. – Ümumilikdə, yeddi xalçaçılıq məktəbinin arasında məni ən çox Qarabağ məktəbi cəlb edir. Bir də Təbriz xalçaları maraqlıdır. Süjetli xalçalarla daha çox şey ifadə etmək olur.

– Neçənci kursda oxuyursan?

– İkinci kursda. Bu da kurs işimdir, – deyə Aytən "Qasımuşağı" xalçasını göstərdi. – "Daşbulaq" xalçasını isə Tarqovıda əntiq əşya satılan dükan var, orayla müqavilə bağlamışam, ora verəcəyəm. İşlərimi ora verirəm, xaricdən gələn turistlərə satırlar. Bu xalça da ora üçündür, – Aytən öz peşəsini vacibliyindən razı halda dilləndi.

Ka heç nə demədi. Dillənmədi. Sakitcə, dayandı. Gözünü "Qasımuşağı" xalçasının haşiyəsinə zilləyib baxdı. Sonra əliylə qumruq çiçəyi naxışlarına toxundu, barmaqlarını bir-bir ilmələrin üzərində gəzdirdi. Aytən Kanın naxışlara necə diqqətlə baxdığını görüb öz xalçaçılıq biliklərinin hamısını bircə-bircə danışmağa, özünü daha çox peşəkar xalçaçı rəssam kimi təqdim etməyə çalışdı.

– Bu simvol qədimdə evdəki cadugərliyə, bəd niyyətlərə, nəzərə qarşı toxunurdu. Əslində, bütün magiyalardan evi qoruyurdu. Xovlu xalçaların "qaynaq" adlı naxış elementidir.



– Magiyaya inanırsan?

– Doğrusu, demək olar ki, yox. Ancaq onun gerçək tərəfləri də var.

Ka dillənmədi. Qəfildən qəribə bir sükut çökdü. Aytənin gözü onun gözlərinə sataşdı. Sonra yenə səssizlik, sakitcə dayanmaq, söz tapa bilməmək...

– Çay içirsən? – Aytən dəhlizin girişindəki balaca masanın üzərinə qoyulmuş samovarı və onun yanına qalanmış karton stəkanları göstərib dedi.

– Sənə əziyyət olacaq. Qoy mən götürüm, – Ka masayaa yaxınlaşdı, iki karton stəkan götürdü, çay süzüb geri qayıtdı. Dəhlizin sonuna – xalçaların asıldığı yerə gələndə Aytən öz xalçalarıyla üzbəüz asılmış, tamamilə, qırmızı rənglərdən ibarət tablolar olan pəncərənin yanında dayanmışdı.

– Buyur, – dedi və əlindəki isti stəkanı Aytənə uzatdı.

– Çox sağ ol, – deyə qız onun, az qala, gözlərinin içini görmək üçün əliylə axtarırmış kimi baxdı. Minnətdarlıq əlaməti olaraq gülümsədi.

– Bax, bu, Elnarədir. Bu əsərləri də o çəkib, – Aytən qısa və sarı boyanmış saçlarını zorla arxadan yığmış, əynində uzun, ətəkləri sallaq kətan palto olan, cins şalvarlı, qırmızı çərçivəli eynəkli, dodağı qırmızı boyalı və sağ qaşının ortasındakı tükləri çıxarmış, boynundan xaç, balaca fil fiqurları, üçbucaq formalı klounlar olan dəmir boyunbağı asmış, daima özünə hər şeyə bələd adam görünüşü verməyə çalışan qıza baxdı. Qız Ka ilə maraqlanmırmış kimi gözucu ona baxdı və nəzərlərini ikibir, üçbir dəhlizdə gəzişən, əslində, sərgiyə gəlməyinə baxmayaraq, mobil telefonlarını qurdalayan, "qız tutmağa" çalışan tələbələrə tərəf çevirdi.

"Satanizmin kriptosu, Elnarə Lavey" yazılmış bir tabloya baxan Ka karton stəkandakı isti çaydan bir qurtum içdi. Burada qırmızı xətlərlə qara fonda beş güşəli ulduz təsvir olunmuşdu. Həmin ulduzun qara fonunda yenə qırmızı boyayla keçi şəkli çəkilmişdi. Bu təsvirin altında qanadlı bir qız əyləşmiş, əlləriylə üzünü tutmuşdu. Qızın əynindəki düz, ağ donun üzərində müxtəlif, qəribə işarələr var idi. Bu işarələrdən birini Ka yaxşı xatırlayırdı. Naxçıvanda olanda

onlara gələn bir qadının əlindəki kartlarda belə simvollar var idi. Həmin kartları əvvəlcə anasına qarışdıtdırır, kartı açmaq üçün qabaqcadan 40-50 manat pul alır, sonra isə kartı ardıcıl düzərək gizli xəzinələri nə vaxt tapacağıyla bağlı "dəqiq vaxt" deyirdi. Qadının, adətən, təkrarladığı bir söz də var idi. "Bu oğlun çox məşhur olacaq. Ulduz olacaq".

Kaya bu simvollardan daha maraqlı gələn "Qasımuşağı" xalçasıydı. Yenə həmin xalçaların yanına gəlib dayandı və xeyli tamaşa etdi. Kanın yadına uçan xalçalar haqqında babasının danışdığı bir nağıl düşdü. Bir-biriylə yola getməyən üç oğulun ölüm ayağında olan atasına taxtı ələ keçirmək üçün xalça tapıb gətirməsiylə bağlı bir hekayəydi. Ehtimal ki, "Min bir gecə nağılları"ndan Şəhrizadın canını ölümdən xilas etmək üçün uydurduğu rəvayətlərdən idi.

Ka 324 nömrəli balaca avtobusun pəncərəsindən neft buruqlarının arasında küləyin göyə qaldırdığı sellofan paketlərə, dəmir konstruksiyaların üzərinə qonub qalxan qarğaların qara buludlu səmada necə qanad çırpdığına baxırdı. Yəqin o, qarğalardan hansısa bu quru torpaqlara partizan kimi təpilib bir-iki metrlik quyu qazaraq neftin fəvvarə vurmasını, bu fəvvarənin səsinə axışan saqqallı əcnəbilərin həris gözlərini görüb. Sonra qara atlara minmiş, qara atlıların həmişəki kimi yorulmadan üfüqə doğru necə

çapdıqlarını gördü. Atların nal səsləri, neftli torpaqları döyəcləyən ayaqlarından qalxan mazut qoxusu, az qala, Kanın başını gicəlləndirəcəkdi.

Dayanacaq onun yaşadığı mənzildən bir az uzaqdaydı. Ancaq bu küləkli və soyuq havada əllərini cibinə qoyaraq rahatca ona təhkim olunmuş, İ.Məmmədov küçəsindən keçdi, həmin küçənin başındakı dükanın qabağına yenə də qutular, sellofan torbalar atılmışdı. Külək əsdikcə zibil bütün küçəyə yayılırdı. Ka həmin zibillərin yanından laqeydliklə ötüb keçdi. Küçənin tinindəki çayxanada yenə qapının azğındakı zibilqabının yanına siqaret kötükləri tökmüşdülər. Çayxanada divara asılmış plazma televizorda "Real Madrid-Barselona" qarşılaşmasına baxırdılar. Geniş çayxananın baş tərəfində dörd ədəd böyük bilyard masası qoyulmuşdu. Əsasən, 18-25 yaşarası gənclərin bütün günü bu uzun kiylərin ucunu yağlamaqla topları masanın üzərində hərəkət etdirmək məşğuliyyəti və bu məşğuliyyətdən bezdikdə çəkib küçəyə atdıqları siqaret kötükləri Ka üçün əsl vaxt itkisiydi. Digər tərəfdən isə, bələdiyyə sədri hər gün məhz həmin küçəni yoxlayır, bircə siqaret kötüyü görən kimi Kanı tənbeh eləyirdi. Əslində heç onun vecinə də deyildi. Məqsəd Kanın yerinə başqasını işə götürmək idi.

Ka evə gələndə, demək olar, qaranlıq düşmüşdü. Evin eyvanından görünən səmadakı qara

buludlar tezliklə çox güclü soyuğun, çovğunun gələcəyini xəbərləyirdi. Di gəl ki, Bakının qışı, adətən, az yağıntılı, soyuq və küləkli olurdu. Ka özü üçün iki kartof soyub bişirdi, yedi və çaydanı qazın üstünə qoydu. Kirli nimçələri yudu. Ev soyuq idi. Ka yaşıl rəngli, qalın yun köynəyini geyindi. Qaz sobasının alovlu dilləri evi qızdırır, çayı qaynadırdı. Ka radiosunu işə saldı. Bu dəfə, deyəsən, hansısa yazıçının hekayəsini oxuyurdular. O, küləyin itirdiyi radiodalğaların xırıltısından heç nə başa düşmürdü. Sonra növbəti dəfə həlim səsli qadının soyuq nitqi birotaqlı mənzilə yayıldı. "Hörmətli dinləyicilər, Azərbaycan Dövlət Radiosu, 105 Fm-i dinləyirsiniz. İndi isə efirdə "İnstrumental melodiyalar"dır. Bu həlim səsli qadın bir daha eşidilmədi, demək olar ki, Ka radionu söndürüb yatana kimi fortepianoda müxtəlif ifalar bir-birinin ardına düzüldü. Çarpayısına uzananda gözlərinin dərinliyində yaddaşına həkk olunmuş "Qasımuşağı" naxışlarını gördü. Bir də Aytənin ilmə-ilmə toxunmuş təbəssümünü xatırladı.

Səhər oyananda qar çisələyirdi. Eyvan zəif qar təbəqəsi ilə örtülmüşdü. Külək xırda qar dənələrini pəncərəyə çırpırdı. Ka küçəni süpürüb qayıtmışdı. Qar yağdığı üçün elə də çox zibil yığmağa ehtiyac qalmamışdı. Bir-iki sellofan və çayxananın qabağındakı axşamdan qalan siqaret kötükləri.

Ka birinci dərsə gecikmişdi. Demək olar ki, günorta saatlarına qədər dərsdə oldu. Sonra Raminlə bir yerdə universitetin bufetinə enib adama bir dönər alıb yedilər.

– Xoşun gəldi dünənki sərgidən?

– Hə. Qızın xalçaları daha maraqlıydı. Onları doğrudan özü toxuyur?

– Hə, Aytən maraqlı qızdır. Hamısını özü toxuyur. Bir də məşhur rəssamların əsərlərini də xalçada işləyir. Məsələn "Mona Liza"nı birinci kursda oxuyanda toxumuşdu.

– Onu hardan tanıyırsan?

– Paralel oxumuşuq. Mən ondan bir sinif aşağıydım. Bacısı mənim sinif yoldaşım olub. Anası da dil-ədəbiyyatdan hazırlıq müəlliməm idi.

Ka heç nə demədi. Nə Aytənlə növbəti dəfə görüşmək haqqında vədələşmələrini, nə də Aytənin ona özünü də heyrətə salan təklifini. Ka Aytənlə həmin gün xeyli söhbət etmişdi. O, qızı yaşadığı binanın tininə qədər gətirmiş, sərgidə asılmış tabloları daşımağa kömək etmişdi. Beləcə yaxınlaşmışdılar. Bəlkə də bu isti və səmimi münasibət Aytəni Kaya belə bir təklif etməyə cəsarətləndirib. Doğrusu, bu təklif qarşısında Ka əvvəlcə tərəddüd etsə də, sonradan məhz onun xətrinə dəyməmək, könlünü qırmamaq və həm də elə özü də yaxından tanış olmaq üçün razı olmuşdu.

Ka dərsdən çıxıb birbaşa Axundov adına kitabxanaya üz tutdu. Uzun, donqar burunlu, arıq qarderobçu qadının hamıya ünvanladığı ilkin informasiya xarakterli sualları birtəhər sovuşdurandan sonra, ikinci mərtəbəyə qalxıb əvvəlcə biblioqrafı axtardı.

– Biblioqraf 40-cı otaqdadır, – deyə kök, ağbəniz, qara saçlı kitabxanaçı çeşməyinin arxasından özündənrazı halda dilləndi. Ka Məlikməmmədsayağı 40-cı otağa gedirmiş kimi birtəhər oranı tapdı, ancaq biblioqrafın sərt cavabı qarşısında məcburən kitabı özü axtarmağa məcbur oldu.

Ka sualları dəftərinə qeyd etmişdi. Əslində, maraqlıydı, çünki sonralar Ka bunları oxuyarkən, sözün əsl mənasında, heyrətə gəlmişdi. Müəllimənin verdiyi 100 sualın, heç olmasa, otuzuna hazırlaşmalıydı. Ka siyahıdakı sualların əksəriyyətinin Ziqmund Freyd və psixoanalitikayla bağlı olduğunu müəyyən etdi. Freydlə bağlı elə də sanballı kitab yox idi. Ancaq tapdıqları müəyyən qədər imdadına yetdi.

"**Ziqmund Froydun psixoanalitik tədqiqatlarına əsasən, əks cinsdən olan valideynə meyil salmaq və öz cinsindən olan valideynə müxalif olmaq "Edip Kompleksi"dir. Onun fikrincə hər bir uşağın birinci sevgilisi onun əks cinsdən olan valideynidir. Buna nümunə olaraq, oğlan uşaqlarının anasına xüsusi meyil salmaqlarını,**

atalarının daima analarıyla maraqlanmağına, qayğı göstərməyinə dözümsüzlük nümayiş etdirməsi, ağlaması göstərilə bilər.

Bu proses aktiv və passiv olmaq üzrə iki şəkildə təzahür edir. Aktiv şəkildə, kompleksin özəyində dayanan antik yunan mifiylə eyniyyət təşkil edir. Yəni oğlanlar öz atalarına, qızlar isə öz analarına bir rəqib kimi, düşmən gözüylə baxırlar. Şüuraltı olaraq onların ölümünü, yox olmasını arzulayırlar. Oğlanlar öz analarına, qızlar isə öz atalarına həddindən artıq seksual istək (libido) göstərirlər.

Passiv şəkildə təzahürü tamamilə fərqlidir. Froydun penis (fallus) adlandırdığı mərhələdə (3 və 5 yaşlar arasında) bu hisslər baş qaldırır. Beş yaşından sonra bu duyğular öz təsirini itirir, donma, ləngimə (latens) dövrünə keçir. Uşaq həddi-büluğa çatanda yenidən baş qaldıran duyğu, onun öz cinsi obyektini seçdikdən sonra valideynə olan seksual münasibəti tamamilə dağılır.

Şəxsiyyətin formalaşmasının 3-5 yaş mərhələsini Froyd aktivləşmə mərhələsi kimi qiymətləndirir. O, tətqiqatlarına əsasən, bu yaşda olan oğlan uşaqlarının analarına qarşı bəslədikləri eşqə görə ataları tərəfindən cəzalandırılıb xədim ediləcəkləri qorxusu nəticəsində yaşadıqları qarmaqarışıqlığa "Edip kompleksi" adını vermişdi.

Froyd bu nəzəriyyəsini yunan mifologiyasında Sofokla aid edilən "Çar Edip" hekayəsindən götürmüşdü".

Ka evə qayıdanda yolboyu beynində Edipin faciəsini çək-çevir etdi. Sonra anasına qarşı hansısa seksual münasibəti bəsləyib-bəsləmədiyini müəyyənləşdirməyə çalışdı. Ka qəfildən bir həqiqəti dərk etdi. Q.-nin gözütuluqlu, donqar belli, naümid, əlacsız qaldığını gördükcə daxilən, özündən asılı olmadan sevinirdi. Onun bu miskin halına içdən-içə qəhqəhə çəkirdi. Sanki atasına rişxənd etməkdən zövq alırdı. Xoşhallanırdı!

Demək olar ki, sualların çoxuna hazırlaşmışdı. Ancaq əsas məşəqqət qabaqdaydı. Evə gələndə sabahkı çox vacib görüşü xatırladı. Mütləq indidən gedib çimməliydi. Elə də etdi, evə gəlib çimdi, təmizləndi, üzünü qırxdı və gələndə alıb gətirdiyi makaronu suya töküb bişirdi. Sonra da radionu yandırdı, həlim səsli diktorun təqdimatında "*David Garrett- who wants to live forever*!"ni dinlədi. Qəlbində qəribə nisgil, içində kədərli bir payız mənzərəsi, beynində boz, qaranlıq, tənha bir dünya belədən-belə gəlib getdi. Əslində, bu təkadamlıq dünyanın, tənha kirayə otağın bircə küncünə sığınıb içindəki bütün irin selini çölə axıtmaq olardı. Ya da sakitcə, ikicə bükülüb, ayaqlarını qarnına yığıb, əlləriylə başını tutub, o salxaq, nimdaş çarpayı-

da uzanıb, gözlərini rəngi getmiş divar kağızına zilləyə bilər və sakitcə ağlaya bilərdi. Göz yaşlarının yanağından necə axıb döşəyin üzərinə töküldüyünə məhəl qoymadan, üfüqə çapan qara atlıların geriyə buraxdığı mazut qoxusunu cənnət rayihəsi kimi ciyərlərinə çəkərək küncə sığına bilərdi. Cəhənnəmə ki müharibə gedir?! Cəhənnəmə ki səndən daha xoşbəxtləri var?! Cəhənnəmə ki tənhasan?!

Kanın gözü masanın üzərindəki "**Kamasutra**" kitabına sataşdı. Əvvəlcə açıb qədim hind qadınının əllərində xüsusi incəliklə işlənmiş xına təsvirə baxdı. Ardınca bir neçə səhifə çevirdi. Bunlarda müxtəlif seksual vəziyyətlər var idi. Ka əslində, bunların qəbahət olduğunu düşünmürdü. Ancaq özünə söz vermişdi, belə şeylərə bir də baxmayacaqdı. Kitabı qatlayıb masanın üzərinə qoymaq haqqında bir xeyli tərəddüd edəndən sonra təsadüfi bir səhifə açdı. Səhifənin başında belə yazılmışdı.

"Xədim əlləriylə kişinin linqamından yapışıb ağzına aparır, buna "xəfif birləşmə" deyilir.

Sonra başqa bir səhifəni açdı.

"Öz ərini özündən soyutmağın yolları.

• *Onun bilmədiyi bir şey haqqında danışmaq.*

• *Onun intellektuallığını ələ salmaq.*

• *Cinsi əlaqə vaxtı qollarını və ayaqlarını hərəkət etdirməmək.*

• *Danışığını yarıda kəsib, sözünü ağzında qoymaq və başqa bir mövzu barəsində danışmağa başlamaq".*

Bir-iki şəklə göz gəzdirdi. Sözünü tutmağa, dediyinə əməl etməyə and içmişdi. Cəld kitabı masanın üstünə tulladı. "Yox, mən iradəliyəm və bu kitabı təcili qaytarmalıyam".

Ka çarpayıda uzanıb cinsiyyət orqanını radionun səsləndirdiyi poeziya dəqiqələrinin fonunda əlləşdirirdi. Eyni zamanda bir əlində də "**Kamaustra**"nın şəkillərini çevirirdi. O, Aşıq Ələsgərin öz sevgilisinə yazdığı pornoçalarlı şerlərə qulaq asırdı. Gözlərini evinin qaranlıq tavanına zillədi. "Xoşbəxtəm" dedi. Qaranlıq otağın içində xəfif bir təbəssüm yarandı.

– Düzü, bunlar çox ağır olduğu üçün hər dəfə daşıya bilmirəm, – deyə Aytən çətinliklə daşıdığı ağ paketə qoyulmuş iki böyük tablonu Kaya verəndə dedi.

– Ver, narahat olma, mən daşıyaram, – Ka tabloları aldı, eskalatorla "Xalqlar dostluğu" metrosuna düşdülər. Qatar platformaya yaxınlaşdı, qapılar açıldı, "İçərişəhər"ə gedən qatara mindilər. Oturmağa yer yox idi. Hər ikisi keçib qapının ağzında dayandılar. İndiyədək Ka Aytənə bu qədər yaxınlaşmamışdı. Qatar sonuncu stansiyaya doğru irəlilədikcə içəridəki sərnişinlərin sayı artır, yer azalır, Ka Aytənə bir az da yaxınlaşırdı. Birdən Aytənin arxasında dayanmış 25-28 yaşlarında qarayanız bir oğlanın cinsiyyət orqanını qıza toxunduraraq necə bic-bic qımışdığını gördü.

– Aytən sən gəl bura. Qapıya söykən, – deyə Ka Aytənlə yerini dəyişdirərək qarayanız oğlana tərs-tərs baxdı.

Ka Aytənə qızın sərgidəki əsərlərini "Fly-Carpet" əntiq əşyalar dükanına aparmaqda kömək edəcəyinə söz vermişdi.

– "Qasımuşağı" xalçasını daha çox alırlar, – Aytən dedi. Bu, Kanın "Ən çox satılan hansıdır?" sualına verdiyi cavab idi.

"Sahil" stansiyasında düşdülər, eskalatorla yuxarı qalxanda, ilk dəfə Ka Aytənin gözlərinin içinə baxdı. İlmə-ilmə toxunmuş gözlərin dərinliyində sanki böyük bir xana qurulmuşdu. Sanki kimsə, naxışları bir-birinin ardınca düzərək içində min illərin simvolu olan xalçalar toxuyurdu. Onun bircə sevimli xalçası var idi. "Qasımuşağı" xalçası! Ka qanadlanmışdı, bu ilmə-ilmə, naxışlı baxışlar onun kürəyində iki qanad yaratmışdı. Ka xoşbəxt idi. Gözlərini Aytənin iri göz bəbəklərində, sonra yumru, al yanaqlarında və ənlik-kirşanlı çöhrəsində gəzdirdi. Xəyalən onun qalın, badam parçası kimi dolğun dodaqlarından öpdü. Sevindi və xoş təbəssümünü eskalatorla aşağı düşən universitet tələbələrinə, bir-birini qucaqlayan sevgililərə, qulağındakı qulaqcıqdan bütün metroya yayılan musiqinin içində xoşbəxt olan gənclərə, həvəslə qəzet oxuyan təqaüdçülərə yaydı. Ka bu adamları sevirdi. Ka Bakını sevirdi. Ka xəzrini sevirdi. Ka

xəzinə axtaran atasını sevirdi. Ka anasının qayğıkeş, əzablı, inadkar xarakterini sevirdi. Ka ədəbiyyatı, yazıçılıq peşəsini sevirdi. Ka süpürdüyü küçəni sevirdi. Ka Nino xalanı sevirdi. Ka Ələsgər dayını, onun salxım söyüdünü, xırıltılı radiosunu sevirdi. Ka deyəsən, artıq Aytəni də sevməyə başlayırdı. Ancaq Aytənə olan sevgisi fərqliydi. Necə fərqliydi, bilmirdi, heç bunu araşdırmaq, analiz etmək, DNT testini çıxarmaq niyyəti də yox idi. Əsas odur ki, Aytənə baxanda qanadları çıxırdı və bu qanadların üzərində "Qasımuşağı" xalçasının naxışları təsvir olunurdu. O, həmin qanadlarla uçub səmanın dərinliyinə səyahət edə, həmişə getməyi arzuladığı qədim zamanlara, keçmişə dönə bilərdi. Məsələn, bəlkə Teymurləngin Əlincə qalasına necə hücumlar etdiyini, Eldənizlərin xəzinələrini harada basdırdığını gedib öyrənə bilər, birdəfəlik atasının intizarına, ümidinə, həvəsinə artıq hər nədirsə, məhz həmin şeyə nöqtə qoya bilərdi. Sonra özünü Məlikməmmədi işıqlı dünyaya çıxardan Simurq quşu kimi hiss etdi. "Qasımuşağı"lı qanadlarının üzərində oturmuş Məlikməmmədin əvəzinə Aytən var idi. Aytəni qalaktikanın boşluğunda, ulduzların, kometlərin arasından keçirib işıqlı dünyaya gətirir. "Qız qalası"nın üzərində enir və ona öz qanadından bir lələk verir. Lələyin üzərində də "Qasımuşağı"nın haşiyəsi var.

– Eşitmirsən?

– Nəyi? Bayaqdan səni çağırıram. Baxırsan üzümə, ancaq cavab vermirsən. Nəsə olub?

– Yox. Narahat olma, hər şey yaxşıdır, – deyə Ka sellofan paketi qaldırıb eskalatordan çıxdı. Onun ardınca da Aytən gəlirdi. Onlar Xaqani 37 ünvanındakı "Fly-Carpet" dükanına gedirdilər.

Bütün divarlarından qədimi xalçalar asılmış dükanın ortasına qoyulmuş taxta masa və onun yanındakı qolları oymalarla işlənmiş, üzərindəki döşəkcəsi və söykənəcəyi qırmızı, məxməri parçadan tikilmiş stul var idi. Masanın arxasına qoyulmuş qara dəridən olan fırlanan kreslo və masanın üzərindəki "*Toshiba*" markalı notbuk dükanda yeganə müasir əşya idi. Həmin qara dərili kreslonun üzərində gicgahındakı tükləri ağarmış, geniş alınlı, çərçivəsiz optik eynək taxmış, kətan köynəyinin boynunda xırda "Helfiger" yazılmış 50-55 yaşlarında bir kişi əyləşmişdi.

– Salam, Elman müəllim, – Aytən içəri girəndə bir az arxayın, bir az nəzakətli və rahatca dilləndi.

– Salam, qızım. Xoş gəlmisən. Sifarişləri gətirdin? – Elman müəllim çərçivəsiz eynəyinin arxasındakı xırda gözlərini Kanın əlindəki sellofan paketə dikib dilləndi.

– Dediyiniz kimi. Bir "Qasımuşağı", bir də "Daşbulaq" gətirmişəm, – Aytən demək olar ki, bir aya yaxındır işlədiyi, ilmə-ilmə toxuduğu sevgisini, qəzəbini verdiyi xalçaları göstərdi.

– Aytən, bir sifariş də var. Xaricdə kiməsə xüsusi hədiyyə veriləcək. Bilmirəm, onu necə edə bilərsən. Xalçaçı-rəssam var idi, ona vermək istəyirdim. O, rəhmətə gedib. Başqa tanışlarım da belə mükəmməl toxumurlar. Bilmirəm, sən toxuya bilərsənmi? – Elman müəllim bir az dilucu, bir az məcburiyyətdən dilləndi. – Bir də, gələn aya iki "Qasımuşağı" istəyirlər. Eyniylə bu ölçüdə olsun. Təbriz xalçaçılıq məktəbinə bələdsən?

– Yaxşı bələdəm.

– Əla, bir də süjetli xalça istəyiblər. Ancaq onun ölçüsü balacadır. Xüsusi sifarişdir. "Van Qoqla" bağlıdır. Bilirsən də Van Qoq haqqında... "Qasımuşağı"nın ortasında Van Qoqun kəsilmiş qulağıyla bağlı bir şey yerləşdirmək lazımdır. Bax, bu ortadakı ağ hörümçəyin kürəyinə Van Qoqun qulağı bintlə bağlı avtoportretini toxumaq lazımdır, – deyə divardan asılmış böyük xalçanın ortasındakı ağ hörümçəyi göstərib dedi.

– Vinsent Van Qoq. Mən bilən, o, sarı rənglərin vurğunuydu. Qardaşı Teonun köməyiylə xeyli əsər çəkmişdi, ancaq heç biri satılmamışdı. Ekspressionist rəssamlığın ən parlaq nümayəndəsidir. Qoqen adlı rəssamla "Sarı ev"də bir yerdə yaşayıb. Qulağını da kəsib Raşelə vermişdi. Fahişəxanadakı qadına bağışlamışdı. Məncə, ən gözəl əsəri "Ulduzlu gecə"dir, – deyə Ka Van Qoq haqqında bildiyi bütün məlumatları ardı-

cıllıqla sadalamışdı. Sanki bunları hansısa sənət tarixiylə bağlı jurnaldan oxuyurdu.

Elman dayı Kanı sanki indicə görürdü. Bayaqdan ona heç fikir verməmişdi.

– Aytən, dostun da xalçaçı-rəssamdır? – çərçivəsiz eynəyinin üstündən sual dolu nəzərlərini qıza zillədi.

Aytən əvvəlcə susdu. Sonra çevrilib Kaya baxaraq dilləndi:

– Hə. Eyni qrupda oxuyuruq.

Ka Aytənin niyə yalan dediyini başa düşmədi. Tutuldu, qarayanız çöhrəsinə çökən qızartı rəngini daha da qaraltdı.

– Maraqlı işlərin olsa, gətir sataq, – Elman müəllim dilləndi.

– Yaxşı, – dedi.

– Aytən, qızım, sifarişlər yadında qaldı? Gələn aya kimi iki "Qasımuşağı", bir "Daşbulaq" hazırla. "Qasımuşağı"nın ortasında Van Qoqun təsvirini ver. Bir az onun tablolarına da bax, bu, xüsusi sifarişdir. Çalış yaxşı çıxsın! – dedi. Sonra sağ əliylə çərçivəsiz eynəyini çıxarıb nəzərlərini Kaya çevirdi, – Sənin də yaxşı işlərin olsa, gətir sataq! Burada maraqlı xalçalara tələbat var.

Ka dillənmədi. Sadəcə olaraq, başını yellədi. Sonra nəzərlərini kişidən ayırıb divarlardan asılmış xalçalara baxdı. Ən çox girəcəkdəki divara vurulmuş süjetli xalça diqqətini cəlb etdi. Ehtimal ki, Təbriz xalçaçılıq məktəbinə aid

olan süjetli xalçalardan idi. Xalçanın ortasında Kanı zamanın ilğımlarından keçirib keçmişə və gələcəyə aparan Simurq quşu təsvir olunmuşdu. Bu, eyniylə həmin qızılı qanadları olan, iti baxışlı Simurq idi. Di gəl ki, onun önündə təsvir olunmuş naxış Kanın tüklərini biz-biz etdi. Bütün ruhunu sarsıtdı. Dünyanın ən böyük kədəri qəfildən onun ürəyinin düz ortasında özünə taxt qurdu. Ağzı alovlu əjdaha alov dilimlərini çölə püskürürdü. Kanın əlində olsaydı, elə oradaca həmin xalçanın bir ucundan tutub sökər, ilmə-ilmə toxunmuş əjdahanı xırdaca, para-para iplərə ayırardı. Onun qan qırmızı alov dilimlərini Simurqunun qızılı qanadlarına necə üfürdüyünə baxıb bütün varlığını, həyatının mənasını itirdiyini düşünürdü. Simurqun quyruğunun lələləri alovlanıb yanır, külə dönürdü. Bəlkə də insanın xəyalları, arzuları, beləcə, hansısa naməlum, ağzı alovlu əjdaha tərəfindən yandırılıb külə çevrilirdi. Ka çarəsiz idi. Odur ki, Simurqunun alovlar içərisində naxış-naxış, ilmə-ilmə yanmağına göz yumdu.

– Aytən, bu 300 manat keçən dəfə gətirdiyin xalçaların puludur. Götür, – Elman müəllim masanın yanındakı dəmir seyfin iri açarlarını şaqqıldada-şaqqıldada qapısını açmış, içəridən üç dənə şax yüzlük çıxarıb Aytənə uzatmışdı.

– Niyə yalan dedin? – dənizkənarı parkda soyuq küləyin üzünə çırpdığı dənizə baxan Ka dilləndi.

– Elman dayı qonşumuzdur. Bilirsən... Deyirəm birdən gedib anama deyər. Sonra... – Aytən susdu. Sözünü beləcə qırıq-qırıq, ala-yarımçıq dedi. Ardınca da, söhbəti dəyişmək üçün, – sən Van Qoq haqqında bilirsən? – deyə sual verdi.

– Hə, xoşuma gəlir onun çəkdikləri... Kitabxanada onun haqqında oxumuşam. Bir də hardansa, əsərlərinin kataloqu əlimə keçmişdi. Qız qalasının yanında kitab dükanı var, ordan bir kitab tapmışdım. Adı "Yaşamaq yanğısı" idi. Müəllifi yadımda qalmayıb. Həmin romanda Van Qoqun bütün həyatı haqqında məlumat var. Mənə ən çox onun qardaşı maraqlıydı. Teo həmişə pul göndərib, Van Qoqun əsərlərini alırdı. Ancaq heç birinə bircə qəpik də verən olmayıb.

– Yəqin bu iki işə görə daha çox pul verər, süjetli xalçalar çətin olur, – Aytən dedi. Sonra dəmir skamyanın bir kənarına oturub qollarını qoynunda çarpazladı. Külək saçlarını havada oynadırdı. Sakitcə, – Tək yaşamaqdan qorxmursan? – soruşdu.

– Yox. Əvvəllər qorxurdum. Sonra yavaş-yavaş öyrəşdim.

– Mən də istəyirəm...

– Nə?

– Tək yaşamaq. Heç kimdən asılı olmadan, təkcə yaşamaq. Adamın heç kimi olmasın. Atan, anan, qohumların, yaxınların, səni tanıyan...

– Niyə? – Ka gözlərini Xəzər dənizinin üzərindəki mazut parıltısına dikdi, bu neftli qoxunu ciyərlərinə çəkdi. Düz Aytənin yanında əyləşdi.

– Özümü tapmaq istəyirəm.

– Harda itirmisən? – Ka gülümsədi.

Aytən dillənmədi. İkisi də bir yerdə Xəzər küləklərinin üstünə sərilmiş mazut qoxusunu həvəslə ciyərlərinə çəkdilər.

Dənizkənarı park əsl intibah dövrünün Avropa şəhərləri kimiydi; xüsusi quraşdırılmış işıqlar, qotik üslubda sahilboyu çəkilmiş çəpər, parlaq, dəmir skamyaların yanına qoyulmuş, taxtaüzlü, bahalı zibil qabları, xüsusi əkilmiş qazon və çiçəklər, hər gün sulanan, qol-budağı kəsilib səliqəyə salınan ağaclar, plazma ekranlarda şəhərin reklamı, dalğalanan üç rəngli bayraq... Bir də Xəzərin beyinlərə əbədi həkk olunan mazut qoxusu... Bir də bu səliqəyə salınmış ağacların arxasında xəlvətcə bir-birini öpmək istəyən sevgililərin üzərinə qartal kimi şığıyan polis var. Qara atlıların üfüqə çapmağına kor olmuş bu "qartal baxışlı" xədimağalar, iki sevgilinin xəfif öpüşünü pula çevirməyin, vergi tutmağın, bu öpüş üçün xüsusi bir çek yazmağın həvəskarı, peşəkarıydılar.

– Gəl, gedək bu gün sənə bir qonaqlıq verim, – Aytən Kaya baxıb dilləndi. – Əziyyət çəkmisən, mənə kömək etmisən, minnətdarlığımı necə bildirim?

– Nə qonaqlıq? Heç nəyə ehtiyac yoxdur, – dedi Ka. Ancaq özü də onunla bir yerdə getmək, üzbəüz oturmaq, gözlərinə daha çox baxmaq istəyirdi. Kanın cibində Aytəni gözləyərkən metronun ağzındakı qəzet köşkündən aldığı bir qutu siqaret, 1 manat 40 qəpik pul, evinin açarı, dərs cədvəli yazılmış balaca, dörd qatlanmış kağız, içində heç nə olmayan süpürgəçilik maaşını aldığı kart, yolda gördüyü və dərs vaxtı yadına düşəndə qeyd etdiyi ideyaları, hadisələri yazdığı 38 vərəqli göy üzlü dəftər var idi. Əslində, dəftər 40 vərəqliydi, Ka arxadan bir səhifəsini bir dəfə qrupda kimsə ondan vərəq istəyəndə cırmışdı.

– Əlincə qalasının əsas divarını vurub uçurublar. Ondan sonra uzun müddət gizləndi, ancaq axırda tutdular, – deyə Ka Aytənin təkidlərinə "yox" deyə bilməyib gəldiyi "Araz" kafesindəki divardan asılmış "Kalbinin götürdüyü yerə git!" yazılmış və fonda qanadlı bir məhəbbət ilahəsinin qırmızı ürək təsvirlərinə ox sancdığı tabloya baxdı.

– Xəzinə tapdı? – Aytən maraqla soruşdu.

– Deyəsən, hə tapmışdı. Sonra həmin küp qəbiri oğurladılar. Əslində çox yerdə axtarmışdı.

– Nə tapmışdılar?

– Dəqiq bilmirəm, – dedi. Ka bu haqda danışmağın əslində çox təhlükəli olduğunu fikirləşərək susdu. Daha çox şey danışmaq Kanın atası üçün təhlükəli ola bilərdi. Ancaq Ka Aytəni sevmişdi. Ona inana biləcəyini fikirləşirdi.

– Əslində, beş-üç qəpik, bir dəfə bir üzük, bir dəfə də qızıl diş tapmışdılar. Bir də həmin küp qəbir... Bəs sənin ailən nə işlə məşğul olur? – soruşdu. Ancaq beynində "Möminə Xatun" məqbərəsinin sərdabəsindəki xəzinəylə bağlı xeyli çək-çevir etdi. Əlindəki xəritə barədə qıza desinmi? Sonra fikrindən daşındı. Heç nə demədi.

– Atam yoxdur. Anam isə dil-ədəbiyyat müəlliməsidir. Məktəbdə dərs deyir. Bir də uşaq hazırlaşdırır, universitetə... Bir bacım var, bir də qardaşım. Qardaşım BDU-da beynəlxalq hüququn bakalavrını qurtardı. Sonra elə orda beynəlxalq münasibətlər fakültəsində magistr oxuyub, indi də "Azərsun holdinq"də işləyir. Bacım birinci kursda oxuyur Bakı Slavyan Universitetində, İngilis dili fakültəsinə qəbul olub, – dedi və ağ fincanda köpüklənən kapuçinosunun dibinə çökmüş şəkəri qarışdırdı, bir qurtum içdi, ehmalca nəlbəkiyə qoydu və Kaya baxıb gülümsədi.

– Atan rəhmətə gedib? – Ka soruşdu.

Aytən dillənmədi. Sakitcə fincanın içindəki köpüyün necə yavaş-yavaş əriyib suya qarışdığına, soyuq havada qalın paltoya bürünüb tə-

ləm-tələsik harasa qaçan insanlara, qabağına qoyduğu tərəzidə yoldan ötənləri çəkmək üçün gəlib-gedənə zillənən qocanın intizarlı gözlərinə baxdı. Sonra yenidən üzünü Kaya çevirdi:

– Yoxdur, bilmirəm. Biz Xocalıdan gələndən sonra Rusiyaya getdi, işləmək üçün... Sonra öyrəndik ki, evlənib, iki oğlu var.

Aytənin o ilmə gözlərindən bir damla yaş kirpiklərin arasından süzülüb al yanağına düşdü. Ordan yavaş-yavaş aşağıya doğru endi. Qız gülümsədi, göz yaşını gizlətmək üçün cəld masanın üzərindəki ağ, sağ küncünə "Araz kafesi" yazılmış salfeti götürüb gözünü sildi.

Ka təsəlli vermək üçün qızın əlindən tutdu. O, ilk dəfəydi kiməsə təsəlli verirdi. Ka heç atasını həbsxanada görəndə də, onu qucaqlayanda da təsəlli vermək niyyətində olmamışdı. İndi qızın əlindən tutmağı, bu xəfif barmaqlara toxunmağı onda qəribə duyğular oyadırdı. Eynilə, xovlu xalçalar kimi hamar və yumşaq idi. Ka bu əllərə toxunduqca kürəyində üzərində "Qasımuşağı" naxışları olan qanadlar peyda olurdu. O, yenə xoşbəxt idi. Ka sevirdi.

Qız əlini çəkmədi, dolmuş gözlərini Kanın qara çərçivəli eynəyi arxasından ümidlə baxan baxışlarına dikdi. Aytən gülümsədi. Ka gülümsədi. Ofisiant boşalmış fincanları apardı və üzərinə qırmızı məxməri parça çəkilmiş menyunun arasına qoyduğu çeki gətirdi. Ka əlini cibinə atıb

hesabı ödəməyə cəhd etdi. Əlbəttə ki, bu, sadəcə bir cəhd idi, çünki Kanın cibindəki buna çatmazdı. Aytən: – Xahiş edirəm. Axı danışdıq, mən ödəyəcəyəm, – deyib çantasından çıxardığı 10 manatı kitab kimi açılan menyunun arasına qoydu.

Ka Aytəni 246 nömrəli avtobusa mindirib yola salanda əlini sıxdı. Gözlərinin içinə baxdı və yenə kürəyində "Qasımuşağılı" qanadlar açıldı. Ka xoşbəxt idi. Çünki sevirdi. İlk dəfə sevirdi, məhəbbətin, bir qadına qarşı belə qəribə duyğular bəsləməyin nə demək olduğunu bilirdi. "Qasımuşağı" qanadlarının kürəyindəki ağırlığını hiss edirdi.

Cibindəki "Kent"dən bir siqaret çıxartdı, yandırmaq üçün kibriti yox idi.

– Bağışlayın, kibritiniz olmaz?

– Var, – deyən qarayanız oğlan əlini cibinə saldı və üzərində kərtənkələ qabarması olan, dəmir qapaqlı çaxmağı çıxarıb Kanın siqaretini yandırdı.

Ka siqaretini çəkə-çəkə Suraxanıya gedən avtobusların dayanacağına, yolun digər tərəfinə keçdi. Qanadları hələ də kürəyindəydi. Ka xoşbəxt idi. "Qasımuşağı"nın üzərindəki ağ hörümçək hər ayağını qanadın birinə qoymuşdu. Sağ qanadının üzərində iri bir "əjdaha" və onun başı üzərində "dovaq" naxışları var idi. Sol qanadının üzərində isə, "ərsin" və "qaynaq" təsvirləri

al, təbii rənglərilə bu axşam günəşinin işığında parıldayırdı.

Ələsgər dayının salxım söyüdü yarpaqlarını çoxdan tökmüşdü. Taxta skamyanın söykənəcəyi qırılmışdı. Külək küçədəki toz-torpağı, az qala, hündürmərtəbəli binaların damına qədər qaldırırdı. Binanın qabağındakı marketdə heç kim yox idi. Ka bloka girəndə burnuna zirzəmidəki köhnə borulardan axan nəcis iyi dəydi. Görünür, yenə borulardan hansısa partlamışdı. Əllərini sürahiyə sürtə-sürtə pillələri iki-bir, üç-bir qalxdı. Dördüncü mərtəbəyə çatanda Nino xalanın qapısının açıq olduğunu gördü. Blokda səs eşidilmirdi. Bircə ikinci mərtəbənin balaca pəncərəsinin qırıq şüşəsindən içəriyə dolan küləyin uğultusu gəlirdi.

– Nino xala, – deyə Ka taxta, üzərinə "Nino Kipiani, 66" yazılmış qapını ehmalca döydü. İçəridən səs gəlmirdi. Ka qapını itələdi, bir taylı qapı axıracan cırıltıya açıldı.

– Nino xala, qapını açıq qoymusunuz. Nino xala, Əlibala, ay Əlibala!

Ancaq onun səsinə səs verən yox idi. Ka qapını açanda qarşısında dar, yerə linoleum döşənmiş, divar kağızı çoxdan saralmış, öz ilkin rəngini itirmiş dəhliz gördü. Dəhliz təxminən, metr yarımdan sonra sağa burulurdu. Üzbəüzdə bir qapı yeri var idi. Ka köhnə, saralmış, uzun müddətdir yuyulmadığı hiss olunan cunanı aralayıb

içəri girdi. Pəncərənin qabağında, eyvana çıxan qapının yanında balaca bir televizoraltı, onun üzərində də köhnə televizor var idi. "İndicə kimsə gələcək" deyə Ka qorxurdu. Sanki qara bir qüvvənin onun arxasınca addımladığını hiss edirdi. Divarın sağ tərəfində bir divan, onun hər iki tərəfində iki, köhnə kreslo var idi. Otağın başında isə qırmızı laklı, üstünü toz basmış, içində uzun müddətdir əl dəyilmədiyi hiss olunan kitab şkafı qoyulmuşdu. Şkafın içində büllur dolça, yanında altı stəkanı qoyulmuşdu. Üzərində "Maddona" təsvirləri olan bir-iki nimçə sərgiyə qoyulubmuş kimi düzülmüşdü. Şkafın aşağısında altı balaca siyirmə var idi. Döşəməyə köhnə xalça sərilmişdi. Xalçanın üzərində maral təsvirləri toxunmuşdu. Ka çəkinə-çəkinə "Nino xala, Əlibala" deyə səslənirdi. Arxasındakı qara kölgənin səssiz addımlarını ürəyində eşidirdi. Otağın girişində sağ tərəfdə başqa bir qapı var idi. Qapı örtülüydü. Ka ehmalca qapını araladı, otaqda heç kim yox idi. Böyük bir paltar şkafı, iki nəfərlik çarpayı, divara asılmış xoşbəxt ailə şəkilləri, balaca bir dolab və üzərinə düzülmüş ənlik-kirşan qabları, kamodun üzərindəki güzgünün yuxarısından bəylə-gəlin şəkli asılmışdı. Küncə isə üstü sellofanla örtülmüş istifadə olunmayan beşik qoyulmuşdu. Ka geriyə – birinci otağa qayıtdı, kitablara baxdı. Əksəriyyəti rusca idi. Tolstoy, Anar, Dostoyevski, İsa Muğanna,

Əlibala Hacızadənin adlarını oxuya bildi. Aşağıdakı siyirmələri açdı. Birincidə müxtəlif çəngəl, bıçaq, ağızaçan, tort və mürəbbə üçün qaşıqlar var idi. İkinciyə çəkəndə əl-üz dəsmalı, salfet, süfrə qoyulmuşdu. Ka elə indicə kiminsə girib onu bu vəziyyətdə görə biləcəyindən qorxurdu. Siyirmələri tez-tez açıb baxırdı. Ka fikirləşirdi ki, bəlkə bu siyirmələrin içində Nino xalaya aid nəsə tapa bildi. Siyirmələrdə heç nə yox idi. Bircə bir neçə ailə albomundan başqa... Ka albomu götürmədi. Qorxdu. Onu eləcə, əlüstü vərəqlədi və gənc Nino xalanı, onun ərini, hələ uşaq olan, velosiped sürən Əlibalanı gördü. Ka beynini daimi məşğul edən müəmmanı – bu ailənin birbirinə belə pis münasibətinin mənbəyini tapa bilmirdi. Ortada heç bir sübut yox idi.

Ka evdən çıxdı. Arxasına düşən həmin qara kölgəni içəridə qoydu. Cəld bloka baxdı. Birinci mərtəbədə kimsə danışırdı. Ka heç kimin gözünə görünmədən əlüstü evinə təpilmək üçün mənzilin qapısına cumdu və içəri girdi. İçəriyə girəndə beyninə qəfildən Aytənlə görüşü gəldi. Ka dərindən evin soyuq divarlarına hopmuş nəmişlik və içəri dolan neftli iyini ciyərlərinə çəkdi. Ka xoşbəxt idi. Eyvana qoyduğu əti mətbəxə gətirdi. Hava soyuq idi, soyuducusuz ötüşürdü. Özünə dolma bişirməliydi. Çünki belə ağır yeməklər bişirəndə, demək olar ki, bir neçə gün rahatca qızdırıb yeyə bilirdi. Evdə hər

şey var idi. Bakıya gəlməzdən əvvəl anası bəzi yeməklərin hazırlanma qaydasını bircə-bircə xüsusi, 12 vərəqli dəftərdə yazmışdı.

Dolma.

Qurban olum, əvvəlcə meynə yarpaqlarını səliqəylə suya sal, duzu çıxsın. (Mütləq, suya sal, yoxsa yemək çox duzlu olar. Sən bir az səhlənkarsan...) Sonra yarpağın saplaqlarını kəs. Ayrıca bir boşqabda bir az çəkilmiş ət qoy, göyərti (sənin üçün qurudulmuş keşniş, şüyüd, kəklikotu, nanə qoymuşam.) Dolmaya kəklikotundan savayı hamısında bir az vur. Bir baş soğanı doğra, bir az düyü vur və hamısını bir yerdə qarışdır. Bir az yağ, duz, istiot yaddan çıxmasın. (Qurban olum, bilmirəm, hazırlaya biləcəksənmi?) Çay qaşığıyla götürüb meynə yarpağına bük. Qazanın altına bir iki meynə yarpağı düz. Nuş olsun, noğul balam!

Ka dolmanı hazırlamışdı. Dolma bişdikcə evə yayılan qoxu divarlara isti, məhrəm və qəribə bir sakitlik gətirirdi. Ka bu cür divarlarından sevgi, qayğı və təhlükəsiz bir yuva rayihəsi axan ev üçün darıxırdı. O, qəfildən Cəhri kəndindəki evlərini gözləri önünə gətirdi. Adəti üzrə xatirələrindəki ev həmişə yaz fəslindəydi, artırmanın qabağında babasının əkdiyi acıdənə ərik ağacı, onunla paralel sulu göycənin təzə-təzə çiçəyini tökən budaqları, evin qabağındakı tor-

paqda düzəldilmiş dörd-beş paralel kərdilər və həmin kərdilərə əkilmiş reyhan, soğan, keşniş, şüyüd var idi. Kərdilərin arasında Kanın həvəslə yerdən çəkib çıxardığı, həyətin ortasından axan buz kimi sərin çayda yuyub yediyi köklər var idi. Zəif axan, ilin çox vaxtı quru olan bu balaca arxın digər tərəfində kartof, həyətin qurtaracağında, taxta divarları olan təndirəsərlə toyuq hininin qabağındakı balaca boş əraziyə isə günəbaxan əkirdilər. Ka hətta quraqlıq dövründə su quyusu qazan atasının yanında dayanıb hey həvəslə gözləyirdi ki, atasıyla bərabər yerin düz ortasındakı uçan xalçalar və sehrli, qanadlı adamların olduğu dünyaya gedəcəklər. Ka inanırdı. Ancaq onun bütün ümidlərini quyudan çıxan su və aramsız quruldayan qurbağa puç edirdi. Atası su çıxan kimi sevinmiş, sehrli dünyaya getmək üçün quyunun dibinə enməmişdi. Halbuki, Ka bu yeraltı dünyanın lap dərinliyinə enmək üçün günlərlə atasının həmin quyudan qayıtmamasını arzulamışdı. Atasının quyunun içində qazdığı cığırlar mütləq çox uzaq bir dünyaya gedəcək, Kanı da aparacaqdı.

Ka dolmanı boşqaba çəkib yedi. Sonra adəti üzrə çay içdi. Axşam düşmüşdü. Pəncərəyə qaranlıq pərdə çəkmişdi. Çöldə arabir əsən küləyin şütüyən səsi, blokda qalxıb-enən adamların addım səsləri, neft buruqlarının guppultusu, Nino xalanın ah-fəğanı, bir də sükut... Bir də, qara atla-

rın kirimək bilməyən, adamın zəndeyi-zəhləsini tökən taqqıltıları... Elə hey üfüqə doğru çapır, aradabir işartısı gözə dəyən günəşin ilıq şüalarını udurdular. Kanın əlində olsaydı, həmin qara atların hamısını axtalayar, atlıları isə mazut quyularının içindəki qaranlıq dünyaya göndərərdi.

Ka mütaliə etdiyi kitabları yenidən gözdən keçirdi. Artıq mütləq aparıb kitabxanaya qaytarmalıydı. Sonra yatağına uzandı, gözlərini həmişəki kimi tavandakı çilçırağın altındakı qanadlı məhəbbət ilahəsi fiquruna zillədi, sonra küncdəki qaraltıya, divarın sağ tərəfindəki divar kağızı cırığına baxdı. Ka üzünü divara çevirib uzandı. Gözləri ev sahibinin uşaqlarının divar kağızına yazdıqları sözlərə dikildi: "Elnur eşşəkdir", "Qalatasaray", "Elnur Tomdur mən də Cerri". Bu uşaq səliqəsizliyiylə, əyri-üyrü yazılmış sözlərə baxan Ka hərflərin necə əyildiyinə, Elnuru istəməyən, ondan zəhləsi gedən, özünə bir adamlıq dünya arzulayan uşağın divara inadla yazdığı sözlərə baxdı.

Ka qələmini götürdü və düz "Elnur eşşəkdir" sözünün altına " Elnur Tomdur mən də Cerri" sözünün böyrünə, "Qalatasaray" sözünün sağ tərəfinə belə bir şey yazdı: "Aytəni sevirəm". Sonra da dodaqlarıyla həmin iki kəlmə sözü öpdü. Divar kağızının qəribə tamı dodaqlarına toxundu. Ka diliylə dodaqlarını yaladı və Aytən sözünün mürəkkəblə divar kağızı qarışıq tamını bütün ağzının içinə yaydı.

Ka gözlərini yumub yatdı. Bu birotaqlı evdəki qaranlığın içində dəqiqəbaşı gah o böyrü, gah da bu böyrü üstə çevrilən adam və uzaqdan külə-yin evin içinə qoxusuyla doldurduğu neft quyu-larının taqqıltısı eşidilirdi. Ka bu taqqıltının, bu qoxunun gətirdiyi "müjdə"dən xəbərsiz idi. Bəlkə də hansısa atlı yolunu azmışdı.

Yuxudan vaxtında oyanmışdı. Səhər yeməyini yeməmiş küçəsini süpürmüş, evə gələndə də özünə marketdən bir zavod çörəyi almışdı. Evdə pendir var idi. Səhər-səhər yaxşıca isti zavod çörəyiylə pendir yedi, çayına iki qaşıq şəkər tozu tökdü. Çörəyi çox artıq çıxıb xarab olmasın deyə səliqəylə doğramışdı. Dilimləri anasının Bakıya gələndə onun üçün qoyduğu pambıq süfrənin arasına bükürdü. Beləcə çörək həm köhnəlmir, həm də ki qurumurdu. İkinci çayına isə şəkər tozu əlavə etmədi, qənd qabından bir tikə qənd götürüb içdi. Çayını içə-içə kitabxanadan götür-düyü kitabları vərəqləyirdi. Qəfildən ağlına ma-raqlı ideya gəldi. Onsuz da Elza kitabları alan-da içinə baxmır. Ka kitabxanadan götürdüyü kitabların ilk vərəqindəki müəllif şəkillərini kəsib götürəcək və hamısını sıra ilə divara dü-zəcək. Ka bu işə Maksim Qorkinin "Ana" roma-nın ilk səhifəsində təsvir olunmuş sallaq bığlı şəklini kəsməklə başladı. Onu düz çarpayısının üstündən asdı. Daha evdə tək deyildi. Bir Qorki var idi, bir də Ka! Bir də hərdənbir qulaq asdığı,

bu evi bütün ölkəylə hansısa bir ilgəyə bağlayan həlim səsli qadın var idi. Bəs aramsız eşidilən neft taqqıltıları nəydi? Heç nə, onlar həyəcan siqnalıydı? Qılınc idi, partlamaq üzrə olan bombaydı, başqasıyla yatmağa hazır "namuslu" arvad idi, özünü tərbiyə edə bilməyən homoseksual idi, kölə olmaq üçün əldən-ayaqdan gedən qaradəriliydi... hər nə zibil idisə, elə hey qoxusunu da, taqqıltısını da bu biradamlıq, birotaqlı evə doldurub Kanın yuxusunu qarışdırır, yatmağa macal vermir, şirin bir yuxu görməyə qoymurdu.

Stəkanını yudu, pendiri eyvana qoydu, evin havasını dəyişmək üçün pəncərəni açdı, bu gün dərsi yox idi. Gələn həftənin altıncı günü atasıyla iki saatlıq görüş vermişdilər. Mütləq onunla görüşü də proqramına salmalıdır. Ka bütün gününü evdə keçirdi, paltarlarını yudu, çöl soyuq olduğundan hamısını mətbəxin divarına vurduğu zivədən asdı, sonra günorta yeməyinə dolmasını götürdü, qaz sobasında qızdırıb yedi. Günortadan sonra qaranlıq çökənə kimi bir az oxudu, bəzi dərslərini təkrarladı, Axundovda psixologiya imtahanıyla bağlı bəzi kitabların çıxardığı surətinə baxdı və onlardan qısa qeydlər etdi. Radioda "Emin Sabitoğlunun mahnıları"na qulaq asdı. Axşam yeməyi üçün yenə də dolmasını qızdırdı. Yeməyini yeyəndən sonra hamama girdi. Ka əvvəlcə saçlarını sabunladı, bütün

bədənini kisələdi, sonra da linqamının böyürbaşını təmizlədi, üzünü qırxdı və boşaldı.

Hamamdan çıxanda ev çox soyuq idi. Ka ən qalın yun köynəyini geyindi, bir çay qaynatdı, anasının onun üçün göndərdiyi zoğal mürəbbəsindən çayının içinə iki qaşıq töküb içdi. Çarpayısına uzanıb yorğana büründü, radioda yapon musiqisi evə qəribə bir ab-hava yüklədi. Ka sakitcə gözlərini otağın qaranlığına zilləyib qəribə, qəfil ritmlərin arasındakı dərin sükunətin nə vaxt pozulacağını, az qala, gözləriylə izləyirdi. Qorxurdu, tükləri biz-biz olurdu. Ka həm də bu musiqini xoşlayırdı. Bu yapon folklor musiqisi olan "*Sakura*" idi. Simlərin sükunətin içinə yayılan xəfif və qəfil səsi, təkcə səssizliyi ikiyə parçalamırdı. Həm də insanın fikir, düşüncə mənzərəsinin bir küncündəki lal–dinməz dayanmış gölməçəni dalğalandırırdı. Kanı fikir cəngəlliklərinin, keçilməz, sıx bəşəri həqiqətlər meşəsinin lap dərinliyinə aparırdı. Onu həmin "ilk həqiqətə" toxunmağa vadar edirdi.

– Ay, qonşular! Ay Allah! Evim yıxıldı, mənzilim darmadağın oldu, balam yandı, ay qonşular! Evimə od vurdular!

Külək tanış səsi neft iyinə qarışdırıb pəncərəyə çırpırdı. Qara atlılardan biri çapar kimi özünü yetirib mazut iyini evin içinə dolduradoldura qapqara bir məktub gətirdi. Ka çarpayı-

sından dik atılıb eyvana çıxdı, qaranlıq və neft qüllələrinin üzərindəki zəif işıqdan savayı heç nə görünmürdü, eyvanın qapısını örtüb bloka çıxdı. Əlibala da qapını azca aralayıb baxırdı. Kanın çölə çıxdığını görən kimi qapını örtüb içəri keçdi. Yuxarı mərtəbədə Mehdi kiminləsə danışırdı. Hamı təşvişlə "Nə olub? Nə oldu?" sualına cavab axtarırdı ki, səs yenidən eşidildi. Ka tez ayaqqabılarını ayağına keçirib qapını örtdü və aşağı, birinci mərtəbəyə endi. Tahirə xala qalın, sarı çərçivəli eynəyinin arxasından sel kimi yaş tökən gözlərini blokun ala-toranlığında Kaya zilləyib ağlayırdı.

– Nə olub?

– Evim yıxıldı.

Kanın aşağı enməsiylə yuxarı mərtəbədəki Mehdi, onun atası, anası, Əlibala, Əlibalanın arvadı Nargilə, Nino xala, üst mərtəbədəki rus alkaş Seryoja, ikinci mərtəbədəki qapı-pəncərə ustası ləzgi Nəriman, üçüncü mərtəbədəki hərbçi, ehtiyatda olan kapitan Nadir Hacıyev özünü birinci mərtəbəyə yetirdi. Tahirə xala texnikumların birində riyaziyyatdan dərs deyirdi, adəti üzrə krossvord qaralamaq onun ən böyük hobbisiydi, bir də seriyallara baxırdı. Ka onu marşrutda işə gedəndə dəfələrlə görmüşdü. Həmişə də qadının əlində müxtəlif krossvordlar olurdu. Tahirə xala cavabları tapmaqda qətiyyən çətinlik çəkmirdi. Bu kök, al yanaqlı, yaşıl gözlü, iri do-

daqlı, dişlərinin bəziləri tökülmüş, bir neçəsi qızıl olan qadın o ağappaq barmaqlarıyla tez-tez krossvordun boş xanalarına hərfləri düzürdü. Krossvordun hansı dildə və hansı əlifbayla tərtib edilməsindən asılı olmayaraq, Tahirə xala həmişə boş xanaları kiril əlifbasıyla doldurardu. Sovetlər onun üçün müqəddəs idi. "1 may" günündə Tahirə xala həmişə pəncərəsindən üzərində oraqla çəkic təsvir olunmuş qırmızı bayraq asırdı, onunla bəhsə girən Ələsgər dayı isə, düz iyirmi yeddi gün sonra üç rəngli bayrağını, Tahirə xalanın qırmızı bayrağının yerindən asır, hərbi paltarını geyinir, radiosunu götürüb salxım söyüdün altında oturub himnə qulaq asırdı.

Tahirə xala qonşuların tələşli suallarına cavab olaraq qonaq otağındakı divanın üzərində uzanıb qalmış, iki əlli xırıldayan radiosundan yapışmış Ələsgər dayını göstərdi. İri gözlərini tavana zilləyən bu qoca kişi bəlkə də ən dəqiq cavab idi. Ələsgər dayı ölmüşdü. Bütün qonşular heyfsiləndi, Nino xala ağladı, kişilər hərəyə bir siqaret yandırıb kədərli-kədərli salxım söyüdün altında, küləyin soyuğuna fikir vermədən oturdular. Tahirə xala qohum-əqrəbasına zəng vurdu. Ələsgər dayının Rusiyada işləyən oğluna xəbər verdilər. Oğlan da dedi ki, məni gözləməyin atamı dəfn edin, yəqin kişinin qırxınacan ancaq gələ bilərəm, burdan buraxmırlar.

Elə axşam Ələsgər dayını məscidə aparıb yudular. Səhərəyaxın da basdırdılar. Ka Ələsgər dayını məscidə yola salıb evinə qayıtdı.

Ona Nino xala haqqında məlumat verə biləcək adam ölmüşdü. Ka kədərliydi. Ələsgər dayının ölümü qəfil olmuşdu. Çarpayısına uzandı, radionu söndürdü. Yəqin daha yeddi gün radioya qulaq asa bilməzdi. Qəfildən yadına babasının ölümü düşdü. Babası öləndə də eynilə belə olmuşdu. Anası yeddi gün evdə gülməyi, radioya qulaq asmağı, televizora baxmağı, ucadan danışmağı, sevinməyi, xoş söz deməyi, qırmızı, ağ paltar geyinməyi, uşaqlarla həyətdə futbol, yeddi daş, gizlənqaç, evcik-evcik oynamağı qadağan etmişdi. Anası məxmər üzlü divanda oturub səhər açılan kimi qara örpəyini başına örtüb ağlayar, ağlayar, ağlayardı...

Ələsgər dayı haqqında onun qırıq skamyasının üzərində oturub, salxım söyüdünün altına yığışan, siqaret çəkə-çəkə "ah-uf" edən kişilər qəribə şeylər pıçıldaşırdılar. Bəziləri deyirdi ki, Ələsgər dayı əslində müharibədə iştirak etməyib, sadəcə, hansısa qohumunun köməyiylə adını həmin siyahıya yazdırıb, indi də dövlətdən pul alırdı. Bəziləri deyirdi ki, Ələsgər dayı müharibə vaxtı partizanlara, dələduzlara qoşulubmuş, bəzi kəndlərə girib yalandan "ermənilər gəlir" şayiəsini yayırmış, hamı qaçıb gedəndən sonra kəndə girib tərk edilmiş evləri talan edirmiş.

Bəziləri deyir ki, Ələsgər dayı Çingiz Mustafayevin kamerasına da düşüb, şələ-şüləsini maşınlara yığıb Bakıya qaçanlardan birinin arxasında qoyunların arasında gizlənibmiş. Çingiz Mustafayev onu çəkib döyüşə, cəbhəyə qaytaranda kameraya düşüb. Ancaq bircə şey həqiqiydi ki, Ələsgər dayı məğlub ölkənin milli qəhrəmanıydı və ona sinəsinə taxmaq üçün medal, aylıq təqaüd, bir neçə sot torpaq verir, ildə bir dəfə televizorda "qeyri-bərabər döyüş" haqqında danışmaq üçün beş dəqiqəlik müsahibə alırdılar. Qalan şeylərin hamısı şayiəydi, yalanıydı, uydurmaydı, boş söhbət idi, şər idi, böhtan idi, gözü götürməzlik idi, paxıllıq idi, nadanlıq idi. Əsas o idi ki, Ələsgər dayı bizim milli qəhrəmanımız idi.

Kanın anası bu gün ona poçtla bir bağlama göndərmişdi. Qadın telefonla danışanda oğluna bir mobil telefon da aldığını dedi. İndi Ka artıq rahatca evlə əlaqə saxlaya bilərdi. Poçt idarəsindən dərsdən sonra götürdüyü bağlamanı birbaşa evə gətirdi. Ka əslində, uzun müddət idi ki, telefonsuzluqdan əziyyət çəkirdi. Bloka girəndə birinci mərtəbədən molla mərsiyə deyirdi. Ələsgər dayının qapısının ağzına xeyli ayaqqabı yığılmışdı. Həyətdə, salxım söyüdün altında bir çadır qurulmuşdu, çadırın qapısı ağzındakı böyük samovara iki nəfər hər dəqiqədən bir odun doldurur, çay hazırlayırdılar. İçəridəki molla əlindəki

mikrofonla Qurandan, Peyğəmbərin həyatından hədislər deyir, ölənin ruhuna dualar oxuyurdu. Ka dördüncü mərtəbəyə qalxanda Nino xala aşağı enirdi. O, yenə bu qoca və yorğun qadınla üzləşdi.

– Salam, Nino xala. Necəsiniz? – deyə Ka dilləndi. Onunla əlaqəni özü qurmalıydı. Hər şeyi bu qoca qadından özü öyrənməli, hekayəsini yazmalıydı.

– Əleyküm salam, oğlum. Şükür Allaha, babatam, – deyən Nino xala ağzını zorla açıb Kanın üzünə baxdı və gülümsəməyə çalışdı.

Ka daha heç nə soruşmadı. Nino xalaya verə biləcəyi bütün suallar qəfildən yadından çıxdı. Adəti üzrə ağ, ipək əlcəkli bu qadının yanından ötüb yuxarı qalxdı. Qapını açıb içəri girdi. Ev yenə soyuq idi. Tezcə qaz sobasını yandırıb çaydanı qazın üstünə qoydu. Külək əsmirdi, havalar isə getdikcə daha da soyuyurdu. Ka eyvana çıxıb həyətə baxdı. Həyətdə qonşuların Ələsgər dayının çadırına girib-çıxmasına tamaşa edirdi. Mollanın səsi gəlirdi. Hamıya xəbərdarlıq edirdi ki, mərhum üçün yeddi gün ehsan verilməyəcək. Ölüyə çəkilən xərcə kömək üçün hərənin imkanı çatan yardımı edə bilər.

Ka qapını örtüb içəri girdi. Divardan asılmış Maksim Qorki tüklü qaşlarının altından, özündən razı halda Kaya baxırdı. Ka anasının

göndərdiyi qutunu masanın üstünə qoydu. "Anacan, görüm nə göndərmisən?" Qadın qutunu heç kim açmasın deyə evdəki bütün yapışdırıcı lentləri qutuya işlətmişdi. Ka qara qulplu bıçağıyla qutunun ağzını açdı. Qutunun lap üstünə ağ sellofan paketdə əriştə qoyulmuşdu. Ka bu əriştənin yayda kəsilib artırmanın dirəklərinə bağlanan iplərdən necə sallandığını, xəmir quruyub yerə sərilən ağ mələfənin üzərinə tökülməndən sonra həyətin axırındakı taxta divarlı təndirin üzərindəki dəmir sacda necə qovrulduğunu xatırladı. Ka isti, qovurulmuş əriştəni xırçıldada-xırçıldada yeməyi xoşlayırdı. Sonra bir bağlamaya qurudulmuş alça, ərik, müxtəlif bitkilər, otlar qoyulmuşdu. İki cüt əldə toxunma yun corab da var idi. Corablar böyük idi. Ehtimal ki, Ka bunu atasına aparmalıydı. Sonra atasının yun köynəyini gördü. Ka bu köynəyi geyinib ona qəribə nağıllar danışan atanı sevirdi. Ka atasını həmişə əlində xəritə, məhz bu köynəkdə təsəvvür edirdi. Köynəyin boynunda və qollarında, bir də ətəyində ağ haşiyə var idi. Qalan hissəsi tünd xaki rəngdəydi. Bircə sağ döşünün üzərində ipək sapla "koton" yazılmışdı. Ka köynəyi əlinə alıb qoxuladı. Sonra iki qollarını açıb çarpayısının üzərinə sərdi. Bir xeyli baxdı, xatırladı, dodağına qəribə bir təbəssüm qondu. Kimin günahıydı? Niyə? Axı niyə qəfildən mənim nağıl danışan, at belində çapan, sehrli

xalçaların üzərində uçaraq qəribə dünyalara gedən, Teymurləngin xəzinələrinin açarını əlində gəzdirən, həmişə güləndə gözlərindən yaş gələn atam qəfildən yoxa çıxdı? Görəsən, onu kim öldürdü? Kim? Yəqin Möminə Xatunun atamdan xoşu gəlmişdi, ona görə atamı götürüb yerin altındakı səltənətinə aparmış, bizə isə beli əyilmiş, gözləri qırış, dişi tökülmüş, qəribə xəzinə nağılları uyduran bir adam vermişdi. Mən istəmirəm bu donqar belli, dişi olmayan atanı, mənə nağıllar danışan adamı verin! Bir də həmin dəri üzərinə çəkilmiş xəzinə xəritəsi... Görəsən, "Möminə Xatun" məqbərəsinin həndəvərindəki həmin qoçun altındakı xəzinə onun atasını geri qaytara bilərmi?

Balaca bir qutuda "Nokia" markalı telefon var idi. Kanın anası təzə işə keçəndən sonra artıq hər şey yaxşıydı. Ka üçün hər ay davamlı şəkildə pul göndərirdi. Oğlundan istədiyi vaxt xəbər tutsun deyə bir telefon alıb göndərmişdi. Ka telefonu qutudan çıxartdı. Nömrəsi də üstündəydi, anası demişdi balansa 2 manatlıq kontur da vurub. Birinci evə zəng vurdu.

– Alo?

– Alo! Salam, anacan.

– Əleyküm-salam. Gözünə qurban olum. Necəsən? Nə edirsən? Başına dönüm sənin. Neylədin, rahat ala bildin bağlamanı? – qadın bir-birinin ardınca suallar verirdi.

– Hə, anacan. Almışam, narahat olma. Hər şey əladır, – deyə Ka yaşından bir az daha böyük adamlara məxsus inamla rahatca dilləndi və çarpayısına sərdiyi yun köynəyin yanında əyləşdi.

– Lap yaxşı, əcəb etmisən. Qurban olum, çətinlik çəkirsən, hə? Bilirəm ki, çox korluğun olur. Qadanı alaram sənin... Narahat olma, Məhəmməd dayın sağ olsun, kömək etdi. İndi şəhərdə xəstəxanada baş tibb bacısıyam. Maaşım çox yaxşıdır. Narahat olma. Heç nəyə fikir vermə, eşidirsən? Başını sal aşağı, oxu, – qadın tez-tez danışırdı.

– Ay ana, ağlama. Dedim axı... Oxuyuram. Dərslərim də ki, əladır. Yaxşı oxuyuram... Evimi görsən, xoşuna gələcək. Burda hər şeyim var. Balaca bir otaqdır, – dedi.

– Yaxşı, özünə korluq vermə. Sonra danışarıq. Hələlik. Narahat olma, birinci gün 200 manat göndərəcəyəm. Dekabr ayını onunla ötüşə bilərsən? Xərclə pulun qurtaranda deyərsən, yenə göndərərəm. Sağ ol, konturunu qurtarma. Bax, evə tez gəl. Axşam çölə çıxma. Qurban olum, ancaq dərslərini oxu, – qadın birnəfəsə dedi, bütün məsləhətlərini verdi.

– Sağ ol, anacan. Öpdüm, – deyib Ka telefonu söndürdü. Sonra çarpayısına uzanıb yeni telefonunu qurdalamağa başladı. Telefonun menyusuna girib "game" bölümündən "snake" oyununu tapdı. Bir az oynadı. Birinci uduzdu. İkinci

dəfə 80 xal yığdı, üçüncü oyunda isə ikincidən bir qədər çox – 87 xal topladı. Telefonu kilidə salıb masanın üstünə qoydu. Qutunun içərisində bir bağlama qoz var idi. Bu Kagilin həyətindəki böyük qozun barıydı. Ka həmişə yayda bu qoz ağacına çıxar, il ərzində öyrəndiyi şerləri, hekayələri ucadan deyərdi. "Ana və poçtalyon", "Buz və uşaq", "Tülkü həccə gedir", "Qırmızıpapağın nağılı"nı gücü çatdığı qədər qışqırardı. Qutunun içində bir də anasının şəkər tozundan tökdüyü nabat var idi. Budəfəki qozlu-fındıqlıydı. Ka qızılgül qoxan nabatı görəndə çox sevindi. Tez açıb, plastik, çəhrayı qəndqabına tökdü. Kanın anası həmişəki kimi ona ərik, təzə qoz, badımcan, gül mürəbbələri göndərmişdi. Bir də balaca plastik qabda bal var idi. Başqa bir plastik qaba isə pendir qoymuşdu. Ka mürəbbələri eyvana yığdı, atasının corabını və köynəyini büküb qara bir sellofanın içinə atdı, masanın üstünə qoydu. Özünə çay süzüb içdi. Sonra da çarpayısına uzanıb yatdı.

Bəlkə hardansa qəfil xoş xəbər gələr ümidiylə gözləyirsən. Hər axşam yorğanın altına girib yuxuya getməzdən əvvəl gözlərini qeyri-müəyyən bir nöqtəyə zilləyib baxırsan və həmin qəfil xoş xəbərlə sənin arandakı uzun, bəzən məşəqqətli, bəzən əziyyətli yolu görməyə çalışırsan. Elə an olur ki, bütün ümidini itirirsən, xəyal qurmağa həvəsin də qalmır, həyatda yaşamaq istəyini kimsə dar ağacından yelləyir, an-

caq birdən yadına həmin qəfil xoş xəbərin gələcəyi gün yaşayacağın sevinc hissi düşür. Qəfildən özündə yaşamaq məcburiyyəti hiss edirsən. Özünü mübarizəyə məcbur edirsən. İnadkarcasına, bəzən tərbiyəsizcəsinə özünə məqsədini aşılayırsan. Yolundakı hər şeyi parçalayırsan. Xoşbəxt olmaq üçün bəzən tərbiyəsiz olmalısan, bəzən cinsiyyət orqanını hamıya göstərməlisən, bütün "dədə-baba qaydalarını" ayağının altında əzib, yeni formaya salmalısan. Yəni həyat belədir, əziyyətlə dostlaşmaq lazımdır, onu sevmək lazımdır, nail olmaq üçün əvvəlcə mazaxist, sadist olmaq lazımdır. Nail olmaq çatmaq deməkdir. Nail olmaq əldə etmək deməkdir. Nail olmaq nailiyyət anında xoşbəxt olmaq deməkdir. Qurbanların bəzən ən əzizlərin ola bilər, məsələn atan, anan, yaxın bir dostun, çox sevdiyin bir qadın - fərqi yoxdur. Yol düz deyil, bəzi yollar isə tamamilə yarıda kəsilir, davam etmək üçün özün bir qolunu yerindən qoparıb kürəyə çevirməli və özünə yol açmalısan.

Ka gələn həftənin bazar ertəsi günü Aytənin dostlarından birinin quruluşçu rəssamı olduğu tamaşaya gedəcəkdi. Tamaşa axşam saat 6-da başlamalıydı. Aytən Kanı bu tamaşaya təkidlə çağırmışdı. Əslində, Kanın da könlündən idi Aytənlə görüşmək, onunla daha da yaxınlaşmaq... Deyəsən, Şekspirin "***Hamlet***" tamaşasıydı. Bu pyesə "Azdram"da baxmışdı. Budəfəki tamaşanı "Yuğ" teatrında İncəsənət Universitetinin tələbələri hazırlamışdı. Ka şənbə gününü evdə

keçirdi. Aradabir eyvana çıxır həyətdə Ələsgər dayının çadırını sökənlərə baxırdı. Hər şeyi bir saatın içində böyük bir yük maşının arxasına yığıb apardılar. Yerində neftli külək, söykənəcəyi qırıq skamya, yarpağı tökülmüş salxım söyüd və Ələsgər dayının ölümünə heyfslənən kişilərin çəkib yerə tökdükləri siqaret kötükləri qaldı. Ka qəsəbə kitabxanasına gedəndə Ələsgər dayıgilin qapısı ağzında əvvəlki kimi üst-üstə qalanmış qadın ayaqqabılarından əsər-əlamət yox idi. Bircə Ələsgər dayının köhnə, həyətə düşəndə geyindiyi, arxası əzik, burnu dik, qara ayaqqabıları var idi. Bir də Tahirə xalanın qırmızı, böyrü qopmuş şəpitinin bir tayı bir tərəfdə atılıb qalmışdı.

Ka kitabxanaya girəndə onu yenə sosis-kartof qızartmasının qoxusu vurdu. Gözucu Kaya nəzər salan Elza radiodakı aparıcının şəhərin tıxacları barədə verdiyi məlumata qulaq asırdı. Eyni zamanda bişirib axşam evə aparmaq üçün lobya təmizləyirdi. Ka adəti üzrə səliqəylə ağ rəngli, üzərində "Bərəkətli olsun!" yazılmış sellofana bükdüyü kitabları piştaxtanın üzərinə qoydu.

– Oxudun? Şer apar, şer. Şairləri oxu. Bax, birinci şkafda təzə kitablar var. Nüsrət Kəsəmənlinin şerlərini çap ediblər. Onu götür, – deyə-deyə qırmızı plastik qaba doğrayıb tökdüyü lobyaların arasından doğranmamışları seçib çıxarırdı.

– Roman yoxdur? Maraqlı romanlar, – deyə Ka dilləndi.

– Yox. Bilmirəm. Deyəsən, bir- iki təzə kitab alıblar. Müdirə axmaq qızı axmaq. Kitabların pulunu basıb yeyir. Elə bilirsən, keçən dəfə geyindiyi koftanı havayı alıb? Onun paltarları "Gusto"dandır. Mən niyə geyinmirəm ordan, – növbəti lobyanın başını üzüb, xırda tikələrə ayırdı. Sonra radionun səsini azaltdı. Ardınca da dalğanı dəyişdi. Edit Piaf oxuyurdu. "*Paris*". Elza bir az qulaq asıb çevirdi. Kanının sevimli radiosu Röyanın mahnılarını səsləndirirdi. Elza qulaq asdı. Sonra yenə çevirdi. Ka sakitcə dayanıb ona baxırdı.

– Yaxşı. Kitabları təhvil ver, get, özün bax. Nə istəyirsənsə, seç gətir. – Elza yenidən dalğanı çevirdi. Flora Kərimova "Nə gəlməz oldun" oxuyurdu.

Ka kitab rəflərinin arasına girəndə köhnə kitab iyi burnuna doldu. Kitab rəflərinin tozu onu iki dəfə asqırtdı. O, yenə bir neçə kitab götürüb evə qayıtdı.

Kitabxanadan gətirdiyi romanların birinci səhifəsindəki yazıçı şəkillərini qopardıb divara yapışdırdı. Maksim Qorkinin yanında Şekspiri, onun sağ tərəfində Yusif Vəzir Çəmənzəminlini, Maksim Qorkinin üstündən isə Mirzə Fətəli Axundovu asmışdı. Radiosu həmişəki kimi Vaqif Mustafazadənin "Düşüncə"sinidalınca

da fortepiano üçün başqa konsertləri verirdi. Birdən qapı döyüldü. Ka birinci bu səsin Nino xalagildən gəldiyini güman etdi. Ona görə də fikir verməyib masanın üstündəki zoğal mürəbbəli çayından bir qurtum içdi. Qapı yenə döyüldü. Ka qapıya yaxınlaşdı. Gözlükdən dəhlizə baxdı. Əvvəlcə təəccübləndi. Açarı sağa çevirib dəstəyi aşağı əydi və qapını açdı. Qapının ağzında aşağıdakı qonşunun 14 yaşlı qızı dayanmışdı. Qızın əlindəki sinidə plovla dolu dərin boşqab var idi. Plovun buğu soyuq havada açıqca sezilirdi. Qız iri, şən gözlərini Kaya zilləyib sinini ona tərəf uzadaraq "Bunu Tahirə xala göndərdi. Ehsandır" dedi. Ka plovu götürüb "Allah rəhmət eləsin. Zəhmət olmasa, gözlə", – dedi. İçəri keçib aşı başqa qaba boşaldıb, qıza qaytardı. Qız sakitcə çıxıb getdi.

Axşam Ka Ələsgər dayının ehsanını yedi. Aşın üstündə iki yekə qara tikə var idi. Onu da yedi. Sonra üstündən bir çay da içdi. Çarpayısına uzanıb gözlərini yumdu. "Qasımuşağı"lı qanadlarını çiyinlərinə taxdı və Aytəni düşünməyə başladı. Yenidən qanadlarının üzərində başına tac qoymuş Aytəni səmanın dərinliyinə, yer altının gizlin qatlarına uçurub aparırdı. Ka Aytəni gün keçdikcə qəlbinə daha yaxın buraxırdı, onunla bağlı daha çox xəyal qururdu. Onu özünün, düşüncələrinin, həyatının, gündəlik yaşayışının, qayğılarının, xoşbəxtliyinin bir parçasına çevirirdi. Bu oyun onun xoşuna gəlirdi.

Xəyaldan gözəl, uydurmadan ləzzətli bu dünyada nə var idi? Sən ehmalca göz qapaqlarını endirib qanadlarını açırsan, topa buludların üzərində uçur, qaranlıq dünyadan işıqlı dünyaya gedir, istədiyin ləzzətli yeməklər düzülmüş məclislərdə gözəl rəqqasələrin şərab payladığı dünyaya gedirsən. Ka gözlərini yumub beləcə qanadlarını açanda, əslində, ikinci, paralel bir dünyada yaşadığını və bu dünyanın ona çox zövq verdiyini fikirləşirdi. O, xoşhal olub səmada, dənizin dərinliyində üzürdü, tilova ilişmiş balıqları xilas edirdi, dəcəl uşaqların həyətdə düzəltdiyi tələyə düşən sərçələrin boynunu üzülməkdən azad edirdi. Ka əslində, atasının tapmaq arzusunda olduğu xəzinələri də tapmışdı. Anasına aldığı pulların qarşılığında "xoş müjdə"lər gətirən öncəgörənlərin, vəhy verilənlərin, Quran açanların, seyid nəvələrinin xəbərlərinin hamısını deyə bilərdi. O, gözlərini yumub qanadlanaraq Cəhriyə gedir, evlərinin məhəccərinə qonurdu. Elə ordan səmaya pərvazlanıb atasının qazıb tökdüyü Nuhun gəmisinin olduğu yerə, "Əshabi-Kəf"ə, "Möminə Xatun" məqbərəsinə baş çəkirdi. Ka gözlərini yumanda zaman anlayışını itirirdi. O, Aytəni xəyalında istədiyi qədər öpürdü.

Qanadlarını geniş açmışdı. Külək əsirdi. Ancaq səmada qırmızı buludlar var idi. Göy üzündən sarı çiçəklər tökülürdü. Ka Aytəni qanadla-

rına mindirib Nuhun gəmisinin dayandığı dağın üstünə gətirmişdi. Gəmi elə oradaydı. Nuh və zürafələr hər yerdən görünürdü. Dimdiyində zeytun budağı daşıyan quşlar dəstə-dəstə uçurdular. Aytənin uzun saçlarını qırmızı güllərdən toxunmuş tac bəzəyirdi. Qızın yanaqları qıpqırmızıydı, gözlərinin tünd yaşıl rəngi və uzun kirpikləri Kanı bu gözlərə baxmağa qoymurdu. Sonra Ka özündə cəsarət tapıb Aytənin gözlərinə baxdı. Dodağını al rəngli dolğun dodaqlarına yaxınlaşdırdı. Dodaqları əvvəlcə bir-birinə toxundu. Sonra qızın üst dodağını sormağa başladı. Əlini qızın yumşaq, giləsi şişmiş, sulu çiyələyə oxşayan məməsinə toxundurdu. Gözlərini onun məmələrinə tərəf çevirdi. Sonra dodaqlarını Aytənin dodaqlarından ayırıb onun gözlərinin içinə baxdı. Bu iri, yaşıl gözlərdəki bihuşedici ətri duya bilirdi. Ka xoşbəxt idi. Sonra qızın çənəsindən, boynundan öpdü. Sulu çiyələyi xatırladan döşlərin şişmiş gilələri dik qalxmışdı. Ka dodağını ehmalca döşlərin arasına toxundurdu. Sağ məmənin, sulu çiyələyin qoxusu yaddaşına həkk olundu. Dodağına xəfif, ləzzətli bir dad dəydi. Bu dad sonra dilinə, dişlərinin ucuna, damağına, dilçəyinə və oradan da qəlbinə axıb özünə əbədi yer elədi.

– Dayan. Bəsdir.

–Axırda bu qoca arvadı öldürəcəksiniz. Sən necə oğulsan?! Qurumsax! Allah sənin kimi qon-

şunu heç kimə qismət etməsin. Axmaq, arvadının tumanının altına girib, anasını diləndirən oğraş!

– Kəs səsini! Yaxşı edirik. Oğraş sənsən. Sən də orduda əsgər çörəyini, paltarını oğurlayıb evinə daşıyırsan.

– Ay bala, bəsdir. Oğlum, işin yoxdur.

– Dayan, bu saat polis çağırım, siz də görün! Bu arvadı hər gün döyürsünüz. Qoy polis gəlsin arvadağız Əlibalanı tutsun atsın türməyə! Elə səni də... s...m...

– Ay bala, qurban olum, polis çağırma. Əlibala yazıqdır. Tutub aparsalar neyniyərəm, – Nino xala üst mərtəbədə yaşayan, ehtiyatda olan kapitana yalvarırdı.

Ka bu həngaməyə qapının arxasından, qapı gözlüyündən baxırdı. Sonra kapitan çıxıb getdi. Əlibala qapını açıq qoyub içəri girdi. Görünür, "polis" sözü onu qorxutmuşdu. Nino xala qapının ağzında xeyli ağladı, sonra da içəri keçib qapını örtdü.

Kanın yuxusu qaçmışdı. Mətbəxə keçib qaz sobasının altını yandırdı. Çaydana su töküb qaynamağa qoydu. Sonra da otağına gəlib masanın arxasında əyləşdi. Ağ bir vərəq götürüb yazmağa başladı.

~~Nino bizim qonşu deyil~~.

Sonra da həmin başlığın üzərindən xətt çəkdi. Kərpicli vərəqi əzib masanın üstünə tulladı. Başını çevirib divara yapışdırdığı şəkillərə baxdı.

Şekspir geniş alnını qırışdırmış, qaşlarını çatmış, təhdidedici nəzərlərini Kaya zilləmişdi. Sanki nəsə demək istəyirdi.

Çaydan qaynamışdı. Özünə çay süzdü. Təzəsini dəmləmədi, həvəsi yox idi, həm də quru çaya qənaət edirdi. Stəkana bir çay qaşığı zoğal mürəbbəsi tökdü. Çayını qarışdırdı. Hava sakit idi. Ancaq şaxtalıydı. Aradabir neft quyularını sorub yad ellərə aparanların taqqıltısına Nino xalanın zarıltısı da qarışırdı. Bir azdan Nino xala səsini kəsdi. Qonşunun uşağı da ağlamırdı. Ancaq neft quyuları fasiləsiz işləyir, işləyirdi. Bu taqqıltılar, bu qoxu, bu mazutlu torpaqlar həmişə var. Yəqin əbədiyyətə qədər qara atlılar da bu mazutlu torpaqların üstü ilə üfüqə çapacaqlar.

Ka radionu işə saldı. Həmişəki dalğada yenə klassik musiqi verirdilər. Budəfəki musiqi çox həzin idi. Eynilə yapon musiqisinin dərin sükutunu xatırladan ritmləri gecənin qaranlığında bu biradamlıq, tənha evə dolurdu.

Musiqi kəsildi və otaq sükuta qərq oldu. Ka yuxulaya bilmirdi, çarpayısında o tərəf, bu tərəfə çevrilirdi. Gələn həftə mütləq atasının yanına getməliydi. Gözlərini yumdu və yatdı.

Səhər oyananda külək, az qalırdı, pəncərəni yerindən qoparsın. O, çayını içməmiş küçəni süpürməyə getmişdi. Belə havada süpürməyə ehtiyac yox idi. Sadəcə, iri zibilləri götürüb atmalı, küçəsindəki zibil vedrələrini boşaltmaq üçün

bələdiyyə maşınlarının gəlməyini gözləməli, adəti üzrə cədvələ qol çəkməli və geri qayıtmalıydı. Hamısını etdi.

Bazar günü idi. Sabahdan universitetə getməliydi. Aytənlə görüşməli, atasına baş çəkməliydi. Bir də boynundan ağır yük kimi sallanan psixologiya imtahanından keçmək üçün mütləq Axundov kitabxanasına üz tutmaq lazım idi. Ka gələcək həftənin proqramını tutmalıydı. Dəriüzlü, qalın dəftərini açdı. Keçən həftə gördüyü işlərin qarşısından "üstəgəl" işarəsi qoydu.

Telefonuna zəng gəldi. Anasıydı. Qadın tələm-tələsik Kaya gələn həftə atasıyla görüşə getməyi tapşırırdı.

Deməli, gələn həftə üçün proqram beləydi.

1. Aytənlə görüşüb teatra getmək.

2. Ataya baş çəkmək!

3. Dərslərə vaxtlı-vaxtında gedib qayıb yığmamaq.

4. Küçəni vaxtında süpürmək.

5. Nino xala haqqında hekayəni yazmaq.

6. Artıq yavaş-yavaş "**Kamasutra**"nı oxumağa başlamaq. (Əvvəlcə xəyalən, sonra isə reallıqda orda yazılanları yerinə yetirmək olar.)

Ka gələcək həftə üçün proqramını yazanda artıq günortasını yemişdi. Bir az yenə pəncərədən həyətə baxdı. Sonra evə gələndə yolüstü aldığı siqareti çəkdi. Divara düzdüyü şəkillərlə söhbət etdi. Çay içdi. Radioya qulaq asdı. Elzadan al-

dığı kitabları oxumağa çalışdı. Axşamüstü hava nisbətən mülayim idi. Eyvana çıxıb bir siqaret yandırdı. Siqaretin tüstüsünü ağzında halqavarı formaya salıb havaya üfürürdü. Həlqələr qara atlıların ucu şiş, qəzəbli nizələrinin iti ucuna qonub, onlar üçün müqəddəslik haləsinə çevrilirdi.

Ka darıxırdı. "**Kamasutra**"nın seks pozalarını qarışdırıb baxdı. Bir-iki dəfə əlini cinsiyyət orqanına aparıb ovuşdurdu. Sonra çarpayısında uzanıb gözlərini tavana zillədi. Gözlərini yumdu. "Qasımuşağı"lı qanadlarına mindirib Nuhun gəmisinin yanına apardığı Aytənin öpmək üzrə olduğu döş giləsini gözünün qarşısına gətirdi və sulu çiyələk tamının damağında qalan dadını yenidən tamsındı. Sonra baxışlarını Aytənin sol döşünə çevirdi. Bu isə daha çox qızarmış əriyə oxşayırdı. Bir az sarımtıl, narın tüklü, azca sulu yumşaq ərik! Ka bu dəfə də ərik tamını dodaqlarında hiss etmək üçün məmələrə toxundu. Dişlərini qızın məməsinin üstünə möhkəmcə sıxdı. Sonra aralanıb ayparaya oxşayan diş izlərinə baxdı. Başını qaldırıb Aytənin gözlərinə baxıb gülümsədi.

Ka sonralar seksin ləzzətini, bu dünyada insanların icad etdiyi yeganə humanist duyğu olduğunu anladı. Əslində, Ka düşünürdü ki, seks bəlkə də canlıların bu dünyada yeganə öz ruhi hallarını, əhval-ruhiyyələrini göstərdikləri bir vasitədir. Bir qızın dodağından öpməyin, həmin

dodaqların sənin sinənə, çənənə, boynuna, qarnına toxunmağının ilahi həzzə bənzədiyini, seksin müqəddəs olduğunu fikirləşirdi. Ka seksin əsl ibadət, Tanrıyla daha yaxşı əlaqə yaratmaq üçün bir vasitə olduğunu düşünürdü. Ən böyük qurbanın bir öpüş, ən böyük ibadətin sevgilinə xəfif toxunuş, ehtiraslı sevişmədə, qəfil qopan iniltidə gizləndiyi qənaətindəydi. Ka xoşbəxt idi. Ka seksi sevirdi, Aytənlə Tanrıya qovuşduğuna görə, belə xəyallar qura bildiyinə görə xoşbəxt idi. Ka bilmirdi buna görə kimdənsə icazə almaq lazımdır, ya yox! Qətiyyən, hamının canı cəhənnəmə! Gözlərini yum və həzzi yaşa! Gözlərini yum və bütün varlığınla Tanrıya qovuş, gözlərini yum və həmin sulu dodaqları, qırmızıyanaq ərik döşləri, yetişmiş şaftalı qasıqlı qızla ibadətini et! Dünyada bircə günah var – Həvvanın almanı dişləməsi... ondan sonra heç nə günah deyil.

Qaranlıq qəfildən evə təpildi, qonşu uşaq yenidən ağlamağa başladı. Ka yeməyini yedi, kitab oxudu, telefonla anasıyla danışdı. Radioya qulaq asdı. Çay içdi. Nino xala haqqında hekayəsinin ilk cümləsini yazmağa cəhd etdi. Alınmadı. Hər şey birinci cümlədən başlayırdı. Ka bilirdi ki, birinci cümləni yazsa, davamı özü gələcək. Bilirdi ki, birinci cümlə Nino xalanın iniltili, qəribə dünyasına girmək üçün bir qapıydı və mütləq həmin qapının açarını tapmalı, açarı kilid yerinə

salmalı iki dəfə sağa, bir dəfə sola çevirib içəriyə girməliydi.

Çarpayısına uzandı. Radiodakı yapon folklor musiqisi – "*Snow*" verirdilər. Qəfildən evə tənhalıq çökmüşdü, qəfildən radiodan divarlara yayılan bu həlim melodiya onu öz qanadlarına alıb başqa bir dünyaya aparmışdı. Bu dünyanın açarları həzin musiqilərdir. Birdən özünü tamam başqa cür hiss edirsən. Heç bir səbəb olmadan gözlərindən yaş damlaları yanaqları boyu axmağa başlayır. O göz yaşını silmək də istəmirsən. Həmin duzlu suların yanağınıza toxunuşu sizə həzz verir. İnsan ağlaya bildiyi üçün sevinir. Ka eynilə bu hisslərin ağuşunda idi. Ağlaya bildiyi üçün sevinirdi. Göz yaşı tökə bildiyinə görə, göz yaşının zəif toxunuşunu yanaqlarında hiss etdiyinə görə xoşbəxt idi. Sonra gözlərini yumdu və pıçıltıyla "Gecən xeyrə qalsın Ka" dedi.

20..- Cİ İL. DEKABR AYININ İKİNCİ HƏFTƏSİ

Kaş həbsxanaya bu həftə getməyəydi. Kaş atasının ümidlərinin, özünün qurduğu şirin xəyallarının bircə görüşdən sonra alt-üst olduğunu görməyəydi. Ah-fəğan qoparmağın heç bir mənası qalmamışdı Camalın xəzinə haqqında verdiyi xəbəri dərhal da unutmaq, bir daha yada salmamaq istəyirdi. Hər şey niyə belə oldu axı?

Ka küçəsindəki iri, gözədəyən zibillərin hamısını yığdı. Hər xırda siqaret kötüyünü, konfet kağızını götürdükcə, süpürgəni səki boyu çəkdikcə xeyli vaxt bundan qabaq oxuduğu bir cümləni xatırladı. "*Əgər kimsə sizdən küçələri süpürməyinizi xahiş edirsə, mütləq Mikalancelonun şəkil çəkdiyi, Bethovenin musiqi bəstələdiyi, Şeskpirin şer yazdığı kimi süpürün. O qədər gözəl süpürün ki, göydəki və yerdəki hər kəs ayaq saxlayıb, "Burda dünyanın ən gözəl süpürgəçisi yaşayır" desin*. Bu cümlələri beynində çək-çevir edir, daha da həvəslənir və bundan sonra bütün həyatını mütləq, diqqətlə yaşayacağına, hər addımını hərtərəfli fikirləşib, götür-qoy etdikdən sonra atacağına söz verir, özünü əmin edirdi. Uğur qazanmaq, qələbəyə nail olmaq, xoşbəxt olmaq üçün var gücüylə çabalayacağına, özünə yol açacağına dair vədlər boyun olurdu. Di gəl ki, necə...

Ka evə qayıdıb, bloka girəndə qulağına gələn ilk səs Tahirə xalanın ah-fəğanıydı. Bir də qeyri-ixtiyari ciyərlərinə doldurduğu zirzəminin nəcis qoxusu var idi. Köhnə, salxaq sürahiboyu əllərini sürtə-sürtə pillələri ikibir, üçbir qalxdı. Qapını açıb tələsik içəri girdi. Çayı qazın üstünə qoyub getmişdi. Artıq çaydan qaynamışdı. Ka anasının göndərdiyi gilənar və badımcan mürəbbələrini eyvandan gətirib, özü üçün yaxşı bir süfrə açdı. Yeməyini yedi, universitetə geyindiyi paltarlarını səliqəylə ayırdı, tualetə girib-çıxandan sonra əynini dəyişdi, psixologiyaya aid qeydlərini, kitablarını götürüb getdi.

Allah Camala lənət eləsin! Bilmədiyi şey haqqında danışıb hamını girinc eləyib. Axı Ka necə də böyük ümidlərlə yaşayırdı. Bütün gələcəyini məhz bu xəbərin üzərində qurmuşdu. Qəfildən sanki onun qızıl qanadlı Simurqunun başını üzüb, lələklərini yolmuşdular. "Ağ qoç" isə İsmayıl qurbanı olmuşdu. Qurban bayramı günü götürüb bir ayağından asmış, dərisini çıxarmışdılar. Xəsis ev yiyəsi bütün əti şaqqalayıb "Vestel REGAL" markalı soyuducunun buzxanasına basmış, xımır-xımır yemişdi.

Neft buruqlarının arası ilə dolana-dolana gedən uzun, hündür avtobusa mindi. Avtobusda çox adam yox idi. Arxa qapıdan minmişdi. Ən sondakı cərgəyə keçib oturdu, adəti üzrə, yolboyu mütaliə üçün ayırdığı romanı oxumağa

başladı. Kitabı oxuduqca, xoşu gələn cümlənin altından xətt çəkir, hərdən də başını qaldırıb sərnişinlərə baxırdı. Bir dayanacaqdan sonra avtobusa əvvəlcə cavan oğlan, onun ardınca belibükülü qoca, əldən düşmüş qadın mindi. Ka, deyəsən, bu qadını tanıyırdı. Ağ iplikdən toxunmuş, incə əlcəklərini görcək onun Nino xala olduğunu başa düşdü. Hə, bu, Nino xalaydı. O, orta qapının sağ tərəfində pəncərənin qabağındakı birnəfərlik oturacaqda əyləşdi. Ka romanını oxuduqca, tez-tez gözlərini qaldırıb oğrun-oğrun Nino xalanın üzərində gəzdirirdi. Bu onun üçün əla fürsət idi. Qətiyyən fövtə vermək olmazdı! Nino xalanın bütün hərəkətlərini güdməli və neyləyirsə hamısını bircə-bircə, diqqətlə yazmalıydı.

Nino xala qalın boz plaş geyinmişdi. Başında ağ yun örpək var idi. Əlindəki qara rəngli, "Marlboro" yazılı paketi büküb dizlərinin üstünə qoymuşdu. Avtobus neft buruqlarının arasından çıxanda Nino xala başını bir az da aşağı əyib əlindəki qara paketi eşələməyə başladı. Çiy kartof çıxarıb ağzındakı qoyma dişlərin ucuna keçirir, qırır, birtəhər udmağa çalışırdı. O, arxadakı skamyadan bu qoca qadının çiy kartofu yemək üçün necə əziyyət çəkdiyini açıq-aşkar görürdü.

Avtobus mənzil başına çatdı. Qabaq qapının ağzına şığıyan adamlar əllərindəki qəpikləri arıq, şüvərək, gözlərini iri açmış konduktorun

əlinə basıb beş-altı metr irəlidəki metroya tələsirdilər. Nino xala həmişəkindən daha çox belini əyir, başını tısbağalarsayağı qınına çəkib gizlətmək istəyirdi. Nəhayət, özünü qapıya atıb konduktorun gözündən yayınmaq üçün cavan bir oğlanın böyründən keçib aşağı enməyə çalışdı. Nino Kipianinin imkanı olsaydı, elə oradaca gözəgörünməz olardı. Ya da xırdaca bir qarışqa olub sərnişinlərin harasındasa gizlənərdi. Di gəl ki, əfsus!

– Ay xala, siz gediş haqqını vermədiniz, – deyə qarayanız, şüvərək konduktor bacardığı qədər ucadan qışqıra-qışqıra Nino xalanı çağırdı.

Nino xala həmin inadkar tısbağalarsayağı qətiyyən başını qınından çıxarmaq istəmirdi. Heç tısbağa təlimçisi gəlsəydi belə yenə xeyri olmayacaqdı. Başını bir az da aşağı əydi, çənəsi sümük və dəridən ibarət sinəsinə dirəndi. Arvad düşməyə çalışırdı. Di gəl ki, bu şüvərək gədənin əlindən xilas olmaq müşkül məsələydi. Konduktor qışqırır, dayanmadan pulunu istəyirdi.

– Bu nə deməkdir? Mən pensiyanerəm. Pensiyanerdən də pul alarlar? – nəhayət, Nino Kipiani başını azca qınından çıxarıb dilləndi. Di gəl onun belə bir xüsusi imtiyazının olduğunu heç Milli Məclisdə mürgü döyənlər də etiraf etməzdi, o ki qalmışdı konduktor ola.

– Heç nə bilmirəm, xala, pul ver. Tez ol! – dedi.

– Yaxşı, al burdan iki nəfər çıx, – deyə Ka dilləndi. O, ilk dəfəydi Nino xalanı düşdüyü bu pis vəziyyətdən qurtarırdı. Həmişə qapının arxasında pusub gəlini Nargilənin xəlvəti ilişdirdiyi təpiklərə, oğlu Əlibalanın arvadını müdafiəsinə tamaşaçı olmuşdu. Ancaq indi, birinci dəfədir Nino xalaya kömək etmək, onu daha çox alçalmaqdan xilas etmək istəyirdi. Bir sözlə, ona kömək əlini uzatmışdı.

Nino xala Kanın üzünə baxmadan tez aşağı endi, əlindəki qara sellofan paketi bərk-bərk qucaqlayıb metroya tərəf getdi. O, Nino xalanın dalınca yüyürmədi.

Dərsləri rahat keçdi. Dərsdən sonra Aytənlə vədləşdiyi kimi görüşdü. Malakan bağında, saat ikinin yarısında, uşaq yelləncəklərinin qabağındakı skamyada... Bu görüş yerini Aytən nişan vermişdi.

– Nömrəni ver, gəlməzdən əvvəl mesaj yazaram, – deyə Aytən dilləndi.

– Nömrəni verərəm, ancaq mən dəqiq adamam, vaxtında orda olacağam, – deyə Ka cavab vermişdi. Beləcə onlar bu görüş vaxtını və yerini təyin etmişdilər. Ka vaxtından iki dəqiqə tez gəlmişdi. Aytən isə bir dəqiqə gec... Hava nisbətən sakit idi. Mülayim külək əsirdi. Bəzi ağaclar yarpağını tökmüşdü, şam ağacları isə təravətli yaşıl rəngini bir az boz yaşılla əvəzləmişdi.

Aytənin əynində uzun, qara palto var idi. Çiynindən qəhvəyi rəngdə dəri çanta asmışdı. Ayağında dizəcən boğazlı tünd qəhvəyi çəkmə var idi. Həmişəki kimi dodaqları çəhrayı boyalıydı, kirpiklərini qaldırmışdı, yanağına ənlik çəkmişdi. Buruq saçlarını iki yerə ayırmış, kəpənək-sancaqla bir tərəfə bərkitmişdi. Kanı görəndə ağ və parlaq dişləri bir az da parladı, dodaqlarının çəhrayı boyası işıldadı.

– Salam. Deyəsən tez gəlmisən?

Aytən sevincək addımlarla vədələşdikləri oturacağın yanında dayanan Kaya yaxınlaşdı.

– Hə. Sənə demişdim axı, mən hər yerə vaxtında gedirəm, – deyə Ka bir addım irəliyə, Aytənə doğru gəldi. Əlini uzadıb onunla görüşmək istədi.

– Necəsən? – Aytən Kanın əlinə məhəl qoymadan boynunu uzadıb onun yanağından öpdü. – Görək, tamaşa xoşuna gələcəkmi?

O, əvvəlcə tutuldu. Yanağına dəyən bu isti öpüşün hardan və necə gəldiyindən sanki xəbərsiz idi. Ancaq Ka, "**Kamasutra**"da oxumuşdu. Bu nə idi – xəfif öpüş? Yox, bu onun üçün dünyada ən güclü şiddətli öpüş idi. Araya qəribə sakitlik çökdü. Sanki bundan sonra nə edəcəklərini, necə etməli olduqlarını bilmirdilər. Sükutu kim pozmalıydı? Aytən sual dolu nəzərlərini Kanın gözlərinə zilləyib sualına özü cavab verdi:

– Yəqin tamaşa xoşuna gələr.

– Hə, teatra getməyi xoşlayıram. "Hamlet"ə bir dəfə baxmışam, – deyə Ka gözünü Malakan bağındakı qız heykəlinə dikdi.

– "*To be or not to be*!" – Aytən dilləndi. – Mənim ən çox bu söz xoşuma gəlir. İngilis dilini bilirsən?

– Az-maz oxumuşam. Əvvəllər lap çox vaxt ayırırdım. Axır vaxtlar çatdıra bilmirəm, – deyə Ka Aytənin üzünə, sonra uzun qara paltosunun iri, qəhvəyi düymələrinə göz gəzdirdi.

Külək əsmirdi, ancaq hava soyuq idi. Parkdakı uşaq yelləncəkləri boş idi. Sağ tərəfdəki qırmızı ipdən asılmış, sarı oturacaqlı yelləncək irəli-geri yellənirdi. Fəvvarələr işləmirdi. Yerə döşənmiş qazon al yaşılını itirmiş, saralmış, bozarmışdı.

– Bəlkə keçən dəfə getdiyimiz yerə gedək? Hava soyuqdur. Həm də hələ tamaşaya bir neçə saat var, – deyə Aytən "Araz" kafesi tərəfə yönəldi.

Ka dillənmədi. Sadəcə, Aytənin üzünə baxıb güldü və onun arxasınca getdi. Buludların arasından bir-iki oğrun günəş şüası boylandı. Sonra qəfildən yoxa çıxdı. Yenə əvvəlki soyuq hava, sərt külək şəhərə çökdü. Bir də Xəqani küçəsində küləyin qəribə uğultusu, səmadakı qara, topa buludlar Kanın qəlbində kədərli duyğular qasırğası oyadırdı.

– Yox... Evdə işləyə bilmirəm. Heç bircə dənə də iş başlamamışam, – Aytən nəlbəkinin kəna-

rına qoyulmuş kvadrat kağızı açıb içindəki qəndi ağ fincanda gətirilmiş çayına atdı.

– Bəs axşamlar?

– Yox...

– Heç cəhd etmisən?

– Hə, – dedi. Yenə həmin qəribə sükut! – Nə isə, mənə fikir vermə. Düzələr. Sən neynirsən? Dərslərin necə gedir?

– Yaxşı. İmtahanlara hazırlaşıram. Bütün günü psixologiya imtahanının suallarını oxuyuram. Müəllim çox çətin adama oxşayır. Uşaqlardan pul yığmaq üçün bəhanə axtarır. Ona görə də qiymət almaq asan olmayacaq, – deyə Ka cavab verdi. Gözünü Aytənin qolundakı buta şəkilli qolbağa dikdi.

– Bəs qalanları? – deyə Aytən ağ, çini fincanın sağ tərəfində, salfetin üzərinə qoyulmuş çay qaşığını üzüüstə çevirdi.

– Onlar rahatdır. Bir həftəyə hamısına hazırlaşmaq olar. Ən çətini bu psixologiyadır. Bir də ki sən yanımdasan. Daha bütün imtahanları "əla" qiymətlə verərəm, – dedi və Aytənin gözlərinə baxdı.

Aytən cavab vermədi. Butaşəkilli qolbaq taxan, dodaqları çəhrayı boyalı xalçaçı qız sakitcə gülümsədi. Yenə həmin qaragüruh, axmaq, dibi görünməyən uçuruma bənzəyən sükut! Bu, sevməmək deyildi. Bu, birgəliyə razı olmamaq deyildi. "Səni qəbul etmirəm" demək də deyildi.

Heç tərəddüd də deyildi. Amma "Səni sevirəm"ə də oxşamırdı. Nəydisə, ayrı bir şey idi.

Aytən ağ, bəzəksiz fincanın sol tərəfindəki qapaqlı, üzərində heç bir şey yazılmamış, çini qəndqabının qapağını qaldırdı. Xüsusi paketlərə bükülmüş, üzərində "şəkər" yazılmış qənd götürdü. Qəndin nazik kağızını cırdı və qəndləri fincanın içinə atdı. Sanki həmin qaranlıq sükutu, dibi görünməz çıxılmaz məqamı bir az da dərinləşdirirdi. Bir sözlə, heç kim sanki öz duyğusuna, hisslərinə əmin deyildi. Aytən salfetin üzərindəki çay qaşığını götürüb fincanda sağa-sola fırlatdı. Xeyli qarışdırdı. Gözlərini yarısı içilmiş çayın üzündə gəzişən köpüyə dikdi.

Bir müddət susdular. Dillərini kiridib, stullarına söykənib qaldılar. Pəncərədən küçəyə nəzər yetirdilər. Yanlarındakı skamyada əyləşən iki sevgilinin bir-birinə necə baxdığına, sol tərəfdəki 35 yaşlı kişinin siqaretini bütün varlığıyla ciyərlərinə çəkməsinə gözucu, əlüstü fikir verdilər. Salona yayılan musiqi içəridəkilərin səsküyünü heç cür üstələyə bilmirdi. Bir saatdan çox olardı oturmuşdular. Çox şey haqqında danışmışdılar, dərin mövzulara toxunmuşdular, bir-birinə inanmışdılar, etibar etmişdilər. Hardasa ilk tanışlıqlarından bu günə kimi aralarına çökən həmin qəribə sükuta səs-küy, gurultu, qəşəng bir mahnı, xoş bir arzu qatmış, sakitliyi çox uzaqlarda dəfn etmişdilər. Artıq bir-birlərinə səmimi fikirlərini bildirə bilirdilər.

– Bəs sən? – Ka gülərək soruşdu.

– Xoşbəxtəm. Sözün əsl mənasında, özümü çox xoşbəxt hiss edirəm, – deyə Aytən sevinclə danışır, əlləriylə Kanın əlini möhkəmcə sıxırdı.

Öz aralarında razılaşmışdılar, qərara almışdılar, etiraf etmişdilər, ortaq nöqtə tapmışdılar, bir-birlərini bəyənmişdilər, xoşları gəlmişdi, vədləşmişdilər, vurulmuşdular və hər nə etmişdilərsə, artıq demək olar ki, həmin uzun-uzadı söhbətdən sonra sevgili olmuşdular.

Ka öz evinin qapılarını Aytənin üzünə taybatay açmışdı. Aytənin ailəsində problem olduğuna görə xalçaları evində toxuya bilmirdi. İndi o, hər gün Kanın evinə gəlib bir neçə ay ərzində burada xanaları qurub xalçaları toxumalıydı. Allah heç kimə Aytənin atasından qismət etməsin. Amin!

– Gələn həftədən xalçaçı rəssam olacağıq? – deyə Ka zarafatyana dilləndi.

– Hə, söz verdim axı, sənə də öyrədəcəm. Narahat olma, maraqlıdır, – deyə Aytən ona beləcə öz minnətdarlığını bildirirdi.

Onlar artıq bir-birini sevirdilər. Artıq "*Hamlet*"ə sevgili kimi gedib baxacaqdılar. Hər ikisi Akademik Milli Dram Teatrının arxasında yerləşən günbəzli, balaca "Yuğ"a yollandılar. Üçüncü zəngdən sonra tamaşa başladı. Səhnənin dörd bir tərəfinə qoyulmuş, parça üzlü, qara stullarda tələbələr əyləşmişdi. Kənardan bir çarpayı qo-

yulmuşdu. Yuxarıdan qəribə, rəngli işıqlar səhnənin düz ortasında tamaşa boyu dəyişirdi. O, Aytənin əlini tutmuşdu. Aradabir Aytən Kanın qulağına doğru əyilir, gilənar mürəbbəsi ətirli qoxusunu onun üzünə vuraraq soruşurdu: "Xoşuna gəldi? Bax, ən maraqlı yeri buradır". Ya da "Bu aktyordan çox xoşum gəlir. Maraqlıdır" deyirdi.

Ka dillənmirdi. Eləcə gülümsəyirdi. Bu qırmızı, sarı, yaşıl işıqların fonunda onun təbəssümünün arxasındakı mənanı başa düşmək çətin idi. Tamaşa qurtaranda Ka Aytəni həmişəki kimi dayanacağa qədər gətirdi. Yol boyu şütüyüb keçən maşınların siqnal səsləri, müxtəlif istiqamətlərə hərəkət edən avtobusların giriş qapısından asılı qalan konduktorların haray-həşiri, sərnişinlərin basabasla avtobusa təpilməyi birbirinə qarışmışdı. Aytən Kanın əlindən yapışmışdı. O, qızın xovlu xalça kimi yumşaq əlini möhkəmcə sıxmışdı.

– Bəlkə getməyəsən...

– Səhərə kimi, bir yerdə qalaq?

– Bilmirəm, ayrılmaq istəmirəm səndən.

– Mən də, – dedi və qıvrım saçlı, gilənar mürəbbəsi qoxuyan xırdaca başını Kanın çiyninə qoydu.

– Gəl, gözləyək bu getsin, o biri avtobusla yola salaram.

– Yox, gecikirəm evə...

– Yaxşı, yarım saatla heç nə olmaz.

– Bizim avtobuslar gec-gec gəlir, – dedi və əlini dartıb Kanın barmaqları arasından çıxartdı. Boynunu uzadıb yanağından öpdü və avtobusun qabağına yığışmış adamlara qarışıb özünü birtəhər içəri saldı. Giriş qapısının yanındakı yerdə əyləşdi. Aşağıda dayanan Kaya baxdı. Ka gülürdü. Ka xoşbəxt idi. Yanağına dəyən öpüşün izini heç kim görmürdü, ancaq özü bunun istisini, sifətinin necə yandığını duyurdu.

Yol boş idi. Avtobus neft buruqlarının arasından keçəndə külək güclənmişdi. İçəridə sərnişin az idi. Ka arxa oturacaqlardan birində əyləşib pəncərədən çölə baxırdı. Ka sevirdi.

Möminə Xatun haqqındakı qara xəbəri çatdırana lənət olsun! Axı niyə atasının taleyi heç vaxt gətirmədi? İntizar çəkmək, daim ümidlərinin qəfil bir xəbərlə alovlanıb yandığını, puç olduğunu görmək onun atasının alnına yazılmışdı? Ancaq bunu yəqin ki heç vaxt unuda bilməyəcəkdi. Artıq yenə həmin şux, şaqraq atanın yerinə beli donqar, gözü tuluq adam gəlib dayanacaq. "Möminə Xatun" məqbərəsinin beş-altı metrliyindəki həmin qoç heykəlin altındakı xəzinə Kanın ən böyük ümidiydi. O, ilk dəfə məhz atasının əlinə keçmiş yüzlərlə xəritədən birinə, ona verilən dəri üzərinə həkk olunmuş xəzinə xəritəsinə inanmışdı. Onu etibarlı bilmişdi.

Qapını açıb içəri girdi. Ev soyuq idi. Ka üşümürdü. Hər tərəf sakitlik idi, bircə neft quyularının taqqıltısı eşidilirdi... Həmin qara atlar yüyənlərini gəmirib fasiləsiz günəşə doğru, üfüqə çapırdılar. Nalın səsi aramsız evə dolan mazut qoxusu kimiydi. Bu gün Nino xalanın səsi eşidilmirdi. Ka heç nə yemədi, ac deyildi. Çaydanı qazın üstünə qoydu, radionu işə saldı. Bu dəfə olduqca şən, şaqraq mahnılar oxunurdu. Cəld pəncərəni açdı, evin havasını dəyişdi. Çay süzdü. Pəncərəni örtdü. Mahnının sözlərini özözünə zümzümə etdi. Əllərini qaldırıb evin ortasında oynadı. Sonra stolu evin küncündən pəncərəyə tərəfə çəkib Aytən üçün bu bir otaqlı dünyasında yer ayırdı. Ka xoşbəxt idi. Onun bu təkadamlıq, tənha, kimsəsiz dünyasına günəş doğurdu. Cəhənnəmə ki qışdır. Günəş onsuz da həmişə doğur! Onun günəşi ilin bütün fəsilləri öz ilıq şüalarını bu evə doldurur və həmin üfüqə çapan, lənətə gəlmiş qara atlıların səs-küyü, nal taqqıltıları radionun xırıltısına qarışır, evin qoxusunu dəyişirdi.

– Xoşbəxtəm. Sevirəm! Aytəni sevirəm! Mən çox xoşbəxtəm! – deyə-deyə evin içində ağıllıbaşlı dəyişiklik etdi. Aytən indicə gələcəkmiş kimi onun üçün yer düzəltdi. Masanın üstündəki zir-zibili yığışdırdı. Plastik qənd qabının qapağındakı siqaret kötüklərini götürüb zibil vedrəsinə tulladı.

Ka dəmir başlıqlı, birnəfərlik çarpayısına oturdu və kürəyini divara dayayıb gözlərini yumdu. Sünbül zəmisinin ortasıyla gücü çatdıqca qaçırdı. Səmada buludların arasından balaca ulduzlar boylanırdı. Bu sapsarı zəminin arası ilə uzanan ensiz cığırboyu təngnəfəs halda harasa tələsirdi. Başı üzərində qara qarğalar qıy vurur, dəstə-dəstə uçuşur, qanad çalır, sonra zəminin ortasındakı quru ağacın budaqlarına qonurdular. Ka bu qarğalardan qaçdıqca zəminin dərinliyinə gedirdi. Qəfildən ensiz yol kəsildi. Onun qarşısında hündür sünbül zəmisi ucalırdı. Bu yarımçıq yol və başının üzərindəki qarğa səslərindən yuxarıda yavaş-yavaş üzünü turşudan qara buludların arasından iri, almaz boyda ulduz işartılarını görə bilirdi. Ulduzların hər biri sanki səmanın boşluğa pərçimlənmiş yuvasından qopub yer kürəsinə düşəcəkdi.

Ka çarpayıdan qalxıb masasına yaxınlaşdı, siqaret götürüb yandırdı. Sonra yenə külqabı kimi istifadə etdiyi qəndqabı qapağını əlinə alıb çarpayıya uzandı. Radioda "*Paolo Conte – Via Con me*!" səslənirdi. Ka bu musiqini dinlədikcə həmin yarımçıq yolun, başının üzərində uçuşan qarğaların səs küyünü daha yaxşı başa düşürdü.

"*Takashi Kako – Twilight waltz*"ın səsi Kanın siqaret tüstüsünə qarışırdı. Göz qapaqları ehmalca aşağı endi. Yenə həmin sünbül zəmisinin ortasında qırılıb qalan yarımçıq yoldakı adam

əllərilə başını qoruyub beyninə dolan bu qarğa qarıltısını özündən qovmağa çalışırdı. Sapsarı sünbül tarlasında qəfil başlayan tələtümlü külək, qara buludların indicə yerə yağış ələyəcəyinin müjdəsini verirdi. Müjdə?!

Ka siqareti yarıya qədər çəkmişdi. Qəfildən pəncərə çırpıldı. Cəld başını çevirib ağ boyası çoxdan tökülmüş bu taxta pəncərəyə baxdı və ayağa qalxıb çöldə əsən güclü küləyin üzünə pəncərəni möhkəmcə bağladı. Masanın arxasına keçdi, dəftərini açdı və musiqinin fonunda qələmini ehmalca ağ vərəqə toxundurdu. Sonra bunu yazdı.

"Sevgilim oldu. Həyatımda ilk dəfə bir qadın dodaqlarının istisini hiss edirdim. Ancaq sonra gözlərimin qarşısına sünbül zəmisinin ortasında yarıda kəsilən yolda dayanmış adam gəldi. Həmin adam özüm idim. Ancaq saçlarım, paltarım, əllərim sarıydı.

Aytən mənim evimə gələcək. Onunla bu masanın arxasında əyləşəcəyik. Görəsən, evlənərikmi? "Kamasutra"dakı kimi əvvəlcə xəfif toxunuş, ehmal öpüş, sonra daha..."

O, əlindəki karandaşı masanın üstünə qoydu. Gözlərini divar kağızının çiçəkləyən gilənar budağındakı çəhrayı ləçəyin zamanla ağarmış, bir-birinə qarışmış təsvirində gəzdirdi. Sonra hardansa yadına Möminə Xatun düşdü! Simurq qızılı qanadlarını geniş açaraq köhnə, başlığı dəmir, birnəfərlik çarpayıya sərdi. Son-

ra təpəsindəki lələklərin rəngarəng işartısı evin alaqaranlığında parıldadı. Quyruğundakı uzun, rəngli lələklərin hamısını bir-birinin ardınca əsl tovuzquşlarının etdiyi kimi açıb, qıyıqgöz yapon qadınlarının yelpəyi formasında düzdü. Ka cəld ortası həsir toxumalı, taxta arxalıqlı stuldan qalxıb Simurqun qanadına atıldı. Qara atlıların üstündən uçanda atlar yüyənini dartışdırdı, bəziləri qorxudan arxa ayaqları üstünə qalxıb kişnədilər. Ka Simurq quşunun kürəyində səmanın dərinliyinə doğru qanad çaldı. Zamanı günəşin qızmar şüalarında əridib, adi, bəsit, lazımsız bir qurğuşuna çevirdilər.

"Xan diki" təpəsinin üstündə, 26 metr hündürlükdə ucalan "Möminə Xatun" məqbərəsinin beş-altı metrliyindəki həmin daşdan yonulmuş qoçun yanında dayandılar. Ka Simurqun belindən yerə atılıb türbəyə baxdı. Sanki qəfildən zaman onu 1186-cı ilə aparmışdı. Memar Əcəmi bu türbəni təzəcə tikib qurtarmışdı. Atabəy Eldəniz çoxdan ölmüşdü. Arvadı Möminə xatuna tikdirdiyi bu məqbərə yarımçıq qalmışdı. Onun yerinə Cahan Pəhləvan hökmdar keçmişdi. Onüzlü, tuf daşıyla tikilmiş məqbərəni Cahan Pəhləvana Memar Əcəminin özü təhvil verir. Cahan Pəhləvanın arvadı Zahidə Xatun düz Simurqun iki metrliyində dayanıb, niqabının altında göz yaşı axıdır. Di gəl ki ölkədə çaxnaşmadır. Hamı bir müddət bundan öncə xəzinədarı

zəhərləyib öldürən, xəzinənin ən qiymətli daşqaşını, bahalı paltarları, qızıl, gümüş qab-qacağı, zümrüd, firuzə, mirvari, almaz daşlarıyla bəzədilmiş hökmdar dəbilqəsini oğurlayanı axtarır. Amma heç kimin bu xəzinənin məqbərənin beş metrliyindəki "Qoç"un altında olduğundan xəbəri yoxdur. Bircə Binə təcridxanasında yatan məhkum Q., Camal və Kadan savayı... Bir də Şəmsəddin Eldəniz bilir. Əgər çürüyüb torpağa qarışarkən, unutmayıbsa...

"*Amelıe Les Croyans – La`petite flamme*" radioda aradabir yaranan xırıltıya qoşulub evə doldu, divarda yenicə çiçək açan çəhrayı gilənar ləçəklərinə toxundu və uçub getdi. Ka gözlərini yumdu və özünü bir anlıq Parisdə Eyfel qülləsinin altında günəşli gündə, turistlərin arasında təsəvvür etdi. Sonra Eyfelin üstünə çıxır, ordan bütün Parisi görürdü. Gecə və meqapolisin işıqları...

Mətbəxdə çaydanın paqqıltısı eşidilirdi. Radioda yeni bir musiqi verirdilər. Pəncərəni külək döyəcləyirdi. Arabir qar dənələri kirli şüşəyə qonur, tədricən əriyib yoxa çıxırdı. Bu səs-küydə, səssizliyin bir parçası olmuş neft buruqlarının, neft quyularının səsini bircə Ka eşidirdi. Qara atlılar kirimək bilmirdi. Gücünüz çatan qədər üfüqə çapın! Çay süzüb içdi. Acmışdı, ona görə də çayına iki ya üç diş qənd atdı. Çörəyin arasına anasının göndərdiyi pendirdən qoyub yedi.

Axşam içdiyi şirin çay bayaqdan gicgahında hiss etdiyi ağrını səngitmişdi. Özünü nisbətən rahat hiss edirdi. Telefonunda saata baxdı. Saat 23:42 idi. Yatmaq vaxtıydı. Mətbəxin və dəhlizin işığını söndürdü. Qapını bağlayıb-bağlamadığın yoxladı. Bağlamışdı. Otağının da işığını söndürdü. Çarpayısına uzandı. Telefonuna mesaj gəlmişdi. Bir əlini başının altına qoydu, digər əliylə telefonun düyməciklərinə toxunub mesajı açdı.

"İndi səni daha yaxşı başa düşürəm. Bu gün çox fərqliydi. Yanımda olduğun üçün sağ ol! Səni sevirəm!"

Ka gözlərinə inanmırdı. Ona məhz belə bir mesaj gəlmişdi. O, utancaq idi. Necə cavab verməli olduğunu bilmirdi. Nə desin? Nə yazsın? Bəlkə zəng vursun? Yox, gecdir. İndi ayıb olar. Ən yaxşısı cavab yazmaqdır. Cavab? Nə yazsın?

"Mənim üçün də hər şeyin fərqli olacağına inanıram. Mən də səni sevirəm".

Ka mesajı göndərəndən sonra həmin qaragüruh sükut hardansa gəlib beyninə doldu. Nəydi bu? Tərəddüd? Laqeydlik? Bilmirdi, ancaq məhz o şübhə anı, həmin çıxılmazlıq məqamı, çarəsizlik hissi onu Aytənlə bağlı olan hər anda yaxalayırdı. Bu qəribə duyğu qəlbindən ağır daş kimi sallanırdı. Həmin dəqiqə məhz belə fikirləşirdi. "Sevirəm? Sevmirəm? İstəyirəm? İstəmirəm? Baş versin? Verməsin? Olsun? Olmasın? Offffffff!"

Qəfildən o həlim səsli qadının elan etdiyi "*Edvin Marto – Tango Amore*" əsəri radionun xırıltısını müşayiət edən qara atlıların nal səslərinə qoşuldu və xəfif-xəfif evə yayıldı. Sonra ardıcıl, şən zərbələr Kanın qanını coşdurdu. O, bu ritmlərin ahəngi və coşqun mahnının təsiriylə cəld yerindən qalxdı. İşığı yandırdı. Gözlərini yumub evin içində rəqs etməyə başladı. Qollarının arasında isə hələlik Aytəni əvəz edən yastığı var idi. Mahnı bitdi, Ka işığı söndürüb yatdı.

Səhər telefonun zəngli saatı, az qala, evin divar kağızındakı yenicə çəhrayı çiçək açmış gilənar ləçəklərinə toxunub budağından qoparacaqdı. Pəncərədən içəriyə həmişəki kimi buruqların taqqıltısı dolurdu. Qara atlıların nal səsləri eşidilirdi. Ka cəld yerindən qalxdı, iş paltarını geyinib çölə çıxdı. Hava şaxtalıydı. Axşamdan qar yağmışdı. Salxım söyüdün budaqlarını, küçəni, arxası qırılmış skamyanın üstünü, blokun ağzındakı meynə tağının əyri çubuqlarını qar örtmüşdü. Kanın küçəsi də, tamamilə, ağ örpəyə bürünmüşdü. Bircə küçənin ortasından keçən maşınların və marketlə, çayxanaya gedən yolda ayaq izləri və ağaclığın altındakı boş sahədə pişik ləpirləri görünürdü. Küçədə zibil də yox idi. Yalnız çayxananın qabağına bir-iki qutu, marketin qabağına isə bir çuvalın içində zibil və yanına bir neçə qutu atmışdılar. Ka onları götürüb zibil qabına tolazladı, yolun ortasında qarları səkiyə

tərəf təmizlədi və bələdiyyənin zibil maşını gələndə zibilləri yığıb qayıtdı.

Səhər yemədi. Təzə cins şalvarını geyindi. İsti paltosunu əyninə aldı, on birinci sinifdə oxuyanda anasının onun üçün toxuduğu yun şərfi boynuna dolayıb evdən çıxdı. Əlində dərsliyi, psixologiyaya dair kitablar və avtobusda həmişə mütaliə etdiyi bir roman var idi. Ka son vaxtlar tarixi roman oxuyurdu. **Faruk Aslanın "Xəzərin qurdlar vadisi"** kitabıydı. Ka oxuyur, heyrətlənir, gözlərini bərəldir, kitabda bəyəndiyi sətirlərin altından karandaşla xətt çəkir və əslində, ölkəsinin başına gələn dərdi daha yaxşı başa düşürdü. Avtobusda kitabı oxuduqca birdən gözlərinə inana bilmədiyi bir faktla qarşılaşdı.

"Kəlbəcərdə əsir kimi götürülmüş qadınları ermənilər Yaxın Şərqdə varlı ərəblərə satırdılar".

Qar dənələrinin üst-üstə qalanıb səkilərə ağ örpək kimi örtüldüyü bu məqamda Ka gözlərini pəncərəyə zilləyib düşünürdü. Onun Aytəni də beləcə əsir düşə bilər, beləcə satıla bilər, beləcə böyrəyi, ciyəri, qolu, gözü, ürəyi çıxardılıb başqasına verilə bilərdi. Ka kitabı bükdü və sakitcə onu bezdirən, gecələr yuxusunu ərşə çəkən bu neft buruqlarının çəkib soran dəmirlərin taqqıltısına qulaq asmağa başladı. Qara atlılar günəşin qabağını kəsmişdilər.

– *"Azərbaycan dastanları"* dərsindən sonra gedərik, – Kanın qrup yoldaşı qoluna bağladığı

sarı-qırımızı "Galatasaray"ın qolbağını fırladıb dedi.

– Səncə, maraqlı yerdir?

– Hə, amerikalılar açıb. İngilis dilini orda rahatca öyrənə bilərsən, – deyə Ramin həvəslə cavab verdi.

Əslində İngilis dilini öyrənmək onun çoxdankı arzusuydu. Çünki Kanın ən böyük istəklərindən biri məhz ingiliscə rahatca danışmaq idi. Şübhəsiz, bu dili universitetə hazırlaşanda kifayət qədər öyrənmişdi. İndi də bəzi kitabları oxuya bilirdi. Ancaq orada məhz istədiyi filmlərə baxa biləcək və istədiyi yazıçıların əsərlərini tapıb oxuyacaqdı.

– Kazua İşiquranın "*Never let me go*" romanını götürürsünüz? Bir də "İELTS Cambridge 3", – deyə "Amerika mərkəzi"ndə işləyən 25-27 yaşlarında cavan oğlan kitabları qeydiyyatdan keçirib Kaya uzatdı.

– İstəsən, burdakı kompüterlərlə bax, o şkafdakı kinolara da baxa bilərsən, – Ramin qapının giriş tərəfində qoyulmuş şkafı göstərib dilləndi.

Divarlarına kitab rəfləri düzülmüş, içərisində tamamilə qəribə, işıqlı ab-hava hökm sürən, ilıq bir istilik yayılan salonda bir neçə gənc qız və oğlan var idi. Ka qapının ağzındakı film diskləri və kasetləri qoyulmuş rəfə yaxınlaşdı. Bir-bir rəfə göz gəzdirdi. "*The Piano Teacher*" yazılmış diski götürdü.

Filmdə yaşlı və anasıyla siçan-pişik kimi bir-birini didən, intim həyatı olmayan, Şübert xəstəsi olan fortepiano müəlliməsinin gənc tələbəsiylə seksual münasibətlərindən danışılır. Qadın xəlvətcə parklarda sevişən sevgililəri pusur. Ka bu film barədə çox düşündü. Sonralar dəfələrlə bu qadını, onun tələbəsinin cinsiyyət orqanını ağzına almasını fikirləşdi. Və pianino müəlliməsinin bir qadın kimi çarəsizliyini, sonda qolundakı çantasından çıxarıb ürəyinə sancdığı bıçağı, qadının sinəsindən çıxan bir-iki damla qanı, onun heç nə olmamış kimi yoluna davam etməsini düşündü. Qadının şüuraltındakı təhlükəli seksual meyillərini çək-çevir etdi.

Gün keçdikcə pəncərəni deşib evə dolan bu boruların taqqıltısı, neft qoxusu Kanın qəlbinə daha çox toxunurdu. Ka bu qara qızılın üstünə daraşmış adamların kəlağayılı, uzun hörüklərini kürəyinə atmış, qaraşın Bakını bir gecənin içində küçə fahişəsinə çevirmələrinə dözə bilmirdi. Bütün günü yorucu keçmişdi. Bu şaxtalı havaların tezliklə qurtarmağını istəyirdi. Qar yağmadı, hava da elə küləkli deyildi. Ka anasıyla danışmışdı. Anası bərk-bərk tapşırırdı ki, mütləq ata-na baş çək! Kaş tapşırmazdı! Kaş həmin anda telefonunda kontur qurtarardı! Kaş kosmosdakı peyklər siqnalları alıb geri qaytarmazdı! Kaş! Kaş! Kaş!

Ka sabah Aytənin evə gəlib xanaları qurmağına kömək etməliydi. Səhər vaxtı yox idi, atasını həftənin şənbə gününə saxladı. Ancaq bir tərəfdən də əlindəki xəritəyə görə atasına baş çəkmək istəyirdi. Çünki oradakı simvolların çoxunu başa düşmürdü. Ka yenidən siqaret yandırdı və ağ kağızla qələmi qabağına qoyub yazmağa çalışdı. Siqaretdən bir qullab vurub tüstünü ciyərlərinə, bir azını da otağa buraxdı. Masanın yerini dəyişdiyindən artıq çarpayısının yuxarısından asdığı yazıçıların üzünü də rahatca görə bilirdi. Qorki əvvəlki kimi pırtlaşıq qaşlarının altından ciddi-ciddi baxırdı, sallaq bığlarının səliqəsizcəsinə örtdüyü dodaqlarına iztehzalı gülüş qonmuşdu. Axmaq!

Yenidən Aytəni düşünmək, onun evin baş tərəfində ayrılmış yerdə xanaların qabağında oturub xalça toxuduğunu təsəvvür etmək Nino xala haqqında hekayə yazmaqdan daha maraqlıydı. Bu qaraşın qız, bu şirin təbəssümlü qız, bu şıltaq qız, bu ağappaq dişləri olan qız, bu istedadlı baxışlı qız, bu qaçqın qız, bu xalçaçı-rəssam qəfildən, gözlənilmədən Kanın dünyasına təpilmişdi. İndi ona Nino xalanın ah-fəğanı, atasının xəzinələri qəti maraqlı deyildi. Heç dərsləri də, psixologiya imtahanı da, hər gün eşidilən neft quyularının taqqıltısı, radiodan gələn həlim səsli diktorun elan etdiyi musiqilər də maraqlı deyildi. Bircə Aytən var idi, bircə xal-

çaçı rəssam var idi, bircə yanağına qonan şirin öpüş var idi, bircə bir yerdə içdikləri kapuççinonun ağ köpükləri var idi, bircə "Hamlet"in o pafoslu çıxışı, bircə sevgi var idi.

Yenə radionun xırıltısı eşidildi, Ka ikinci siqaretini yandırdı, başını çevirib Aytən üçün otağında ayırdığı yerə baxdı. Sabahdan burada başqa bir qoxu, başqa bir ab-hava olacaq deyə fikirləşdi. Bir də beyninin dərinliyində o tərəddüdün ulartısı eşidilirdi. Ka içindən gələn bu qəribə narazı səslərlə qulağını tıxayır, həmin səslərin mənbəyini tapıb birdəfəlik buna son qoymaq istəyirdi.

Çay qurtumlarının ruhuna verdiyi sakitlik, bu soyuq evdə onu fiziki olaraq isidən yeganə vasitəydi. Bir də Aytən var idi. Qızılı qanadlı Simurqu, xəyallarının isti küləyi, Kanın qaranlıq düşüncələrinə doğulmuş qəməri, şəmsiydi. Və bu qəmərin həlim işartısını, şəmsin şıltaq istisini çox sevirdi. Ka Aytənin ona olan sevgisini düşünürdü. Və birdən otaqda radionun xırıltılı səsinin müşayiətiylə "*Sarah Brightman – The war is over*" mahnısının həlim notları, xəfif səsi eşidildi. Qızın səsi qəfildən bu balaca biradamlıq dünyanı bürüdü. Ka yorulmuşdu. Karandaşını mizin üstünə tulladı, başını qollarının üstünə qoyub gözlərini yumdu. Aytəni və özünü ucsuz-bucaqsız sarı səhranın ortasında, qızmar günəşin altında təsəvvür etdi. Bu mənzərələr,

ilan mələşən səhra təsvirləri, günəşin, az qala, səmanın bağrından qopub yerə düşdüyü bu ərazilər onun yaddaşında çoxdan mövcud idi. Ka bunları atasının ona danışdığı xəzinəaxtaranlar haqqındakı nağıllardan bilirdi. Həmin nağıllardakı qızılaxtaranlar çiyinlərindən asdıqları içi təmiz qiymətli daşlarla dolu yüklə "su, su" deyə Allaha yalvardıqları bu susuz səhralarda, günəşin qaynar istisinin altında susuzluqdan ölmüşdülər. Ka indi də yaxşı xatırlayırdı, həmişə bu nağıllardan sonra soruşurdu ki, bəs qızıllar, qızıllara nə oldu? Atası isə adəti üzrə təəssüflə "Qızıllar yəqin gözləyir ki, onu tapsınlar", – deyirdi, – ancaq həmin səhralar bizdən çox uzaqdır". Bəlkə də Q.-nin imkanı olsaydı, həmin səhralara gedər, susuzluqdan ölmək bahasına olsa da, qızılları tapıb gətirməyə çalışardı. Nə mənası var ki, bəlkə də susuzluqdan o da yarı yolda, səhranın düz ortasında düşüb qalardı. Ancaq bunların heç bir əhəmiyyəti yoxdur. Ən vacibi Q.-nin heç olmasa, bircə xəzinə tapmasıydı. Ən vacibi həmin nağıllarda təsəvvür etdiyi, xəyalında canlandırdığı qızıl boyunbağılara, üzərində zümrüd və almaz daşlarla bəzədilmiş qolbaqlara, enli kəmərlərə, xalis qızıl iplikdən toxunmuş, üzərində nadir daşlar olan bahalı paltara sahib olmaq idi. Di gəl ki, bunların heç biri olmadı.

Ka qapısını bağladı, işığını söndürdü, çarpayısına girib yorğanı başına çəkdi, radio yenə qəribə bir mahnını otağa yayırdı. Yenə qüllələrin taqqıltısı eşidilirdi. Həmin qara atlılar zülmət üfüqlərə çapırdılar. Yenə divar kağızlarındakı çiçəkləyən gilənar ləçəkləri pəncərədən düşən işıqda dumanlı görünürdü. Deyəsən, hava yaxşı olacaq. Çünki nə külək var idi, nə də qar yağmırdı. Ka bir az Aytəni, bir az atasını, aldığı kitabları, pianino müəlliməsini, anasını, Cəhrini, psixologiya imtahanını fikirləşdi, yuxuya getdi.

Pendirin iri dilimini götürüb para zavod çörəyinin arasına qoydu, fincanda buğlayan çaya beş-altı qənd atdı. Çay qaşığıyla qarışdırandan sonra rahatca yeməyini yedi. Paltarlarını dəyişdi, evi səliqəyə saldı, kirli qabları yudu, masanın üstündəki kitabları düzəltdi, qənddanın qapağının içinə çəkib doldurduğu siqaret kötüklərini boşaltdı. Pəncərəni açıb taqqıltılarla bir yerdə içəriyə təmiz hava buraxdı. Bu gün başqa gün idi. Bu gün Ka üçün seçilmiş gün idi. Bu gün müqəddəs gün idi. Bu gün cümə axşamıydı və bu evə Aytən gələcəkdi. Ka evdən çıxmazdan əvvəl bir də hər yerə, hər şeyə nəzər yetirdi. Aytən üçün evin baş tərəfində ayırdığı yerə baxdı. Sonra səliqəylə yığılmış çarpayısına, divara düzülmüş şəkillərə baxdı, onları çıxarıb-çıxarmamaqda tərəddüd etdi. Qapını bağlayıb pillələri ikibir, üçbir aşağı endi.

Onlar vədləşmişdilər, vaxt təyin etmişdilər, görüş yeri müəyyənləşdirmişdilər, sözləşmişdilər, bir sözlə, razılığa gəlmişdilər ki, "Neftçilər" metrosunun çıxışında görüşsünlər. Əslində, Aytən Kanın dərsdən sonra gəlməyini istəyirdi, ancaq Ka dayana bilərdimi?

– Yox, eybi yoxdur. Onsuz də həmin müəllim dərs keçmir, uzaqbaşı, bir az dövləti pisləyəcək, sosializmi tərifləyib, aradabir saatına baxacaq... Narahat olma, gələcəyəm, – demişdi.

Aytən iki böyük sellofan paketi zorla marşrutdan endirdi. Ka tələsik onun qabağına yüyürdü.

– Çox maraqlı evin var, – xananı otağın giriş tərəfində quran Aytən dedi.

– Yox, elə də maraqlı deyil. Tələbə evidir. Çay qoyum içək, – Ka mətbəxə keçdi. Axı nə olmuşdu? Niyə qəfildən bu qızın qarşısında əl-ayağı bir-birinə dolaşır, özünü fiziki qüsurlu adam kimi hiss edirdi. Bir az özünü cəmləməyə çalışdı. Mətbəxə keçəndə yenə həmin tərəddüd anı, qəlbinə daş kimi sallanan seçimsizlik, qərarsızlıq, nagümanlıq, nigaranlıq... hər nə zibil idisə, bax, həmin duyğu onun əlini-qolunu bağlayır, nəfəsini kəsir, fikirlərini qəribə səmtə sürükləyirdi.

– Xanaların belə balaca olacağını bilmirdim. Adətən, çox böyük olur axı... – deyə Ka Aytənin yanında, yerdə oturub onun xananı necə qurduğuna baxdı.

– Yox, bu xalçalar dekorativ xarakterlidir deyə xanaları da balaca olur. – dedi, inci kimi düzülmüş dişlərini ağartdı. – Evi necə qızdırırsan?

– Qaz sobası yananda hər yer qızır. Bunda hansını toxuyacaqsan? – Ka hündürlüyü yarım metrdən də az olan xananı göstərdi.

– Belə. Bu da bizim xanalar.

– İkisini paralel toxuyacaqsan?

– Hə.

– Van Qoqun xalçasını hansı xanada toxuyacaqsan?

– Birincidə Van Qoq, ikincidə də "Qasımuşağı" olacaq! Əslində, hər ikisi "Qasımuşağı" olacaq, ancaq birinin orta sahəsindəki ağ hörümçəyin kürəyinə Van Qoqun qulağını bintlə bağladığı avtoportretini toxuyacağam.

– Məncə, maraqlı ideyadır.

– Hə. Elman dayının xoşuna gələcək.

– Ağ hörümçək niyə?

– Ağ hörümçək müdafiə xarakterlidir. Həm də ağ hörümçək şad xəbər gətirmək mənasında işlədilir.

– Bəlkə mənə də şad xəbər gətirdi?

– Nə xəbər?

– Deyərəm. Darıxma... – deyə Ka əlini Aytənin çiyninə qoydu. Əlindəki xəritə barədə demək istədi, ancaq fikrindən daşındı. Aytən xananın müxtəlif rəngli ipliklərini düzəldirdi. Çiynindəki əli sanki hiss etmirdi. Heç bir reaksiya vermədən başını aşağı salıb var gücüylə xananı qurur, ərişi düzəldir, xalçaları toxuyub qurtarmaq istəyirdi. Yenə həmin qəribə sükunət, həmin tərəddüd, çıxılmazlıq duyğusu...

Bir müddət sükut çökdü. Bircə güllələrdən gələn səs həmişəki qaydasındaydı. Qara atlılara indi qara hörümçəklər də qoşulmuşdu və üfüqə tələsirdilər. Bu sükut ulartısını mətbəxdə qaynayan çaydanın paqqıltısı pozdu.

Aralarında qəribə bir dialoq oldu. Hər ikisi söz tapmaqda çətinlik çəkirdilər, bir-birinə sevgilərini deyə bilmirdilər. Sanki ikisi də sevdiklərini qəbul etmişdilər və bu sevgi üçün çox sözə, çox danışmağa ehtiyac yox idi. Eləcə susmaq və sevmək lazım idi. Bəlkə də heç belə deyildi. Onlar əslində heç nə demək istəmirdilər. Nə bilim...

Ka sakitcə ayağa qalxıb mətbəxə keçdi.

– Dayan kömək edim.

Özünü mətbəxə yetirən Aytən çaynikin iki gündür dəyişdirilməyən dəmini boşaltdı və quru çay əlavə etdi.

Çaylarını Kanın anasının göndərdiyi nabatla içdilər. Hava çox gözəl idi. Soyuq qar örpəyi isti günəş şüaları yavaş-yavaş əridirdi. Aytən çayından bir qurtum içib dedi:

–Bakıya gələndə bir müddət çadır şəhərciyində qaldıq. Dayımgilin qonşuluğunda rus qadın yaşayırdı. Qadın çox yaşlıydı. Ona baxmaq üçün adam axtarırdı. Ona baxmaq lazım idi, axırda da evini həmin adama vəsiyyət edəcəkdi. Biz də çadırdan qadının yanına köçdük. Xəstəydi, çox yaşamadı. Bir ildən sonra öldü. Ev də bizə qaldı.

– Heç zəng vurmurdu? – soruşan Ka evin baş tərəfindəki xanaların yanına düzülmüş müxtəlif ölçülü balaca kirkit, qayçı və həvəyə baxdı.

– Yox...

Ka heç nə demədi. Sakitcə onun çayını içməsini gözlədi.

– Bir-iki dəfə məktub yazdı. "İşim düzəlsin, pul göndərəcəyəm". İkicə kəlmə... – dedi və isti çaydan bir qurtum da içdi.

Uzun müddət susdular. Xeyli vaxt güllələrin səsinə qulaq asdılar. Qara atlıların nal səsləri həmişəki kimi aydın eşidilirdi. Aytən stəkanının altına qoyulmuş nəlbəkidəki xırda sarmaşıq güllərinə baxırdı.

– Bəs indi? – Ka soruşdu.

Aytən başını dik qaldırıb Kanın gözlərinin içinə baxdı. Bu gözlərdə qəribə bir çıxılmazlıq, etiraz, itaət, razılıq, narazılıq, kədər, sevinc və bütün duyğular var idi. Bəlkə də heç nə yox idi. Sadəcə vecsizlik, sadəcə, boşluq idi. Yəqin ki beləydi.

– Yenə içirsən? Mən çox çay içənəm, ona görə evdə olanda gərək mütləq çaydan qazın üstündə qaynasın, – Ka dedi və gülümsədi.

– Hə, mən də xoşlayıram. Ən çox da xalça toxuyanda içirəm, – dedi, – özüm gətirərəm.

– Yox, qoy kömək edim, – dedi və stəkanını götürüb onun arxasınca getdi. Aytən qara cins şalvar və qalın, əldətoxunma yun kofta geyinmişdi.

– İstidir?

– Hə, yaxşıdır. İçməlidir, – Aytən elə mətbəxdəcə fincanından bir qurtum içdi.

– Qorxmursan?

– Nədən?

– Tək qalmaqdan?

– Əvvəl qorxurdum, birinci gün... Sonra düzəldi. İndi qorxmuram. Qüllələrin səsi gəldikcə rahatlanıram, – dedi və əlini Aytənin çiyninə qoydu. – İndi sən də yanımdasan, heç qorxmaram.

Aytən heç nə demədi. Kanın gözlərinin içinə baxdı. Sonra gözlərini onun dodaqlarında gəzdirdi. Ka başını aşağı əyib onun yanağından öpdü. Qollarını onun boynuna salıb qucaqladı. Onun gilənar mürəbbəsini xatırladan şirin ətrini ciyərlərinə çəkdi. Sinəsinə toxunan döşləri, az qala, Kanın ayaqlarını yerdən üzəcəkdi. Aytən tez geri çəkildi, stəkanını götürüb otağa keçdi.

– Axırda sənə kitab verməyəcəklər?

– Niyə?

– Kitabxananın kitablarını cırırsan.

– Hardan bildin?

– Şəkillərin üstündə kitabxananın möhürü var.

Ka şəkillərə baxıb güldü. Sonra qəndqabından bir ədəd qurudulmuş meyvəylə hazırlanmış nabat qırığı götürüb böyründəki qoz ləpəsini qoparıb yedi.

– Heç tələbə evinə oxşamır evin.

– Hə. Anam əlinə keçəni bura göndərir. Deyir oxu.

Ka masanın bir küncünə qoyulmuş balaca radionun düyməsini fırlatdı, əvvəlcə xırıltılı səs otağa doldu, sonra da həmin həlim səsli diktor qadın dilləndi, "Azərbaycan radiosunda Can Atillanın "*Məcnunun məhəbbət səhrasında fəryadı*" əsərini dinləyirsiniz, – dedi. Otağa əvvəlcə qəribə bir xırıltı doldu. Ardınca dərin və insanın qəlbinə kədərdən savayı heç nə verməyən, beynində bəşəri suallar oyadan musiqilər daraşdı. Aytən heç nə demirdi. Susurdu. Kədərliydi. Mahnı onu sanki başqa bir dünyaya aparmışdı. Bu musiqi parçası qəfildən Aytəni Kadan qoparmışdı, uzaqlaşdırmışdı, özünü eyniylə Məcnunsayağı səhralarda Leylisinin xəyalının dalınca qaçan aşiq kimi təsəvvür etdi. Qəfildən ona elə gəldi ki, Aytəni son neçə gündə tanımayıb, bu qədər duyğu, bu qədər məhəbbət seli, bu qədər istək də bu son həftənin içərisində yaranmayıb,

çoxdana, neçə milyon il bundan əvvələ aiddir. Əmindir, həmin vaxt hələ İslam dini Xəzər dənizinin sahilində azan səsini qaldırmamışdı, onda Suraxanıdakı "Atəşgah"larda adamlar oddan xoşbəxtlik dilənirdilər. Yox, heç o, Aytəni bu dünyada da sevməmişdi, başqa bir aləmdə, başqa bir sivilizasiyada sevmişdi. Hə, indi dəqiq yadındadır, bu Lut peyğəmbərin qövmündəydi, kişilərin bir-biriylə qızmar səhra günəşinin altında sevişdikləri məqamda, şahların gözəl oğlan hərəmxanaları saxladığı çağlardaydı. Ka bütün bu alt-üst olmuş dünyanın acığına, bir qadını, ilmə-ilmə toxunmuş, içində bütün bəşəri kodlar olan Aytəni sevmişdi. Bəs o, qəlbinə qəfil dolan tərəddüd toxumları, çıxılmazlıq məqamı, götürqoylar, mübahisələr nəydi?!

– Nabat çox ləzzətlidir, – deyə Aytən qəndqabının bir küncündən qoz ləpəli nabat qırığını götürüb ağzına atdı.

– Hə, Cəhridə bu nabatları mənim anamdan gözəl hazırlayan yoxdur. Hamı yayda "Əshabikəf"ə gedəndə anamın nabatlarından aparıb nəzir kimi paylayır. Belə getsə, arvad özünə biznes quracaq. Nabatçı deyəcəklər.

Aytən gülümsədi.

– Sabah Van Qoqun həmin portretini gətirəcəyəm. Bu gün yadımdan çıxdı.

– Bəs onu ilmələrə necə çevirirsən?

– Postimpressionistlərin əsərləri, əslində, bizim xalçalar kimidir.

– Yəni bizim nənələr köhnə postimpressionistlər olub?

– Hə, – dedi və növbəti nabat qırığını götürüb ağzına atdı, – onlar ən birinci kubistlər, impressionistlər olublar, – dedi və güldü.

– Van Qoqda xətlər də rahatdır. Ancaq sarının çalarlarını vermək bir az çətin olacaq.

– Hə. Sarı ayrılıq və nifrət rəmzidir. Bizim aramızda isə Van Qoq var. Ayrılıq və nifrət rəmzinin vurğunu...

– Yox, qətiyyən belə düşünmə... – dedi. Ancaq qəfildən həmin tərəddüd duyğusu, qəlbindən ağır bir daş kimi asılan çıxılmazlıq hissi yenidən gəlib düz gözünün qabağında dayandı.

– Ev çox qarışıqdır. O, bütün günü otaqda oturub siqaret çəkir. Heç nə danışmır, – deyə sükuta təpilən qara atlıların səsini kiridib dilləndi.

– Bəs ananla necədir münasibəti? O da hər şeyi sizin kimi qəbul edir?

– Yox, bilmirəm. Hələ təzədir. Yəqin nə vaxtsa düzələr. Ancaq heç özüm də inanmıram. Çünki Rüstəmə görə yəqin ki, çətin bağışlasın.

– Darıxma, sabah gəl, oturub burda rahat-rahat işləyərsən. Mənə çox maraqlıdır, Van Qoqu necə işləyəcəksən?

– Yəqin bilirsən də onun haqqında, qulağını kəsib Raşel adlı bir qadına veribmiş.

– Hə. Qəribədir.

– "Qasımuşağı"nın ağ hörümçəyi bizim qulağı kəsiyi daşıyacaq...

– Gətir baxaq. Al, bu açarın biri səndə qalsın. İstədiyin vaxt gəl, mən evdə olmayanda da... – dedi və açarı ona uzatdı.

Sonra bir müddət oturdular, Ka balkondan dörd yumurta gətirdi. Aytənlə bir yerdə tavaya yumurta vurub yedilər. Bununla bir-birlərinə daha da yaxınlaşdılar, Ka, özünü bir ailə kimi hiss edirdi. O, ilk dəfəydi ki, Aytənlə bir yerdə hazırladıqları yeməyi yeyirdi. İlk dəfəydi ki, onun bu balaca taxta masası iki nəfərlik süfrəyə çevrilmişdi. Aytən çəngəli səliqəylə boşqabın yanına qoymuşdu, çörəyi xırda dilimlərə bölmüşdü. Yedikcə bir-birlərinə baxır, gülümsəyir, sanki yemək bitdikcə bir ailə olmaq, bir yerdə əbədi yaşamaq duyğularını beyinlərində, qəlblərində yaradırdılar. Doğrusu, qəribə hiss idi. Fərqliydi. Ka üçün bəlkə də dünyada ən gözəl qayğanaq, bəlkə də ən gözəl günorta yeməyi, bəlkə də ən gözəl gün idi. Bircə qəlbindən daş kimi asılan o kədər və tərəddüd olmasaydı.

Aytən Kanın süfrəni yığışdırmağına, kitabları səliqəylə əvvəlki yerinə qoymağına, qaz sobasını altını yandırıb çay hazırlamağına kömək etdi.

– Ərik mürəbbəsiylə aran necədir? – deyə Ka mətbəxdən bir nəlbəkinin içinə beş-altı ərik qoyub süfrəyə gətirdi.

– Bunda da qoz ləpəsi var, – Aytən çay qaşığıyla bir ərik götürüb şirəsini axıda-axıda ağzına qoydu.

– İndi birinci hansını toxumağa başlayacaqsan?

– İkisini də birdən başlayaram. Çünki vaxtım yoxdur. İstəyirəm tez qurtarım. Həm də sənə çox əziyyət verməyim.

Niyə axı? Aytən özünü bu evdə yad, özgə, başqası bilir? Niyə Aytən Ka kimi bu birgəliyi gələcək ailənin ilk birləşmə məqamı kimi deyil, daha çox dost və ya hansısa tanışa qarşı borc kimi qəbul edir? Niyə Aytən bu evi Kanın əbədi mübarizə yoldaşı kimi deyil, sadəcə, bir emalatxana, bir iş otağı kimi görürdü? Ka, sakit ol! Sənin üçün nə əhəmiyyəti var? Əsas odur bir yerdəsiniz, əsas odur bu ilmə-ilmə toxunmuş gülüşü olan, xalçalar kimi rəngarəng Aytən sənindir, yanındadır.

Ka bir siqaret götürüb yandırdı. Radioda "*Mars Lasar – The only answer*" səslənirdi. Aytən çayını içmişdi, indi də birinci xananın qabağında bardaş qurub oturmuşdu. Ka onun xananın qarşısında necə dik və gümrah dayandığına baxırdı. Onun oturuşu virtuoz ifaçının indicə pianinonun hansısa "do" və ya "mi" notuna toxunmaq uçun əlini ehmalca boşluğa qaldırıb yavaş-yavaş həmin ağ və ya qara dilin üzərinə endirəcəyinə bənzəyirdi. Aytən kirkiti əlində saxlamışdı. Sanki ilk ilməni vurub birinci naxışa toxunmaq üçün özünü hazırlayırdı. Əvvəlcə başını xanadan uzaqlaşdırıb baxır, sonra yaxınla-

şır və ilk ilmə – sarı rəngli, yox, tünd-sarı rəngli ilk naxış vurulur. Aytən dillənmir, Aytən susur, Aytən dinmir, Aytən barmaqlarını xananın ağ əriş iplərinin arasına salır, onlardan birini tutur, əlindəki sarı ipi düyün vurub ilmə salır və yenidən və yenidən və yenidən bu ilmələr ardıcıl düzülür. Təqribən beş santimetr toxuyandan sonra Aytən xananın qarşısından çəkildi. Kaya baxıb gülümsədi.

– Kənar haşiyəsi sarıda xırda xaçlar və butalar olacaq. Sonrasına baxarıq... Bir də "Qasımuşağı"nı dəyişmək istəyirəm. Kənar haşiyələri daha çox sarı rəngin tonlarında toxuyacağam. Yeni simvollar əlavə etmək istəyirəm. Qalan hissəsini də olduğu kimi... "*Qasımuşağı*"da necədirsə, elə!

– Butanın nə mənası var ki?

Aytən susdu, heç bir cavab vermədi. Sakitcə pəncərəyə yaxınlaşdı və neft qüllələrinin necə aramla, tələsmədən qalxıb-endiyinə baxdı. Qara atlıların nal səsləri həmişəki kimiydi. Üfüqə çapırdılar. Günəşi kirimək bilməyən nal səslərinin taqqıltısında əzmək, əridib külə çevirmək üçün...

"*Görəsən, nə deyir? Elə mənim dediklərimi fikirləşir. Yəqin demək istəyir ki, buta sevgini etiraf etməkdir, buta sevgi uğrunda çəkilən əzab-əziyyətdi, buta məşəqqətdir. Yəqin demək istəyir ki, buta Teymurləngin nəvəsi Babur şahın Tac Mahalın divarlarına döşətdiyi, hər ayrisində, qıvrımında, çevrəsinin xırda çıxıntısında, ortasındakı izahagəlməz simvol-*

larda gizlənən əzabıdır. Aytən, nə demək istəyirsən? Nə?"

Ka siqaretini çəkib otağın boşluğuna üfürdü.

– Bu qüllələrin səsi səni bezdirmir?

– Yox.

– Atan üçün darıxırsan?

– Yox. Bəs sən?

– Əvvəllər darıxırdım, çıxıb gələndən sonra darıxmıram. İndi əksinə getməyini gözləyirəm.

– Hara?

– Mən indi gedim, yəqin gələn həftəni gələ bilməyəcəm, evdə oturub birtəhər "Daşbulaq" xalçasını toxuyub qurtarmaq istəyirəm. Həm səni də bezdirməyim. Dərslərinə mane olaram.

"Yenə yadlaşmaq, özgələşmək, özünü başqası kimi hiss etmək. Niyə?"

– Hə, necə istəyirsən, elə də olsun! Ancaq məni qətiyyən narahat etmirsən, – deyə Ka çəkib qurtarmaq üzrə olduğu siqaretini qəndqabı qapağının içində əzdi.

Aytəni aparıb yola salmışdı. Öpməmişdi, eləcə əlini uzaqdan yelləmiş, –görüşərik, – demişdi. – Mesaj yazacağam.

Aytən də heç nə danışmamışdı, cavab verməmişdi, başını aşağı salıb avtobusa minmişdi, birtəhər, xalaxətrin qalmasın deyə gülümsəmişdi. Sonra avtobus neft buruqlarının arasıyla uzanan yolboyu şütüyərək qəfildən gözdən itmişdi.

Ka çarpayısına uzandı, bir neçə dəfə Aytənə evə çatıb-çatmadığıyla bağlı mesaj yazdı. Radionu söndürdü, sonra yenidən işə saldı. *"Mars Lasar – warm night"* səslənirdi. Ka evin işığını söndürmüşdü, pəncərəyə getdikcə qaranlıq çökürdü. Çarpayısına oturub əlləriylə dizlərini qucaqlamışdı, başını aşağı salmışdı, gözlərini yumaraq evin içində gəzişən bu mahnının səsinə qulaq asırdı. Sonra fikirləşdi, bu soyuqluğu, bu gün baş verən hər şeyi, Aytənin bir həftədən sonra gələcəyini, onu incidib-incitmədiyini, onu sevib-sevmədiyini, qucaqlamağının nə dərəcədə yerində olub-olmadığını...

– Qurban olum, bəsdir. Bezmişəm!

– Bizi küçələrdə qoydun, hər şey sənin ucbatından oldu.

– Ay bala, vallah, mən heç nə etməmişəm. Əl çək məndən.

– Yalan deyirsən, qəhbə. Sənin axmaqlığına görə bu işlər mənim başıma gəlir. Bu iki uşağı mən necə saxlayım? De, tez ol! O qurumsaq oğlunu gətir, indi öz yetimlərinə baxsın. Neyləyim?

Ka cəld özünü qapının gözlüyünə yetirdi. Nino xala blokda, pillələrin üstündə əyləşib ağlayır, yanında iki balaca uşaq olan kök, cavan gəlin əliylə onun başından vurur, ağlayır, uşaqlarını dartışdırıb göstərirdi.

– Vallah, mən heç nə etmədim. Ay Allahım, qurban olum, al mənim canımı. Bunlardan qur-

tarım... – deyə Nino xala ağlayır, var gücüylə qışqıraraq əllərini göyə qaldırıb Allaha yalvarırdı.

– Gedib bütün günü eşşək kəlləsi, qurd yağı gətizdirdin evimə, yedirtdin hamısını Əlibalaya, o da getdi bu sonsuz ləçəri aldı. Sən də arzuna çatdın. Axmaq, ifritə. Hələ çəkməmisən, hələ sən cavabını almamısan. Allah səni bir günə qoyacaq ki... – qadın uşaqlarını sürüyə-sürüyə pillələri endi. Nino xala əlləriylə gözlərini sildi. Sonra birtəhər pillənin sürahisindən yapışıb ayağa qalxdı və qapıya yaxınlaşıb yorğun əlləriylə döydü. Nargilə qapını açıb uzun boynunu çölə uzatdı:

– Getdi?

Sonra nəcis iyi verən blokun aşağı enən pillələrinə baxdı.

Nino xala heç nə demədən içəri girib qapını örtdü. Alaqaranlıq dəhlizə yenə sükut çökdü. Ka bəlkə də Nino xalanın bütün sirlərini öyrənmişdi. O, qadınların ərlərinə eşşək başı yedizdirərək yoldan çıxartdıqlarını, qonşuların bir-birinin darvazasına ən ağır cadu hesab edilən qurd yağı sürtməsi barədə xeyli məlumatlıydı. Hətta bir dəfə atasının qızıl tapacağına söz verən Cəhri baxıcılarından biri evə qurd yağı gətirmiş, çox baha qiymətə satmışdı. Əvəzində Kanın anası bir boyunbağını götürüb qadına vermişdi. Cəfayda! Hanı o xəzinələr?

Ka üçün artıq Nino xala da, Möminə xatun da heç kim maraqlı deyildi. O, indi bütün tarixin, indinin və gələcəyin üstündən xətt çəkmişdi. Bircə Aytən var idi. Xananın qabağında əyləşdi və xalçanın kənar haşiyəsi olan ensiz uzun sarı xəttin üzərinə toxunmuş buta və xaç ilmələrinə əlini sürtdü. Sonra dodağını yaxınlaşdırıb butanın qırmızıya çalan, ortası qəhvəyi və qara rənglərlə toxunmuş balaca naxışını öpdü. Aytənin gilənar şirəsi dadı verən ətri yunla qarışıq, boyaqotuyla rənglənmiş ipliyin dadı onun dodaqlarına, dilinə, dilçəyinə, damağına yayıldı. Beynində əbədilik həkk oldu. Əllərini xananın başından sallanan yumaqlara sürtdü, sarı yumaq fırlanıb kənara düşmüşdü, onu da yaxına gətirdi. Bu balaca xanaya xeyli baxdı. İşığı söndürdü, yorğanı başına çəkib yatdı.

"Sənə heç kim yaxın durmaz. Tək qalarsan, Allah özü də səni təkləyər. Göydən yağış əvəzinə qurbağa yağdırar. Günəş qəsdən qaçıb gizlənər, ay buludların arxasına təpilər. Meydanda təkcə qalarsan. Hamı üstünə silah çəkər. O qədər təklənərsən ki, özün də özündən utanarsan. Əlindəki silahı yerə qoyub, cibindəki ağ, göz yaşı ləkələri olan dəsmalını çıxarıb yelləməklə məşğul olarsan. Adamlar sənin kimi qorxağı bağışlayar. Əslində, əfv etməyi üzünə çırparlar, sədəqə kimi verərlər sənə... Sən isə sakitcə meydandan çəkilib gedərsən. Döyüşmək? Yox, qətiyyən, bu, sənlik deyil. Sən təslim olmusan. Sən öz düşmənlərinə dəsmal

yelləmisən. Sən silahını hamının qabağında yerə qoymusan. Sən Allahın özü tərəfindən lənətlənmisən. "Mübarizə apar" deyə cüzamlı biri üstünə şığıyar, məhz qan axsın deyə, dava olsun deyə, izləməli, kənardan dayanıb baxmağa kədərli bir mənzərə olsun deyə... Sən yenidən ruhlanarsan. Dəsmalını cüzamlıya verib şığıyarsan silahının üstünə, götürüb dörd yanındakı adamların üstünə cumarsan. Ancaq yan-yörəndə daha heç kim yoxdur. Bircə qurumuş ağac var çox uzaqda, bir göydə uçuşan qara qarğalar, səmada topa-topa qara buludlar və əyninə cındır geyindirilmiş bostan müqəvvası... Cüzamlı, içindəki cüzamlı səni məcbur edər, səni aldadar ki, bax o bostan qorxuluğu Axillesdir, Makadoniyalı İsgəndərdir, Teymurləngdir. Sən də içindəki cüzamlıya inanıb cumarsan qorxuluğun üstünə. Silahını bu əyninə cındır geyindirilmiş taxtanın üstünə çəkərsən. Taxta elə sənin ilk zərbənlə yerə yıxılar. Bağırtından qurumuş ağacdakı qarğalar dəstə-dəstə səmaya qalxıb qıy vurar. Özünə gələndə silahının çoxdan pas atdığını görərsən. Yanılarsan. Ancaq məhz bu köhnə silahının, içindəki cüzamlının, yerə yıxılmış qorxuluğun acığına yaşayacağam deyərsən. Qamətini düzəldərsən. Ancaq sonra? Sonrasına "həyat" deyirlər. Sonrasının cavabı ömür yoludur. Sonrası tale deyilən bir zibilxanadır. Ancaq yenə də arada bir ümid adlı ulduz parlayıb sönər səmada... Sapsarı rəngdə, iri, böyük bir almaz parçası kimi..." – Ka dayanmadan yorğanının altında beləcə danışdı. Arada radioda

"*Əlixan Səmədovun- Kağız gəmilər*"i səsləndi. Balabanın səsi, az qala, bütün dünyaya yayıldı. Sonra pəncərəyə külək uğultuyla çırpıldı. Sonra yuxarı mərtəbədə ayaq səsləri eşidildi, kimsə blokda öskürüb aşağı endi. Həmişəki qulaqbatırıcı neft qüllələrinin səsi davam etdi. Qara atlılar günəşi nallanmış ayaqlarının altına salıb təpikləyirdilər.

Belisilahlı nəzarətçilər görüş otağının tavana dirənən nəfəsliyini açmışdılar. İçəridə bircə Ka var idi, bir də atası.

– O, xəritədə işarələrin çoxunu başa düşmədim.

– Onu tulla zibil qabına.

– Niyə?

– Camalın yanına iki-üç gün bundan qabaq çox köhnə bir tanışı gəlmişdi. Tarixçi, etnoqraf idi. Deyir, həmin xəritənin göstərdiyi xəzinəni çoxdan tapıblar.

– Nə vaxt? – deyə Ka bacardığı qədər pıçıltıyla dilləndi.

– Xeyli müddət bundan əvvəl, Naxçıvan mətbəəsində abidənin bərpası ərəfəsində daş kitabələrin üzünü köçürən foto-sinkoqraf Aşot Markayan məqbərənin sərdabə hissəsindəki qəbirləri dağıdıb, daş kitabələri də götürüb aparıb. Sənə dediyim qoçun da altını qazıb içindən iki sandığın içində basdırılmış xəzinəni götürüblər. Qurumsaqlar, – deyə Q. qəribə bir pıçıltıyla, kədərlə dilləndi.

– Darıxma, hər şey qaydasına düşəcək, – Ka ötəri, birtəhər, təsəllivarı bir cavab pıçıldadı. Sonra da dəmir barmaqlıqların qabağında vargəl edən polisi düşündü. "Məgər heç kimin haqqı yoxdurmu ki, qalxıb desin, mən sizin qaydalarla hesablaşmıram, mən sizin cəmiyyətin bu çürük ideyalarına boyun əymirəm?"

– Hə, bilirəm. Əlbəttə. Ancaq sənə verdiyim xəritə dəqiq tarixi faktlara əsaslanırdı. Kaş əlimə tez keçəydi. İndi həmin xəzinələr bizim idi. Avropaya getmişdik, – deyə təəssüflə dilləndi, – ancaq mütləq tapacağam.

Ka dillənmədi. Heç nə demədi. Halbuki, ona verilən dəri xəzinə xəritəsinə inanmışdı. Qəlbində orada nəsə tapacağına dair çox dərin bir ümid var idi. İndi hər şey birdən uçub getdi. Yerində qəribə bir boşluq peyda oldu.

Atasının bu tarix, xəzinə axtarışlarının birdən-birə ona çox darıxdırıcı gəldiyini hiss etdi. Neçə illərdir gecələr, az qala, səhərə kimi yolunu gözlədiyi adamın birdən-birə qoca və sarsaq bir adama çevrildiyini gördü. Yox, indi Aytən var idi. "Görəsən, yazacaq? Kim deyə bilər, bəlkə burdan çıxıb gedəndə onu evdə xanasının qabağında oturub kirkitiylə ilmələri döyəclədiyini, sarı yumaqları xırda-xırda qırıb ilməyə çevirdiyini görəcək? Yəqin belə olar; bloka girdiyi an onun gilənar mürəbbəsi kimi şirin ətrinin boyası getmiş ala-toran, kanalizasiya qoxulu dəhlizə yayıl-

dığını görəcək. Əvvəlcə blokdan içəri bir addım atacaq. Burnuna dolan ilk qoxunu ciyərlərinə çəkəcək, sonra sürahiyə yaxınlaşacaq. Aytənin əlini sürtə-sürtə yuxarıya qalxdığı sürahiyə toxunacaq, o da eynilə Aytən kimi əlini sürahiyə sürtəcək, Ələsgər əminin qapısının ağzından keçəcək, sonra on bir pilləli pilləkənləri qalxacaq. Nəhayət, öz mənzilinin qapısı ağzındadır. Heç Nino xala blokda oturub ağlasa da, ah-fəğan qoparsa da, ona fikir verməyəcək, məhəl qoymayacaq. Birbaşa əlini cibinə atacaq və Aytəni o sarı haşiyələrindən, tünd-qırmızı butalarından ayırmamaq üçün açarı ehmalca iki dəfə sağa fırlayacaq, qapını yavaşca açıb içəri girəcək. Dəhlizə daxil olan kimi yenə gilənar mürəbbəsi dadan qoxunu özünə daha yaxın hiss edəcək, otağa girməzdən əvvəl dəhlizdə dayanıb ona baxacaq. Bu arıq, dik qamətli, kirkiti əlində bir qələm kimi oynadan, hər ilməni əsl ustalıqla, öz ruhi aləminə qovuşmuş sənətkar kimi ilmələyən Aytəni görəcək. Ona uzun illər elə uzaqdan, kənardan dayanıb baxacaq və əslində, baxışın, adi bir nəzərin, gözucu görmənin əsl məhəbbət olduğunu anlayacaq. Ka fikirləşdi ki, yəqin belə adi bir baxış insana şiddətli sevişmədən daha çox zövq verə bilər. Ya da adi bir baxış, sadəcə, gözlərini o tərəfə yönəldib baxmaq və sadəcə, görmək Kanın fikrincə, Məcnun olmaqdan daha dəhşətlidir. Əslində, Ka belə bir məhəbbət

istəyirdi. Nəhayət, özünə gələndə atası üçün aldığı siqareti, gətirdiyi paltarı və kitabları bu qoca kişinin necə həvəslə yoxladığını gördü.

– Sağ ol. Heyf! Görürsən, axmaq ermənini?! Tfuu! – deyə yavaşdan, qorxa-qorxa Aşot Makayanı söydü, söydü, söydü. Mütləq yeni xəzinə xəritələri tapacağam. Yaxşı ki, evdən kitablarımı gətizdirdim...

– Ata, mən getməliyəm, dərsim var. Bağışla, – deyə Ka onun sözünü ağzında qoydu.

– Hə, get! – dedi Q. Sonra heç nə demədi. Sellofan paketi götürdü, Ka ilə sağollaşmadan, onunla qucaqlaşmadan görüş otağının arxa qapısını açıb getdi. Ka onun ardınca xeyli baxdı. Axı niyə bu adam getdikcə qozbel olmağa, yavaş-yavaş üzündəki qırışlar artmağa, əməllərindən peşman olmaq əvəzinə özünə haqq qazandırmağa başlayır? Axı niyə Kanın atası qəfildən harasa çıxıb getmiş, əvəzində isə həbsxanada yatan bir adama öz vəzifələrini icra etmək öhdəliyini vermişdi? Axı niyə həmin xəzinə ovçusu, igid, qəhrəman ata hər şeyini aparmışdı?

Hava çox istiydi. Sanki yayın ortasıydı. Bakının belə anormal, gözlənilməz havaları olduğu kimi, bu gün də günəş zenitə qalxaraq, ən parlaq şüalarını məhz bu balaca qəsəbənin üzərinə ələyirdi. Ka Binə qəsəbəsində yerləşən 17 saylı təcridxananın həyətinə çıxdı. Bu beton panellər, hər tərəfi dəmir məftillərlə əhatələnmiş cə-

zaçəkmə müəssisəsi onu getdikcə darıxdırırdı. Təcridxananın sağ tərəfi boş çöllük idi, sol tərəfdə isə beşmərtəbəli binalarda insanlar öz gündəlik həyatlarını yaşayır, balaca uşaqlar həyətdə "ip atlama", "gizlənqaç", "smen-şe-vo", "poker" oynayır, ağaca pərçimlədikləri iplə yelləncək düzəldib yellənirdilər. Binanın qabağındakı skamyada qadınlar oturmuşdu, qar çoxdan ərimişdi, hər tərəf qupquruydu.

Evə qayıdanda hər tərəfə qaranlıq çökmüşdü. Hava mülayim idi. Evin divarlarına qəribə bir qoxu yayılmışdı. Gilənar mürəbbəsi dadında bir ətir... Ka tez işığı yandırıb yan-yörəyə baxdı. Aytənin qoxusu evin içindəydi. Ancaq özü yox idi. Ehtimal ki bu gün evə gəlib işləmişdi. Xanaya yaxınlaşdı. Van Qoqa həsr olunacaq xalça bir iki santimetr də artmışdı. Sarının müxtəlif tonları, buta təsvirləri və iri ulduzlar. Bir də ulduzların arasında günəbaxan var idi. Sapsarı ləçəkləri olan, ortasında hələ tuma çevrilməmiş sarı gülləri olan günəbaxanlar toxunmuşdu. Və ehtimal ki, xalçanın kənar haşiyəsi artıq belə tamamlanacaqdı. İki kiçik haşiyədə, yeri açıq sarı olan zolağın üzərində şərab qırmızısı butalar və üzərində İsanın çarmıxa çəkildiyi xaçlar ardıcıl düzülərək bir-birini əvəzləyəcəkdi. Orta-böyük haşiyəni iri günəbaxanlar və iri ulduzlar tamamlayırdı. Bütün "Qasımuşağı" xalçalarındakı orta sahədə ağ rəngli yerliyi olan əjdaha toxunmuş-

du. Aytən hələ ki, bu əjdahaların bir tərəfini başa çatdıra bilmirdi. Həmin "Əshabi-Kəf"dəki "cənnət bağı"nda daşın altında gizlənmiş tunelin içindəki xəzinəni qoruyan əjdahaya oxşayırdı. Ka sanki qəfildən həmin əjdahanı yenidən öz evinin içində gördü. Halbuki, Aytən demişdi ki, "Qasımuşağı" xalçalarında qırmızı və yaşıl iplikdən toxunan əjdaha maddiyyat və mənəviyyat arasında mübarizə simvoludur.



"Əzablar... Çək! Ölənə qədər əzab çək. Əzab həyatın ləzzətidir. Gözəldir əzab çəkmək, xoşdur, sevgidir. Əzab sevgiyə gedən yoldur. Əzab var olmaqdır. Əzab yaşamaqdır. Bir damla göz yaşı tökmək, həvəslə mübarizə aparmaq, bəzən bilərəkdən, qəsdən çətinliklərə özünü atmaq, alovlanmaq əzab tonqalında... Əzab xoşdur. Ağlamaq var olmaq deməkdir. Kədər həqiqətin aynasıdır. Çək! Bir az əzab çək! Bir az ağladığın üçün xoşbəxt ol! Kədərlənə bildiyin üçün, çətinliklə dost ola bildiyin üçün, həyatda tək qaldığın üçün, şərləndiyin, haqsızlığa uğradığın, hamı tərəfindən atıldığın üçün özünü xoşbəxt hiss et! Sonra əzab səni öz çiynində işıqlı dünyaya aparacaq, ancaq qətiyyən silahını yerə qoyma. Əksinə, əzablarınla, çəkdiklərinlə, çətinliklərinlə, göz yaşınla silahını cila-

la və bütün düşmənlərinin gözlərini oy! Əzab dünyanın ən dadlı şərabıdır".

– Hə, yaxşıdır. Nə istəmişdi, hamısını alıb aparmışam, – deyə Ka üzünü pəncərəyə çevirib həyətə və üfüqə qədər uzanan qüllələrə baxdı. – Yaxşı, ana. Konturun çox getməsin. Mən yəqin bir də bir-iki həftədən sonra gedəcəyəm. Gələn həftəyə görüş vermədilər. Sağ ol!

Anasıyla danışıb qurtarandan sonra yeməyini yedi. Sonra adəti üzrə çay içdi, siqaretini yandırdı və o balaca, dəmir başlıqlı çarpayısına sığınıb radioda "*Adam Hurst – Lament*"in həzin iniltisinə qulaq asdı. Siqaretini hər dəfə dodaqlarına aparıb dumanı ciyərlərinə çəkdikcə Aytənini fikirləşdi. Niyə ona xəbər verməmiş gəlmişdi? Bəlkə həqiqətən onu öpməklə, qucaqlamaqla səhv etmişdi? Bəlkə hər şey müəyyən vaxtdan sonra olmalıydı? Məsələn, uzun müddət sevgili olmalıydılar, uzun illərdən sonra ilk öpüş gəlməliydi, sonra ilk qucaqlaşmaq, sonra ilk dodaqların bir-birinə pərçimlənməyi, ilk dəfə əlini onun körpə döşünə aparıb sıxacaqdı, sonra ilk dəfə yavaşca onun boynundan öpəcək, əlini aşağıya aparacaq, onun çənəsini, dodaqlarının yanyörəsini, yanağını, alnını, boynunu hər yerini necə gəldi öpəcəkdi. Axı nə vaxt, bir əsr sonra?

Siqaretin külünü qəndqabı qapağına tökdü. Ev, deyəsən, soyumuşdu. Çarpayının üstünə

çəkdiyi, göl kənarında su içən ana-bala ceyran təsviri olan yataq örtüyünü də üstünə örtdü. Radionun adətkər olduğu xırıltısına bu dəfə həlim səsli aparıcının səsi qarışdı. Qız növbəti mahnını elan etdi. "Hörmətli Azərbaycan radiosu dinləyiciləri. İndi isə *George Shearing – Lullaby of birdland* əsərini dinləyirsiniz".

Səhər yuxudan tez oyandı. Telefonunun saatı vaxtında onu oyatdı. Ka cəld yerindən durub küçəsini təmizləməyə yollandı, evə qayıdanda binanın qabağındakı marketdən bir çörək aldı. Bir də skumbriya konservi götürdü. Bloka girəndə Nino xala sürahidən yapışıb aşağı enirdi. Əvvəlki kimi yorğun və narahat idi. Qolunda sarıq var idi, tənziflə boynuna bağlanmışdı.

– Salam, – Ka qadına baxıb dilləndi.

Nino xala dinmədi.

– Kömək edim, Nino xala? – qadının qolundan yapışmaq istədi. Nino xala əliylə möhkəmcə Kanın əlindən yapışdı. Nino xalanın şəhadət barmağının üzərində qəribə beşguşəli ulduz döyməsi var idi. Həmin ulduz isə dairəvi bir işarənin içinə salınmışdı. Nino xalanı yavaş-yavaş pillələrdən endirdi.

– Çox yorulmuşam, bala, ayaqlarımda taqət qalmayıb. Allah heç kimə qocalıq nəsib etməsin, – deyə qadın yorğun halda dilləndi. Ağzında bir dənə də dişi qalmamışdı. Heç arada bir taxdığı qoyma dişləri də ağzında yox idi.

– Niyə ki? Onsuz da hamımız qocalacağıq. Həyatda heç kimi ömrünün sonuna qədər gənc qalmır, – deyə Ka dilləndi. Təsəllisinə özünün də gülməyi tutdu.

– Dayan, bir az nəfəsimi dərim, – Nino xala blokun qapısından çıxanda Kanın əlini daha da möhkəm sıxıb dayandı.

Ka onun yanağına, qırışmış göz qapaqlarına, qulağının böyümüş və sallaqlaşmış sırğalığını başına örtdüyü örpəkdən çölə çıxartmağına, alnına düşmüş bir-iki ağ tükə, nəfəs aldıqca, boğazından eyniylə evdəki radionun xırıltısına bənzəyən səsin çıxmasına fikir verdi. Nino xalanın əlinin üstündəki həmin işarə, dərisini, az qala, deşib çölə çıxarmaq üzrə olan gömgöy damarlar Kanın yaddaşında əbədi olaraq həkk olundu.

Nino xala sağ ayağını çətinliklə qaldırdı, xırıldaya-xırıldaya nəfəsini dərib, – gedək, – dedi.

– Məndən bərk yapışın, – deyə Ka qadının qolundan tutub sağ əliylə çiyninə dayaq verdi.

– Qolumun ağrısından səhərə kimi yata bilməmişəm. Çox ağrıyır. Aptekə getmək istəyirəm, ancaq ayağım aparmır, – Nino xala yenə xırıltıyla danışırdı.

Ka Nino xalanı Ələsgər dayının arxası qırılmış, taxta skamyasında otuzdurdu. Salxım söyüd yarpaqlarını büsbütün tökmüşdü. İndi həmişəkindən daha balaca görünürdü.

– Nino xala, resepti verin, dərmanları mən gedib alım, – Ka dilləndi.

– Yox, əziyyət olar. Get sən. Bir az dincəlim, özüm qalxıb gedərəm, – deyə Nino xala tənziflə boynundan asdığı qoluna o biri əliylə dayaq verib, başını aşağı saldı.

– Nə əziyyət?! Yollar da yaxşı deyil. Çox yerdə gölməçə var. Mən iki dəqiqəyə alıb qayıdaram, – deyə Ka dilləndi.

Nino xala sağ əlini cibinə salıb resepti çıxartdı. Sonra da əlini qoynuna salıb döşünün arasında, ehtimal ki, lifçiyində gizlətdiyi kağız pulu çıxarıb Kaya uzatdı. Pul istiydi. 2 manat idi.

– 9 manat 50 qəpik eləyir, – deyə aptekçi qız reseptdə yazılan dərmanların hamısını balaca bir paketin içərisinə qoyub dilləndi.

Ka əlini cibinə salıb elə təzəcə ATM-dən çəkdiyi maaşından 10 manat götürdü və aptekçi qızın dərman paketini qoyduğu piştaxtanın üstünə atdı. Qız pulu götürüb 50 qəpiyi onluğun yerinə qoydu. "Sağ olun" deyib Ka aptekdən çıxdı. Qapının ağzında özünün 50 qəpiyini və Nino xalanın hələ də istiliyini itirməmiş 2 manatını dərman paketinin içinə qoydu.

– Nino xala, dərmanların hamısını aldım, – Ka paketi qadına verdi.

– Sağ ol. Allah köməyin olsun, – dedi. Dərman paketini alıb ayağa qalxdı. –Qurban olum, oğul, mənə kömək edə bilərsən yuxarı qalxım?

– Hə, əlbəttə, gəl! – Ka Nino xalanın qolundan yapışmaq üçün əlini uzatdı.

Arvad xırıldaya-xırıldaya ayağa qalxdı. Addımlarını bir-birinin ardınca qoyub yeriməyə çalışdı: – Yoldaşım çox yaxşı insan idi. Həmişə deyirdi özünü düşün, ancaq mən etmədim, – qadın yenə dərindən nəfəs aldı. Özü yeriməyə çalışır, arada ah-uf edirdi: – Hamısının günahı məndədir. Ona o qədər cadu-filan etdim ki... Vallah, pis mənada etmirdim. Edirdim ki, ailəsinə, evinə bağlı olsun... Sonra bir gün gəldi ki, başqasıyla evlənmişəm. Sən demə, onunla çoxdan bir yerdəymiş. Rus idi. Bir oğlu var idi. Boşandıq.

– Bəs niyə hər gün evdə dalaşırsınız? Əlibala sizi çox incidir? – Ka uzun müddətdir beynində çək-çevir etdiyi sualı axır ki verə bildi.

– Yox, oğlum çox yaxşı insandır. Hamısını eləyən arvadıdır. Deyir ki, – qadın dayandı, dərindən nəfəs aldı, – deyir ki, ananla yaşamayaq. Ayrı qalaq... Onu kimsəsizlər evinə göndərək.

Ka heç nə demədi. Qəfildən, bu qarının başına gələnlər onu təəccübləndirdi. Sonra heç nə... Nino xalanı yuxarı mərtəbəyə qaldırdı. Qapını döydü, uzun müddət heç kim açmadı. "Az, qırdın qapını!" İçəridən Nargilənin səsi eşidildi. Gəlin qapını açıb Kanı görən kimi, – keç, içəri, – dedi və əlini uzadıb Nino xalanın qolundan tutdu. Sonra da Kaya çevrilib: – Gətirdiyin

üçün sağ ol. Qocaldıqca başı xarab olur. Bir də görürsən baş alıb gedir, – dedi. Ka dillənmədi, heç nə demədi. Arxasını çevirib mənzilin qapısına yaxınlaşdı. Əlini cibinə saldı, açarı çıxarıb qapını açdı.

Özü üçün aldığı çörəyi və balıq konservini masanın üstünə qoydu. Sonra radionu işə saldı. "*Marcome – Prada*" səslənirdi. Qəribə bir melodiya, insanı sirli və nağılvarı bir dünyaya aparan səs evin içinə doldu. Ka qaz sobasının altını yandırdı. Çaydana su doldurub qaynamaq üçün sobaya qoydu. Sonra zavod çörəyini bıçaqla dilimləyib, eyvandan pendir, mürəbbə gətirdi. Özü üçün səliqəli bir süfrə açdı. Telefonu səssizə qoymuşdu. Mətbəxə keçəndə cibindən çıxarıb baxdı. "*Bağışla, əslində, səni çox sevirəm. Evdə hər şey bir-birinə qarışmışdı. Neçə gündür nə edəcəyimi bilmirəm. Gəlmişdim, sən evdə yox idin, mən də bir az toxudum, sonra getdim*". Aytən mesaj yazmışdı. Ka heç nə yazmadı.

Mətbəxdə çayını süzüb otağa gətirdi. Deyəsən, hava bu gün də yaxşı olacaqdı, çünki günəş şüalarını zəif də olsa pəncərəyə çırpırdı. Hava çox sakit idi. Dekabr ayının ortasında belə hava bir az qəribəydi, ancaq beləydi. Ka çayını içdi, yeməyini yedi, süfrəni yığışdırdı. Masanın arxasında əyləşib əvvəlcə psixologiya imtahanının suallarını hazırladı. Özü üçün xırda qeydlər apardı. Mütləq bu imtahanı verməliydi, çün-

ki həmin imtahan üçün o gonbul müəlliməyə verməyə bir qəpiyi də yox idi.

Günortaya qədər oxudu. Aradabir çevrilib xanalara baxır, Aytəni fikirləşirdi. Görəsən, bu əsəri toxuyub bitirəndən sonra necə olacaq? Qız Van Qoqun kəsik qulaq avtoportretini, gözlərindəki o anlaşılmaz sarı ifadəni verə biləcəkmi? Qəribəydi, Kanın Van Qoq haqqında xeyli məlumatı var idi. Ancaq qətiyyən onun nə istədiyini başa düşə bilməmişdi.

Siqaretini çəkib tüstüsünü halqavarı havaya buraxanda artıq saat 12 radələriydi və bir-iki saatdan sonra nahar etmək olardı. "Hörmətli dinləyicilər, Azərbaycan radiosunda "*David Navue – Overcame*" əsərini dinləyirsiniz!" deyə radiodan həlim səsli diktor dilləndi. Həzin musiqi onu yenə başqa dünyaya yolladı. Ka gözlərini yumdu və siqareti dodaqlarına aparıb bir qullab vurdu. Tüstünün yarısını ciyərlərinə çəkdi, qalanı isə otağın boz işığında əriyib havaya qarışdı.

"Ka, sən tənhasan! Ka qədim misirlilərin inancına görə insanın görünməyən bədənidir. Adamın görünməz tərəfi... Və antik Misir təsvirlərinin hamısında məni insanbaşlı quş kimi təsvir edirlər. Ancaq bu ki, həqiqətdir. Mənim qanadlarım var idi. İlk dəfə Aytənlə öpüşəndə də, sonra, hə, lap sonra da xaçpərəst olmağı müsəlmanlıqdan üstün tutanda da qanadlarımın çıxdığını hiss edirdim. Mənə elə gəlirdi ki, beləcə Tanrı məni cəzalandırır. Halbuki, bəlkə də belə deyil-

miş. Onun nə vecinə, sən əllərini göyə necə qaldırırsan. Ka mövcudiyyətin bilgiveräni və yolgöstərənidir. Ka sözün əsl mənasında, kosmik simvoldur. Və Ka Ziyadın özüdür".

O, üzərində "Skumbriya" yazılmış tomatlı konserv qutusunun dəmir ağzını bıçaqla kəsdi, xırda dilimlərə ayırdığı zavod çörəyini mətbəxdən gətirib yeməyini yedi. Barmaq boyda skumbriyanın bəzisinin başı bədənindən ayrılmışdı, bəzisi tünd-qırmızı tomatın içində üzür, bəzisi isə, tamamilə, tomata qarışmışdı və yalnız onurğası, sümüyün kənarındakı iynə kimi xırda qılçıqları burada nə vaxtsa balığın olduğunu təsdiq edirdi. Ka böyük okeanlarda üzərkən qətiyyətsizlikdən, bilərəkdən, intihar etmək məqsədiylə, taleyin qəzavü-qədərindən, ömrünün bitməsindənmi... axır ki, hansısa zibilə qalmış səbəbdən tilova, tora keçib konservləşdirilmiş skumbriyanı çəngəlinin dişlərinə keçirdi. Dilimlədiyi çörəyin bir parçasını götürüb qutunun içindəki tomata batırıb yedi. Radioda həlim səsli qadın "*Secret Garden – When Darkness Falls*" əsərini əziz dinləyiciləri üçün səsləndirdiyini elan etmişdi.

Ka günorta yeməyindən sonra yenə bu balaca, köhnəlmiş taxta masanın arxasına keçib psixologiya imtahanına hazırlaşmağa başladı. Özünə çay süzmüşdü, çayın yanındakı qəndqabının içində anasının göndərdiyi qozlu, qızılgül lə-

çəkləri formasında nabat var idi. Külqabı kimi istifadə etdiyi qəndqabı qapağında siqaret tüstüləyirdi. Radioda bu dəfə *"Lura – Nha Vida"* səslənirdi.

Qaranlıq pəncərəyə qonmuşdu. Hava sakit, ancaq şaxtalıydı. Ka cins şalvarını çıxarıb, anasının göndərdiyi yun pijamanı geyindi. Döşəyin üstünə sərdiyi adyalı götürüb çiyninə atdı. Gün ərzində beşinci siqaretini yandırdı, tüstünü ciyərlərinə çəkdi və havaya buraxdı. Sonra süzdüyü isti çaydan bir qurtum içdi və ikinci dəfə psixologiya imtahanın bütün suallarını təkrarladı. Bu imtahana hazırlaşdığı müddətdə öyrəndiyi bir çox həqiqətlər, mübahisəli məsələlər haqqında fikirləşdi. Bəlkə də ilk dəfə kasıb olduğuna, cibində pulu olmadığına görə xoşbəxt idi. Çünki gonbul, xallı psixologiya müəlliməsinə pul verməmək üçün oxuduğu kitablar ona çox böyük məlumatlar vermişdi.

"Əsas çətinlik deyil, əsas odur ki, sən birinci addımını atırsan, sən ilk cürətini göstərirsən, ilk cəhdini edirsən. Qələbə ilk addımı atmaqdadır. Xoşbəxt olmaq ilk addımı atıb qaranlıq dünyada xırdaca qığılcım qopara bilməkdir. Sonrası, sonraları, o biriləri, digərləri, geridə qalanları, gələcəkdə olacaqların heç bir əhəmiyyəti yoxdur. Onların heç bir əhəmiyyəti də olmayacaq. Bu, sevgilinlə aranda olan münasibətlər zəncirinin başlaması kimidir. Hər şey o ilk öpüşü qızın (və ya əksinə, oğlanın) yanağına qoymaqdan baş-

layır. Sonra çox şey ola bilər. Sonra göz yaşı, ayrılıq, kədər; heç birinin əhəmiyyəti yoxdur. Ən əsası odur ki, elə bu göz yaşını yaşamaq, kədərlənmək, ayrılmaq hissi var. Və hər şey, məhz bu hissləri yaşamaq da o ilk addımdan başlayır", – deyə Ka fikirləşdi. Sonra siqaretini götürdü sonuncu dəfə qullab vurdu, tüstünü havaya üfürüb kötüyü qəndqabı qapağına basdı.

– Alo.

– Salam. Necəsən? – Aytən idi.

– Yaxşıyam. Sən necəsən? Özünü mənə öyrəşdirmisən. Darıxdım, zəng vurdum səsini eşidəm, – Ka üzərinə "Roller-Tip Pen 0.5" yazılmış qələmi əlində fırlatdı. Bu qələmi də ona Aytən bağışlamışdı.

– Hə, bağışla, keçən dəfə sənə xəbər vermədən gəldim, sonra da səni gözləməyə vaxtım olmadı deyə çıxıb getdim, – dedi.

– Axı səni görmək istəyirəm. Darıxıram sənsiz.

– Mən də...

– Nə vaxt gələcəksən?

Yenə həmin tərəddüd duyğusu gəlib onun qəlbinin üstündən ağır bir daş kimi sallandı. Dəstəyin digər tərəfindəki səssizlik daşı daha da ağırlaşdırırdı.

– Radioda gözəl bir mahnı səslənir. Deyəsən, "*Laura Fyqridir – Corcodavo*".

Yenə sükut. Cavabsızlıq və səssizliyə həvəslə qulaq asmaq...

– Alo, ordasan?

– Hə, fikirləşirəm.

– Nə?

– Bizi.

– Niyə?

– Bilmirəm, istəyirəm ki, hər şey yaxşı olsun.

– Darıxma. Hər şey gözəl olacaq. Bilirsən, indi sənlə daha çox vaxt keçirmək istəyirəm.

– Mən də...

– Van Qoq maraqlı alınacaq. Onu necə işləmək fikrin var?

– Van Qoqun həyatında baş vermiş ən böyük faciəni və bəlkə də ən gözəl məqamı toxumaq istəyirəm. Ancaq yəqin gizli simvollar da əlavə edəcəyəm.

– Necə?

– Olmaz, onu xalça qurtaranda görəsən. Yavaş-yavaş...

– Yaxşı. O qədər hövsələli deyiləm. Onda gərək hər dəqiqə sənə zəng vurub soruşam. Ya da ki səhərə kimi yata bilmərəm.

– Yox. Olmaz...

– Nə vaxt gələcəksən? Sabah gəlirsən?

– Bu həftə imtahanım var. Sonra bütün həftə boyu evdəki "Daşbulaq" xalçasını toxuyub kəsməliyəm.

– Deməli, gələn həftəyə kimi sənin həsrətinlə yaşayacağam.

– Hə elə olacaq. Görək nə qədər sevirsən məni, – dedi və bir az zorla, bir az istəyərək, bir az istəksiz tərzdə güldü. – Bağışla telefonu söndürməliyəm, sonra danışarıq.

– Öpdüm, özünə yaxşı bax, – dedi. Xəttin o biri tərəfində çoxdan telefonun qırmızı düyməciyi söndürülmüşdü, incə və uzun dırnaqlı bir barmaq tərəfindən...

20..-Cİ İL. DEKABR AYININ ÜÇÜNCÜ HƏFTƏSİ

Dan yeri sökülməmiş çarpayısında qurcalanmağa, sağa-sola fırlanmağa başladı. Gözlərini açıb tavana baxdı. Otaq qaranlıq idi. Durub otağın işığını yandırdı. Tualetə getdi. Ev soyuq idi. Masanın üstündən bir siqaret götürüb yandırdı və qəndqabının qapağını əlinə alıb pəncərəyə yaxınlaşdı. Dan yeri sökülmək üzrəydi. Hər tərəfə qəribə bir sakitlik çökmüşdü. Binaların arasına dolan uğultu, arabir yoldan tənbəl-tənbəl keçən maşınların səsi və güllələrin taqqıltısı eşidilirdi. Hər güllənin təpəsindəki zəif, sarı işıqlar dan yeri söküldükcə öz işartısını, əlini-ətəyini yığışdırıb bir küncə çəkilirdi. Ka siqaretini çəkdikcə güllələri fikirləşirdi. Beynindən çox suallar keçirdi. Ancaq hamısı həddindən artıq bəşəriydi, xeyli qlobal idi, azadsayağıydı, çox təhlükəliydi və qəti lazımsız idi. Nisbətən uzanmış saçlarını barmaqlarıyla arxaya daradı. Boş vaxtı olanda çatmaqaşının ortasından daha çox uzanan, daha çox nəzərə çarpan tükləri çəkib çıxardardı. Bu dəfə də elə elədi. Sonra siqaretə bir qullab vurub tüstüsünü halqavarı havaya üfürdü.

Güllələrin arasında gəzişən iki nəzarətçinin əyinlərindəki qalın pencəklərinə necə bürün-

düklərini gördü. Yəqin hansısa qüllədə problem var idi. Əvvəlcə iki nəfər gəlib əllərindəki dəriüzlü çantanı açdılar, bəzi dəmir açarları, vintlər çıxarıb nəyisə düzəltməyə çalışdılar. Sonra çıxıb getdilər. Yəqin indi Nobel qəbirdə rahat yata bilər...

Ka pijamasını əynindən çıxarmadan dizləri ağarmış, köhnəlmiş, balaqları tədricən cırılmağa üz qoymuş cins şalvarını geyindi, onuncu sinifdə oxuyanda anasının aldığı qolları və ətəyi rezinli, qəhvəyi rəngli süni dəri gödəkcəni əyninə keçirib işığı söndürdü və qapını bağlayıb küçəni süpürməyə yollandı. Bu gün bazar ertəsiydi və mütləq əvvəlcə bələdiyyəyə getməli, oradakı tabelə qol çəkməliydi. Bələdiyyənin qapısını həmişəki kimi Çimnaz xala açmışdı. Otaqdakı sobaya bir-iki parça taxta atmış, girdə alüminium çaydanı üstünə qoymuşdu. Çaydan qaynamaq üzrəydi.

– Ay oğul, gəl, çay süzüm, iç. Bir loğma ye, gedib süpürərsən, – deyən Çimnaz xala balaca, köhnə məktəb partasının üzərinə sərdiyi "Azadlıq" qəzetinin üstündə sellofanda bir-iki tikə pendir və para çörək qoymuşdu. Bir də sarı, üstündə ağ çobanyastığı şəkilləri olan qəndqabıda qənd var idi.

– Yox, Çimnaz xala, sağ ol. Dərsə gecikərəm, – Ka, tabelə qol çəkdi, sonra da küçəyə yollandı. Süpürgəsini marketin arxasındakı balaca

damın üstünə atardı. Tez marketin arxasından süpürgəsini götürdü. Küçə qupquruydu, ancaq külək yenə siqaret kötüklərini çayxananın qabağından yığıb gətirmişdi. Yerdə uşaqların yeyib atdığı "Bakuş", "Goffret" kağızları var idi. Ka hamısını yığdı, küçəni başdan-ayağa süpürdü, marketin və çayxananın qabağındakı zibilləri də topladı. Hamısını küçənin başındakı böyük zibil yeşiklərinin içinə doldurdu. Sonra süpürgəsini həmişəki yerinə qoyub evinə qayıtdı.

Bu gün dərsi çox deyildi. Səhər yeməyini hazırlamaq üçün vaxtı var idi. Çaydanını qazın üzərinə qoydu. Eyvandan gül mürəbbəsini gətirdi. Dünən aldığı zavod çörəyinin axırıncı üç dilimini elə sellofan qarışıq süfrəyə qoydu. Çayını dəmlədi, qəndini stəkana saldı və çay qaşığıyla qarışdırıb içdi. Gül mürəbbəsini çörək diliminin üstünə çəkəndə gözü xanalardan sallanan yumaqlara sataşdı. Xırda kirkit, xalça qayçısı, həvə, qarmaqlı bıçaq xananın qabağında orabura atılmışdı. Ka çörəyini yedikcə beynində indiyə qədər gördüyü bütün xalça təsvirlərini canlandırdı. Cəhri xalçaçılarının kəndə işıq gəlməyəndə çıraq işığında gecə yarısınadək xalça toxuduqlarını, xalçanın kənar haşiyəsində təsvir olunan at belindəki cəngavərləri, ağzından od püskürən əjdahaları xatırladı. Nənəsini, qonşu Məsumə xalanın danışdığı nağılların həmin xalçaların üstündə necə naxışa çevrildiyini və

ağzından od püskürən əjdahaların ləngər vura-vura yerişini gözlərinin önünə gətirdi.

Ka kitablarını da götürüb çölə çıxdı. Pillələri adəti üzrə ikibir, üçbir endi. Ələsgər dayının salxım söyüdünün altındakı arxası qırıq skamyada Tahirə xala oturmuşdu. Hava nisbətən soyuq idi, bir az da küləkliydi. Səmada topa qara bulud var idi. Yəqin günorta tərəfi yağış yağacaqdı. Tahirə xala qara, məxməri paltosuna bürünüb ağlayırdı. Əlində həmişə bazarlığa gedəndə apardığı üzərində "Tom and Jerry" yazılmış, qırmızı idman çantasını tutmuşdu. Böyründəki ağ sellofanda bir-iki kilo kartof var idi. Tahirə xalaya gözucu baxıb yoluna davam etdi.

Auditoriyada 23 nəfər var idi. Onlardan 6-sı oğlan, 17 nəfəri qız idi. Uşaqların əksəriyyəti rayonlardan gəlmişdi. Doğrusu, auditoriya münasibətlərini, rayonlu-şəhərli söhbətlərini yazmaq niyyətimiz yoxdur. Nə mənim, nə də ki, Kanın! Ancaq onu deyə bilərəm ki, Ka bu uşaqlara qaynayıb-qarışmırdı. Bircə Raminlə münasibətləri yaxşıydı. Onunla eyni partada otururdular. Adətən, ikinci cərgə, üçüncü sırada əyləşirdilər. Ramin əslən Bakıdandır. İçərişəhərdə, Mirmöhsün ağanın ev ziyarətgahının böyründəki binanın birinci mərtəbəsində qalır. Bu gün isə, Bakı Kamera Teatrında "Qodo həsrətində" tamaşası üçün bilet var. Ka sabah Raminlə həmin tamaşaya baxmağa gedəcək. Tamaşa axşam saat 16:30-dadır.

Aytən gələn həftə gələcək. Ka bu gün vaxtının çoxunu psixologiya dərsinə həsr edib. Çünki imtahan daha da yaxınlaşır, onun xirtdəyindən yapışırdı. Dərsdən sonra Axundov kitabxanasına yollandı. Sahil metrosundan çıxıb yaxınlıqdakı "Çudo Peçka"dan iki peraşki və bir ayran aldı.

Kitabxananın girişində donqar burunlu, hündür, arıq qarderobçu qadının nə danışdığına məhəl qoymadan gödəkcəsini verib nömrəni aldı. 37-ci asılqan. Qarderobçu 32 qızıl dişini fəxrlə Kaya göstərib "Harda oxuyursan? Tək gəlirsən?" kimi suallar verməyə hazırlaşırdı ki, Ka ehmalca başını yelləyib yuxarı çıxdı. Psixologiyaya dair bir neçə kitab sifariş verdi. Ancaq kitablar gəlməmiş çıxmalı oldu. Aytən "Mən evdəyəm, saat neçədə gələcəksən?" məzmunlu mesaj yazmışdı.

Pillələri hövlnak qalxdı, qapını təngnəfəs döydü. Sonra da cibindəki açarı tələm-tələsik axtarıb çıxartdı. Ancaq Aytən qapını açanda açarı geri qaytardı. Yenə gilənar mürəbbəsini xatırladan ətir onun bütün tüklərini ürpərtdi. Cinsiyyət orqanında qəribə bir sərtlik hiss etdi. Qızın dodaqlarındakı boya parıldayırdı, təzə açmış şaftalı çiçəyi kimiydi. Saçlarını arxaya yığmışdı, əynində üzərinə bir tərəfində "De Facto" yazılmış, o biri tərəfdə isə Merlin Monronun təsviri olan ağ, yun köynək var idi.

– Xoş gəldin, – dedi və boynunu uzadıb Kanın yanağından öpdü.

– Nə gözəl qoxu gəlir. Deyəsən, mənə yemək hazırlamısan, – deyə Ka ayaqqabısının iplərini açdı, gödəkcəsini çıxartdı və Aytənə baxdı.

– Hə, sənin üçün kartof qızartdım, üstünə də yumurta vurmuşam.

– Sağ ol.

Aytən dillənmədi.

– İşləyə bildin? – Ka otağa keçib xanaya nəzər yetirdi. Aytən iki "Qasımuşağı"nı paralel toxuyurdu. Ancaq birincidə əlavə simvollar və işarələr var idi, sarı rəngin müxtəlif çalarlarından geninə-boluna istifadə olunmuşdu. İkinci "Qasımuşağı" xalçasına isə əlavə heç bir müdaxilə olunmadan toxunurdu. Həmin iki dar və ortadakı enli kənar haşiyələrin içərisində müxtəlif bitkilərin konusvari və həndəsiləşmiş təsvirləri toxunmuşdu. Xalçalar yarımçıq idi.

– Hə, belə getsə, tez qurtaracağam. Burada rahat işləyə bilirəm.

Ka dillənmədi.

– Gedim yemək gətirim yeyək. Görüm, aşpazlığı bacarırsan, – Ka mətbəxə keçdi. Ardınca da Aytən gəldi. Ka duz qabını və dilimlənmiş çörəyi mizin üstünə qoydu. Aytən də onun ardınca iki balaca boşqabda qızarmış kartof gətirdi.

– Dadlıdır. Sənin kimi... – Ka Aytənin gözlərini baxıb, axırıncı loğmanı ağzına apardı.

Aytən dillənmədi. Sakitcə çəngəli boşqabın kənarında, yumurtaların ən çox sarısının içinə batan, sağ küncü əzilmiş kartof tikəsinin üstünə batırdı və balaca, şaftalı ləçəyi rəngli dodaqlarına apardı. Sonra başını qaldırıb Kanın gözlərinin içinə baxdı. Gülümsədi. Ka da gülümsədi. Nə baş verdi? Bu təbəssümün, şaftalı ləçəkli dodağın xəfif mehə tərpənişin, yox, belə əsməsinin, titrəməsinin, kiriyə bilməməsinin səbəbi nə idi? Ka əlindəki çəngəli boşqabın kənarına qoyanda hələ də buruqlardan səs gəlirdi, külək pəncərəyə ehmalca toxunurdu. Tünd-sarı yumaq xananın üstündə fırlanaraq, evin ortasından sarı, düz bir xətt çəkmişdi. Sonrasına sevişmək, əmişmək, öpüşmək, eşq şərabını içmək, qönçəni qoxulamaq, vüsala yetmək, sekslə məşğul olmaq, orqazm olmaq, boşalmaq, dolmaq, özündən getmək, bihuş olmaq, zövq almaq, ilahi məqama yüksəlmək, arınmaq, paralel dünyalara səyahət etmək, başqa qalaktikalara keçmək, şəhvani hissləri cuşa gətirmək, aşiq tərəfindən məşuqəyə ərməğan etmək, xəfifcə toxunmaq, üstdən olmaq, içinə boşalmamaq deyirlər. Sonrası bütün müsəlmansayağı filmlərdəki kimi – səhnənin qaralmasıyla bitir. Pərdələr enir, kadr dəyişir.

Ka Aytəni artıq özünün bir hissəsi etmişdi. Onlar lüt-üryan qucaqlaşıb yatmışdılar. Ev soyuq idi. Kanın qoynunda ilk dəfəydi qadın yatırdı. O, birinci dəfəydi kişi olmağıyla həm fəxr

edirdi, həm də kişiylə qadın arasındakı fərqi müəyyən edirdi. Kişi olmağın, kişi ola bilməyin, kişi olmağa çalışmağın, əslində, qadınla yatarkən dərk edildiyini, cinsiyyət fərqinin yataqda əks cinsə qarşı hiss etdiyin o duyğularla müəyyən olunduğunu indi başa düşürdü. Şübhəsiz, Ka Aytənin lifçiyini açanda, onun xırda giləli dik döşlərinə ilk dəfə dodaqlarını toxunduranda, sonra Aytənin göbəyini, ordan aşağını öpəndə "Kişi olmaq, bax, budur", – dedi. Kişilik hansısa döyüş meydanında düşmənin başını bədənindən ayırmaq deyil, qəhrəmanlıqla da əlaqəli deyil. Özünü kişi kimi hiss etmək, məhz kişi cinsində olmaq bir qadının döşünə, qasığının arasına toxunmaqdan başlayır. Qalan şeylər cəhənnəmə olsun. Görəsən, qadın olmaq nədir? İTAƏT və tabe olmaqdır. Kişinin o məlum isbat alətinin içəriyə girməsi, kişinin tüklü sinəsinə sığınmaq, onun nişan verdiyi, istədiyi, təklif etdiyi, əmr etdiyi, məsləhət bildiyi şəkildə seksual göstərişlərinə tabe olmaq, boyun əymək, onun ehtirasını alovlandırmaqdır.

Aytən Kanın boynundan öpdü. Şaftalı ləçəklərinin rəngi solmuşdu, boyası getmiş, qızarmış, indi daha çox təzəcə çiçək açmış gilənar ləçəyi kimi idi. Bəlkə də nar çiçəyi kimiydi, bir az açıq qırmızıya çalırdı. Çöhrəsindəki ənlik-kirşan silinmişdi, əvəzində təbii boyalar gəlmişdi. Gözlərinin dərinliyindəki həmişəki "Qa-

sımuşağı" xalçasının naxışları indi daha çox şəfafflaşmışdı, öz simvolik, gizli mənalarını ortaya çıxarmışdı. Xalçanın ortasında təsvir olunan ağ hörümçək sanki Aytənin gözlərinin içərisində naxış-naxış toxunmuş ayaqlarını hərəkət etdirir, addımlayır, xeyir xəbər gətirirdi. Ka Aytənin gözləri içindəki həmin xalçanın, "Qasımuşağı" hörümçəyinin gətirəcəyi xoş müjdəyə ümidliydi, etibarlıydı, arxayın idi.

Ka geyinmişdi, Aytən də çoxdan qalxmışdı. Geyinib çarpayının bir küncündə qıvrılıb uzanmışdı. Üzü divara tərəf idi, gözlərini divar kağızındakı çiçək açmış gilənar budaqlarına dikmişdi. Ancaq beynində min cür fikir var idi, qolboyun olub gəzişirdilər. Aytənin beynini ən çox məşğul edən atasıydı.

Siqaretinin külünü qəndqabı qapağına tökdü. Sonra gözlərini neft buruqları arasında dikələn qüllələrə dikdi, onların taqqıltısını kəsmək, zarıltısını, iniltisini, kədərini, nifrətini xirtdəyində qoymaq üçün radionun düyməsini çevirdi. Kanın həmişəki həlim səsli diktorunun elan etdiyi mahnının ancaq adını eşidə bildi, "...*Memory*" əsərini dinləyirsiniz." Ancaq hələ də buruqlardan səs gəlirdi, hələ də evdə çoxuna məlum, bəzisinə naməlum, bəzinin isə ömür boyu rast gəlməyəcəyi, rast gəlsə də fərqinə varmayacağı sükut var idi. Səssizlikdə sözlə ifadə olunmayan, qəfildən toqquşan baxışlarda, qulağa çır-

pılan, toxunan nəfəsdə beli bükülmüş sual işarəsi olan cümlələr eşidilirdi. Ancaq düzü, bu lənətə gəlmiş bəşəri sualları yazmaq niyyətində deyiləm. Azara qalmış, beli bükük suallarla heç kimi dəng etməyin yeri yoxdur.

* * *

– Daha əvvəlki kimi deyil. Heç nəyə cəhd etmir. Sanki nəyisə gözləyir, – Aytən gözlərini divar kağızında təsvir olunmuş çiçək açmış gilənar budağının ucundakı balaca, hələ təzə-təzə böyüməyə başlayan çiçəyə zillədi.

– Nəyi?

– Bilmirəm, möcüzə gözləyir. Keçən dəfə anam yenə qardaşımla dalaşdı. Dünən axşam qardaşım da küsdü getdi. Dedi ki, o, bu evdən cəhənnəm olub getməsə qayıdan deyiləm.

– Getməyə yeri var? Hara gedəcək ki?

– Heç bir yeri yoxdur. Küçədə yata bilər... Atamı əvvəllər çox istəyirdim. İndi yox. Bilmirəm, anam bağışlamaq istəyir. Hələ də bizi atıb çıxıb gedən bu adama ümid edir.

– Bəs, sən... sən bağışlayırsan onu?

Aytən susdu.

– Çay qoyum, – Ka mətbəxə keçdi.

"Qəfildən istiqamətini dəyişirsən, yönünü, fikirlərini, baxışını, göz qırpmaq şəklini, dırnaq tutmaq formasını, hər şeyi... Sonra əvvəlki kimi, lap birinci dəfə olduğu kimi etməyə cəhd edəndə artıq alınmır".

Ka Aytəni yola salandan sonra baş verənləri fikirləşdi. Bir kişinin qadınla yatması, o günah dolu almanı dişləmiş Həvva və Adəmin ilk seksual orqazmı, sonra ondan doğulan bacı-qardaşların bir-birinə olan şəhvəti, istəyi, arzusu... Ka hər şeydən çox, bütün cındırından cin ürkən bəşəri, əbədi, dərin, fəlsəfi suallardan çox Aytənin gözlərinin dərinliyindəki adi baxışa, yanağına və dodaqlarına çökən nar çiçəyi qırmızısına heyran idi. Ka həm də ona görə xoşbəxt idi ki, o özünü bir kişi kimi hiss etdi. Kişi olmağın, əslində, çox bayağı, adi, bəsit bir şəkildə qadın üzərində özünü özünə və altındakı qadına isbat etməkdən savayı bir şey olmadığının fərqinə vardı. İndiyədək bu ada dürtülən bütün əxlaqi məqamların, əslində, elə dürtmək xatirinə dürtmək olduğunu başa düşdü.

Aytənin atası uzun müddət Rusiyada işləmişdi. Qarabağ müharibəsi vaxtı ailəsini torpaqlardan əlüstü çıxardaraq Bakıda yaşayan ruslardan birinin evinə köçürmüşdü. Özü isə Rusiyaya üz tutmuşdu. Uzun illər orda qalmış, evlənmiş, uşağı olmuş və Nataşaya lazım olmayanda təpiklə qapının ağzına atılmışdı. Aytən deyirdi ki, atası geri qayıdanda ayağında boğazlı, burnudeşik bir ayaqqabı var imiş. *"Eynilə Van Qoqun "Bir cüt ayaqqabı" əsərindəki uzunboğaz çəkmələr idi"*. Aytənin anası uzun illərdir həsrətində olduğu, qəzəbli olduğu, bağışlamağa hazır olduğu, rədd

etdiyi, inkar etdiyi ərini astanada görən kimi içəri keçirmiş, bir neçə gündən sonra onunla eyni yatağa girmişdi. Bunu eşidən Rüstəm evdən çıxıb qaçmışdı. Bir sözlə, atanı övladlar adam yerinə qoymurdular. Aytənin atası isə getdikcə içkiyə qurşanmışdı və hər gün evə qayıdıb arvadını o Bakıda olmadığı müddətdə müxtəlif kişilərlə yatmaqda günahlandırırdı. Gecənin yarısı əlində bir bıçaqla qadının üstünə hücum çəkib öldürməklə hədələyirdi. Əlbəyaxa olanda Rüstəm atasına bir sillə vurur. Aytən deyir ki, atam sonra heç nə demədi, bütün günü eyvanda oturub siqaret çəkir, arada ağlayırdı.

Ka axşamını yemişdi. Buruqların səsinə radiodan gələn "*Cassandra Wilson – O sole mio*"nun səsi qarışır, insanın ürəyinə qəfil darıxmaq təngnəfəsliyi kimi bir sancı doldururdu. Ka çarpayısına uzanıb siqaret çəkirdi. Qəndqabı qapağını sinəsinin üstünə qoymuşdu. Siqaretin külünü qapağın içinə doldururdu. Gözlərinin önünə Aytənin balaca mirvari kimi, ya da moruq dənəsi kimi dolğun, içində duyğusu olan məməsinin gilələrini gətirdi. Sonra qızın sağ döşünün altındakı yekə, qara xalı necə öpdüyünü, Aytənin bədənindəki nişanələrə, xallara, xırda çillərə necə diqqətlə baxdığını xatırladı. Yox, bunu xatırlamağa ehtiyac yox idi. Bu narçiçəyi qırmızılı dodaqları, şaftalıdərili qasıq arası, moruq dənəsi tamlı döşləri yaddan çıxarmaq mümkün deyil-

di. Onların hamısı nar tamıyla, şaftalı qoxusuyla, moruğun partlamaq üzrə olan saf qanıyla beynindəydi, dodaqlarının üstündəydi, dilinin ortasındaydı, dilçəyindən asılmışdı, dişlərinin arasına dolmuşdu.

Pəncərəyə qaranlıq çökmüşdü. Hava sakit idi. Xanaların qabağında əyləşib sarı ip yumaqları əlinə alır, yumağın açılmış ipini sarıyır və xalçanın müxtəlif çalarlı sarı rəngli naxışlarında barmaqlarını gəzdirirdi. Aytən bu Niderland rəssamına həsr etdiyi əsərin tən ortasında idi. Kənar haşiyələr, günəbaxan çiçəkləri, buta təsvirləri və nəhayət, qulağıkəsiyin əynindən çıxarmadığı yaşıl rəngli, nimdaş paltonun iri düyməsi və donqar, sapsarı ilmələrlə toxunmuş burnu... Bir də çənəsindən qulağının üstünə doğru həmin ağ tənzif toxunmuşdu. Van Qoqun sosur, küskün, kədərli dodaqlarını elə toxumuşdu ki, sanki dostu Qoqen tərəfindən kəsilmiş qulağının qanını təzəcə yalamamışdı, sanki bu dodaqlar əskiyə bükülmüş kəsik qulağı fahişə Raşelə aparıb "Bu xəzinəni qoru" deməmişdi. Görəsən, "Qasımuşağı"nın üzərindəki həmin ağ hörümçək belində bu kəsik qulağın gözləri necə görsənəcəkdi? Kaya ən çox bu psixi xəstənin gözləri maraqlıydı.

Ka işığı söndürdü. Gözlərini yumub yatmağa çalışdı.

"*Sonsuz cəngəlliyin içində ayağına dəyən çürümüş yarpaqları tapdalaya-tapdalaya, tələsik, iri ad-*

dımlarla, var gücünlə qaçırsan. Bəlkə də arxanca heç kim gəlmir, bəlkə də səni qovan yoxdur, bəlkə də bu yekəbaş dünyada səni vecinə alan, saya sayan da yoxdur. Ancaq bu cəngəllikdə, ölü yarpaqların xışıltısını qulaqların eşitdikcə, təngnəfəs halda qaçdıqca arxana düşənin, səni qovanın, əslində, sənə nə qədər oxşadığını başa düşürsən. Qəfildən qarşıda yamyaşıl düzənlik açılır, təpənin üstündə qırmızı bir günəş buludların arasından boylanır və düzənliyin ortasındakı həmən kömənçi çiçəklərinə, xırda lalələrə kəpənəklər qonur. Sən isə sarı kəpənəyin ehmalca laləyə qonub ləçəkdəki şehi necə içdiyindən xəbərsiz arxana düşən, qovan keçmişinə baxırsan. Bəlkə də heç özündən başqası deyil arxandakı... "

Dərsdən sonra evə qayıtmadı. Birbaş "28 may" metrostansiyasından çıxıb, Cəfər Cabbarlının heykəlinin yanından keçdi, sağa döndü və üzüyuxarı Xarici Dillər Universiteti tərəfə qalxdı. İçəriyə girəndə qapıdan iki ingilis (biri 45-47 yaşlarında, sarıyanız, kürəyinə balaca çanta atmış qadın və 65-68 yaşlı, dizləri ağarmış, cins şalvar geyinmiş kişiydi) çıxdı. İçəridə heç kim yox idi, bircə piştaxtanın arxasındakı "*Lenovo*" markalı notbokun qarşısında qara çərçivəli qırmızı qulaqcıqlı eynək taxmış, qızıla çalan qıvrım saçlarını çiyinlərinə tökmüş, boynundan asdığı zənciri sağ əliylə o üz, bu üzə çevirən qız oturmuşdu.

– Salam, – Ka ehmalca dilləndi.

– Salam, – qız gözlərini monitordan çəkmədən cavab verdi.

– Mənə İELTS kitabları lazımdır.

– Şəxsiyyət vəsiqənizi verin. Bax, yuxarıdan üçüncü rəfdədir, – qız əlini sol tərəfdəki qəhvəyi kitab rəfinə tərəf uzadıb dilləndi.

Ka sakitcə şəxsiyyət vəsiqəsini qıza verib kitab rəfinə yaxınlaşdı. Qızın dediyi rəfdən İELTS kitablarını götürdü. Həmin kitabların yanında "504 words" adlı başqa bir kitab da var idi. Ka bütün kitabları pəncərənin yanındakı masanın üstünə qoydu. Üç-dörd saat oxudu, testlər etdi, əzbərlədi. Sonra kitabları qıza qaytardı, şəxsiyyət vəsiqəsini götürdü və Xarici Dillər Universitetinin qarşısındakı Rəşid Behbudov küçəsiylə aşağı endi. Addımlarını bacardığı qədər iri atırdı. Hündür binaların arasında yolboyu şütüyən maşınların, soyuq küləyin əlindən birtəhər olmuşdu. Nəhayət, tamaşanın başlamasına yarım saat qalmış Rəşid Behbudov-Zərifə Əliyeva küçələrinin kəsişdiyi döngədən sola döndü. Şəhriyar adına Mədəniyyət Mərkəzinin yan tərəfindəki biradamlıq, taxta qapının qarşısında Ramin dayanmışdı. Əlindəki "Nokia" markalı telefonunda, deyəsən, həmişə oynadığı "Super Mario Bro"nu oynayırdı. Ramin bu oyunu oynayanda ətrafındakıların hamısını unudurdu. Hətta bir dəfə dekanın dərsində oynayanda balacaboy, danışdıqca qoyma dişlərinin

arasından tüpürən Mahmud müəllim Ramini dərsdən qovmuşdu.

"**Qodo həsrətində**" tamaşasına baxmaq üçün kamera teatrının balaca, köhnə stullarının, tozlu və çirkli pərdələrinin arasında Qodonun həsrətiylə canfəşanlıq edən, onun gələcəyinə ümid bəsləyən iki aktyora baxdı. Tamaşadan çıxanda hər tərəfə qaranlıq çökmüşdü, hava soyuq idi, küləkliydi və səki kənarlarındakı işıqlar gurhagur yanırdı.

Ka çıxanda özüylə bir proqram da götürmüşdü. Külək soyuğu uzun, boş avtobusun pəncərələrinə çırpırdı. İçəridəki öləziyən işıqda ağ rəngli A5 kağızında yazılmış xırda pritçanı oxudu. "*Bəlkə də bu lənətli xarabalığa yeni müjdəverən gəlməyəcək. Ancaq Vladimirin və Estarqonun həvəslə, ümidlə gözlədiyi Qodonun gəlib-gəlməməyinin heç bir fərqi yoxdur. Onlar həmin quru ağacın altında gözləyəcəklər*". Ka tamaşa haqqında olan proqramı iki qatlayıb pencəyinin cibinə qoydu. Qollarını qoynunda pərçimləyib gözlərini pəncərədən çölə zillədi. Avtobus neft quyularının arasındakı asfalt yolda şütüyürdü. Pəncərədən buruqların taqqıltı ilə, ahənglə, aramla, rahat şəkildə necə işlədiyinə baxdı. Bu dəmir qara atları, qara atlıları, yad, ögey atlıları kim gətirib bura soxmuşdu? Kim bu dəmir atlıların kürəyinə minib alovlar ölkəsiylə o başdan bu başa çapırdı? Cəhənnəmə çapsın, bu, Kanın heç vecinə də deyildi. O, belələrinə orta barmağını göstərərdi.

– Bir dəstə şüyüd, bir çörək... sonra... iki kilo kartof da verin. Bir dənə də "Kent 8" alım, – evin qarşısındakı marketin piştaxtasının arxasındakı bığlı Vaqif dayıya baxmadan sadaladı. Ka almaq istədiyi şeylərə baxır, sonra adını çəkirdi.

– Çörəyi ordan götür, – deyə Vaqif dayı qapının yanında qoyulmuş taxta yeşiyi göstərdi. Ka yeşiyə yaxınlaşdı, çörəyin üstünə sərilmiş parçanı qaldırdı və altında qalmış sonuncu iki çörəyi də götürdü. – Deyəsən, çörək qurtarıb, – dedi.

Vaqif dayı cavab vermədi.

– Kent mentolludur? – Ka Vaqif dayının şüşə piştaxtanın üstünə qoyduğu siqaretə baxıb dilləndi.

– Hə, mentolludur. 8 manat 50 qəpik edir. – Vaqif dayı Kanın aldıqlarını böyük sellofan paketə qoydu.

– Sağ ol, gecən xeyrə qalsın.

İki kartofun üstünə su töküb qaynatdı. Sonra bişmiş kartofları soydu, böyük boşqaba qoyub əzdi. Bir baş soğanı səliqəylə soyub doğradı. Gözləri doldu, ağladı. Soğanı əzilmiş kartofun içinə qatdı. İstixanada yetişdirildiyi üçün öz qoxusunu itirmiş şüyüd dəstəsini yudu və xırdaxırda doğrayıb kartof əzməsinin üzərinə səpdi. Çörəyi dilimlədi və üç nazik dilim götürüb otağa keçdi. Radionu açdı. Həlim səsli diktor yox idi. Onun yerinə, eyni həlim səslə, "g" hərflərini "q"ylə əvəzləyən, sanki danışdıqca sinəsində

qadın döşlərini, qasığı arasında boşluğu hiss edən bir kişi səsi eşidildi. "Hörmətli dinləyicilər. Azərbaycan Dövlət Radiosuna qulaq asırsınız. İndi isə, "Anjelika Akbarının ifasında qözəl və ecazkar "Bir" əsərini dinləyin".

Ka şüyüdlü kartof soyutmasından bir qaşıq götürdü, sonra cəld əlini atıb masanın üstündəki balaca istiot qabından kartofa istiot əlavə etdi. Qaşıqla qarışdırdı və bu şüyüd tamlı kartofu yeyə-yeyə radionun qarışan dalğalarının çıxardığı xırıltıya, qazaxıstanlı Anjelikanın xəfif səsinə və küləyin pəncərəyə çırpdığı səslərə qulaq kəsildi. Sonra süfrəni təmizlədi, özünə isti bir çay süzdü. Mentollu siqaretindən birini yandırdı. Siqareti çəkib külünü qəndqabı qapağına tökdükcə Allah barədə fikirləşdi.

"*Kürəyində qəfil qanadlar peyda olar, səmaya uçarsan. Sonra bir-birinə qarışmış ulduzlar, günəş sistemləri, planetlərə sürtünər qanadların. Göylərin boşluğunda itirərsən axtardığını. Səni heç kim yox, özün döndərər öz yolundan. Deyər ki, qayıt. Hələ tezdir. İnadkarcasına "Tanrı" deyib səs salarsan. Deyərlər ki, səhv yerdəsən. Sən də bütün axtarışlarının üstündən xətt çəkərsən. Birdəfəlik yaddan çıxarmaq üçün, xatırlamamaq üçün geri qayıdarsan. Bir fili lap körpəlikdən böyük bir ağaca pərçimləyirlər. Fil illərlə həmin ağaca pərçimlənmiş ipini qırmağa çalışır. Di gəl ki, cifayda. Uzun illərdən sonra filin ipini adi bir tingə bağlayırlar. Fil tingi qırmağa cəhd etmir*".

Ka yorğun idi, çarpayısına uzandı və yatdı.

Küçəni süpürüb evə qayıtmış, səhər yeməyini yemişdi. Kitabxanadan aldığı kitabları götürdü və qəsəbə kitabxanasına yollandı. Bu gün dərsi yox idi. Kitabxananın taxta qapısını açıb içəri girəndə bu dəfə burnuna kələm dolması qoxusu gəldi. Həmişəki kimi Elza xala axşam yeməyini kitabxanada bişirirdi.

– Gətirdin? Nə qədər oxuyursan!? Gözün kor olacaq, – deyə Kadan kitabları alanda Elza dilləndi.

– Hə, – dedi və dişlərini ağartdı.

– Təzə kitab götürəcəksən?

– Olar keçim seçim...

– Keç, şeir apar. Şerlər daha maraqlı olur. Əzbərləyib məclisdə-zadda deyərsən. Nəyinə lazımdır elə qalın-qalın kitabları oxuyursan.

Ka Elzaya məhəl qoymadan kitab rəflərinin arasına girəndə kələm dolmasının qoxusu burada daha çox adamın burnuna dolurdu. Əlini M. F. Dostoyevskinin "**Cinayət və cəza**" romanına atdı. Kitabın üstündə yumru bir yağ ləkəsi var idi. Ka kitabı burnuna yaxınlaşdırdı. Kitabdan günəbaxan yağının iyi gəlirdi. Ehtimal ki Elza bu kitabı qazan altı kimi istifadə edirmiş. Kitabı götürüb piştaxtanın üstündən Elzaya uzatdı.

– Bunu götürürsən? – arvad günəbaxan yağı verən kitabın bir qırağından, çimçinərək yapışdı, – keçən dəfə yadımdan çıxıb, qazanın altına qoymuşam, yağ damıb üstünə.

– Narahat olmayın. Mən üzləyərəm, – Ka dilləndi. Kitabı götürüb evə qayıtdı.

"*Evdəyəm. Gözəl bir çay süfrəsi açmışam*" – Aytən Kaya belə bir mesaj yazmışdı. Düzü, bu xəbəri oxuyanda xeyli şad olmuşdu. Dodaqlarına qeyri-iradi bir təbəssüm qonmuşdu. Gözləri gülmüşdü. Dostoyevskinin günəbaxan yağlı "**Cinayət və cəza**"sını da qoltuğuna dürtüb, hövlnak evin yolunu tutdu. Addımlarını bacardığı qədər iri atırdı, iti yeriyirdi, qaçırdı. Blokun pillələrini adəti üzrə ikibir, üçbir deyil, beşbir, altıbir qalxırdı. Qapıya çatanda dərindən nəfəsini dərdi, tərlədiyini hiss etdi. Qapını döymədən, cibindəki açarı çıxarıb kilid yerinə saldı. Qapını yavaşca açıb içəri keçdi. Aytən divara tərəf qoyulmuş xananın qabağında oturmuş, qulağıkəsiyin gözlərini toxuyurdu. Ka heç nə demədən, barmağının ucunda, ehmalca içəri keçib qapıya söykəndi və baxdı. Aytən kədər sarısı ip yumağını dartır, xanadan bir ip çəkir, həmin tünd sarı ipliyi ilgəkləyib pərçimləyir, artıq ipi kəsir və kirkitlə ilməni digər ilmələrin yanına düzürdü. Beləcə, sarı iplik açıldıqca dərin, xəstəhal, içində İsanın zillətini daşıyan, qəribə bir baxışlara, iri gözlərə çevrilirdi.

– Nə gözəl tortdur, – Ka süfrənin üstündəki, üzərində qalın şokolad qat, ortasında qızılgül qönçələri olan torta baxıb dedi.

Aytən qıvrım saçlarını ortadan atquyruğu kimi yığmışdı. Qaşları alnının ortasında ümmansız bir dənizdə üzən iki qayığa bənzəyirdi, ya da səmada hələ təzəcə görünməyə başlamış bir parça ay kimiydi.

– Nə vaxt gəlmisən? Qorxdum, – xananın qabağından qalxıb Kaya yaxınlaşdı. Başını uzadıb onun dodağından öpdü.

– Sənə kənardan baxmaq istədim. Xalça toxuyanda özünü unudursan. Deyəsən, artıq xalçanı başa vurursan?

– Hə.

– Maraqlıdır. Məncə, Van Qoqun baxışları çox canlıdır. Düzü, belə gözləmirdim. Kədərli baxır.

Aytən dillənmədi. Heç nə demədi.

Ka həmin gün Aytənə qarşı içində qəribə bir boşluq hiss etdi. Kim idi bu qız? Hardan gəlib çıxmışdı? Bəlkə də buna görə Aytənin bütün təhriklərinə, nazına-qəmzəsinə, hər dəqiqədən bir onu gəlib öpməyinə əhəmiyyət vermədi. Öpdüyü məqamlar:

BİRİNCİ – Ka tortdan bir dilim yeyəndən sonra Aytən Van Qoqun başına qoyduğu pırpız haşiyəli papağı və arxadakı tarlada işləyən yapon qadınlarını toxuyanda ehmalca onun boynundan öpmüşdü. Daha doğrusu, sağ qulağının sırğalığının altından.

İKİNCİ öpüşü isə Ka qəndqabı qapağını əlinə götürüb pəncərəyə yaxınlaşanda, siqaretin tüs-

tüsünü ciyərlərinə çəkib üfüqə doğru çapan qara atlılara baxanda Aytən onun düz dodağının üstünə qoymuşdu. Həmin öpüşə Ka özü də qarşılıq vermişdi. Qızın alt dodağını dodağının arasına salıb əmmişdi.

ÜÇÜNCÜ dəfə isə radioda " Vassilikosun – *Dream a little dream of me*" mahnısı səslənəndə öpüşmüşdülər. Ka radionun xırda düyməciyini sağa fırlayıb açmış, mahnı otağa yaymışdı. Həmin vaxt Aytən xanasının qabağında kirkitiylə Van Qoqun təsvirinin son ilmələrini ərişə pərçimləyir, sıxlığını artırırdı. Bu dəfə Ka Aytənə yaxınlaşmış, onun qıvrım saçlarından öpmüşdü. Aytən kirkiti yerə qoymuş, oturduğu yerdən çevrilib qollarını Kanın boynuna sarımış və dodağından, yanağından, boynundan öpmüşdü.

"Busə üst və alt dodağın bir-birinə toxunub qalxmağı deyil. Busə həmin dodaqların ehmalca irəli atılıb, arasında gizlətdiyi duyğunu digər tərəfə ötürmək cəhdidir. Sevgilini öpmək seks demək deyil, SEVGİDİR".

– Bağrımı çatlatdın, qoca kaftar, – Nino xalanın gəlini Nargilə qışqırırdı.

– Düz deyir, düz deyir, – Əlibala da arvadına tərəfkeşlik edir, onun müdafiəsinə qalxırdı.

– Dayan, qurban olum, qızım. Vurma, ağrın alım.

– Kəs səsini, kaftar. İndi də mənim evimi dağıtmaq istəyirsən, ifritə. Görürsən, əlində qurd

yağı gətirib qapıma sürtür, – deyə Nino xalanın gəlini var gücüylə qışqırırdı.

Ka Dostoyevskinin "**Cinayət və cəza**"sını oxuyub xoşu gələn cümələlərin altından xətt çəkmişdi ki, Nino xalanın zarıltısını, xəstə it kimi ulartısını eşitdi. Arvad aramsız yağışların altında islanmış, xəstəlikdən tükünü tökmüş, donqar belli qoca it kimi zingildəyirdi. Səsi boğazında, qırtlağında ilişib qalırdı.

Ka cəld kitabı bir küncə atdı. Əlüstü qapıya yaxınlaşıb gözlərini qapı gözlüyünə dayadı. Gözlükdən alaqaranlıq dəhlizə baxdı. Üzbəüzdə, taxta qapının arxasında Nino xalanın zarıltısı eşidilirdi. Qəfildən qapı açıldı. Gəlin Nino xalanın qolundan tutub çölə çəkirdi:

– Gəl, sürtük kaftar. Çıx get, mənim evimdən. Get, bu cadularını başqalarına elə. Bu qurd yağıyla mənim bütün həyatımı məhv etdin. Elə sənə görə mənim uşağım olmur. Kaftar!

Nino xala gəlinin güclü zərbəsindən yerə yıxıldı. Başı beton döşəməyə dəydi. Qadından qəribə bir xırıltı qopdu. Ka cəld qapını açıb Nino xalaya baxdı. Gəlini qapını örtüb içəri girmişdi. Ka Nino xalaya yaxınlaşdı. Onun başını qaldırdı. Gözlərində boş və soyuq bir ifadə var idi.

– Ay bala nə olub, yenə? – aşağıdan hövlnak özünü yetirən Tahirə xalanı görən Ka Nino xalanın başını dizlərinin üstündən düşürüb cəld evə cumdu. Qapını örtüb gözlükdən Tahirə xalanın

ağlamsına-ağlamsına Nino xalanı oyatmağa çalışmasına, qapını döyəcləyib gəlinini haylamağına baxdı. Tahirə xalanın həşirinə, çağırışına uzun müddət cavab verən olmadı. Nəhayət, Əlibala çıxıb anasını yerdə uzanmış vəziyyətdə görəndə, – Nə olub? – deyə laqeyd bir tərzdə soruşdu.

– Ay bala, arvad keçinib, tez ol, götür içəri aparaq, – Tahirə xala ölü görmüş bütün mərhəmətli insanlar kimi doluxsunmuş səslə dilləndi.

Əlibala tamamilə soyuqqanlı, laqeyd, bivec halda Nino xalanın cəsədini yerdən götürüb içəri apardı. Tahirə xalanın ah-fəğanından savayı heç nə eşidilmirdi. Ka qapının ardında nə baş verdiyini indi daha çox bilmək istəyirdi. Görəsən, bayaq gözlərinin içinə baxdığı, həmin ölü və soyuq baxışların sahibi həqiqətənmi indi Allah babanın qabağında dayanıb cənnətə düşmək üçün qılıqlanırdı, yaltaqlanırdı, nəsə boyun olurdu?!

Xeyli sonra Əlibala həmişəki arxayın yerişiylə qapını açıb çölə çıxdı və sürahiyə əllərini sürtə-sürtə aşağı endi. Tahirə xala evdən çıxıb yuxarı mərtəbədə yaşayan arvadları çağırdı. Sonra aşağıdan bir neçə adam da gəldi. Bütün qonum-qonşu evdə gizlətdikləri, ciblərində gəzdirdikləri kədər maskasını üzlərinə taxıb hövlnak özünü yetirdilər Nino xalanın mənzilinə... Ka tökülüşüb gələn qonum-qonşunun gəlinə necə təsəlli verdiklərini də eşidirdi. Sonra Əlibala iki nəfərlə

qayıtdı. Nino xalanı köhnə bir xalçanın arasına qoyub yumağa apardılar. Bir neçə saatdan sonra, təqribən, axşamçağı 6-7 radələriydi, Nino xalanın evindən əl-ayaq kəsildi. Qonşuların ah-ufu səngidi, gəlinə təsəlli verənlər yas maskalarını çıxarmağa getdilər.

Ka axşam yeməyini yedi. Hava soyuq və sakit idi. Stulunu götürüb eyvana qoydu. Döşəyin üzərinə sərdiyi, üstündə göldən su içən maral təsvirli olan qalın adyalı götürüb çiyninə atdı və eyvana çıxdı. Mentollu siqaretin bu soyuq havada ağzına yayılan tamı onu bir az da üşüdürdü. Ka gözlərini üfüqəcən uzanan buruqlar ordusuna zillədi. Qara atlılar üfüqə çapırdılar. Sonra gözlərinin qarşısına Nino xalanın soyuq, buz kəsən baxışları gəldi. Siqareti dodaqlarının arasında, az qala, hirslə sıxaraq sümürdü və hikkə ilə bütün dumanı ciyərlərinə çəkdi. Ka o baxışları yəqin uzun müddət yadından çıxara bilməyəcək. O, soyuq, buz kimi daşlaşmış, ifadəsiz baxışlar, qaralmış göz tuluqlarının altında donmuş baxışlar... Qəfildən gözündən bir damla yaş düşdü. Otaqda həlim səsli diktor radioda "*Monica Molina-Mar Blanca*" əsərini elan etdi. Ka siqaretinin kötüyünü eyvanın dəmir sürahisində söndürüb boşluğa tolazladı. Gözlərini sildi və Nino xalanın ölümünə ağlayan yeganə insan kimi tarixə düşdü.

Ka çarpayısına uzandı, "**Cinayət və cəza**"nı oxumaq istədi. Amma qəfildən özü-özüylə da-

nışmağa başladı. "*Nino xalanı mən öldürdüm. Bəli, onu mən öldürdüm. Bax, bu əllər yaşlı bir qadının qanına qəltan olub. Bilmirəm, heç o dünyada verəcəyim cavab vecimə də deyil. Allahın qabağında bir bəhanə uyduraram. Bəs özümə nə deyəcəyəm? İçimdəki bu təmiz, pak adamı necə təmizə çıxaracağam. Kim mənim özümə qarşı işlətdiyim bu cinayəti təmizləyəcək?*"

Ka radionu söndürmədi, səhərə qədər həlim səsli diktor dinləyicilərinə ən gözəl mahnılar ərməğan etdi. Ka bircə onu deyə bilərdi ki, yerinə uzananda axırıncı eşitdiyi mahnı "*Secret Garden-Anticipation*" idi. Pianonun dillərində gəzən barmaqları hiss etmək olurdu. Ka gözlərini yumdu və hardansa atası yadına düşdü. Yəqin indi adəti üzrə cidd-cəhdlə yeni dəfinələr tapmaq üçün xəyallar qurur. Sonra anasıyla bir dəfə oturub onun gecə evə gəlməyini gözləyəndə anasının ona danışdığı nağılı xatırladı. Çıraq işığında başını anasının dizi üstünə qoyub intizarla əlində böyük bir xəzinəylə evə qayıdacağına ümid etdiyi atanı gözləmək istəyirdi. Yəni həmin hündürboylu, qürurlu, şahlarla oturubduran, hər danışığında möcüzələrdən, xəzinə şifrələrindən, gizli xəritələrdən danışan atanı istəyirdi. Sonra Nino xalanın həmin ifadəsiz, buz kimi baxışı gözlərini gördü. Ehtimal ki indi Əlibala Nino xalanı hansısa məsciddə yuduzdurub, "Qurd qapısı" qəbiristanlığının kimsəsizlər

üçün ayrılmış hissəsində basdırıb. Baş daşı əvəzinə isə taxtaya pərçimlənmiş dəmir lövhədə adi ağ boya ilə "Nino Kipiani. 1931/20.." yazdırıb. Bu kimsəsizlər qəbiristanlığında Nino Kipiani həvəslə, ümidlə, bəlkə də böyük sevgiylə tədricən çürüyüb torpağın bir parçası olacaq. Sonra Ka Nino xalanın sümüklərinin, dərisinin çürüntülərindən güc alıb böyüyəcək bir çayır otunu, balaca bir çobanyastığını təsəvvür etdi. Ya da iri qolları olan, yamyaşıl yarpaqları ilə uzaqdan görənləri özünə cəlb edən, hər il bar gətirən, iri, sulu bir ərik ağacı olacaqdı. Yox, Nino xaladan adi, balaca bir çobanyastığından savayı heç nə olmazdı yəqin...

Uğultulu külək soyuq havanı buruqlardan keçirib pəncərəyə çırpırdı. Ka pəncərə şüşəsinin üzünə çırpılan küləyin təsirindən qırılıb xıncım-xıncım olacağından qorxurdu. Deyəsən, mətbəx pəncərəsinin cəftəsi bağlanmamışdı. Külək pəncərəni açmışdı, indi də sağa-sola yellədirdi. Ka çarpayıdan bir az da gec tərpənsəydi, pəncərənin şüşəsi qırılacaqdı, ya da pəncərənin özü yerindən oynayıb aşağı düşəcəkdi. Ka cəld yerindən qalxıb, paltarını geyindi, iti addımlarla aşağı enib küçəsini süpürməyə getdi. Bələdiyyədə tabelə qol çəkdi. Güclü külək küçənin başındakı zibil qablarının yan-yörəsindəki bütün kartonları, sellofan torbalardakı kartof qabıqlarını yan-yörəyə dağıtmışdı.

Ka bloka girəndə Tahirə xalanın kiminləsə telefonla danışıb şaqqanaq çəkdiyini eşitdi. Pillələri yavaş-yavaş qalxıb Tahirə xalanın söhbətinə qulaq asdı. Tahirə xala hansısa seriyaldan danışırdı. Onun səsindəki xoşbəxtliyi etiraf etməmək nankorluq, paxıllıq, xainlik olardı. Ka on bir pilləli pilləkəni yavaş-yavaş, bir-bir, tələsmədən, adətinə xilaf çıxaraq, daha səbirlə qalxırdı. Zirzəmidəki qırılmış kanalizasiya borularından axan çirkli suyun iyi bütün bloka yayılmışdı. Nəhayət, mənzilinin qapısının ağzına gəlib çatanda Nino xalanın evinin qapısı kandarında iki cüt köhnə ayaqqabı və ağ sellofan paketə yığılmış köhnə paltar gördü. Arvadın həmişə geyindiyi boz paltonun qolları sellofan torbadan çölə çıxırdı. Ka paltarlara gözucu baxdı. Beynindən keçirdiyi fikrin, əslində, nə qədər qəribə olduğunu başa düşürdü. Ehmalca əlini cibinə salıb açarı çıxartdı və qapını açdı. Qapının kandarından içəriyə ilk addımını atmamış tez geriyə çevrildi və Nino xalanın paltarlarıyla iki cüt ayaqqabısını götürüb evə təpildi. Qapını arxadan bağlayıb, gözlükdən dəhlizə baxdı. Heç kim yox idi. Ka paketlə ayaqqabıları otağa apardı. Ağ sellofan paketi çarpayısının üstünə qoydu, ayaqqabılara da gözucu nəzər saldı. Çox köhnəydi, dabanlısının böyrü cırılmışdı, səliqəsiz şəkildə qara iplə tikilmişdi. Ehtimal ki, pinəçiyə pulu olmadığından ötrü Nino xala ayaqqabılarını özü tikməli olub.

Bu gün də dərsə getmək həvəsi yox idi. Cəmi bircə dərsi var idi. Ona görə yol pulu xərcləmək istəmirdi. Bir azdan Aytən də gələcəkdi. Ka səhər çayını içdi. Süfrəni yığışdırdı və "**Cinayət və cəza**" romanını oxumağa davam etdi. Radioda dalğalar qarışdı, qəribə xırıltılar eşidildi, sonra həlim səsli diktor qorxa-qorxa, sakitcə, kimisə yuxudan oyatmaq istəmirmiş kimi, ya da bəşəri bir faciəni, çarəsiz bir vəziyyəti, ölüm xəbərini elan edirmiş kimi dilləndi: *"Hans Zubber-Zucchabar"*! Ka bu ifadakı nəfəsli alətin iniltisinə pəjmürdə oldu, balaban səsini xatırladı. Kitabı qatlayıb kənara qoydu və vanna otağına keçib yaxşıca yuyundu. Üzünü qırxdı, cinsiyyət orqanını təmizlədi, qaşlarının arasındakı bir-iki gözə dəyən tükləri çəkib qopardı. Hamamı yığışdırdı.

Mətbəxdə çaydan paqqıldayırdı. Külək nisbətən sakitləşmişdi, buludların arasında bir-iki gizlin günəş şüaları axıb yerə gəlirdi. Sonra yenə səmanı qara, gözü dolmuş, kədərli buludlar bürüdü. Soyuq, sərt külək əsdi. Buruqların arasında bir-iki fəhlə göründü. Ka özünə pürrəngi çay dəmlədi.

– Vaxtında gəldin, – qapını açıb Aytəni görəndə sevincək dilləndi. Aytən heç nə demədən içəri girdi. Heç Kanın dodağından da öpmədi. Ka zorla əlini onun belinə saldı, qızı özünə tərəf çəkdi və "Nə olub?" soruşdu.

– O, axmaq alkaş nə vaxt öləcək? Bezmişəm, – dedi.

– Kim?

– Evimizdəki bomj.

– Nə olub axı?

– Yenə gecənin yarısı gəldi. Kefliydi. Gəlib anamın boğazından yapışıb ki, mən gedəndən sonra sən bu uşaqları necə saxlamısan? Pulu hardan almısan? Deyir Allah bilir kiminləsə yatırsan. Sonra da mətbəx bıçağını götürüb anamın üstünə cumdu. Rüstəm də evdəydi. Özünü yetirib əlindən bıçağı zorla aldı. Sonra da qapını açıb qovdu. Bilmirik neyləyək.

– Yaxşı. Gəl görüm. Keç otur. Gözlə sənə bir çay gətirim. Nəsə yeyirsən, hazırlayım?

– Yox, heç nə istəmirəm, – Aytən əlləriylə başını tutdu, – xalça da burda qaldı.

Ka mətbəxə keçdi. Əlində bir fincan isti çayla qayıtdı. Evin soyuğunda çayın istisi, buxarı alov məşəli kimiydi.

– Bəs indi hardadır?

– Nə bilim. Rüstəm evdən dəhlizə atdı, sonra qışqıra-qışqıra aşağı endi. Bütün qonşular çölə tökülmüşdü.

– Niyə elə deyir ki?

– Başı xarab olub.

– Darıxma, düzələr. Çayını iç, – dedi və qollarını onun boynuna salıb, başından öpdü.

– Yorulmuşam.

– Bəlkə həmişəlik bura köçəsən, hə?

Aytən çini fincanı götürüb bir qurtum isti çaydan içdi.

Xeyli söhbətləşdilər, birlikdə Aytənin atasının arxasınca "qara yaxdılar", "babalını yudular", "şərlədilər", qınadılar, lənət yağdırdılar. Güləndam xalaya haqq qazandırdılar. "Hətta anam, o olmadığı dövrdə də kiminləsə yatsaydı narahat olmazdım. Çünki qadını atıb kefinin dalınca get, sonra da gəl, de ki, mənə niyə xəyanət etmisən". Aytən fikrini də bildirmişdi. Ka isə onun bu sözlərindən sonra öz anası barəsində fikirləşmişdi. Görəsən, gecələr tək-tənha yatağında qıvrılıb yatanda soyuq düşüncələrin, kədərin və yalnızlığın ağuşunda qəfil baş qaldıran ehtirasını "namus", "el-oba", "əxlaq" kimi turşməzə meyvələrə necə qurban verirdi? Ka hərdən beynində baş qaldıran qəribə düşüncəni bir də xatırladı. Həmişə anasını öpəndə, onu qucaqlayanda beynində ona qarşı qəribə bir istək baş qaldırırdı. Ancaq bu düşüncəni nə özünə etiraf edə bilirdi, nə də ki, səbəbini fikirləşə bilirdi... Allah Şah Edipdən hamının qisasını alsın!

– Elman dayı zəng vurub ki, müştərilər təcili xalçanı istəyir. Sabaha çatdırmalıyam.

– Hansını?

– Van Qoqu.

– Onsuzda qurtarmaq üzrəsən, bu gün başa vurarsan.

Aytən "Qasımuşağı"nın ortasındakı ağ hörümçəyin qabağa uzanan tüklü ayaqlarını toxumuşdu, artıq, orta haşiyənin kənarındakı əjdaha təsvirinin ilk ilmələrini vurmağa başlamışdı.

O, çarəsiz idi, nə edəcəyini, nə fikirləşməli olduğunu bilmirdi. Beynində dünən axşam atasının qaldırdığı hay-küy, qanqaralıq var idi. Bir də Rüstəmin o qoca, yorğun, spirt iyi verən bu adamı qolundan yapışıb bloka necə atdığını yaddaşından silə bilmirdi.

Aytən müxtəlif rəngli, qırmızı, yaşıl, ağ, sarı iplikləri qırıb ilmələrə çevirir, kirkitiylə necə gəldi, adətkər olduğu naxışları toxuyurdu. Qətiyyən danışmırdı. Bircə kəlmə də kəsmirdi. Fikri-zikri heç özünə də bir xeyri dəyməmiş bu qulağıkəsiyin sərt baxışlarının altında "Qasımuşağı"nı başa vurmaq idi. Qədimlərdə bir adət varmış ki ərə getməmiş, ailə qurmamış qızlar xüsusi xalça toxuyarmışlar. Həmin xalça toxunub başa çatdığı gün qızın da bəxti açılarmış. Aytən üçün elə bil "Qasımuşağıda Van Qoq" xalçası taleyinin ən ziddiyyətli, ən çox ilgəklənmiş, düyünlənmiş xüsusi zaman kirkitiylə sıxlığı artırılmış dövrü idi. Nəhayət, kənar haşiyənin son ilmələri də vuruldu, xalça boyu digərlərindən daha çox irəli çıxan, uzun ipliklər qayçılandı və xalça kəsilib o dəmir başlıqlı, sallaq, köhnə çarpayının üzərinə sərildi.

– İndi bir çay içmək olar, – Ka dedi və Aytənə içində qoz ləpəsi olan ərik mürəbbəsiylə bir çay süfrəsi açdı.

– Görəsən, hara gedib?

– Narahat olma. Yəqin qalmağa bir yer tapar.

– Çox içkiliydi. Soyuqda küçədə yatıb qalar...

– Qorxma, yaxşı olacaq.

Aytən dərin bir ah çəkdi. Sonra ağ hörümçəyin kürəyində qulağı kəsik Van Qoq təsviri olan xalçanı götürüb evdən çıxdı.

Külək əsmirdi, havada şiddətli bir şaxta var idi. Gecənin yarısına kimi Ka romanını oxudu, Aytənin atasını fikirləşdi. Görəsən, qayıdıbmı? Sonra boşalmış xanaya baxdı. Bir siqaret yandırıb çəkdi, külünü adəti üzrə qəndqabı qapağına tökdü. Boş xananın böyründəki yarımçıq "Qasımuşağı"nın qabağına əyləşdi. Şərab qırmızısı rəngdə ipliyi götürdü, ağ, toxucu dəzgahına şaquli istiqamətdə çəkilmiş ərişlərdən birini barmağıyla tutdu, ilgək vurub kirkitlə yöndəmsiz bir şəkildə döyəclədi. O, bolluq, xeyir bərəkət rəmzi olan "dovağ"ın içərisindəki qırmızı yerliyi toxumağa çalışırdı.

Qəfildən, siqaretini çəkib halqavarı havaya buraxanda gözü çarpayının böyrünə atılmış köhnə paltarlara sataşdı. Nino xalanın paltarları tamam yadından çıxmışdı. Yorğanın altına girməzdən əvvəl gözünə sataşsa da, günün yorğunluğu paltarlara baxmaq həvəsini öldürmüşdü. Ancaq qəribəydi, sanki həmin paltarların içində Kanı özünə çəkən nə isə var idi. Ka gözucu ağ sellofana baxdı. Ona elə gəldi ki, Nino Kipiani balaca qozbel arvada çevrilib ağ sellofanın içinə girdi.

Anası zəng vurmuşdu. Xeyli dərdləşdilər. Gərək gələn həftə atasına baş çəkib anasının göndərdiyi pulu aparsın. Digər tərəfdən evin bir küncünə atılıb qalmış paltarlar ondan əl çəkmirdi. Onlara baxmağa heç cürə imkan tapa bilmirdi.

– Nə olub axı? Niyə ağlayırsan?

– Bilmirəm.

– Danış görüm, sakit ol. Aytən, sakitləş... yaxşı, nə olub?

– Atam özünü öldürüb.

– Nə? Allah rəhmət etsin... Nə vaxt olub?

– Özünü elektrik dirəyindən asıb... – dedi və ağladı. Araya sükut çökdü. Sonra dəstəyin o tərəfində qırmızı düyməni basıb telefonu söndürdülər.

Həftəsonu səhər küçəni süpürməyə çıxmaqdan savayı əlindən heç nə gəlmədi. Aytən mesaj yazmışdı ki, birinci gün gələcək. Atasını aparıb dəfn ediblər.

Bazar günü də evdə oldu. Romanı bitirdi. Və gələcək həftə üçün bir proqram tutdu.

Nino xalanın evin bir küncünə atılıb unudulmuş nimdaşlarına göz gəzdirdi. Xeyli qurcaladı və həmin şeyi tapdı. Bu qiymətli və tarixi əşyanın onun cibinə hardan gəlib düşməsi müəmmalı idi. Di gəl ki, Ka bu sirri heç kimə açа bilməzdi. Elə sakitcə və ölü bir sükutla bu həqiqətin üstündən keçməliydi. Əgər bacarsa! Bacararmı?!

• Aytənə fikrini demək (bunu məsələni dəqiqləşdirmək istəyirəm).
• İmtahanlara hazırlaşmaq.
• Evə bəzi şeylər almaq.
• 2 kilo kartof al!
• Bir paket duz al!
• Tualet üçün xlor al!
• Paltarları yu!
• Ataya baş çəkmək.
• Bəlkə anama Nino xalanın cibindən tapdığım şey haqqında danışım? Atam eşitsə, sevinəcək!

20..-Cİ İL. DEKABR AYININ DÖRDÜNCÜ HƏFTƏSİ

"Koroğlu" metrostansiyasından çıxıb "160" nömrəli marşrutu gözlədi. Lap arxada oturdu. Radioda muğam verirdilər. Sürücü müğənni zilə qalxdıqca radionun səsini ucaldır, sərnişinləri sanki ovsunlamağa çalışırdı. Amma Kanın zəhləsini tökdüyündən xəbərsiz idi. *"Muğam opera kimi bir şeydir, ona marşrutda qulaq asmaq olar?"*

Yenə həmin tavana dirənmiş nəfəsliyin pəncərəsindən zəif işıq görüş otağının içinə dolurdu. İçəridə xeyli adam var idi. Hamı Yeni il ərəfəsində məhbus yaxınlarını sevindirmək, onlara gələcək illər üçün təsəlli verməyə gəlmişdilər. Görünür, Q.-nin gəldiyi yer çox soyuq idi. Çünki əllərini bir-birinə sürtə-sürtə, çiyinlərini az qala qaldırıb qulaqlarına yapışdıra-yapışdıra içəriyə təpildi. Camalın Aşot Makayının Möminə Xatun məqbərəsindəki xəzinənin tapmasıyla bağlı verdiyi xəbərdən sonra Q.-nin beli daha da donqarlaşmış, addımları daha yöndəmsiz olmuşdu. Gözlərinin altındakı həmin tuluqlar, qorxudan çatılmış pırtlaşıq qaşlar Kanın diqqətindən yayınmadı.

– Xoş gəlmisən. Bayramın mübarək olsun, – Q. Kanı bağrına basdı.

– Sağ ol, ata. Necəsən? Bağışla, tez-tez gələ bilmirəm, – dedi. Sonra pəncərənin qabağındakı, göy rənglə boyanmış, taxtasının böyrü didilmiş masanın arxasında əyləşdilər.

– Darıxma. Dərslərin necədir?

– Əladır. Oxuyuram, – Ka gülərək cavab verdi. – Ata, bu pulu anam göndərdi, – cibindəki pulu çıxarıb atasına uzatdı.

Q. bir az utanaraq, bir az da sıxılaraq pulu aldı. Cibinə basdı:

– Bircə burdan çıxa bilsəydim. Anana da, sənə də bir köməyim dəyərdi.

Ka sadəcə güldü.

– Sənə yaxşı xəbərim var. Burda kitabxanada işə düzəlmişəm. Demək olar ki, bütün günü kitabların içindəyəm... Cəhridən gələn kitabları xeyli araşdırdım. İndi əlimdə iki yeni xəzinə xəritəsi var. Budəfəki dəqiq tarixi faktlara söykənir. Ancaq işin əsas hissəsi sənin üzərinə düşür. Həmin xəritələri gələn dəfə sənə verəcəyəm. Yay tətilinə Naxçıvana gedəndə nişan verdiyim yerlərə gedib bir nəzər yetirərsən. Sənə deyəcəyim nişanələrə baxarsan. Mənə elə gəlir ki, Əlincə qalasının özündə də nə isə var. Sadəcə, mən vaxtında daha dəqiq işləmədim. Bizə verdikləri xəritələrdəki xəzinələri çoxdan tapmışdılar.

– Yaxşı, – Ka laqeydcəsinə dilləndi.

Q. əlini cibinə atıb bir siqaret çıxartdı. Sonra qapının ağzında dayanmış əli silahlı nəzarətçini

görüb siqareti təzədən qutusuna qoydu, – sonra çəkərəm, – dedi.

Ka həbsxanadan çıxıb evə gəldi. Atasını fikirləşirdi. Bu qoca kişinin, donqar belli, xülyalara inanan adamın xəzinə axtarışları hələ bitməmişdi. Görəsən, bir gün atası xəzinə tapa biləcəkdimi? Bəlkə o, əsl xəzinəni tapıb sonradan itirdiyi üçün belə cidd-cəhdlə, gecə-gündüz axtarır?

Eyvanda oturub buruqlara sarı baxdı. Qara atlar sanki əbədiyyətə qədər çapacaqlarına and içmişdilər. Arabir əlində dəriüzlü iş çantası olan, üzü-gözü mazutlu, qara adamlar görünür, sonra yoxa çıxırdılar.

Ka siqareti çəkib kötüyünü var gücüylə üfüqə sarı tolazlayandan sonra otağa girdi. Eyvanda üşümüşdü. Əlüstü mətbəxə keçib qaz sobasını yandırdı, çaydanı alov dillərinin üstünə qoyub otağa qayıtdı. Aytənin "Qasımuşağı" xalçası hələ də yarımçıq idi. Bacarsaydı, bu xalçanı ilmə-ilmə toxuyub özü başa vurardı.

Çay qaynamaq üzrəydi. Nino xalanın keçən həftə ağ sellofandan çıxarıb bir kənara tulladığı nimdaşlarına yenidən nəzər yetirdi. Ka özünə bir fincan isti çay süzüb otağa gətirdi. Ka keçən həftə sellofandan əvvəlcə boz paltonu çıxarmış, ciblərini yaxşıca axtarmışdı. Soyulmuş bir dilim kartof, quru çörək, balaca bir kağıza yazılmış qarmaqarışıq yazılar tapmışdı. (Yazılar ərəb

əlifbasında idi.) Ka əlini Nino xalanın sağ cibinə atanda əzilmiş, dörd qatlanmış bir manatlıq əlinə keçmişdi. O biri cibdə isə barmağı deşiyə keçmişdi. Cib deşik idi. Paltonun ətəyinə baxanda orda nəsə möhkəm, sərt bir şey gördü. Həmin şeyi cibin yırtığından çıxartmışdı. Ortasında nar dənəsi kimi parlaq qaşı olan, qızıl üzük idi. Ka əvvəlcə bunun qızıl olduğuna inanmamışdı. Sonra bir də üzüyün dörd bir tərəfinə baxmışdı. Qızıl idi, heç bir şübhə ola bilməzdi. Üzüyün içində belə yazılmışdı, hərçənd ki bəzi hərfləri artıq çoxdan oxunmurdu: "Əli Xan Şirvanşirdən Nino Kipianiyə ərməğan"...

Ka üzüyü cibinə qoymuşdu. Həvəslə, yenə nəsə tapmaq ümidiylə paltarları təzədən tökdü. Geyinilməkdən ortası tiftiklənib cırılmaq üzrə olan alt paltarı, qaytanları qırılmış, sonradan müxtəlif rəngli saplarla tikilmiş lifçik, bir ədəd rəngi getmiş, qaramtıl yun köynək, bir cüt uzun, dabanı yamaqlı corab və gecə paltarı tapmışdı. Gecə paltarının yaxalığından sancağa keçirilmiş gözmuncuğu asılmışdı. Ka üzüyü çıxarıb diqqətlə baxdı. Arxasında 750 yazılmışdı. Yazını bir də oxudu. "Əli xan Şirvanşirdən Nino Kipianiyə ərmağan"... "Xan" sözündəki "a" hərfinin baş tərəfi pozulmuşdu. "Şirvanşirdən" sözündəki "ş" hərflərinin altındakı quyruqlar yox idi. "Nino" sözünün "i" hərfindəki nöqtə də görünmürdü. "Kipianiyə" sözündəki "y" hərfinin

quyruğu, "ərməğan"dakı "ğ" isə sanki heç vaxt bura həkk olunmamışdı.

Radioda həlim səsli diktor "*Amanaska-wonder of the storm*" melodiyasını elan etdi. Xırıltılı səsin üzərindəki ehmal, sakit ifa Kanın fikrini tamam başqa dünyaya apardı. Əslində, bu, Kanı xoşbəxt edirdi. Nino xalanın üzüyünü barmağına taxmağa cəhd etdi. Üzük onun çeçələ barmağına rahatca oldu. Görünür, Nino xalanın barmaqları xeyli incə olub. Əslində, Kanın ağlından üzüyü aparıb Əlibalaya vermək də keçmişdi. Sonra fikrindən daşınmışdı. Üzüyü çeçələ barmağından çıxarıb cibinə qoydu. – Bu üzüyün öz sahibi var, – dedi.

Axır vaxtlar siqareti əvvəlkindən daha çəkirdi. Yenə birini götürüb yandırdı. Radioda mahnı dəyişmişdi. İndi "*Dominic Clynn-Clistening Down*" səslənirdi. Ka çarpayısına uzanıb, qəndqabı qapağını sinəsinin üstünə qoydu və siqareti sümürüb cibindəki nar qırmızılı qaşı olan üzüyü fikirləşməyə başladı. Nino xalaya ərinin bəxşişi olan üzük bəlkə də Nino xalanın bu dünyada ən qiymətli əşyasıydı. Ka əlini cibinə saldı, üzüyü çıxarıb yenə baxdı. Pəncərəni qaranlıq cırmaqlayırdı. Ac deyildi. Radio qəfildən xırıldamağa, dalğalar bir-birinə qarışmağa başlamışdı. Ka radionun səsini kəsdi, siqaretini qəndqabı qapağında əzdi və işığı söndürüb təzədən yerinə uzandı. Ay işığı buludların arasından evi birtəhər işıq-

landırırdı. Ka gözlərini qaranlığa zilləyib Nino xalanı fikirləşdi. Sonra "Yəqin bu hədiyyə onun çox xoşuna gələcək", – dedi.

"Üzük – onlar müxtəlif cür olur. Di gəl ki, hamısının məqsədi eynidir. Hamısı simvolikanın, bir-birinə əhdi-peymanın, bir-birinə pərçimlənməyin maddi ilgəyidir. Bu dəmir həlqələr iki adamı bir-birinə pərçimləyir, bir-birinə ilgəkləyir. İnsanlar duyğusal bağlılığı qəfil unudarlar, həmişə yadda saxlaya bilməzlər, ancaq maddi ilgəyi, pərçimi həmişə hiss edərlər. Ya da insanlar duyğulara çox bel bağlamazlar, onlar hər duyğunun, sevginin maddiləşmiş modelini hazırlayırlar. Məsələn, sevmək – üzük..."

O, gözlərini açanda "Qasımuşağı" Aytən xanasının qabağında oturub sakitcə ilmələri birbirinin ardınca ərişə düzür, hərdənbir dərindən köks ötürürdü. Ka cəld yerindən qalxıb təəccüblə Aytənə baxdı. Uzun, qıvrım saçlarını kürəyinə tökmüşdü. Əynində həmişə geyindiyi boz yun köynəyi var idi. Toxuduğu ilmələri həvəylə döyəcləyir, sonra da kirkitlə sıxlığını bərkidirdi.

– Çoxdan gəlmisən?

– Hə, yatmışdın. Oyatmaq istəmədim.

Ka cəld saata baxdı. Görünür, yatıb yuxuya qalmışdı. Tələm-tələsik çarpayıdan çıxdı. Şalvarını geyinib, Aytənə yaxınlaşdı. Onun saçlarından öpdü.

– Bağışla, indi qayıdıram, – dedi və çölə çıxdı. Küçəni süpürməyə gecikmişdi. Qapıdan çı-

xanda Aytən onun ardınca – "Sən gələnə kimi süfrəni hazırlayaram" qışqırdı. Ka heç bir cavab vermədən qapını örtdü və pillələri ikibir, üçbir endi. Binadan həyətə çıxanda azca külək əsirdi, ancaq soyuq deyildi. Ka əlini dizləri ağarmış cins şalvarının cibinə salıb çiyinlərini qısaraq küçəsinə yollandı. Barmağına Nino xalanın üzüyü dəydi. Bələdiyyədən çıxanda üzüyü barmağıyla bir də yoxladı. "Yəqin həyatı boyu aldığı ən gözəl hədiyyə olacaq" fikirləşdi. Küçəni ələstü, ordan-burdan süpürüb tez geri qayıtdı.

– Bircə çay qaldı, – Aytən o, qapını açanda gülümsəyərək dedi. Dodaqlarında qırmızı, parlaq boya var idi. Kirpiklərini qaldırmışdı.

Ka qapını örtüb onu qucaqladı və divara sıxdı. Cinsiyyət orqanı onun üzərindəydi, bunu rahatca hiss edirdi. Aytənin dodaqlarını öpdü. Ağzında dodaq boyasının şirin tamı yayıldı. – Qəfildən gəlirsən. Bilirsən, qorxuram ki, elə beləcə birdən də çıxıb gedəsən. Səni çox sevirəm.

– Mən də...

Ka Əlixan Şirvanşirin Nino Kipianiyə verdiyi üzüyü çıxarıb onun barmağına taxdı. "İstəyirəm, həmişə mənim olasan".

Aytən dillənmədi. Heç bir cavab vermədi. Sevinmədi, kədərlənmədi, təşəkkür etmədi, xoşbəxtlikdən qışqırmadı, utandığından başını aşağı salmadı, adicə, xalaxətrin qalmasın deyə xəfifcə gülümsəmədi də, heç Kanın boynunu

qucaqlayıb, "Səni çox sevirəm, xoşbəxtəm", də demədi. Eləcə, ölü bir sükutla üzüyə gözucu baxıb, – gedim çay süzüm, – dedi.

Ka heç nə başa düşmədi. Ancaq onun üzüyə olan münasibəti elə qəfil və gözlənilməz idi ki, Ka sakitcə qollarını yanına salıb otağa keçdi. Stolun üzərindəki "Kent" siqaretindən birini götürdü, yandırıb damağına qoydu. Siqaretin tüstüsünü ciyərlərinə doldurduqca dərindən köks ötürürdü. Siqaret tüstüsünü bacardığı qədər ciyərlərində həbs etmək, bircə qırığını da havaya buraxmaq istəmirdi.

Radioda müəllifindən, əsərin adından bixəbər olduğumuz bir musiqi səslənirdi. Pianinonun dillərinə sərt, qəfil və nizamsız toxunuşlar Kanın demək istədiyi, Aytənin üstünə qışqırmaq, bağırmaq, ağlamaq, etiraf etmək istədiyi hər şeyi deyirdi. Bu musiqinin fonunda, arabir dalğaların qarışaraq xırıltı yaratması, getdikcə güclənməyə başlayan küləyin pəncərəyə sərt çırpılmağı və nəlbəkiyə həvəssizcə qoyulan fincanın səsini də eşitmək olurdu. Ancaq bu qədər səsin içində ölü bir sükut var idi. Bəlkə də səbəbsiz bir kədər, izaholunmaz bir ağrı, iztirab idi.

Həmin gün axşamadək Aytən "Qasımuşağı" xalçasını toxudu. Bircə kəlmə də kəsmədən ilmələri bir-birini ardına düzür, aralıq sahədə "Əjdaha", "dovaq", "qırçın" ilmələrini ərişə pərçimləyir, həvəylə bərkidir, kirkitlə naxışların

sıxlığını artırırdı. Bir də aradabir "Çay içirsən?" soruşurdu. Ancaq üzüyü barmağından çıxartmadı, geri qaytarmadı, heç nar dənəsi kimi qırmızı qaşına da toxunmadı.

– Xoşun gəlmədi? İstəmirsənsə, açıq deyə bilərsən.

Aytən susdu.

– Bilirəm, qəfil oldu. Ancaq axı, bu şeylər rəsmiləşməliydi. Bir də məncə, biz gözəl ailə ola bilərik.

Aytən dillənmədi.

– Yenə də özün bax, – Ka dilləndi və növbəti siqaretini yandırıb, masanın üstündən qəndqabı qapağını götürdü.

– İstəyirəm. Mən də səni sevirəm. Ancaq son günlər hər şey elə qarışıb ki...

– Darıxma, nə vaxt istəsən danışarıq.

Aytən susdu.

Aytən "Qasımuşağı"nın orta sahəsində olan ağ əqrəbin ayaqlarını toxumağa başlamışdı. Artıq demək olar ki, ilk naxışlar bitmiş, kirkit həmin naxışları yaxşıca sıxlaşdırmışdı. Elə bu məqamda "Gec oldu, gedim", – dedi və ayağa qalxdı. Təqribən, saat 4-5 olardı. Ka "Necə istəyirsən" mızıldandı. Aytən masanın arxasında oturub kitab oxuyan Kaya yaxınlaşdı. Onun başını qucaqlayıb öpdü.

– Bağışla. Üzüyə görə sağ ol. Ancaq atam özünü asanda... xilas olmağa çalışıbmış. Xeyli

çabalayıb. Ayağını ağaca sürtdüyündən dərisi tamam soyulmuşdu, – dedi və ağladı.

Üfüqü parçalayıb gedən, qara atlıların taqqıltısı, o iyrənc qoxusu artıq Ka üçün doğmalaşmışdı. Neft yataqlarının üstündəki qara atlıların heç olmasa, bircəciyini kiritmək üçün Ka əlindəki siqaret kötüyünü var gücüylə tolazlayırdı. Aytənlə barışmışdılar. Bir-birinin dərdinə qulaq asmışdılar. Aytən Kanın arxa küçəni süpürdüyünü öyrənmişdi. Ka isə Aytənin qardaşı Rüstəmin onların münasibətindən xəbər tutduğunu bilirdi.

Ka otağa qayıtdı. Radionu söndürdü və çarpayısına uzanıb öz atasını fikirləşdi. Sonra Aytənin atasını, onun ağaca sürtülüb dərisi çıxmış ayağını gözünün qabağına gətirdi. Gözlərini yumdu və yuxuda çəkib tulladığı siqaret kötüklərinin bu neft qoxulu ordunu necə alovlandırıb külə çevirdiyini gördü... Qara atları minib üfüqə çapan qara geyimlilər kirimişdilər. Artıq səbətlərimizi qolumuza vurub günəş toplamağa yollana bilərik!